TOFİQ MUSTAFAZADƏ

# QUBA XANLIĞI

Bakı, Elm 2005

TARİX İNSTİTUTU

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.A. BAKIXANOV ADINA TARİX İNSTİTUTU

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

**MUSTAFAZADƏ TOFİQ**

**Tarix elmləri doktoru, professor**

# QUBA XANLIĞI

Bakı, Elm – 2005

Kitabı bütün ömrü boyu Quba xanlığının istiqlaliyyətini qorumaq uğrunda döyüşmüş Şeyxəli xanın xatirəsinə həsr edirəm.

Müəllif.

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

**Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının 28 aprel 2002-ci il tarixli qərarı ilə nəşr olunur.**

Elmi redaktor: tar.e.d.prof. V.Z.Piriyev.

**Mustafazadə Tofiq. Quba xanlığı.** Bakı, Elm; 2005, 480 səh. + 1 xəritə.

**İSBN 5-8066-1747-5**

Kitab XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş xırda feodal dövlətlərindən birinin – Azərbaycan xanlıqları sistemində çox mühüm mövqeyə malik Quba xanlığının tarixinə həsr olunmuşdur. Müəllif uzun illərlə Azərbaycan, Rusiya və Türkiyə arxivlərindən topladığı materiallar, habelə tarixi mənbələrdən əldə etdiyi faktlar əsasında Quba xanlığının ərazisi, təsərrüfat həyatı, xanlıqda mövcud olmuş sosial-iqtisadi münasibətlər, dövlət idarəçiliyi, hərbi iş haqqında, Fətəli xanın və onun xələfi Şeyxəli xanın daxili və xarici siyasəti haqqında məlumat vermişdir.

Kitab tarixçi alimlər, tələbələr və ümumiyyətlə tarixlə maraqlananlar üçün faydalı ola bilər.

**0503020907**
**655(07)-2005**

**Kitabın sponsoru: MÜBARİZ MƏMMƏDOV**

© Elm nəşriyyatı, 2005

# GİRİŞ

1747-ci ildə Nadir şah Əfşar əyanlarının sui-qəsdi nəticəsində həlak olub, dövləti dağıldıqdan sonra Azərbaycanda 20 müstəqil və yarımmüstəqil xanlıq – kiçik dövlət qurumları yaranmışdı. Xanlıqlar XIX əsrin əvvəllərinə, yəni Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunanadək müstəqilliyini qorumuş, bir hissəsi bundan sonra da hələ bir müddət Rusiyadan və İrandan asılı halda öz mövcudluqlarını saxlamışdır. Xanlıqlar dövrü Azərbaycan tarixinin ən çətin, mürəkkəb və həm də ən maraqlı dövrlərindən olmuşdur. Buna görə də bu gün Azərbaycan xanlıqlarının tarixini öyrənmək çox mühüm əhəmiyyət kəsb edir.

Bu dövr həm də Azərbaycan dövlətçilik tarixində özünəməxsus səhifə təşkil edir. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşub, dövlətimiz gündən-günə möhkəmləndiyi məsul bir dövrdə dövlətçilik tarixinin bütün səhifələrinin, o cümlədən xanlıqlar səhifəsinin öyrənilməsinin zəruriliyini sübut etməyə ehtiyac yoxdur. Xanlıqların tarixini öyrənməklə biz yalnız dövlətçilik tariximizin öyrənilməsində mövcud olan boşluqlardan birini doldurmuruq, həm də dövlətçilik ənənələrinin möhkəmlənməsinə müəyyən xidmət göstərmiş oluruq.

O dövrdə Azərbaycanda mövcud olmuş xanlıqlar arasında öz gücünə və siyasi roluna görə Quba xanlığı özünəməxsus yer tutmuşdur. Buna görə də biz bu xanlığın tarixini özümüzə tədqiqat mövzusu seçmişik.

Qeyd edək ki, Quba xanlığının tarixi hələ XIX əsrdən tarixçilərin diqqətini cəlb etmişdtr XIX əsr Azərbaycan tarixçilərinin əsərlərində, xüsusən də A.A. Bakıxanovun «Gülüstani İrəm» əsərində mötəbər mənbələrdən alınaraq, tutuşdurulub, dəqiqləşdirilmiş xeyli dəyərli material vardır. A. Bakıxanovun əsərində Şeyxəli xanın rus işğalçılarına qarşı mübarizəsini təsvir edən hissələri xüsusilə diqqəti cəlb edir.

Hələ XIX əsrin ortalarında İsgəndər bəy Hacınski isə Fətəli xana ayrıca əsər həsr etmişdir. Onun əsəri ilk dəfə 1847-ci ildə Tiflisdə nəşr olunan «Kavkaz» qəzetinin 48-49-cu nömrələrində çap edilmişdir. İ.Hacinski Qafqaz canişininin dəftərxanasında tərcüməçi vəzifəsində çalışmışdır. 1959-cu ildə Azərb. EA Tarix İnstitutunun əməkdaşı F.Babayev İ.Hacinskinin əsərini Azərbaycan dilinə çevirmiş, həm azərbaycanca, həm də rusca nəşr etdirmişdir.

Məlumdur ki, Azərbaycan tarixi müstəqil tədqiqat obyektinə yalnız Rusiyada Oktyabr çevrilişindən sonra çevrilmişdir. XX əsrin 20-ci illərində Y. Paxomov və V. Sısoyevin Azərbaycan tarixinə aid ümumiləşdirilmiş əsərləri nəşr olunur. Təbii ki, Azərbaycan tarixininn bütün dövrlərini əhatə edən bu əsərlərdə ayrı-ayrı dövrlər çox qısa, səthi işıqlandırılırdı.

XVIII əsrin II yarısı – XIX əsrin əvvəlləri Azərbaycan tarixi məsələlərinin ciddi elmi tədqiqinə yalnız keçən əsrin 40-cı illərindən başlanmışdır. Bu sahədə 1948-ci ildə Bakıda V.N. Leviatovun «XVIII əsrdə Azərbaycan tarixindən xülasələr» əsərinin nəşr olunması irəliyə doğru mühüm addım idi. Müəllif XVIII əsrdə Azərbaycanın ictimai-iqtisadi quruluşunu tədqiq etmiş, Azərbaycan xanlıqlarının, o cümlədən Quba xanlığının XVIII əsrin II yarısındakı siyasi tarixini, Rusiya və İranın Azərbaycan uğrunda mübarizəsini işıqlandırmışdır.

50-ci illərin sonu – 60-cı illərdən öyrəndiyimiz problemin ciddi tədqiqinə başlanmışdır. Görkəmli tarixçi H. Abdullayev 1958-ci ildə nəşr etdirdiyi monoqrafiyasında XVIII əsrin 60-80-ci illərində Quba xanlığı və onun Rusiya ilə münasibətlərini tədqiq etmiişdir. 1965-ci ildə nəşr etdirdiyi «Azərbaycan XVIII əsrdə və onun Rusiya ilə qarşılıqlı münasibətləri» adlı iri həcmli digər əsərində H. Abdullayev XVIII əsrin ikinci yarısında ölkənin iqtisadi, ictimai-siyasi vəziyyətini, Rusiyanın siyasətində tutduğu yeri ətraflı tədqiq etmişdir. Ancaq dövrün diqtəsindən kənara çıxa bilməyən müəllif Rusiyanın Azərbaycandakı işğalçılıq siyasətinə bəraət qazandırmaq mövqeyi tutur. H. Abdullayev ikinci əsərində də başlıca diqqətini Quba

xanlığı və onun Rusiya ilə münasibətlərinə vermiş, digər xanlıqlar və onların Rusiya ilə münasibətlərini nəzərdən qaçırmışdır.

İstedadlı alim Ş. Fərzəlibəylinin 2000-ci ildə çıxmış «Quba tarixi» adlı əsərində Quba xanlığının tarixinə xeyli yer verilmişdir. Müəllif xüsusi olaraq Quba xanlığının tarixini tədqiq etmək vəzifəsini qarşısına qoymadığından bir çox məsələlərin işıqlandırılmasında təfərrüata varmayaraq, aidiyyatı olan mənbələrin bir hissəsindən – Rusiya arxivlərində saxlanan sənədlərdən istifadə etməsə də onun xanlıq tarixinə yeni yanaşma metodu, cəsarətli mülahizələri diqqəti cəlb edir. S.İbişovun bu yaxınlarda çap olunmuş əsərində Quba xanlığının əhali tarixi öz əksini tapmışdır.

Beləliklə, mövzuya dair ədəbiyyatın qısa təhlilindən aydın olur ki, Quba xanlığının tarixi indiyədək bütövlükdə tədqiq olunmamış, xüsusən də XVIII əsrin 80-ci illərindən sonrakı tarixi demək olar ki, diqqətdən kənarda qalmışdır. Eyni zamanda xanlığın tarixi ilə bağlı bir sıra kitablarda müəyyən yanlışlıqlara və diqqətsizliklərə rast gəlinir. Bütün bunlar Quba xanlığının tarixini yenidən, həm də kompleks şəkildə tədqiq etməyi zəruri edir. Məhz həmin zərurəti nəzərə alaraq biz Quba xanlığının tarixini yeni arxiv sənədlərini tədqiqata cəlb etməklə və tarixçilərimizin xanlıqlar tarixi üzrə tədqiqatlarından bəhrələnməklə kompleks şəkildə öyrənməyə cəhd etdik. Qeyd edək ki, Azərbaycan xanlıqlarının tarixi üzrə bir və ya bir neçə yığcam mənbə yoxdur. Onların tarixini müxtəlif səpkili mənbələrdən faktları bir yerə toplamaqla bərpa etmək mümkündür.

Problemi tədqiq etmək üçün ən başlıca mənbələr nəşr olunmamış arxiv sənədləridir. Rusiya Dövlət Hərbi-Tarix Arxivinin (Российский Государственный Военно-Исторический Архив-qısası РГВИА) 52 saylı (Potyomkin) və Hərbi Elmi Arxiv (Военно – Ученый Архив-qısası ВУА), Dövlət Qədim Aktlar Arxivinin (Российский Государственный Архив Древних Актов - qısası РГАДА) Kommers-kollegiya (276

saylı), habelə 15, 18, 19, 23, 25 №-li fondlarında, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin nəzdindəki Rusiya İmperiyasının Xarici Siyasət Arxivinin (Архив Внешней Политики России-qısası АВПРИ) 77 saylı Rusiyanın İranla münasibətləri və 89 saylı (Rusiyanın Türkiyə münasibətləri) adlı fondlarında, Rusiya EA Arxivinin Sankt-Peterburq filialının (Санкт-Петербургский филиал Архива РАН-qısası ПФАРАН) 3, 99-cu fondlarında Quba xanlığının tarixinə dair çox qiymətli materiallar vardır. Bunların içərisində 1780-1781-ci illərdə rus generalı A. Suvorovun casusları tərəfindən Azərbaycan xanlıqları haqqında toplanmış məlumatlar mühüm əhəmiyyətə malikdir. Gürcüstandakı Rusiya nümayəndəliyi, ilk növbədə Stepan Burnaşov da Azərbaycan, xüsusilə Quba xanlığı haqqında çoxlu məlumat toplamışdır. 1796-cı ildə Zubovun yürüşünə aid sənədləri də qeyd etmək lazımdır.

XVIII əsrin II yarısında Azərbaycanda olmuş Rusiya elm xadimləri və səyyahlarının əsərlərində Azərbaycanın tarixinə aid qiymətli məlumatlara rast gəlmək olur. II Yekaterinanın göstərişi ilə professor S.Q. Qmelin Dağıstan və Azərbaycanda olmuş, bu yerlərin iqtisadiyyatı, siyasi vəziyyəti, mədəniyyəti, təbiəti haqqında dəyərli məlumatları toplamışdır. Qmelin özü həlak olsa da əsəri 1785-ci ildə Peterburqda nəşr olunmuşdur. Bu əsərdə bizi maraqlandıran mövzu üzrə xeyli qiymətli fakt və materiallara rast gəlmək mümkündür.

Biz Quba xanlığı əsərinə əlavə kimi bir çox arxiv sənədlərini də ilk dəfə nəşr edirik. Oxucular və tədqiqatçılar həmin sənədlərlə tanışlıqdan müxtəlif məsələlərlə bağlı məlumatlar tapa bilərlər.

Sonda Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun mərhum direktoru – **akademik İ.H.Əliyevin** kitabın yazılması zamanı elmi-təşkilati işlərdə böyük yardım göstərdiyini xüsusi qeyd etməyi özümüzə borc bilirik.

# I FƏSİL. QUBA XANLIĞININ YARANMASI, ƏRAZİSİ, ƏHALİSİ VƏ İQTİSADİYYATI

## Quba xanlığının yaranması

Quba xanlığı yarımmüstəqil inzibati vahid – «ölkə» kimi hələ XVII yüzilliyin son rübündə mövcud olmuşdur. O zamanlar Salyan və Gülhan da bu əraziyə daxil idi (Петрушевский (1948), 140). Birinci Quba xanı 1689-cu ildə vəfat etmiş Hüseyn xan olmuşdur. Quba xanları böyük hüquqlara malik idilər.

A. Bakıxanovun yazdığına görə şah II Abbasın və onun oğlu II Səfinin (Süleyman şah) dövründə Dağıstan hakimlərindən Qaytaq Usmisinə pulla məvaciblə yanaşı Şirvandakı bir sıra kəndlərin gəlirləri və idarəçiliyi də verilmişdi. O zaman Qaytaq usmisinin nəsli iki xəttə bölünürdü.

Böyük xətt Məcalisdə, kiçiyi isə Yengikənddə yaşayırdı. Növbə ilə gah bir, gah da o biri qolun nümayəndəsi usmi vəzifəsini tuturdu.

Təxminən elə bu vaxtlarda iki qolun arasında ixtilaf düşür. Yengikənddəki qol Məcalisə basqın edir və az yaşlı Hüseyn istisna olmaqla buradakı qolun bütün kişi üzvlərini qırır. Ayda bəy adlı birisi Hüseyni xilas edib Tarki şamxalının yanına aparır. Yetkinlik yaşına çatanda Hüseyn İrana gedir, yolüstü bir müddətə Salyanın Rudbar kəndində yerli qazının yanında qalır və onun qızı ilə evlənir. Həmin qadından Hüseynin bir qızı olmuşdur (Бакиханов, 121,122)

İsfahana gələn Hüseyn bəy uzun müddət şahın qəbuluna düşə bilməmiş, burada Hüseyn Qacar tayfasından varlı bir əyanın qızı Zöhrə xanımla evlənmişdir. Bu nikahdan gələcək Əhməd xan doğulmuşdur. Öz arvadının vasitəçiliyi ilə Hüseyni şah da tanımışdır. Şah Hüseynin igidliyini və böyük qabiliyyətini qiymətləndirib, onu Quba və Gülhanın xanı təyin etmişdir (Бакиханов, 122). İranda olarkən Hüseyn xan şiə məzhəbini qəbul etmişdir.

A.A. Bakıxanov Hüseyn xanın Xudat qalasını tikdirdiyini yazır. 1689-cu ildə Hüseyn xan Qaytağa yürüş etmiş və irsi usmi mülkü Başlını ələ keçirmişdi. Lakin o zamankı usmi Əli Sultan müxtəlif dağlı xalqlarından 30 minə qədər döyüşçü toplayıb tezliklə Hüseyni Qubaya tərəf sıxışdırmışdı. Hüseyn xan Qubada vəfat etmişdir (Бакиханов, 122-123).

XVII yüzilliyin axırlarına yaxın Hüseyn xanın oğlu Əhməd xan qubalıların və Qaytaqdakı tərəfdarlarının köməyi ilə Başlını tutur və özünü usmi elan edir. Bir müddət sonra Ulubəy usminin oğlu Əhməd xan qoşun toplayıb Başlını və Qaytağın bir hissəsini tutdu. Qubalı Əhməd xan Məcalisə çəkildi, lakin burada düşmənlərinin fitvası ilə öz nökərlərindən biri tərəfindən öldürüldü. Beləliklə usmi Ulubəyin oğlu Əhməd xan bütün Qaytaqa yiyələndi (Бакиханов, 123).

XVIII əsrin birinci onilliyində ölmüş Əhməd xanı hakimiyyətdə azyaşlı oğlu Sultan Əhməd xan əvəz edir.

Tarixi ədəbiyyatda hesab olunur ki, əvvəllər Quba xanlarının iqamətgahı Xudat olmuşdur. XVIII əsr rus müəllifi M. Çulkova görə Xudat xeyli əhaliyə malik şəhər olmuşdur (Чулков, II c., II kit., 493). Digər məlumatlara görə Xudat qəsəbə idi və orada birinci Quba xanı Hüseyn tərəfindən qala tikilmişdir (Петрушевский (1940), 40). A. Bakıxanov yazır ki, üsyan qaldıraraq Şirvanda İran ağalığını ləğv etmiş Hacı Davud Xudatı zəbt etmiş və bu zaman qaynatası Hacı Qəribin və qardaşı oğlu (ola bilsin bacısı oğlu) Nəzirin təhriki ilə Sultan Əhməd xan öz yaxın adamları ilə birlikdə öldürülmüşdür (Бакиханов, 102; Abdullaev (1965), 191). Digər mənbələr də Sultan Əhmədin öz qaynatası tərəfindən və yaxud onun təhriki ilə öldürüldüyünü təsdiq edirlər (Бутков, I his., 9). Bu hadisə 1718-ci ildə baş vermişdir. Tərəfdarları xanın kiçik yaşlı oğlu Hüseynəlini xilas edərək Samurun yuxarı axarında yerləşən Tahircar kəndinə (Bakıxanova görə Axtıya) aparmışlar (РГВИА, ф. ВУА, iş 18474, v. 48; Бакиханов, 102; Абдуллаев (1965), 191).

Feodal – ara mübarizəsi və xarici basqınlar iqamətgahı Xudat kimi açıq, çətin müdafiə olunan yerdən təbii müdafiə imkanı olan yerə keçirməyi zəruri etdi. Xanlıq mərkəzinin Xudatdan Qubaya köçürülməsi müxtəlif mənbələrdə ayrı-ayrı cür göstərilmişdir. 1847-ci ilin «Kafkazskiy kalendar» məcmuəsində çap olunmuş bir qeydə görə bu hadisə 1747-ci ildə baş vermişdir (Кавказский календарь на 1847г., 57; Абдуллаев (1965), 192). A. Bakıxanovun əsərindən xan iqamətgahının Xudatdan Qubaya 1748-ci ildə köçürülməsi haqqında fikir yaranır (Бакиханов, 127; Абдуллаев (1965), 192). İ. Petruşevski isə xanlıq mərkəzinin Xudatdan Qubaya 1735-ci ildə köçürüldüyünü yazır (Петрушевский (1948), 40; Абдуллаев (1965), 192).

Tarixi ədəbiyyatda kök salmış fikrin əksinə olaraq Quba xanlarının ilk iqamətgahı heç də Xudat deyil Qubanın özü olmuşdur. 1716-1718-ci illərdə Rusiyadan İrana göndərilən A.P. Volınskinin səfirliyi geri dönərkən bu səfirliyin üzvü olan A. Lopuxin Şamaxıdan quru yolu ilə şimala hərəkət etmişdi. Lopuxin yolüstü 1718-ci ilin mart ayında Quba şəhərinə gəlmişdi. O, bu şəhərə böyük maraq göstərərək icmalının «Quba haqqında məlumat» adlı hissəsində şəhərdə 600 həyət olduğunu, əhalisinin olduqca sərbəst olub İran hakimiyyət orqanlarına tabe olmadıqlarını yazır. Lopuxin yazırdı ki, Quba xanları şah fərmanları ilə təyin olunsalar da şah öz təyinatında sərbəst deyildi, yalnız əvvəlki xanın varisini, yaxud heç olmazsa qohumunu bu vəzifəyə təsdiq edə bilərdi. Hər hansı digər şəxs bu vəzifəyə təyin olunsaydı yerli əhali tərəfindən qəbul olunmazdı. Onun sonrakı məlumatından aydın olur ki, o zaman Qubanın düşməndən qorunması üçün müdafiə istehkamları yox idi. Lopuxin yazır: «İndiki Sultan Əhməd irsi olaraq hakimiyyətə yetişmişdir. Onun 14 yaşı vardır. Hakimiyyəti altında başqa şəhər yoxdur, kəndlərinin də sayı azdır. Onun yanında döyüşə hazır vəziyyətdə 500 döyüşçü var» (Лопухин, 7). Əgər lap əvvəl Xudat mərkəz olsaydı xanlıq Xudat xanlığı adlandırılardı. Digər tərəfdən

Lopuxin açıqca yazır ki, xanlıqda Qubadan savayı digər şəhər yox idi. Ehtimal ki, Xudat xanın iqamətgahına (daha doğrusu müvəqqəti yaşayış yerinə) XVIII əsrin 20-ci illərinin əvvəllərində çevrilmişdir. Belə ki, yuxarıda qeyd olunduğu kimi 1720-ci ilə yaxın qubalı Sultan Əhməd xan öldürülmüş, xanlığın ərazisi Hacı Davudun hakimiyyəti altına keçmişdi. 1722-ci ildə rus qoşunlarının Xəzərboyu əyalətlərə yürüşü zamanı Quba xanlığının ilk növbədə dənizə yaxın hissəsi, o cümlədən Xudat ruslar tərəfindən tutulmuşdu. Qubanın özü də daxil olmaqla dağlıq və dağətəyi rayonlar, o cümlədən Quba isə bir müddət hələ Hacı Davudun hakimiyyəti altında qalmışdı. Yəqin ki, məhz buna görə tərəfdarları dağlarda gizlədilən azyaşlı Hüseynəli xanı rusların nəzarəti altında olan Xudata gətirmiş, Rusiyanın himayəsinə keçmək yolu ilə xanlığı bərpa etmək istəmişlər.

1726-cı ilin sonu – 1727-ci ilin əvvəllərində Quba xanlığı Rusiyanın tərkibinə daxil olur və 1718-ci ildə öldürülmüş Sultan Əhməd xanın kiçik yaşlı oğlu Hüseynəli Quba xanı elan edilir. Qeyd edək ki, görkəmli Azərbaycan tarixçisi H.B. Abdullayev Quba xanlığının 1722-ci ildə Rusiyaya birləşdirildiyini, Hüseynəlinin I Pyotrun özü tərəfindən xan elan olunduğunu yazır (Абдуллаев, 79). Lakin ilk mənbələrlə yaxından tanışlıq bu fikri təkzib edir. Belə ki, H.B. Abdullayev öz fikrini təsdiq etmək üçün XVIII əsrin 70-ci illərində Azərbaycanda olmuş rus alim və səyyahı, S.Q. Qmelinə və XVIII əsrin ikinci yarısında Quba xanı olmuş Fətəli xanın rus sarayına yazdığı məktuba və habelə Fətəli xanın rus konsulluğunun məmuru Matveyevlə şifahi söhbətinə istinad edir. Ancaq tədqiqatçı bu zaman unudur ki, Fətəli xan və onun elçisi Quba xanlarının hakimiyyətinin legitimliyini göstərmək xatirinə Hüseynəlinin Quba xanlığına təyin olunmasını qəsdən I Pyotr kimi tarixi şəxsiyyətlə bağlaya bilərdilər. S.Q. Qmelinə gəlincə, o da öz məlumatını bu dairələrdən aldığından səhv edə bilərdi. Ola bilər ki, 1722-ci ildə I Pyotr Dərbənddə olarkən Hüseynəli bəy öz məiyyəti ilə onun yanına gəlmiş və Rusiya himayəsini

qəbul etmək istədiyini bildirmişdir (hərçənd bu barədə heç bir mötəbər məlumat yoxdur), ancaq bu zaman Quba xanlığı hələ rəsmən Rusiya himayəsinə qəbul olunmamış, Hüseynəli xan isə Quba xanı təyin edilməmişdir.

Hər halda mötəbər rəsmi mənbələrlə yaxından tanışlıq göstərir ki, Quba xanlığının Rusiya himayəsinə qəbul edilməsi və Hüseynəli xanın Quba xanı təyin edilməsi 1726-cı ilin sonu – 1727-ci ilin əvvəllərində olmuşdur. Belə ki, Rusiya İmperiyasının Xarici Siyasət Arxivində saxlanan bir rəsmi sənəddə deyilir ki, 1726-cı il oktyabrın 20-də Dərbəndə gəlmiş qubalı Hüseynəli bəy Rusiya himayəsini qəbul etdiyini bildirdi və sədaqət andı içdi. Andda deyilirdi: «mən, Quba xanının oğlu Hüseynəli bəy öz əqidəmlə şəriət qaydası ilə qurana and içirəm ki, imperatriçə əlahəzrətlərinin təbəəliyində olub, öz təbəələrimlə, canım və ruhumla və bütün pak vicdanımla imperatriçə əlahəzrətlərinin təbiətən və sadiq qulu kimi qulluq edəcək, ona və onun təbəələrinə qarşı heç bir zidd hərəkət etməyəcək və bütün Rusiya imperiyasına mən öz təbəələrimlə sədaqət və hər cür xeyirxahlıq göstərəcəyəm» (АВПРИ, f. 77, siy. 1, 1727-ci il, iş 9, v. 101). Quba hakimi nəinki həmişə sadiq olmağa and içirdi, hətta rus qoşunlarına düşmənə qarşı mübarizədə hər cür yardım etməyi, rus əsgərlərinə mənzil ayırmağı da öhdəsinə götürdü. Hüseynəli bəy Rusiyanın açıq və ya gizli düşmənləri ilə heç bir əlaqə saxlamamağa soz verirdi (АВПРИ, f. 77, siy. 1, 1727-ci il, iş 9, v. 101 və a.ü).

1726-cı il dekabrın 21-də Peterburqda Ali Məxfi şurada Hüseynəli bəyin Rusiya himayəsinə qəbul edilməsi və onun Quba xanı kimi təsdiq olunması məsələsi nəzərdən keçirildi. Əgər Hüseynəli xanın torpaqları osmanlılarla bağlanmış müqaviləyə görə Rusiya zonasında qalarsa himayəyə qəbul edib ona xan rütbəsi vermək haqqında Xəzərsahili əyalətlərdəki rus qoşunlarının komandanı feldmarşal Dolqorukiyə fərman göndərildi (Протоколы, c. 56, 418). Sərhədlər müəyyənləşdirilərkən Quba xanlığının böyük hissəsi Rusiya tərəfində qaldı-

ğından, Hüseyəli xan Quba xanı kimi təsdiq olundu və xan azyaşlı olduğuna görə qəyyumlar ayrıldı. Əfrasiyab naib, Fərəməz isə nazir oldu (Гербер, 118). Eyni zamanda Quba xanlığının kəndxuda və ağsaqqalları Hüseynəli xana və Rusiya imperatriçəsinə sədaqət andı qəbul etdilər. Bəziləri - keçmiş xanın öldürülməsində müəyyən təqsiri olanlar əvvəlcə and içməkdən imtina etsələr də, bir qədər sonra sədaqət andı içdilər (АВПРИ, f. 77, siy. 1, 1728-ci il, iş 14, v. 12; Бутков, I his., 97).

Hüseynəli xan Şah hakimiyyətinə zahiri itaət göstərirdi. Məhz belə bir siyasət nəticəsində, Nadirin Azərbaycana ilk yürüşü zamanı 1734-cü ildə şah Hüseynəli xanın idarəçiliyinə əlavə olaraq Salyanı da vermişdi, (Бутков, I his., 125) və beləliklə Salyan yenidən Quba ilə birləşdirilmişdi. Hətta Qaraqaytaq usmisinin mərhəmət diləyərək onun yanına göndərdiyi qızını da Nadir qubalı Hüseynəli xana ərə vermişdi (ancaq bir müddət sonra bu qadın ağlını itirdiyindən Hüseynəli xan onu boşayaraq usminin nəvəsi Əmir Həmzənin yanına göndərmişdi). (Бакиханов, 144). Bir il keçməmiş şah Salyanın idarəçiliyini Quba xanının səlahiyyətindən çıxarmışdı (Fərzəlibəyli, 42). Nadir şah Əfşarın hakimiyyətinin son illərində Azərbaycanda İran ağalığına qarşı xalq hərakatı geniş vüsət almışdı. Qubada da çıxışlar baş verirdi. 1735-ci ildə qubalıların bir hissəsi Nadir şaha qarşı qalxıb dağıstanlıları köməyə çağıraraq, Xudat qalasında Hüseynəli xanı mühasirəyə aldılar. Şamxal Xaspulad və Dərbənd qarnizonunun rəisi onun yardımına gəldilər və üsyançılar dəf olundular (Бакиханов, 146).

### Xanlığın müstəqilləşməsi və öz ərazisini genişləndirməsi

Artıq 1742-ci ildən başlayaraq Şirvanda mütəmadi üsyanlar baş verir, Şəkidə İran hakimiyyəti sarsılmışdı. Təsadüfi deyil ki, 1747-ci ilin iyun ayında Nadir şah əyanların sui-qəsdi nəticəsində həlak olan kimi Azərbaycanın bütün ərazisində İran hakimiyyəti ləğv olundu. Lakin ölkənin ayrı-ayrı bölgələ-

rinin arasındakı iqtisadi əlaqələrin zəifliyi Azərbaycanda vahid müstəqil dövlət qurulması üçün zəmin yaratmırdı. Buna görə də Azərbaycanda 20-yə qədər xırda feodal dövlət qurumları-xanlıqlar təşəkkül tapdı. Bunlardan ən iriləri Qarabağ, İrəvan, Urmiya, Təbriz və Şəki xanlıqları idi. Nisbətən güclü xanlıqlardan biri də Quba xanlığı idi.

XVIII əsrin ortalarında bəzi məlumatlara görə Quba xanlığı 2600 həyəti olan 100 kənddən ibarət idi (Бутков, I his., 249; Абдуллаев (1965), 185). XIX əsrin əvvəllərində ərazisi 10.500 kvadrat verst idi (Обозрение, I his., 21). Şimalda Dərbənd və Qazıqumuq, qərbdə Şəki, cənubda Bakı və Şamaxı xanlıqları, şərqdə Xəzər dənizi ilə əhatə olunurdu. P.Q.Butkovun 1796-cı ildə yazdığına görə Quba xanlığının ərazisi Şimaldan Cənuba 126 verstə qədər, şərqdən qərbə 84 verstə qədər uzanırdı (Бутков (Выдержки, 206)). Bəzi məlumatlara görə 76878 nəfər əhalisi var idi (Абдуллаев (1965), 110-111).

Quba xanlığı çox da iri olmayan, lakin hərbi cəhətdən güclü bir siyasi birlik idi. Nadir şahın Azərbaycana viranedici yürüşləri zamanı və feodal-ara mübarizəsinin gücləndiyi sonrakı illərdə Quba xanlığı digər Azərbaycan torpaqlarına nisbətən az zərər çəkmişdi. Çünki 1735-ci ildə Xəzərsahili vilayətlər Rusiya tərəfindən İrana güzəştə gedildikdən sonra Hüseynəli xan və digər hakimlər xanlığın qarət olunmasının qarşısını almaq və öz hakimiyyətlərini qorumaq üçün bir sıra tədbirlər görmüşdülər. Bundan başqa Quba xanlığında çoxlu əlçatmaz qalalar olduğundan, əhali lazım gəldiyi təqdirdə sığınacaq tapa bilirdi. Quba xanlığı ərazisində olan möhkəm qalalardan biri Bakıdan Dərbəndə gedən böyük yolun kənarında olan, hündür hasarla və xəndəklə əhatə olunmuş «Şəhərçə» qalası idi. Digər mühüm qala Beşbarmaq dağında inşa olunmuş qədim Çıraqqala idi. Yuxarıda qayanın üstündə Fətəli xan ev tikdirmiş, sonra isə dağın ətəyində çoxlu evlər salınmışdı. Əsrin sonlarında burada 800 ailə sığına bilirdi. Çıraqqala gizli yeraltı kanallar vasitəsilə su ilə təchiz edilirdi, 12 qülləsi var idi, on-

ların altından keçmək çətinləşdirildiyindən, qalaya çətin keçilən cığırla qalxmaq olurdu. Qalaya gedən yol dağın ətəyindən çətin sıldırım daşlarla əyri-üyrü şəkildə, döngələrlə keçirdi (РГВИА, ф. ВУА, iş 18474, v. 19-20; Абдуллаев (1965), 189-190).

Qala dağ tərəfdən köhnə qüllələr və yenidən divar boyu tikilmiş qüllələrlə müdafiə olunur, dağ ətəyi tərəfdən isə dik daş qayalar və uçurumla qorunur. Dağ ətəyindən Gilgilçayın sol sahilinə kimi şimal tərəfdən qədim «Alqun» və «Baru» adlı hündür istehkamlar tikilmişdi (РГВИА, ф. ВУА, iş 18474; Абдуллаев (1965), 190).

Xanlığın bütün ərazisi boyu gözətçi postları qoyulmuşdu. Dəfələrlə düşmən hücumuna məruz qalmış əhali döyüş vərdişləri qazanmışdı və döyüşkən idi. M. Biberşteyn bu bölgənin əhalisinin döyüşkənlikdə ad çıxardığını qeyd edirdi (Биберштейн, 13).

Bütün bu amillər birlikdə Azərbaycanın düşmən hücumlarından və feodal-ara mübarizəsindən daha çox zərər çəkmiş cənub və cənub-şərq düzənlik rayonlarından əhalinin Quba xanlığına axıb gəlməsinə səbəb olurdu. Bu isə xanlığın iqtisadi gücünün artmasına şərait yaradırdı. 1757-ci ildə Muğan çölündən bir çox şahsevənin, habelə Dərbənd və Şamaxı ətrafından bir sıra ailələrin Quba xanlığına köçürülməsi xanlığın hərbi gücünün artmasına kömək etmişdi (Бутков, I his., 249; Серебров , майор, 201).

Öz iqtisadi və hərbi qüdrətinə arxalanan Quba xanlığı tezliklə digər xanlıqların ərazilərini özünə birləşdirməyə başladı. 1757-ci ildə Hüseynəli xanın oğlu Fətəli bəy Salyana yürüş edərək buranı Qubaya birləşdirdi. İrəlidə qeyd olunduğu kimi, Salyan əvvəllər Quba xanlığının tərkibinə daxil idi. XVIII əsrin ortalarında Salyan da müstəqil xanlığa çevrilmişdi və hakimi Əhməd xan adlı birisi idi. XVIII əsrin 50-ci illərinin ortalarında Əhməd xan ölmüş və onun uzaq qohumu İbrahim Rudbarlı hakimiyyəti ələ keçirmişdi. İbrahim xan Rudbarlının hakimiyyətindən narazı olan Salyan feodalları gizli surətdə

Quba xanı ilə əlaqə yaratdılar və İbrahim xanı hakimiyyətdən kənarlaşdırıb, Salyanın idarəsini ayrısına tapşırmağı xahiş etdilər. Bu xahiş Quba xanına Salyanın daxili işlərinə qarışmaq üçün imkan verdi. 1757-ci ildə Hüseynəli xanın vəliəhdi 20 yaşlı Fətəlinin başçılıq etdiyi Quba qoşunları Salyan xanlığına basqın etdilər. İbrahim xan qaçıb Rudbarda gizləndi. Salyan yenidən Qubaya birləşdirildi (Hacınski, 8; Абдуллаев (1965), 187; Серебров, майор, 201).

Salyanı birləşdirməklə Quba xanları Həsənabad, Rüdbar, Səfixan, Salyan limanı kimi mühüm iqtisadi əhəmiyyyətli məntəqələrə yiyələnmiş oldular. Quba xanı tərəfindən təyin edilən Salyan hakimi isə oranı Sultan litulu ilə idarə etməyə başladı. Eyni zamanda Quba xanlığı Şamaxı və Bakı xanlıqlarının arxasına çıxış və onlara təzyiq göstərmək imkanı əldə etdi (Абдуллаев (1965), 198-199).

1758-ci ildə Hüseynəli xan vəfat etdi və 22 yaşlı Fətəli Quba xanı oldu. Bir məlumata görə onun anası usmi Əhməd xanın qızı idi. Başqa məlumatlara görə isə anası kəniz olmuşdur (Гмелин, 11; Абдуллаев (1965), 272).Fətəli xan heç bir xüsusi tərbiyə görməsə də olduqca ağıllı bir dövlət xadimi, bacarıqlı sərkərdə və mahir diplomat idi. Yeritdiyi uzaqgörən siyasət nəticəsində az bir zamanda demək olar ki, bütün Azərbaycanda nüfuz qazanmışdı. Təsadüfi deyildir ki, bir çox xanlıqların əhalisi Fətəli xana əhalini məşəqqətlərdən azad edən bir şəxsiyyət kimi baxır, ondan kömək istəyirdilər.

Fətəli xan ilk olaraq böyük strateji əhəmiyyəti olan Dərbənd xanlığını tutmaq qərarına gəldi. Xəzər dənizi sahillərində yerləşən Dərbənd xanlığı şimalda Darbaq, cənubda Samur çayları ilə, qərbdə isə Tabasaranla əhatə olunmuşdu.[1] Sa-

---

[1] E.İ. Kozubskinin yazdığına görə Nadir şahın qətlindən azca əvvəl dağıstanlılar qiyam edərək Dərbənd şəhərini mühasirəyə almışdılar. Dərbənd hakimi Qəni xan dağıstanlılardan, daha çox da Dərbənd sakinlərindən ehtiyat edərək tabeçiliyindəki hərbi dəstə ilə şəhərdən çıxıb Qubaya hərəkət etmişdi, lakin burada üsyan etmiş əhali tərəfindən öldürülmüşdü. Əhali XVIII əsrin 20-30-cu illərində Dərbənd hakimi olmuş İmamqulu xanın oğlu Məhəmməd Hüseyn sultanı xan seçmişdi (Козубский, 91).

həsi cəmi 680 kvadrat verst idi (Обозрение, IV his., 151). Ərazicə kiçik və əhalisi az olan bu xanlığın qüvvəsi o qədər də çox deyildi. Digər tərəfdən Dərbənd əhalisinin onlardan ağır vergilər alan Məhəmməd Hüseyn xandan narazı olması və Fətəli xandan yardım istəmələri Dərbəndi ələ keçirmək üçün əlverişli şərait yaradırdı. XVIII əsrin ikinci yarısında yaşamış rus tarixçisi Mixail Çulkov yazır ki, Məhəmməd Hüseyn xan təbəələrinə zülm etməklə yanaşı onlardan zorla həddən artıq vergi tələb edir, verməyənlərin gözlərini çıxartdırırdı. Xanın belə hərəkəti xalqı hiddətləndirmişdi (Чулков, c. 2, kit. 2, 622). XVIII yüzilliyin ortalarında Dərbənd tipik bir Azərbaycan şəhəri idi. Qalanın bir neçə qapısı var idi: Carçı qapısı, Qırxlar qapısı, Türkmən qapısı, Dübari qapısı, Yeni qapı, Orta qapı, Bayat qapısı, Qala qapısı, Daş qapı və s. (Абдуллаев (1965), 198).

XVIII əsrin 60-70-ci illərində Dərbənddə olmuş S.Q. Qmelin Dərbəndin alınmaz qala olduğunu bildirərək yazırdı ki, Dərbənd şəhərini hücumla almaq olduqca çətindir. Düşmən görünən kimi yuxarı qala olan Narınqaladan xəbərdarlıq siqnalı verilir, bütün qapılar dərhal bağlanır, şəhər ələkeçməz bir qalaya çevrilirdi (Bax: Абдуллаев (1965), 198-199).

Bunu da qeyd edək ki, elə yarandığı ilk vaxtlarda Quba və Dərbənd xanlıqları arasında münaqişə baş vermişdi. 1748-ci ildə qubalı Hüseynəli xan Dərbənd xanlığına məxsus bir neçə kəndi qarət etmiş, dərbəndli Məhəmməd Hüseyn xan da əvəz olaraq 60 qubalını, o cümlədən Hüseynəli xanın bir oğlunu və bir qızını girov götürmüşdü.Quba xanı Dərbəndən cənuba, Dərbənd xanı isə Qubadan şimala gedənləri saxlayırdılar(ГААО, f.349, siy. 1, əlavələr, iş 90, v.15).

Dağıstanın feodal hakimlərinin də Dərbəndə maraqları olduğundan oranın zəbt edilməsi Quba xanlığının əleyhinə güclü düşmən koalisiyasının yaranmasına səbəb ola bilərdi. Bir yandan da Quba xanlığı ilə Şamaxı xanlığı arasında düşmən münasibətlər olduğundan çox ehtiyatlı hərəkət etmək

lazım idi.[2] Fətəli xan Dağıstan feodallarının bir hissəsinə müəyyən güzəştlər vəd etməklə onları öz tərəfinə çəkdi. Tarku şamxalı, usmi Əmir Həmzə, Tabasaran kadisi ilə ittifaq bağladı; Qazıqumuqlu Məhəmməd xanı isə bitərəfləşdirdi (Абдуллаев (1958), 89).

A.A. Bakıxanov yazırdı ki, 1759-cu ildə Məhəmməd Hüseyn xanın qardaşı Tahir bəyin təhqiramiz hərəkətlərindən qəzəblənən dərbəndlilər gizlicə Fətəli xanın yanına gedərək, ondan kömək dilədilər və Fətəli xan qoşunla gələrək qısa müddətli mühasirədən sonra Dərbəndi tutdu. Hakimiyyətdən məhrum olmuş Məhəmməd xan Bakıya köçdü (Бакиханов, 158). Hacınski bu məsələ ilə bağlı yazır ki, Dərbənd xanından narazı olan Dərbənd bəyləri ilə Fətəli xanın gizli əlaqəsi hələ bir neçə il bundan əvvəl başlamışdı: «… onlara o qədər bəxşişlər verdi və nəvaziş göstərdi ki, onların bəziləri Qubaya köçdülər. Fətəli xan onların vasitəsi ilə Dərbəndin özündə çoxlu tərəfdarlar əldə etdi və 1759-cu ildə güclü qoşun toplayıb şəhərə hərəkət etdi, ona tərəfdar dərbəndlilərin köməyilə şəhəri döyüşsüz ələ keçirdi. Mülkü əlindən çıxmış Məhəmməd Həsən xan Fətəli xanın əmri üzrə bütün ailəsilə Bakıya köçərək, ömrünün sonuna qədər orada yaşadı» (Гаджинский, 23). Petros İvanov adlı bir erməninin 1781-ci ilin noyabrında II Yekaterinaya yazdığına görə isə Fətəli xan Dərbənd xanı Məhəmməd Hüseyni (keçmiş Dərbənd hakimi İmamqulu xanın oğlu) guya danışıq aparmaq adı ilə yanına çağırıb ələ keçirəgək Bakıya kürəkənin Məlik Məhəmməd bəyin yanına göndərib orada həbsxanaya saldırmışdı; Məhəmməd Hüseyn xanın azyaşlı oğlunu da Bakı həbsxanasına salmışdılar (РГВИА, f. 52, siy. 1, iş. 270, v. 35). Bu məlumatda yanlışlıq

---

[2] Fətəli xan Dərbənd bəyləri ilə gizli əlaqə yaratdı, onlara hədiyyələr göndərdi. Bəylərin bir hissəsi Qubaya köçdülər. Bu yolla Dərbənddə özünə xeyli tərəfdar qazanan Fətəli xan əvvəlcə Dərbənd xanının Samur çayından cənubdakı mülklərini: Müşkür, Niyazabad, Şabran, Rustov və Beşbarmağı zəbt etdi. Sonra Ulus mahalını ələ keçirdi. Daha sonra isə Dərbənd qalasını mühasirəyə aldı (Козубский, 92).

nəzərə çarpır: Fətəli xan Dərbəndi tutarkən hələ Bakı hakimi ilə qohum deyildi.

Dərbəndi tutmaqda köməklik göstərdiklərinə görə Quba xanlığının Qaraclı, Azaqlı, Naburlu, Çiçi, Bəbəşli və Bəbəli kəndləri şamxala, Dərbənd xanlığının Malaqalıl adlı bölgəsi, həmçinin Dərbənd vergilərinin toplanması hüququ qaraqaytaq usmisi əmir Həmzəyə, pul mükafatı isə Tabasaran kadisi Rüstəmə verildi (Бакиханов, 259; Azərb. tarixi (1961), 363-364).

### Xanlığın əhalisi

Rus qoşunlarının 1796-cı ildə Azərbaycana yürüşü zamanı Qafqaz qrenader alayının zabiti (sekund-mayoru) Fyodr Simonoviç tərəfindən Qara dəniz qrenader taborunun mayoru Averyan Serebrovun köməkliyi ilə Quba xanlığının təsviri tərtib olunmuşdur. Həmin təsvirdə deyildiyinə görə 1796-cı ildə, eləcə də mövcudluğunun əksər dövrlərində Quba xanlığının əhatə etdiyi ərazi 10 mahala bölünürdü: Dərbənd, Ulus, Quba, Rustov, Müşkür, Şabran, Sədan, Bərmək, Xınalıq, Buduq (АВПРИ, ф. 77, siy.7, iş 159, v. 35 və a.ü.). Rus qoşunlarının 1796-cı ildə Azərbaycana hərbi səfəri zamanı tərtib olunmuş jurnalda qeyd olunurdu ki, Samur, Qusar və Qudyal çayları boyunca kəndlərdə yaşayan qubalılar bu torpağın köklü sakinləri olub türk adlanan dildə danışır və sünni məzhəb müsəlmanlardır. Müşkür, Bərmək, və Sədan mahallarında yaşayan əhali isə şiə məzhəb olub bir hissəsi tat dilində danışırdı. Buduqlular və xınalıqlılar da şiələrdir və ləzgi dilinə yaxın dildə danışırlar (АВПРИ, ф. 77, siy.7, iş 159, v. 35-35 a.ü.). Qeyd edək ki, burada mənbədə kiçik bir yanlışlıq getmişdir. Məsələ burasındadır ki, Müskür mahalı əhalisinin bir hissəsini təşkil edən tatlar şiə deyil, sünni məzhəb idi. Buduqlular və Xınalıqlılar da şiə deyil sünnüdürlər. Qeyd edək ki, tatların mənşəyi, onların yerli və ya gəlmə olmaları barədə tarixi ədəbiyyatda çox cuzi, həm də ziddiyyətli məlumatlar vardır. Akademik Z.Bünyadovun yazdığına görə tatlar hələ IV əsrdə Sasani hökmdarlığı

dövründə Cənubi-Qərbi İrandan Şirvana köçürülüb və burada alban qəbilələrinin yerini tutmuşlar (Буниятов, 72). A.Bakıxanov yazırdı ki, tatlar Sasani şahları tərəfindən Albaniyanın şimal-şərqində müdafiə sədlərinin çəkilməsi ilə əlaqədar İrandan köçürülmüşlər (Бакиханов, 24, 441)

Tat sözünün mənşəyi bir qədər mübahisəlidir. Bu sözə hələ VI əsrə aid Orxon-Yenisey abidələrində təsadüf olunur. Qədim Uyğur yazılı abidəsi «Kufadu bilik» - də belə bir cümlə var: «Yazıq tat haraya getsə, başı qovgaya düşür» (Малов, 249). Tədqiqatçıların gəldiyi nəticəyə görə «tat» sözü ilk vaxtlar etnik ad olmamış, bu ad yerli tayfalar tərəfindən gəlmə İrandilli tayfalardan olan bir qrup əhaliyə verilən ümumi ad olmuş, zaman keçdikcə etnik ada çevrilmişdir (Hacıyev, 20-21). Uzun əsrlər türklərlə birgə yaşamaq nəticəsində tatların xeyli hissəsi məişət və mədəniyyət cəhətdən yerli əhaliyə qaynayıb qarışmış və onlarda ikidillik yaranmışdır (Ətraflı məlumat üçün bax: Quliyeva, 18-31).

İrəlidə adı çəkilən mənbənin məlumatına görə Şabran mahalı Hüseynəli və Fətəli xanlar dövründə Muğandan və Azərbaycanın digər yerlərindən köçmüş sakinlər tərəfindən məskunlaşdırılmışlar, şiə məzhəbdirlər və qubalılar kimi türk dilində danışırlar (АВПРИ, ф. 77, siy.7, iş 159, v. 35 a.ü.).

Xanlığın bir neçə kəndində – Rustov mahalının Kilvar, Müşkür mahalının Birinci və İkinci Baraxum, Qaracalı, Böyük və Balaca Xaçmaz, Qaraqurtlu kəndlərində erməni (onların bir qismi qriqoryan iran dilli tatlar, digər qismi xeyli dərəcədə erməniləşdirməyə məruz qalmış albanlar, bir qismi də gəlmə ermənilər idi.) yaşayırdı, 22 evi olan Kilvar kəndində iki keşiş və bir kilsə, cəmi 15 həyətdən ibarət Birinci Baraxum kəndində bir kilsə və bir keşiş, İkinci Baraxum kəndində bir kilsə və bir keşiş, Qaracalıda bir kilsə və dörd keşiş, Qaraqutluda bir kilsə vardı (АВПРИ, ф. 77, siy.7, iş 159, v. 35 a.ü.).

Quba şəhəri ilə üzbəüz Qudyalçayın əks sahilində Kulqat (bəlkə Gülhan) qəsəbəsində dağ yəhudiləri (yaxud yəhudi tatları) yaşayır, dörd ravinləri (ruhaniləri) və dörd sina-

qoqları (məbəd) vardı (АВПРИ, ф. 77, siy.7, iş 159, v. 35 a.ü.).

Azərbaycan ərazisində dağ yəhudilərinin ən çox yaşadığı bölgə məhz Quba xanlığı idi. Qeyd edək ki, Azərbaycanda yaşayan dağ yəhudilərinin mənşəyi barədə tarixi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Ata və oğul Millerlərin və bəzi başqa tədqiqatçıların fikrincə dağ yəhudiləri əslində iudaizmi qəbul etmiş irandilli tatlardır (Миллер (1932), 169-286; Миллер (1929), 3-43; Миллер (1892); Миллер (1903), 160-168; Миллер (1901).). Tədqiqatçılarının çoxunun fikrincə isə e.ə. VI əsrdə əhəməni şahı II Kuruş yəhudiləri Babil əsirliyindən xilas edib, İsrailə dönmələrinə icazə verdikdən sonra onların bir hissəsi İsrailə və Fələstinə dönməyərək Midiya və İranda qalmışlar. Bir mülahizəyə görə həmin yəhudilərin bir hissəsi artıq eramıza qədər Qafqazda, o cümlədən Azərbaycan ərazisində peyda olmuşlar (Шамаилова, 36-37). Digər mülahizəyə görə isə Azərbaycan ərazisinə yəhudilər Mesopotamiyadan Sasani şahları tərəfindən sürgün olunmuşlar. Yəhudilərin bir hissəsi zərdüşt kahinlərinin təqiblərindən qurtarmaq üçün Sasani imperiyasının ucqarlarına, o cümlədən Albaniyaya köçürdülər. Belə hesab edirlər ki, yəhudilər Sasanilər dövründə və özü də məhz İran ərazisindən keçib Qafqaza gəldikləri üçün İran dillərindən biri olan tat dilini qəbul etmişlər (Шамаилова, 42).

XVIII-XIX əsrlərə kimi dağ yəhudiləri əsasən kəndlərdə, həm də başlıca olaraq dağ kəndlərində yaşayırdılar, əkinçiliklə və qismən də maldarlıqla məşğul olurdular. Yəqin elə dağ kəndlərində yaşadıqlarına görə Azərbaycanda yəhudiləri «dağ cuhudu» adlandırırdılar. Sonralar yəhudilərin bir çoxunun dağ kəndlərindən Quba şəhərinin ətrafına köçməsi ilə əlaqədar onları həm də «Quba cuhudu», yaxud «Quba yəhudisi» adlandırmağa başladılar.

Dağ yəhudiləri öz dini etiqadlarını və bir sıra adətlərini saxlasalar da, bir sıra yerli adətləri də götürmüşdülər. Məsələn, Qafqazın dağ bölgələrinin əhalisi içərisində mövcud olan

«qan intiqamı» adəti dağ yəhudilərinin içərisində də vardı. Həm də əgər üç gün ərzində qatili tapa bilmirdilərsə onda o, ödənc ödəyib öz həyatını xilas edə bilərdi. Bu ödənc 100-600 rubl arasında ola bilərdi. Pul verməklə yanaşı qatilin qohumları qətlə yetirilmiş şəxsin qohumlarından üzr istəməli idilər. Barışandan sonra tərəflər «qan qohumlarına» çevrilirdilər. Dini etiqad fərqinə baxmayaraq yəhudilərə qarşı Azərbaycanda heç zaman ayrı-seçkilik olmamışdır. Bir sıra hallarda yəhudi ilə müsəlmanın dostluğu qardaşlıq səviyyəsinə keçir, onlar bir-birinin «qonağı» olurdular (Шамаилова, 15).

**Xanlığın təsərrüfat həyatı**

**a) kənd təsərrüfatı**

XVIII əsr rus müəllifi M. Çulkov yazırdı ki, Qubada kəndlər böyük və gözəldirlər, yaxşı əkinlərə və mal-qaraya malikdirlər (Чулков, 13). Xanlığın ərazisinin böyük hissəsi əkinçilik üçün yararlı və münbit idi. Xəzər dənizi boyunca uzanan düzənlik əsas əkinçilik rayonu idi. Səyyah M.Biberşteyn yazırdı ki, arası kəsilməyən müharibələr əkinçiliyə böyük ziyan vursa da, əhali əkinçilikdən əl çəkməmiş və özünə lazım olan miqdarda taxıl yetişdirirdi (Биберштейн, 36-37).

Xanlığın təbii-coğrafi və iqlim şəraiti burada tarixən kənd təsərrüfatının inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır. Xanlığın yerləşdiyi ərazinin dəniz sahili mütamadi olaraq düzənliyə keçir. Düzənlik sahələr dəniz səviyyəsindən 20m hündür olub, getdikcə yüksəkliyi 100 metrə çatan düzən qurşaqla əvəz olunur ki, bu da Şimal-Şərqə meyllidir (Почвы, 35; Gül, 19).

Xanlıq ərazisində mövcud olan Böyük Qafqaz dağlarının yamacları çox sıldırımlıdır. Bu yamaclar Quba şəhəri ətrafında 600m hündürlüklərdən başlayıb, yüksəkliklərə doğru ucalır. Bu hissədə Qusarçay, Qudyalçay, Qaraçay, Ağçay və Vəlvələçayın dərələri yerləşir. Xanlıq ərazisində ən hündür dağlar Bazar düzü (4485m) Şahdağ (4250m) və Babadağ (3632m) idi.

Xanlıq ərazisinin dənizkənarı sahəsi Müşkür və Şabran düzlərini əhatə edirdi. Tədqiqatçıların fikrincə Müşkür düzünün adı uzaq keçmişlərdə Beşbarmaq dağı ilə Dərbənd arasında yaşayan «maskut»ə adlı tayfa birləşməsinin adından yaranmışdır (Ашурбейли, 98). Vəlvələçay və Gilgilçay arasındakı Şabran düzünün adı isə ərəb işğalları dövründən məlum olan və XVII əsrə qədər Azərbaycanın mühüm iqtisadi və mədəni mərkəzlərindən biri olmuş Şabran şəhərinin adı ilə bağlıdır.

Dənizkənarı və düzənlik zolaqda qış yumşaq, yay isti və nisbətən quru keçir. Bu zonada əsasən şabalıdı və boz şabalıdı torpaqlar, dənizkənarında isə qumluqlar var. Düzən zonada əsasən əkinçilik və maldarlıq inkişaf etmişdi. Dağətəyi zonada torpaq şabalıdı, açıq şabalıdı, boz şabalıdıdır. Dağətəyi zonanın torpağı və iqlim şəraiti meyvəçiliyin inkişafı üçün çox əlverişli şərait yaradır. Burada alma, armud, gilas, alça, xüsusilə də alma ağacları çoxdur.

Xanlığın dağlıq hissəsində dağ-meşə, şabalıdı və qaratorpaq örtüyü var. Bu ərazidə iqlimin soyuq olması əkinçiliyin inkişafına imkan vermir. Bəzi dağ kəndlərində yazlıq taxıl (arpa, darı və az miqdarda buğda) əkilirdi.

Almanın bağçılıqda əsas yer tutması onun ilk növbədə başqa meyvə ağaclarına nisbətən məhsuldar olması və buna görə də iqtisadi baxımdan hər bir kəndli təsərrüfatı üçün əlavə gəlir verməsi ilə izah olunurdu (Əliyev H., 35).

Xanlığın Rusiyaya ilhaqından az sonra burada olmuş bir çar məmuru yazırdı: «Quba əyalətinin dənizdən içərilərə doğru uzanan 40 verstlik ərazisində bir neçə çay və arx vardır, burada buğda, arpa, darı və çəltik boldur» (AKAK, c. VI, əlavələr, sən. 61, 130-131).

XIX əsrin 20-ci illərinin sonu-30-cu illərinin əvvəllərinə dair məlumata görə keçmiş Quba xanlığı ərazisində ildə 2.392.500 pud buğda, 930 min pud arpa, 196 min pud çəltik toplanırdı (Обозрение, IV c., 52-53).

S.Qmelin Salyan ətrafında küncüt yetişdirilməsi ilə əlaqədar maraqlı məlumat verir: Mart ayında havalar

istiləşəndə darı kimi küncüt toxumunu tarlaya səpir, üstünü torpaqla örtürdülər.Küncüt həm qumlu, həm də gilli torpaqda yaxşı inkişaf edirdi.Suvarmaya ehtiyac yox idi.Yetişəndə küncütü biçir, onu dəstələyib hörərək yaxşı quruması üçün asırdılar.Qurumuş dəstələri parçaya bükərək döyür, bu yolla toxumları ayırırdılar.Salyanda küncüt toxumlarının rəngi Mazandaranda olduğu kimi ağ deyil tünd – qonur olur.Qmelin əvvəlcə yazır ki, burada küncütdən yağ çıxartmırdılar, onu çiy – çiy, yaxud qovurub üzüm sirkəsi, yaxud çörəklə yeyirdilər.Ancaq sonra yazır ki, 1 pud toxumdan 10 – 15 funt yağ alınır, küncüt yağını bir neçə il saxlayır, bu zaman o acılaşmırdı(ПФА РАН, f.3, siy.34, iş 20, v.119a.ü.).

İqlim şəraiti, otlaqların bolluğu xanlıqda maldarlığın da inkişafına əlverişli şərait yaradırdı. Maldarlıq Şabran, Müşkür, Şeşpara və Beşbarmaq mahallarında daha çox inkişaf etmişdi. XIX yüzilin ilk otuzilliyinin əvvəllərində keçmiş Quba xanlığı ərazisində 27 min at, 50 min öküz, 40 min inək, 20 min camış və 250 min başdan çox qoyun var idi (Обозрение, IV c., 136).

Xanlıqda meyvəçilik çox inkişaf etmişdi. Burada yetişdirilən meyvələrlə nəinki xanlıq əhalisi, eləcə də Bakı və Şamaxı şəhərləri təmin olunurdu. Aran yerlərində üzümçülüklə də məşğul olurdular (Обозрение, IV c., 133).

Statistik materialların olmaması xanlıqda kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf dinamikası haqqında dolğun təsəvvür yaratmağa imkan vermir. Həm də əldə olan materialların çoxu XVIII əsrin sonu-XIX əsrin əvvəllərinə, yəni xanlığın mövcudluğunun son dövrlərinə və ya xanlığın ləğvindən sonrakı dövrlərə aiddir.

Məlumdur ki, Quba xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra onun yerində Quba əyaləti yaradılmışdı. 1831-ci ildə həmin əyalətin kameral təsviri tərtib olunmuşdur. Kənd təsərrüfatı üzrə göstəricilərin 20-30 il ərzində bir elə dəyişmədiyini nəzərə alaraq həmin «təsvirin» məlumatlarından istifadə etmək mümkündür. Bir şeyi də qeyd etmək lazım-

dır. Xanlığın Dərbənd və Ulus mahalları əyalətə daxil edilmədiyindən bu təsvirdə yoxdur. Təsvirdə mahalların adı və sayında da müəyyən fərq var. Görünür ruslar müəyyən mahalların adlarını dəyişdirmiş, bəzi mahalları ləğv etmiş, bəzi yenilərini yaratmışlar.

Kənd təsərrüfatının əsas sahələri əkinçilik və maldarlıq idi. Rusiya işğalı zamanı Quba xanlığının yerinə yaradılmış Quba əyalətinin ümumi torpaq fondu (Dərbənd və Ulus mahalları istisna olmaqla) 194868 ruba idi ki, bundan da 56649 ruba əkinə yararlı, 96621 ruba yararsız, 21192 ruba biçənək, 20406 ruba otlaq sahəsi idi. O zaman keçmiş xanlıq ərazisində olan mahallarda cəmi 11399 təsərrüfat olduğunu nəzərə alsaq, hər təsərrüfata təqribən 5 ruba əkinə yararlı torpaq sahəsinin düşdüyünü söyləmək olar. Mahallar üzrə götürdükdə Şabranda 1685 təsərrüfata 12445 ruba (adambaşına 7,4 ruba), Tip mahalı üzrə 1588 təsərrüfata 9990 ruba (adambaşına 6,3 ruba), Anıxdərə mahalında 306 təsərrüfata cəmi 999 (hər təsərrüfata 3,4 ruba), Yuxarıbaış mahalında 1025 təsərrüfata 1720 ruba (hər təs-ta 1,7 ruba) əkinə yararlı torpaq sahəsi düşürdü (Камеральное описание, I-IV hissələr).

Xanlıqda torpaq fondunun kəndlər üzrə bölüşdürülməsi, kəndlərin sakinlərinin əsas məşğuliyyət növləri üzrə oxucuda təsəvvür yaratmaq üçün Quba əyaləti ərazisinin kameral təsvirindən (ARDTA, f. 24, siy. 1, iş 342-345) götürdüyümüz rəqəmlər əsasında ayrı-ayrı mahallar üzrə aşağıdakı cədvəlləri tərtib etdik:

## Müşkür mahalı üzrə

| Sıra sayı | Kəndin adı | Kimə məxsusdur. Xəzinə və ya sahibkar | Təsərrüfatların sayı | Kişi və oğlanların sayı | Başlca məşğuliyyət | | | Torpaq sahəsi (neçə ruba) | | | | | Bağların sayı | | | Dinglərin sayı | Dəyirmanlarınsayı | Rəiyyətlərin sayı | Rəncbərlərin sayı | Vergi verən rəiyyət və rəncbərlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Taxılçılıq | Maldarlıq | İpəkçilik | Əkinə yararlı | Əkinə yararsız | Biçənək | Otlaq | Cəmi | Meyvə | Tut | Üzüm ( neçə ruba) | | | | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** | **14** | **15** | **16** | **17** | **18** | **19** | **20** | **21** |
| 1. | Almas-yanlı[1] | X | 4 | 10 | + | - | - | 20 | 200 | 8 | - | 228 | - | - | - | - | 1 | 4 | - | 4 |
| 2. | Tel[2] | X | 28 | 69 | + | - | + | 100 | 200 | 50 | - | 350 | - | 6 | - | 1 | - | 24 | - | 24 |
| 3. | Qasımkənd | X | 12 | 27 | + | - | + | 50 | 60 | 20 | - | 130 | - | 5 | - | - | - | 11 | - | 9 |
| 4. | Nabran[3] | S | 12 | 38 | + | + | + | 100 | 200 | - | - | 300 | - | 1 | - | 1 | 1 | 11 | 1 | 11 |
| 5. | Çaxçaxlı | S | 16 | 42 | + | + | + | 250 | 200 | 50 | - | 500 | - | 10 | - | 1 | 1 | 13 | 2 | 13 |
| 6. | Şorlar | X | 13 | 20 | + | - | + | 110 | 100 | 50 | - | 260 | - | 4 | - | - | - | 9 | - | 9 |
| 7. | Köhnə Xaçmaz[4] | S | 6 | 29 | + | + | + | 300 | 100 | 50 | - | 450 | - | 2 | | 1 | 1 | 2 | 4 | 2 |
| 8. | Bostançı | X | 33 | 122 | + | + | + | 300 | 300 | - | - | 600 | - | 30 | - | 2 | 3 | 22 | 5 | 22 |
| 9. | Vələmir | S | 7 | 16 | + | + | + | 250 | 350 | 50 | - | 650 | | | | 1 | 2 | 2 | 3 | 2 |
| 10. | Təzə Baruxum | X | 11 | 26 | + | - | + | 200 | 300 | 40 | - | 540 | - | 8 | - | - | - | 8 | 3 | 8 |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 11. | Baraxum | X | 17 | 50 | + | - | + | 300 | 300 | 40 | - | 640 | - | 15 | - | 1 | 1 | 11 | 5 | 6 |
| 12. | Dədəli | S | 16 | 57 | + | - | + | 300 | 500 | 50 | - | 850 | 5 | 15 | - | 1 | 1 | 7 | 5 | 9 |
| 13. | Nərəjan[5] | X | 59 | 215 | + | - | + | 250 | 600 | 50 | 50 | 950 | - | 30 | - | 1 | 4 | 45 | 9 | 39 |
| 14. | Mürşüdoba | X | 13 | 35 | + | - | + | 80 | 400 | 20 | - | 500 | - | - | - | 2 | 1 | 10 | - | 8 |
| 15. | Şıxçobanlı | X | 4 | 9 | + | - | - | 50 | 500 | 50 | - | 600 | - | 4 | - | 2 | 2 | 2 | - | 1 |
| 16. | Qaracalı | S | 16 | 56 | + | - | + | 500 | 300 | 50 | 50 | 900 | - | 2 | - | 2 | 2 | 12 | 1 | 11 |
| 17. | Əzizli | S | 3 | 7 | + | - | + | 200 | 300 | 50 | 20 | 570 | - | 3 | - | 1 | - | 1 | - | 1 |
| 18. | Gəncəli | X | 18 | 52 | + | - | + | 300 | 300 | 300 | 10 | | - | 16 | - | 1 | 1 | 14 | - | 12 |
| 19. | Bəbəli | S | 8 | 24 | + | - | + | 250 | 60 | 60 | 10 | 380 | - | 10 | - | - | - | 5 | - | 3 |
| 20. | Naburlu | S | 24 | 54 | + | - | + | 200 | 100 | 10 | 50 | 360 | - | 10 | - | - | - | 24 | - | 22 |
| 21. | Bəbəşli | S | 8 | 24 | + | - | + | 150 | 100 | 40 | 50 | 340 | - | 6 | - | 1 | 2 | 5 | | 5 |
| 22. | Mirzə Əli qışlağı | S | 7 | 12 | + | - | + | 80 | - | 300 | - | 380 | - | 6 | - | 1 | - | 6 | - | 6 |
| 23. | Külülən | X | 13 | 52 | + | - | + | 200 | 30 | 50 | 10 | 290 | | - | | 2 | 1 | 6 | - | 5 |
| 24. | Qaraqutlu | X | 21 | 70 | + | - | + | 400 | 50 | - | 100 | 550 | - | 21 | - | 2 | 2 | 16 | - | 16 |
| 25. | Qaraçı | X | 12 | 35 | + | + | + | 12 | 50 | 4 | - | 66 | - | 10 | - | - | - | 11 | - | 11 |
| 26. | Ustançaylı | X | 9 | 20 | + | - | + | 100 | 50 | 4 | - | 154 | - | 7 | - | - | - | 6 | - | 5 |
| 27. | Loman | X | 10 | 21 | + | - | + | 200 | 30 | 10 | 20 | 260 | - | 6 | - | 1 | 1 | 9 | - | 6 |
| 28. | Şərur qışlağı | S | 11 | 38 | + | - | + | 300 | 100 | - | - | 400 | - | 4 | - | - | 1 | 6 | - | 6 |
| 29. | Ləzgidili | X | 1 | 3 | + | + | + | 60 | 50 | - | - | 110 | - | 1 | - | - | 1 | - | - | - |
| 30. | Radar | S | 10 | 26 | + | + | + | 600 | 300 | 15 | - | 915 | | 9 | | 1 | 1 | 6 | 3 | 6 |
| 31. | Armudlu Padar | X | 10 | 28 | + | - | + | 100 | 200 | - | - | 300 | - | 7 | - | 2 | 2 | 7 | 1 | 5 |
| 32. | Xaçmaz | S | 25 | 59 | + | - | + | 500 | 500 | 100 | 100 | 1200 | - | 15 | - | 1 | 1 | 19 | 6 | 23 |
| 33. | Səfər qışlağı | X | 3 | 11 | + | - | + | 50 | 100 | 10 | 15 | 165 | - | - | - | - | - | 1 | - | 1 |
| 34. | Xaspolad qışlağı | X | 2 | 6 | + | - | + | 20 | 40 | 5 | - | 65 | - | - | - | - | - | 2 | - | 1 |
| 35. | Talış Məhəm- | X | 2 | 8 | + | - | + | 120 | 100 | 10 | - | 320 | - | | | | | 1 | 1 | 1 |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | məd oba | | | | | | | | | | | | | | | | | | | |
| 36. | Dərvişəli | X | 3 | 10 | + | + | + | 500 | 400 | 15 | - | 915 | - | 5 | - | - | - | 3 | 1 | 2 |
| 37. | Mehdi qışlağı | S | 4 | 6 | + | + | + | 120 | 100 | 10 | - | 230 | | 3 | | - | - | 2 | 2 | 2 |
| 38. | Mirzə Abdal qışlağı | S | 3 | 9 | + | - | + | 150 | 30 | 5 | - | 185 | - | 3 | - | - | - | 1 | - | 1 |
| 39. | Hajı Əli bəy qışlağı | S | 2 | 18 | + | - | + | 300 | 20 | - | - | 320 | - | 5 | - | - | - | 6 | 1 | 5 |
| 40. | Qaşım qışlağı | X | 7 | 9 | + | - | + | 150 | 30 | - | - | 180 | - | - | - | - | - | 7 | - | 6 |
| 41. | Hacı Qayıb qışlağı | S | 32 | 66 | + | - | + | 400 | 16 | 30 | - | 446 | - | 22 | - | - | - | 18 | 3 | 13 |
| 42. | Molla Borqanlı | S | 25 | 33 | + | - | + | 300 | 200 | 100 | - | 600 | - | 10 | - | - | - | 24 | - | 17 |
| 43. | Şıxlar | S | 22 | 57 | + | - | + | 400 | 500 | - | - | 900 | - | 25 | - | - | - | 13 | 3 | 12 |
| 44. | Güdağlı | S | 25 | 76 | + | + | + | 300 | 400 | - | - | 700 | | 25 | | - | - | 17 | 7 | 14 |
| 45. | Diyə | X | 7 | 20 | + | - | + | 200 | 50 | 10 | - | 260 | - | 7 | - | - | - | - | - | - |
| 46. | Həbibkənd | X | 32 | 83 | + | - | + | 50 | 400 | 100 | - | 550 | - | 130 | - | - | - | 27 | 2 | 23 |
| 47. | Qaraqlı | S | 17 | 68 | + | - | + | 200 | 300 | 100 | - | 600 | - | 18 | - | - | - | 12 | 2 | 12 |
| 48. | Araz qışlağı | S | 10 | 27 | + | - | + | 200 | 100 | 20 | - | 320 | - | 5 | - | - | - | 8 | 2 | 8 |
Ayrı-ayrı şəxslərin mülkiyyətində olan mülk torpaqlarını almaq, satmaq, irsən vermək, girov qoymaq olardı. Mülk sahibliyi heç bir qulluq şərti ilə bağlı deyildi. Mülkün o qədər də geniş yayılmamış forması mülki-xalisə idi. Bu cür mülklər xəzinəyə vergi ödənilməsindən azad idilər. Xanlıqda bir neçə kəndi, iri mülkləri olan mülkədar bəylər var idi. Nadir hallarda kəndlilərin də mülkü olurdu. Mülklər əsasən hələ xanlıqların yaranmasından əvvəl bağışlanmış kəndlərdən, torpaqlardan ibarət idi. Quba xanları da mülklər bağışlayırdılar. Şeyxəli xan Heydər bəy adlı birisinə Çirik yaylağını mülk kimi bağışlamışdı (Указы, sən. 13). 1798-ci ildə Şeyxəli xan Kərim

ağa adlı bir şəxsə 200 manata qışlaq satmışdı (ARDTA, f. 75, sən. 15, v. 19-20).

Xanlıqda aparıcı torpaq mülkiyyəti formalarından biri tiyul idi. Bu şərti torpaq mülkiyyəti idi. Xanlar xidmət müqabilində bəylərə və digər şəxslərə müəyyən ərazilər, daha doğrusu həmin ərazilərdən vergilər toplamaq hüququ verirdilər. Tiyul sahibi-tiyuldar öldükdə xan həmin sahəni onun varisinə verirdi. Ancaq varis də atası kimi xana qulluq göstərməli idi. Bəzən xanlar heç bir xidmətlə bağlı olmayaraq, istədikləri bir şəxsə də tiyul verə bilirdilər. Vəzifələr çox vaxt irsən keçdiklərinə görə tiyulun irsi mülkiyyətə-mülkə çevrilmək meyli var idi. Fətəli xanın fərmanı ilə Dədəli kəndi əvvəlcə 1760-cı ildə Murtuza Əli bəyə bağışlanmış, o öləndən sonra isə oğluna irsən keçmişdi. Sonuncu öləndən sonra isə 1772-ci ildə Dədəli kəndi onun qardaşına-Murtuza Əli bəyin digər oğluna bağışlanmışdı (АРДТА, ф. 55, iş 3, v. 268). Tiyul müvəqqəti-bir və ya bir neçə il müddətinə də verilə bilərdi. Adətən tiyuldar ona verilmiş ərazinin həm də idarəçisi olurdu. Tiyulu almaq, satmaq, bağışlamaq və irsən vermək olmazdı.

Fətəli xanın hicri 1172-ci il rəcəb ayına (mil. 28 fevral-29 mart 1759) aid fərmanında deyilirdi ki, «öz sədaqəti ilə fərqlənən Buduqlu Hacı bəyə dovşan ilində Zərqova kəndini bağışlayır ki, o oradan göstərilən kəndə müəyyən edilmiş vergiləri (təvəccühət) toplasın və öz tələbatına xərcləsin. Adı çəkilən camaat xatırlanan şəxsi özünün yeganə tiyuldarı saymalı, onun tapşırıqlarına əməl etməlidir» (Указы, sən. 7). Zərqova kəndinin qışlağı da Hacı bəyin ixtiyarına verilmişdi (Указы, sən. 7)

Fətəli xanın 1188-ci ilin şəvval ayında (mil. 5 dekabr 1774) verdiyi digər fərmanla Sədan, Quşçu, Çıraq, Uqah və Çalqan kəndləri Hacı bəy Buduqluya bağışlanırdı. Kəndlilərin yığdıqları məhsuldan onda bir (dəh yek), ondan yarı (dəh nim), müəyyən miqdar (kəsim) və sair vergilərin həmin mülkədara verilməsi əmr olunurdu (Указы, sən. 7).

Renta-vergi ilə birlikdə kəndlilərin (rəiyyətin) məskunlaşdığı torpaqlar və təsərrüfatlar da tiyul kimi verilirdi.

Quba xanlığında tiyuldarların onlara bağışlanmış torpaqlarda bütün vergilərə və mükəlləfiyyətlərə geniş hüquqları var idi; xanların fərmanı ilə kəndlilərin tiyuldarlardan şəxsən asılılıq vəziyyəti müəyyənləşdirilir və onlar mükəlləfiyətləri (qulluq) yerinə yetirməli idilər. Bu cəhətdən tiyul Səfəvilər dövründəki tiyuldan fərqlənirdi. Görünür xan qulluq feodal əsilzadələrini həvəsləndirməyə ehtiyac duyurdu.

Otlaqların xan tərəfindən bağışlanması faktları da məlumdur. Əhməd xanın 1790-cı il sentyabrın 10-u-oktyabrın 9-u arasında (h.1205-ci il rəbi-ül-əvvəl ayında) verdiyi fərmanla mərhum Fətəli xan tərəfindən Heydər bəyə verilmiş Hacı Hüseyn qışlağının yenə də onun mülkiyyətində qalması təsdiqlənirdi (Ukazı, sən. 9). Müvəqqəti olaraq xanlığı idarə edən Həsən ağa isə 1726-cı il noyabrın 2-si-dekabrın 1-i arasında (h. 1211-ci il cümadə-axer ayında) verdiyi fərmanla Qızılca qışlağını Buduqlu Eyvaz bəyin mülkiyyətinə vermişdi (Ukazı, sən. 12). Şeyxəli xan 1800-cü il mayın 25-i – iyunun 23-ü arasında (1215-ci il məhərrəm ayında) verdiyi fərmanla Çilik yaylağını adı irəlidə xatırlanan Heydər bəyin mülkiyyətinə vermişdi (Указы, sən. 13).

Digər Azərbaycan xanlıqlarında olduğu kimi, Quba xanlığında da torpaq mülkiyyətinin geniş yayılmış digər forması mülk (yaxud xalisə) idi. Mülkü almaq, satmaq, bağışlamaq, girov qoymaq, irsən vermək olardı.

Quba xanlığında XVIII əsrdə vəqf torpaqları da mövcud idi. Bu torpaqlar əsasən məscidlərə və digər dini idarələrə verilir, onlardan xan xəzinəsinə vergilər toplanmır, işçilərin boynuna mükəlləfiyyət qoyulmurdu.

Mülklərin alınıb-satılması geniş yayılmışdı.

Şeyxəli xan da Eldar bəyə üç rəncbər bağışlamışdı ki, bəyin tələbilə ona rəncbər xidməti göstərsinlər (Указы, sən. 24).

Şeyxəli xan digər bir fərmanla Qudyal kəndinin bütün camaatını Ağa bəy adlı bir şəxsə bağışlamışdı. Fərmanda deyilirdi ki, Qudyal kəndi bütün əhalisi ilə birlikdə Ağa bəyə bağışlanır ki, göstərilən əhali ona qulluq göstərsin və tələb olunan vergiləri ona versinlər: Ağa bəy adı çəkilən ərazinin buzurqu (böyüyü-yəni hakimi) və tiyuldarı olurdu (Указы, səh. 23).

Bəzən rəncbərlər müəyyən qədər pul verməklə ağa üçün işləməkdən azad olunurdular. Məsələn, bir mənbəyə görə bəyə 10 manat gümüş pul verən şəxs onun üçün işləməkdən azad edilirdi (Обозрение, IV his., 115).

Quba xanlığında XIX yüzilliyin əvvəllərində 1358 rəncbər ailəsi qeydə alınmışdı (Губайдулин, 41).

Xanlıqda az miqdarda da olsa ev qulları var idi. Adətən Dağıstan sakinləri rusları gürcüləri və digər qeyri-müsəlmanları əsir götürüb qula çevirərək gətirib Azərbaycan xanlıqlarında satırdılar. 1796-cı ildə rus qoşunlarının Azərbaycana hücumu zamanı rus zabitləri qeyri-müsəlman mənşəli bir neçə qulu zorla sahiblərindən alıb özləri ilə Rusiyaya aparmışdılar (АВПРИ, ф. 77, siy. 6, iş 471, v. 64 a.ü.-65 a.ü.). Bir sıra hallarda müsəlman kişiləri qeyri-müsəlman qadınlara islam dinini qəbul etdirib onlarla evlənirdilər.

Əvvəlki dövrlərdə olduğu kimi xanlıqlar dövründə də vəqf torpaq mülkiyyəti forması mövcud idi. Vəqf öz əmlakını allah yolunda ruhani idarələrinə və ya ruhanilərin özünə həsr etmək barəsində müqavilə deməkdir. Vəqfnaməyə əsasən torpaq sahibi öz mülkündən istifadə hüququndan hər hansı dini müəssisənin və şəxsin xeyrinə imtina edirdi. Həmin idarə və ya şəxsiyyət onlara verilmiş əmlakın gəlirindən müəyyən məqsədlər üçün istifadə edirdi. Vəqf əmlakını satmaq, bağışlamaq, girov qoymaq və irsən vəsiyyət etmək olmazdı. Vəqf mülkiyyəti xəzinəyə vergi ödənməsindən azad idi.

Qeyd edək ki, xanlıqlar dövründə (nəinki xanlıqlar, ondan əvvəlki dövrlərdə də) su sahibliyi və sudan istifadə qaydalarını əks etdirən mənbələr yox dərəcəsindədir. Bu, bütün

islam ölkələrində olduğu kimi, Azərbaycanda da həyatın müxtəlif sahələrinin, o cümlədən su sahibliyi və sudan istifadə məsələlərinin Quran və müxtəlif şəriət kitabları əsasında tənzim olunması ilə bağlı idi.

Azərbaycanda hökm sürən adətlərə görə bütün sular iki qrupa bölünürdü; təbii halda olan sular (çaylar, bulaqlar, təbii göllər, qarasular və bataqlıqlar) və insan əməyi ilə təbii haldan çıxarılmış sular (arxlar, kəhrizlər və s. suvarma vasitələri) (Дингельштедт, 46).

Təbii halda olan suvarma mənbələri üzərində ümumi mülkiyyət mövcud idi və onlardan istifadədə məhdudiyyət yox idi. Belə sulardan istifadəyə görə kəndlilər heç bir haqq ödəmirdilər.

İkinci qrupa aid sular üzərində isə feodal mülkiyyəti mövcud idi. Belə suvarma mənbələrindən istifadəyə görə kəndlilər məhsulun müəyyən olunmuş hissəsini suvarma vasitəsinin sahibinə ödəməli idilər. Yeri gəlmişkən, Quba xanlığı işğal olunduqdan sonra rus məmurları bildirmişdilər ki, Dərbənd şəhəri və onun ətrafındakı bağları su ilə təmin edən iki arx vaxtilə xanın mülkiyyətində olmuş və ondan istifadəyə görə əhali xəzinəyə vergi ödəmişdir. Buna görə də məmurlar tələb edirdilər ki, indi də həmin arxların suyundan istifadəyə görə rus xəzinəsinə vergi ödənilsin.Yerli sakinlər isə bildirmişdilər ki, bu arxlar xanın deyil, şəhər əhalisinin kollektiv mülkiyyətində olmuşdur və onlar bu arxların suyundan istifadəyə görə heç bir vergi ödəməməlidirdər (ARDTA, f. 24, siy. 1, iş 24, v. 25).

Ümumi istifadədə olan su mənbələrindən su bol olduqda hər bir şəxs istədiyi qədər istifadə edə bilərdi. Su çatışmadığı şəraitdə isə növbə qaydası tətbiq olunurdu. Bu zaman kənd icmalarının su hövzəsində məskunlaşma vaxtı əsas götürülürdü. Daha tez məskunlaşmış kənd icması sudan birinci istifadə hüququna malik idi. Bir neçə kənd icması eyni vaxtda məskunlaşdıqları, yaxud onların məskunlaşdıqları vaxt məlum olmadıqda çayın, yaxud arxın axarı boyunca ən yuxarıda yerlə-

şən icma birinci, ondan sonra yerləşən ikinci növbədə sudan istifadə edirdi (Дингельштедт, 153-154). Sudan istifadə etmək məsələsində iştirakçılar arasında razılıq əldə edilmədikdə suvarma işlərinə nəzarət edən mirablar, yaxud onlardan daha aşağı pillədə dayanan cuvarlar növbəni tənzimləyirdilər (Talıbzadə, 65-67).

**c) Sənətkarlıq və ticarət**

Şah zülmünün ləğv edilib xanlıqların yaranması, Azərbaycanda sənətkarlığın və ticarətin inkişafına da şərait yaratmışdı.

Quba xanlığında sənətkarlıq yüksək inkişaf etmişdi. Sənətkarlığın ən çox inkişaf etmiş sahəsi toxuculuq idi. Xanlıq ərazisində qoyunçuluğun inkişaf etməsi toxuculuğun inkişafı üçün əlverişli zəmin yaradırdı. Rus səyyahı M.F.Biberştyen Quba xanlığının qoyunçuluq üçün çox əlverişli olduğunu qeyd edərək yazırdı ki, burada «qoyunları yayda dağlarda, qışda düzənliklərdə otarmaq mümkündür. Qışda bu yerlər və dənizin bütün həndəvəri çoxlu qoyun sürüləri ilə dolu olur» (Биберштейн, 43). P.Q.Butkov Quba xanlığında qoyunçuluqla yanaşı pambıqçılığın da yayıldığını yazaraq burada pambıqdan və qoyun yunundan evdə işlətmək və satış üçün mahud, xalı, xalça və pambıq parçalar toxunduğunu qeyd edirdi (Бутков (Выдержки), 203). Dərbənd şəhəri pambıq, yun habelə ipək parçaların toxunduğu mühüm mərkəz idi.

Toxuculuq istehsalında qadın əməyindən istifadə olunması kütləvi səciyyə daşıyırdı. Qadınlar bütün sərbəst vaxtlarında yun, pambıq və ipək əyirir, sonra isə parça toxuyurdular.

XVIII əsrin II yarısında Dərbənd şəhərində 200-dən çox ipək toxuyan dəzgah fəaliyyət göstərirdi (Обозрение, IV his., 178). Tarixi ədəbiyyatda XVIII əsrin sonunda Dərbənddə 195 karxana (emalatxana) olması haqqında məlumat var (Магомедов (1985), 8). 1796-cı ildə bu şəhərdə 30 ipək toxuyan emalatxana fəaliyyət göstərirdi. Bu emalatxanalarda

istehsal edilən tafta və darayi adlı parçalar öz keyfiyyətlərinə görə Şamaxıda toxunan belə parçalardan geri qalmırdılar (Бутков (Выдержки), 201). Bu dövrdə Dərbənddə fəaliyyət göstərən 113 toxucu emalatxanasında müxtəlif çeşidli pambıq parçalar hazırlanırdı (Бутков (Выдержки), 201). Dərbənddə toxunan pambıq parçalar yerli tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də ixrac edilirdi. Yalnız 1789-1791-ci illərdə Dərbənddən Rusiyaya yerli emalatxanalarda istehsal olunmuş 23407 ədəd basma və bez parçalar ixrac olunmuşdu (РГАДА, ф. 1261, siy. 6, iş 945, v. 24 a.ü.-25; iş 948, v. 119 a.ü.).

Xanlıq əhalisinin əhəmiyyətli hissəsi başlıca olaraq bitkiçilik və heyvandarlıq məhsullarının emalı ilə bağlı ev sənətləri ilə məşğul olurdular. Quba şəhəri və onun ətrafında – Nügədi, Çiçi, Amsar, Rustov və digər kəndlərdə əl dəzgahları olan çoxlu xalça karxanaları var idi. Quba xalçaları öz yüksək keyfiyyətli, gözəl naxışları və boyaların parlaqlığı ilə Azərbaycanın hüdudlarından kənarlarda, bütün Cənubi Qafqazda, İranda və Rusiyada şöhrət qazanmışdılar (Mustafayev, 94).

Quba xanlığında toxunan xalçalar öz keyfiyyyətlərinə və bədii tərtibatlarına görə seçilirdilər və digər xalçalara nisbətən daha yüksək qiymətləndirilirdilər. Xanlığın İmanqulukənd, Çiçi, Zeyvə və Pirəbədil kəndlərində toxunan xalçalar xüsusilə məşhur idilər. Həmin xalçalar sapların nazikliyi, ilmələrin sıxlığı, rəsmlərinin gözəlliyi ilə fərqlənirdilər. Çiçi kəndində toxunan «Xırdagül çiçi», «Ağgül Çiçi», adlı xalçalar xarici bazarlarda və yarmarkalarda ən rəvac mal hesab edilir, müxtəlif ölkələrdən olan xalça mütəxəssislərinin diqqətini cəlb edirdilər (Mustafayev, 94). Xalça toxumaqla ancaq qadınlar məşğul olurdular. XIX əsrin əvvəllərində tərtib edilmiş təsvirlərdən məlum olur ki, xanlıq ərazisində 850 ailə xalça və palaz toxumaqla məşğul olmuşdular. Ailələrin hər biri ildə ən azı bir xalça və iki palaz toxuyurdu (Обозрение, IV his., 137).

Toxuculuqla sıx bağlı olan boyaqçılıq istehsalı da Quba xanlığında yayılmışdı. Xanlıq ərazisində, xüsusən də Dərbənd ətrafında rus mənbələrində «marena» adlandırılan boyaqotu

(qızıl boya)nun külli miqdarda bitməsi boyaqçılığın inkişafı üçün əlverişli zəmin yaradırdı. Marena qırmızı rəng əldə etmək üçün ən yaxşı xammal hesab olunurdu. Marena həm də xarici ölkələrə, ilk növbədə Rusiyaya ixrac olunurdu. Təkcə 1778-1781-ci illər ərzində Dərbənddən quru yolla Qızlara 39382 pud, 1789-1793-cü illərdə isə dəniz yolu ilə Həştərxana 30 min puda yaxın marena göndərilmişdi (Mustafayev, 92). Rusiyaya ixrac olunan marenanın miqdarı göstərilən rəqəmlərdən qat-qat çox idi, çünki ixrac olunan marenanın çox hissəsi gömrük rüsumundan yayındırlırdı, bunun üçün də rəsmi qeydiyyata alınmırdı. Alman səyyahı Pallas 1794-cü ildə Həştərxanda olarkən buraya eyni vaxtda hər birinə 5 min pud marena yüklənmiş beş gəminin yan aldığını görmüşdü (Mustafayev, 98).

Dəmirçilik sənəti də xanlıqda geniş yayılmış sənətlərdən biri idi. Xanlıq dövründə Qubada 15, Dərbənddə 11 dəmirçinin fəaliyyət göstərməsi haqqında məlumat vardır (Обозрение, III his., 312).

Dəmirçilər başlıca olaraq kotan və dəmir gavahınlı xış, müxtəlif bellər, zəncirlər, balta, oraq, dəryaz, dırmıq və s. hazırlayırdılar. Dəmirçilərin digər bir qrupu məişət əşyaları-dəmir tavalar, saclar, manqallar, saçayağı, qayçı, qıfıl, maşa, ərsin və s. istehsal edirdilər. Başqa qrup dəmirçilər isə müxtəlif sənətkarlar üçün əmək alətləri - çəkic, zindan, müxtəlif mişarlar, kərkilər və digər kəsici alətlər hazırlayırdılar (Mustafayev, 119).

Xanlığın dağlıq ərazisində qızıl, gümüş və qurğuşun yataqları aşkar edilibmiş. Lakin Fətəli xan qonşu Dağıstan feodallarının qızıl və gümüş yataqlarını ələ keçirməyə cəhd edəcəklərindən ehtiyat edərək onların basdırılması barədə göstəriş veribmiş. Qurğuşun yataqları isə istismar olunurdu (Ахвердов, с. 404).

Dərbənddə, Qubada və Salyanda zərbxanalar fəaliyyət göstərirdi (Обозрение, III his., 311-312). Dərbənddə zərb olu-

nan gümüş sikkələr Qubada zərb olunan sikkələrdən daha keyfiyyətli idi.

Xanlıqlar dövründə Azərbaycanda baş verən feodal-ara müharibələri, qonşu dövlətlərin basqınları tikinti sənətinə dərin təsir göstərirdilər. İqtisadi tənəzzül də tikinti sənətinin inkişafına mənfi təsir göstərirdi. Xanlığın paytaxtı Quba şəhərində müdafiə səciyyəli bir sıra tikinti işləri aparılmışdı. Şəhərin üç ətrafına qala divarları çəkilmişdi. Dördüncü tərəf Qudyalçayın sıldırım sahili ilə müdafiə olunurdu. Səyyahların verdiyi məlumata görə Qubanın kərpicdən tikilmiş qala divarlarının eni 2, hündürlüyü isə 6,5-8,5 metrə çatırdı (Бутков, I his., 286). S.Qmelin 1770-ci ildə Quba qalası divarlarının 30 il əvvəl inşa olunduğunu yazırdı (Гмелин, 48-49). Deməli bu divarlar 1740-1750-ci illər arasında tikilibmiş.

Dərbənddə silahqayırma emalatxanası vardı. Bu şəhərdə və ona bitişik bölgələrdə ev şəraitində bazar üçün pambıq parçalar da istehsal edirdilər. Qubada ev sənətkarlıq istehsalında boyaq istehsalı mühüm yer tuturdu. Burada böyük miqdarda şal toxunurdu. Quba, Dərbənd, Axtı, Doqquzparada silah qayırırdılar, Azərbaycanda zərgərlik sənətinin ən çox yayıldığı yerlərdən biri Quba xanlığı idi (Абдуллаев (1965), 140).

Quba xanlığında mühüm təsərrüfat sahələrindən biri balıqçılıq idi. Balıqçılıq Salyanda və Niyazabadda inkişaf etmişdi. Salyanda və Niyazabadda nərə balığı, ağ balıq, şamay balığı, kütüm və s. zəngin idi (Чулков, c. 2, kit. 2, 553).

S.Qmelin yazırdı ki, Kür çayı mənsəbində şaxələndiyi yerdə qollar arasındakı adacıqlar çox alçaq səthə malikdirlər və balıq ovlamaq üçün çox əlverişlidirlər. Dənizdən Kür çayına çoxlu uzunburun balıq və nərə balığı daxil olur.Qmelin yazırdı ki, rus tacirləri müəyyən şərtlərlə Kür çayında balıq ovlamaq hüququnu asanlıqla əldə edə bilərlər.Sahildə dayanan gəmilər istənilən anda quldurlardan sığınmaq üçün sığınacaq rolunu oynaya bilər(ПФА РАН, f.3, siy.34, iş 20, v.118 a.ü. – 119)

Xanlar balıq vətəgələrini yerli və rus tacirlərinə müqatiəyə verirdilər. Lakin başqaları da xan xəzinəsinə vergi vermək şərtilə balıq ovlamaqla məşğul ola bilərdilər. Kürün mənsəbindəki vətəgələrdən xəzinənin gəliri ildə 50 min gümüş rubla çatırdı (Абдуллаев (1965), 126; Биберштейн, 14).

Arxiv sənədində deyilir ki, Həştərxan taciri Mixayle Knyazevə Kür çayında balıq tutmağa icazə verilmişdi. Ancaq bu zaman yerli balıqçılar da balıq ovlamaq hüququndan məhrum edilməmişdilər.Onlar tutulan orta ölçülü hər nərə balığı, ağ balıq və şamayıya görə 5, uzunburuna görə 21, qızıl balığa görə 25 qəpik ödəyirdilər. Kiçik ölçülü balıqların ikisi bir balıq sayılırdı. Balıqların duzlanması üçün lazım olan duz Salyan ərazisindəki göllərdən toplanırdı.Bu zaman hər xarvar(20 pud) duza görə xan xəzinəsinə 2 rus rublu məbləğində pul ödənilirdi.Qızıl balıq və şamayı başlıca olaraq Dərbənd, Bakı, Quba, Rəşt və digər yaxın yerlərə, nərə balığı, ağ balıq və uzunburun, onlardan əldə edilən kürü və digər məhsullar isə Rusiyaya daşınırdı(ПФА РАН, f.3/34, iş 41, v.6a.ü.).

Xanlıq ərazisində duz gölləri də var idi. Məsələn, Quba şəhərindən 50 verst aralıda dəniz sahilində uzunı 130 sajen (1sajen 3 arşına bərabər idi) və eni 120 sajen olan zəngin bir duz gölü vardı. Həmin göldən sakinlər sərbəst şəkildə, xəzinəyə heç bir vergi ödəmədən istifadə edirdilər (ARDTA, f. 24, siy. 1, iş 39, v. 5).

Dərbənd, Quba, Salyan əvvəlkitək sənətkarlıq və ticarət mərkəzləri idilər. Bazarlarda maldarlıq və əkinçilik məhsulları – ət, balıq, dəri, meyvələr, sənətkarlıq məhsulları, xaricdən gətirilən mallar satılırdı. Şəhər və mahal bazarlarında müxtəlif ticarət sövdələşmələri bağlanırdı. Ticarət pərakəndə və topdansatış qaydada aparılırdı. 1796-cı ildə Dərbənddə 6 karvansara, 450 ticarət-sənətkarlıq dükanı, və zərbxana var idi (АВПРИ, f. 77, siy. 5, v. 56-57).

Dərbənd böyük bazara malik idi. «Dərbəndə Şamaxıdan ipək və Şamaxıda hazırlanmış ipək məmulatı: movlar, darai, laici və bu kimilər, Tarku və ona qonşu yerlərdən qızıl boya, kubeçə mahudu, yapıncı, mis, inək yağı, quzu dərisi, quru meyvələr, Kubeçədə hazırlanmış silah, tapançalar və qılınclar, Bakıdan qətran, neft və duz gətirilirdi» (ПФАРАН, f. 99, iş 14, v. 5-5 a.ü., 469; Abdullaev (1965), 140). Qubalılar və Dərbənddən o yanda yaşayan dağlı xalqları: tabasaranlılar, qazıkumuklar, axtılılar, rutullar və başqaları öz məhsullarının bir hissəsini Dərbəndə, digər hissəsini quru yolla Bakıya gətirir, əvəzinə neft, duz və rus malları alırdılar (АПИИРАН, f. 36, iş 553, v. 5; Абдуллаев (1965), 140-141).

Quba, Şabran və Müşkür ilə Bakı arasında sıx ticarət əlaqəsi var idi. Quba nəinki Dərbənd və Bakını buğda ilə təmin edirdi, hətta bəzən Qızlara taxıl ixrac edirdi. Natural mübadilə də yayılmışdı. Bakı sakinləri qonşu vilayətlərə duz və ağ neft apararaq buğda ilə dəyişirdilər (РГВИА, f. ВУА, iş 18474, v. 26-27; Абдуллаев (1965), 141). Gilan vilayəti və Şamaxıdan şəhərə pambıq-parça və ipək parçalar: qutni, kanavat, kiseyi, və burmet gətirir, burada dağlarda hazırlanan və Kubeçi şal adlanan zərif mahudla dəyişirdilər.

Xanlıqda ticarət nisbətən zəif inkişaf etmişdi. Çünki, əvvəla xanlıq əhalisinin əksəriyyəti yardımçı ev istehsalı ilə də məşğul olurdu. Kəndlərdə müəyyən qədər kustar-sənətkar istehsalı da mövcud idi. Əhalinin istehsal fəaliyyətinin keyfiyyət yekcinsliyi xanlığın ayrı-ayrı hissələri arasında geniş ticarət əlaqələrinin inkişafına şərait yaratmırdı. İstehsalın başlıca məqsədi istehsalçıların özlərinin və feodalların istehlak tələbatını ödəməkdən ibarət idi. Yalnız istehsalın müəyyən artıqları, o da nadir hallarda satışa çıxarılırdı.

Lakin əmək bölgüsünün inkişafı və şəhərin kənddən ayrılmasının güclənməsi ilə əlaqədar xanlıqdakı təsərrüfat vahidlərinin qapalılığı getdikcə daha çox pozulurdu.

Xanlığın başlıca daxili və xarici ticarət mərkəzi Dərbənd və qismən də Quba idi. Ətraf kəndlərin sakinləri bu şə-

hərlərə gələrək öz məhsullarını satır və lazımi malları alırdılar.

Ticarətlə məşğul olanlar xanın hesabına vergi və rüsumlar ödəyirdilər. Mizan (malların çəkilməsinə görə), mal-qara satışından alınan rüsum, qəssabxana və rəhdarı (şəhərə gətirilən mallardan alınan gömrük) başlıca gəlir növləri idi (Магомедов, 11). Satışa çıxarılan bütün əmtəələrdən gömrük rüsumları alınırdı. Əmtəə nə qədər baha olurdusa alınan vergi də çox olurdu. Parça məmulatından vergi top hesabına alınırdı.

Quba xanlığında xarici ticarət daha çox inkişaf etmişdi. Bu, xanlığın tərkibində Dərbənd kimi mühüm limanın olması və Xəzərin ən mühüm limanı olan Bakının uzun müddət Quba xanlarından asılı vəziyyətdə olması ilə əlaqədar idi.

Daxili ticarətdən fərqli olaraq xarici ticarət demək olar ki, bütünlüklə peşəkarların əlində cəmlənmişdi.

Qubalılar qonşu xanlıqlarla, İran, Türkiyə və Rusiya ilə ticarət edirdilər. Quba xanlığından kənara qaramal, davar, taxıl, xam ipək, mis, boyaq, ağ və qara mahud, xalça və kətan və s. çıxarılır, xanlığa isə Rusiyadan mahud, qənd, dəmir, İrandan şal, başmaq, düyü gətirilirdi.

Quba xanlığı ilə Rusiya arasında 1782-ci ildə ticarət sazişi imzalanmışdı. Fətəli xanın 1782-ci il avqustun 26-da imzaladığı təəbhüddə deyilirdi ki, onun hakimiyyəti altında olan bütün yerlərə – Dərbəndə, Bakıya, Salyana, Rusiya ticarət gəmilərinin yan aldığı hər bir yerə xəbər verilməlidir ki, oradakı xanlar, sahibkarlar və xanın tabeliyində olan başqa adamlar Rusiya təbəələrinin işlərinə əsla qarışmasınlar (РГВИА, f. 52, iş 288, v 13, 14)

Xarici ticarətin inkişafını bir sıra maneələr ləngidirdi. Əvvəla tacirlər bu və ya digər xanlığın ərazisindən keçərkən xanların xeyrinə rəhdar rüsumu ödəməli idilər. Sonsuz müharibələr ticarətin inkişafı üçün çox ciddi maneə idi. Ticarətdə müxtəlif çəki və ölçü vahidlərindən istifadə olunması da ticarətin inkişafına əngəl törədirdi.

Quba xanlığında yerli pullarla yanaşı, digər xanlıqlarda kəsilən sikkələr, İran, Türkiyə və Rusiya pullarından da istifadə olunurdu.

Dərbənddən Bakıya xarici ölkələrin elçiləri adətən bu yolla getdikləri üçün xalq arasında «elçi yolu» adlandırılan rahat yol uzanırdı.

Quba Bakı ilə sıx ticarət-iqtisadi əlaqələri saxlayırdı. Qubadan Bakıya malları arabalarda, çox vaxt karvanlarla daşıyırdılar (РГВИА, f. ВУА, iş 18474, v. 32; Абдуллаев (1965), 142). Qubadan Bakıya buğda, arpa, qızıl boya, xalçalar, müxtəlif mahud şallar, ağac-meşə məmulatı, odun, müxtəlif çeşidli taxtalar və s. aparılırdı. Qubadan həmçinin kənd təsərrüfatı alətləri, arabalar da aparılırdı.

Bütün bunları digər mallara dəyişirdilər. Salyandan Bakıya ipək və pambıq-parça məmulatı aparılırdı (Абдуллаев (1965), 142). Salyan Quba xanlığının Rusiya ilə ticarətində böyük rol oynayırdı. Bura Şamaxı, Gəncə, Qaradağ, Ərdəbil, hətta İrəvan və başqa xanlıqlardan tacirlər gəlirdi.

Quba xanlığına İranın şəhərlərindən – Şiraz, İsfahan və Tehrandan da mallar gətirirdilər. Bu şəhərlərdən başlıca olaraq ipək və pambıq parçalar gətirirdilər. Mazandarandan xalçalar, parçalar, şal, pərdələr, yataq üçün örtük, başmaqlar, düyü, müxtəlif meyvələr gətirirdilər (ПФАРАН, f. 99, iş 14, v. 473).

Quba xanlığında (Salyanda) bir pud balıq üçün nərə balığından və ağ balıqdan 5 qəpik, uzunburun balıqdan 21-22 qəpik, qızıl balıqdan 25 qəpik, şamayının 3 pudundan 5 qəpik gömrük alınırdı (ПФАРАН, f. 3, iş 41, v. 6; Абдуллаев (1965), 142-145). Tarixi ədəbiyyatda xanın Dərbənddən ildə 20 min manat və daha çox gəlir götürdüyü göstərilir (Абдуллаев (1965), 145).

**d) Əhalinin sosial-silki tərkibi**

Feodal nərdivanının ən yüksək pilləsində xan dururdu. A.Bakıxanov yazırdı ki, xan həm daxili, həm də xarici siyasətdə tamamilə suveren idi, bütün feodallar ona tabe idilər. Lakin

şəriətin başlıca əsaslarını və yerli adətləri poza bilməzdi (Колониальная пол., his. 1, 137). Xandan sonrakı yeri xan ailəsinin üzvləri tuturdu, lazım gəldikdə xan onlara tərpənməz əmlak bağışlayırdı. Xanlığın yüksəliş dövrlərində onun tərkibində asılı xanlar (Cavad, müəyyən illərdə Bakı, Şamaxı, Lənkəran) var idi.

Salyan xanlığı Qubaya birləşdirildikdən sonra oranı Quba xanı tərəfindən təyin olunan sultan idarə edirdi. Bu vəzifəni əvvəllər Kəlbəli sultan, ondan sonra isə Qubad sultan tutmuşdu (Абдуллаев (1965), 156). Şəhər naibləri də sultan kimi yüksək səlahiyyətlərə malik idilər. Lakin onların vəzifəsi irsi keçmirdi.

Nərdivanın növbəti pilləsində bəylər dururdular. Bəylər çoxsaylı təbəqə idilər, xanlara müxtəlif inzibati və hərbi qulluq göstərirdilər; hakim sinfin özəyini təşkil edirdilər. Bəylər irsi və qulluq bəylərinə bölünürdülər. İrsi bəylər böyük hüquqlara malik idilər, onların sələfləri bu rütbəni şahlardan və xanlardan almışlar. İrsi bəylər xan hakimiyyətinin güclənməsini istəmirdilər. Fətəli xan qulluq bəylərini himayə edir və irsi bəylərə qarşı mübarizədə onlara arxalanırdı. Qulluq bəylərinin rütbəsi müvəqqəti səciyyə daşıyırdı, tutduğu vəzifədən kənarlaşdırıldıqda rütbəni də itirirdilər.

Xidməti bəylər hərbi və inzibati qulluq göstərir, bunun müqabilində rəiyyətlər və rəncbərlər tərəfindən məskunlaşmış torpaq sahələri şəklində məvacib alırdılar. Şərti torpaq mülkünün bəylərin birindən alınıb digərinə verilməsi halları olurdu (Абдуллаев (1965), 111).

A.Bakıxanov yazırdı ki, xanın qohumları və irsi bəylər müəyyən olunmuş qaydada rəiyyətdən məhsulun bir hissəsini alır, onları işləməyə məcbur edir, darğa, kəndxuda və kovxanı dəyişmək hüququna malik idilər.

Onlar xırda cinayətlərə görə cəza vermək və cərimələmək hüququna malik idilər. Mühüm işlərə baxmaq isə xanın ixtiyarında idi. Digər rəiyyətlər bəyin tarlasını becərdikdə bəy onlardan məhsulun bir hissəsini- bəhrə alırdı. Bəyin varisləri-

oğulları əmlakı bölüşdürdükdə atalarının malik olduğu rəiyyətləri də öz aralarında bölüşdürürdülər. Bəylər qızlarını ərə verərkən onlara nökər və kənizlər verə bilərdilər. Bəzi əsilzadə bəylər naib, məlik və sair titullarla müəyyən əraziləri irsən idarə edirdilər. Onlar öldükdə ailədə ən böyüyünə yaxud ən nüfuzlusuna xan təliqə verərək onun yerinə təyin edirdi. Bu cür bəylərin xəyanət etdiyi aydınlaşdıqda xan onun yerinə digər bəy təyin edə bilərdi. Lakin irsi bəylərin öz irsi mülkləri də var idi ki, xan həmin mülkləri heç vaxt onların və ya ailəsinin əlindən ala bilməzdi (Колониальная пол., I his., 143).

Yenə A.Bakıxanovun yazdığına görə əgər bəy xanlıqdakı qaydalara və adətlərə məhəl qoymayaraq rəiyyətləri sıxışdırırdısa, xan bunun qarşısını alırdı. Bəyin nüfuzu rəiyyəti hansı vəziyyətdə saxlanmasından asılı idi (Колониальная пол., I his., 143).

Quba xanlığında digər Azərbaycan xanlıqlarından fərqli olaraq məmurlar «yedizdirmə» ilə yanaşı xan xəzinəsindən məvacib də alırdılar. Sərhəd və qarnizon xidmətçiləri ancaq məvacib alırdılar (Колониальная пол., I his., 84-85; Абдуллаев (1965), 112). Ticarət yollarının mühafizəsi eşik ağası adlı məmura tapşırılmışdı (Абдуллаев (1965), 112).

Azərbaycan xanlıqlarında vergilərdən və mükəlləfiyyətlərdən azad olunmuş, lakin hakimin əmri ilə hərbi qulluğa getməli olan elatlar və bir qisim şəhərli şəxslər olurdu. Xanlıqlar dövründə maaflıq vergidən azad olunmaqla yanaşı, həm də hərbi və xidməti əhəmiyyət kəsb etmişdi. Vergidən azad edilənlər xan qoşunlarının əsas hissəsini təşkil edirdilər. Maaflara torpaq sahələri də verilirdi.

Bəzən bütöv bir kəndin sakinləri vergi verməkdən azad (maaf) edilirdi. Bu məsələ ilə bağlı XVIII əsrin müxtəlif illərinə dair üç sənədin məlumatı diqqəti cəlb edir. 1705-ci ilə dair bir sənəddə Xudat qəsəbəsi icmasının vergilərdən azad edildiyi göstərilirdi (Указы, sən. 1).

Sultan Əhməd xanın 28 iyul-25 avqust 1710-cu il arasındakı (1122-ci ilin cümadə-axer ayı) verdiyi fərmanda yenə

də Xudat camaatının kollektiv şəkildə vergilərdən maaf olduğu təsdiq edilirdi. Fərmanda göstərilir ki, mərhum Əhməd xanın fərmanı ilə Xudat qəsəbəsi vergilərdən maafdır, bundan sonra da maaf olaraq qalır: Başqa yerlərdən Xudata gəlib orada yaşayan kəndlilərdən də vergi yığılmalıdır (Указы, sən. 2). Sonralar, 1727-ci il iyulun 28-i–avqustun 18-i arasındakı (1139-cü ilin zilhüccə ayı) verilən fərmanla Hüseynəli xan, da Xudat camaatının maaflıq hüququnu təsdiq edirdi (Указы, sən. 3).

Tarixi ədəbiyyatda olan bir məlumata görə Quba xanlığının Dağıstanla qonşu olan Yuxarıbaş, Anıxdərə, Xınalıq və Buduq mahallarının kənd icmaları nəinki xəzinəyə vergi və mükəlləfiyyətlərdən azad idilər, hətta xandan bəxşişlər alırdılar. Keçmiş Bakı hakimi Mirzə Məhəmməd xana və onun qohumun Əlipaşa bəyə məxsus 5 kənd və Buduq naiblərinə irsi məxsus olan iki kənd – Talış və Buduq kəndləri də xəzinənin xeyrinə heç bir vergi və mükəlləfiyyət yerinə yetirmidilər (Колониальная пол., I his., 107).

Quba xanlığında hərbi mükələfiyyət daşıyan «namnauzlar» adlanan xüsusi zümrə də var idi. (Namnauz fars sözü olub hərbi mənası adı (siyahıya) yazılmış deməkdir).

Hər bir namnauz ailəsi xəzinəyə ildə 2-16 xan manatı ödəyir, qalan vergi və mükələfiyyətlərdən azad idi. Hərbi əməliyyatlar zamanı onlar müəyyən qədər süvari döyüşçü çıxarmalı, həmin döyüşçüləri silah-sursatla təmin etməli idilər (Колониальная пол., I his., 84). XIX əsrin əvvələrində Quba xanlığı ərazisində 109 namnauz ailəsi qeydə alınmışdı.

Quba xanlığında, digər xanlıqlarda olmayan bir zümrə də vardı: hərbi nökərlər. Onlar bir növ daimi döyüşçülər idi. Hərbi nökərlər hərb dövründə bütün yaraq-yasaqları ilə yürüşə çıxır, sülh dövründə isə xanlığın sərhədlərində, yollarda, körpülərdə keşik çəkir, məmurları, dustaqları müşaiyət edirdilər. XIX əsrin əvvəllərində xanlıq ərazisində 400 nökər ailəsi vardı. Bundan əlavə nökərlərə başçılıq etmək üçün 5 yüzbaşı vardı (Колониальная пол., I his., 84-85).

Ali ruhanilər də hakim feodal sinfinə yaxın vəziyyətdə idi. Bütövlükdə isə ruhaniləri feodal sinfinə daxil etmək düzgün deyildir. Ruhanilər xüsusi zümrə idilər.

Ruhanilərin bir hissəsi- ruhanilərə rəhbərlik edən, eləcə də hüquqi məsələlərdə həlledici səsə malik olan axundlar, əfəndilər, qazılar öz mövqelərinə görə feodal sinfinə daxil idilər. Yüksək vəzifəsi olmayan, lakin ali dini təhsil vermək hüququ olan müdərrislər, görkəmli ilahiyyatçılar da feodal sinfinə daxil edilə bilər. Ruhanilər zümrəsinin orta və aşağı təbəqəsinə daxil olanlar-özlərini yalnız dini ibadətə və ayinlərin icrasına həsr edən imamcümələr, pişnamazlar, mərsiyəxanlar, vaizlər, mollalar, əsasən ibtidai dini təhsillə məşğul olan məktəbdar mollalar isə öz vəziyyətlərinə görə feodallarla kəndlilər arasında bir mövqedə dururdular. Azad ruhanilər - seyidlər, ağamirlər, şeyxlər və bəzi mollalar da bu mövqeyə malik idilər. Aşağı təbəqəyə daxil olan və məscidə xidmət edən müəzzinlər, xadimlər, mürdəşirlər isə sosial vəziyyətlərinə görə yoxsul və ortabab kəndlilərdən heç nə ilə fərqlənmirdilər (Hüseynli, 10).

Ruhanilərin başlıca gəliri vəqf mülklərindən toplanan torpaq rentasından, habelə bütün əhalidən toplanan zəkat və fitrədən ibarət idi.

Quba xanlığında kəndlilər digər xanlıqlarda olduğu kimi bir neçə qrupa bölünürdülər: rəiyyətlər, rəncbərlər və elatlar.

Rəiyyət ərəb sözü «rəyya»-nın cəm şəkli olub hərfi mənası təbəə deməkdir və geniş mənada bütün vergi verənlər rəiyyət adlanırdı. Rəiyyətlərin istifadəsində əkin və bağ sahələri olur, öz təsərrüfatları, ev və qoşqu heyvanları vardı. Onlar müəyyən vergi və mükəlləfiyyətlər yerinə yetirməli idilər. Xəzinə rəiyyətlərinə nisbətən sahibkar rəiyyətlərinin vəziyyəti daha ağır idi. Çünki onlar həm xəzinə, həm də sahibkar tərəfindən istismar edilirdilər.

Öz şəxsi təsərrüfatı olmayan kəndlilərə rəncbərlər deyilirdi. Rəncbər (Fars sözüdür «əzabçəkən» deməkdir – T.M.)

Rəncbər sahibkardan təsərrüfat fəaliyyəti üçün lazımi iş heyvanları, əmək alətləri, toxum və s. alırdı. Bundan asılı olaraq məhsulun üçdə birdən ikidə birinə qədəri rəncbərə çatırdı. Çəltik əkinləri, tut bağları və s. paydarlıq şərtilə icarəyə verilirdi. İcarədar rəncbərlər toplanılan məhsulun 1/5-dən 2/3-nə qədərini torpaq sahibinə verirdilər. Elə rəncbərlər də olurdu ki, müəyyən bir şəxsə təhkim olurdular. Bu cür rəncbərlərin sahibləri həmin rəncbərlərə görə xəzinəyə müəyyən miqdarda vergi ödəyirdilər. Bəzi rəncbərlər isə konkret bir şəxsə deyil müəyyən vəzifəyə, məsələn mahal naibinə təhkim edilirdilər.

1790-cı il avqustun 12-si sentyabrın 11-i arasında (h. 1204-cü ilin zilhiccə ayı) verilmiş fərmanla Əhməd xan şirvanlı Əsgər və Malikin bundan sonra Əfəndi Hacı Çələbinin tabeliyinə verildiyini və həmin əfəndinin onların hər ikisini özünün məsləhət bildiyi hər hansı bir kəndə, Alıca və yaxud başqa bir yerə göndərmək səlahiyyətinə malik olduğunu bildirirdi (Указы, sən. 8). Şeyxəli xanın 1792-ci il 12 fevral-13 mart tarixdə (h. 1207-ci il rəcəb ayı) verdiyi fərmanla Ustad Baba adlı bir şəxsin Ağa bəyin ixtiyarına verildiyi göstərilir və onun Rəmrək kəndinə göndərilməsi haqqında sərəncam verilir (Указы, sən. 10). Yarım il sonra 1792-ci ilin sentyabr-oktyabr aylarında yenə Şeyxəli xan tərəfindən başqa bir şəxsin – Əsəd Çiləkrinin oğlu Məhəmmədin Ağa bəyin şəxsi tabeliyinə verilməsi haqqında sənəd də vardır (Указы, sən. 11).

Rəncbərlər təhkim olunduqları ağanın yanından gedə bilməzdilər. Feodallar onları digər torpaq sahələrinə köçürə bilərdilər. Xanlar ayrı-ayrı feodallara rəncbərlər bağışlaya bilirdilər (Указы, sən. 8; Абдуллаев (1965), 164).

Quba xanlığında, digər Azərbaycan xanlıqlarında olduğu kimi feodallardan asılı kənd icması mövcud idi. İcmalar daxilində torpağı hər müəyyən müddətdən bir xış və kotana görə bölürdülər. Kotan arteli hesab olunan hər kotana beş ev daxil idi. Adətən, hər bir kotan arteli birgə əkir, biçir və məhsul ailələr arasında, sərf olunmuş əmək müqabilində bölünürdü (МИЭБГКЗ, II his., 261). Kəndlilərin bir hissəsini nisbətən az

asılı olan elatlar təşkil edirdi. XVIII əsrə kimi quldarlıq bir sosial uklad kimi aradan çıxmışdısa da ev quldarlığı şəklində onun xırda qalıqları mövcud idi. Qulları adətən dağlılardan alırdılar və qullar bir qayda olaraq qeyri-müsəlman idilər.

Quba xanlığının sosial-silki quruluşunda tacirlər, sənətkarlar və şəhər yoxsulları da müəyyən yer tuturdu. Xanlığın sosial-silki quruluşuna dair cədvələ diqqət yetirək.

Aşağıdakı cədvəldən[4] aydın olur ki, Quba xanlığı əhalisinin dörddə biri vergi verməyənlərdən ibarət idi.

Bunu da əlavə etmək lazımdır ki, rus işğalından sonra təşkil olunmuş Quba əyalətinə aid olan bu cədvəl heç də keçmiş Quba xanlığının bütün ərazisini əhatə etmirdi. Çünki Quba əyaləti təşkil olunarkən xanlığın tərkibində olmuş Dərbənd şəhəri və onun ətrafındakı iki mahal əyalətin tərkibinə salınmamışdı.

Quba xanlığının sosial-silki quruluşu

| Mahallar | Bütün həyətlər | Vergi verməyənlər | | | | | | | | | Vergi verməyənlər cəmi | Vergi verənlər | Vergi verməyənlər faizlə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | bəylər | axundlar | seyidlər | mollalar | Xristian-uhanilər | Yüzbaşılar | Yasavullar | kətxudalar | nökərlər | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 12 | 13 | 14 | 15 |
| Bərmək | 540 | 23 | 6 | 17 | 12 | - | 7 | - | 10 | 83 | 158 | 382 | |
| Şabran | 732 | 20 | 10 | 11 | 16 | - | 5 | 17 | 11 | 202 | 292 | 440 | 40 |
| Şeşpara | 640 | 5 | 22 | 11 | 12 | 2 | 3 | 7 | 12 | 147 | 221 | 419 | 36,5 |
| Müşkür | 275 | 10 | - | - | 8 | - | 4 | 3 | 12 | 54 | 91 | 185 | 33 |
| Tip | 630 | 12 | 9 | 4 | 18 | - | - | 18 | 22 | 156 | 239 | 381 | 38 |
| Xınalıq | 640 | 1 | 5 | - | 6 | - | 5 | - | - | 19 | 36 | 604 | 6 |

[4] Qeyd: Cədvəldəki göstəricilər 1810-cu ildə toplanmışdır (Leviatov, 50; Azərb. tar. (1996), 562-563).

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Buduq | 623 | 4 | 4 | 30 | 8 | - | - | 2 | 5 | 32 | 85 | 438 | 16 |
| Yuxarıbaşı | 638 | 1 | 6 | - | 10 | - | 15 | - | - | 7 | 39 | 599 | 6 |
| Sırt | 484 | 1 | - | - | 15 | - | - | 1 | 20 | 10 | 47 | 437 | 10,5 |
| Anaqdərə | 161 | - | 1 | - | 7 | - | - | - | 8 | 10 | 26 | 135 | 16 |
| Xanlıq üzrə cəmi | 5363 | 77 | 63 | 73 | 112 | 2 | 39 | 48 | 100 | 720 | 1234 | 4020 | 202 |

**Əhalinin ödədiyi vergi və mükəlləfiyyətlər.**

Azərbaycan xanlıqlarında kəndlilərin ödədikləri vergi və mükəlləfiyyətlər əsasən oxşar idi, lakin həcmlərində fərqlər vardı. Toplanılan məhsulun torpaq sahibinə çatan hissəsi Quba xanlığında malcəhət adlanırdı. Onun həcmi 1/10-dən 1/5-ə çatırdı. Xanın xeyrinə pulla töycü alınırdı. İdarəçinin xeyrinə darğalıq yığılırdı. Uşr əsasən çəltik məhsulundan toplanırdı, bağpulu bağ sahiblərindən alınırdı; çöpbaşı xəzinə otlaqlarından istifadəyə görə və bəy atlarını yemlə təhciz etmək üçün alınırdı. Rəiyyət hər bayramda ağaya bayramlıq adı almış peşkəş aparmalı idi. Adına görə könüllü olsa da bir növ məcburi səciyyə almışdı.

Ayrı–ayrı torpaq sahiblərinin idarəçiliyində olan kəndlər xəzinəyə ödədikləri pul və taxıl töycüsündən əlavə bəylərin, yaxud kəndləri idarə edən digər şəxslərin xeyrinə aşağıdakı vergi və mükəlləfiyyətləri ödəyirdilər: 1) Hər növ taxıl məhsulunun onda bir hissəsini verməli; 2) Hər bir təsərrüfatdan 2 araba odun və hər iki təsərrüfatdan bir araba saman və ya küləş verməli. Bir cüt qoşqu heyvanı olmayan yoxsullar bu mükəlləfiyyətdən azad edilirdilər; 3) Ehtiyac olduqda hər on təsərrüfat bir işçi verməli idi; 4) Ağa ev tikdirdikdə kənd elliklə 6 gün tikintidə çalışmalı idi; 5) Bəy yürüşə və yaxud ayrı səfərə yollandıqda yükdaşıyan at verilməli idi. 30-dan artıq təsərrüfatı olan kəndlər bu mükəlləfiyyətdən azad idilər; 6) Əvrəz zamanı yaxud hamı könüllü işə dəvət olunduqda kəndlilər bəy üçün işləməli, ağa da bu zaman yaxşı yemək verməli idi; 7) Hər bir ev öz bəyi üçün 3 ruba çəltiyi döyüb təmiz düyüyə çevirməli idilər, bu mükəlləfiyyəti ancaq kotanı olanlar yerinə yetirirdi; 8) Bəyin taxılını şəhərə çatdırılmalı; 9) 10-

dan aşağı ev olmayan hər kənd bəyin sərəncamına 1 xidmətçi, 1 əkinçi və 1 mehtər verməli idi; 10) Bəyə çatan vergilər kəndxudalar tərəfindən toplanırdı. Əgər bu iş üçün bəy öz adamlarını göndərirdisə baş verə biləcək zorakılıq və özbaşınalıqlar üçün məsuliyyət daşıyırdı.

Rəiyyətlərin daşıdıqları mükəlləfiyyətlərin yerinə pul almaq qadağan idi.

Elatlar da istismara məruz qalırdılar. Onlar tayfa əsilzadələrinin mal-qarasını otarır, qoyun, yun, yağ, pendir şəklində vergilər ödəyirdilər. Elatların mükəlləfiyyətlərinin həcmi çox vaxt yerli adətlərlə müəyyənləşdirilirdi.

Rus mayoru Serebrov 1796-cı ildə yazırdı: «Rustum (Rustov - T.M.) Muşkur, Şabran, Sədan, Bezmen (Bərmək – T.M.) və qismən də Quba mahalına daxil olan kəndlərdə əvvəllərdə olduğu kimi xan üçün hər ev üzrə taxıl məhsulunun onda biri, ipəyin onda biri, ¼ batman yağ, bir cüt öküzə görə bir ruba, (hər rubada 5 pud olur) hər yüz qoyundan iki qoyun, üç batman pendir, əkin üçün ayrılmış yerlərdən xanın xahişi və göstərişi ilə darı məhsulunun yarısı, ermənilərdən … evlilərdən 2 manat 5 qəpik, subaylardan 1 manat 5 qəpik alınır. Qubadan onların pulu ilə ildə 11 min manata qədər gəlir alınır» (РГВИА, f. ВУА, iş 18474, v. 1-45).

Digər bir arxiv sənədində verilən məlumata görə xanlıqda hər evdən xanın xeyrinə 3 xan manatı, bir ruba, yaxud 170 funt taxıl (Xınalıq və Buduq mahalları üzrə bu çəkidə arpa), hər yaz və payız 100 qoyuna bir qoyun, bütün əkinçilik məhsullarının onda bir hissəsi (taxıl istisna olmaqla) və dörd girvənkə inək yağı toplanırdı. Lakin sonuncu iki vergi Quba mahalında alınmırdı, onda bir vergisi isə bəylərə və digər xidmətçilərə verilmiş kəndlərdən sonunculara maaş yerinə verilirdi (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 47).

Feodal ara müharibələri şəraitində müharibə üçün vəsait bir çox hallarda fövqəladə vergi və mükəlləfiyyətlər hesabına toplanırdı. Bu cür vergi və mükəlləfiyyətlər yalnız vergi verən təbəələrə deyil, bəzən feodallara da şamil edilirdi. 1796-

cı ildə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı mayor Serebrov yazırdı ki, Quba xanı hərbi zərurət təqdirində həm şəhərdə, həm də kənddə hər həyətdən 20-dən 30 manata qədər və lazımı qədər taxıl alır (РГВИА, f. ВУА, iş 18474, I his., v. 18-19; Абдуллаев (1965), 172). Xanlığın gəlirləri içərisində can vergisi də müəyyən yeri tuturdu. Can vergisi kişi cinsindən olan şəxslərin, bəzən də həyətlərin üzərinə qoyulurdu. Salyanda can vergisini məhsulla və pulla alırdılar. Həm də evlilər subaylara nisbətən ikiqat artıq məbləğ ödəyirdilər (РГВИА, f. ВУА, iş 18474, II his., v. 13-45; Абдуллаев (1965), 173). Rustov, Şabran, Sədan, Müşkür mahallarında və qismən də Qubada evlilər hər nəfərə 1 manat 10 qəpik, subaylar isə 1 manat 5 qəpik ödəyirdilər. Görünür ailəlilərin evində daha çox işçi olduğu üçün onlardan daha artıq can vergisi alınırdı. Vergi və mükəlləfiyyətlər alınarkən qeyri-müsəlmanlar da əsasən müsəlmanlarla bərabər qaydada vergi və mükəlləfiyyətləri ödəyirdilər. Yalnız yuxarıda qeyd olunduğu kimi xristianlardan hər evdən 2 manat 5 qəpik cizyə alınırdı (РГВИА, f. ВУА, iş 18474, v. 14-30; Абдуллаев (1965), 173).

1809-cu il məlumatına görə rus işğalı nəticəsində əhalisi xeyli azalımış Quba şəhərində 310 ev var idi. Bu evlərdən heç bir vergi alınmırdı. Yalnız sakinlər müxtəlif yerlərdən xanın yanına gələn qonaqları qəbul edib evlərində yerləşdirməli idilər. Şəhərə bitişik olan Kulqat yəhudi qəsəbəsindəki 124 evdə 174 evli və 15 yaşından yuxarı subay kişi və oğlan yaşayırdı. Evlilərin hər birindən ildə 3 rub, subayların hər birindən 1 rubl 50 qəp. vergi alınırdı. Beləliklə, ildə cəmi 748 rubl 50 qəp. başpulu toplanırdı. Yəhudilərdən ticarətlə məşğul olduqlarına görə ildə 300 rubl vergi alınırdı (AKAK, c. IV, sən. 1007).

1809-cu ilə aid mənbənin verdiyi məlumata görə əvvəllər ipəkçilikdən heç bir vergi alınmırmış. Yalnız 3 il əvvəl istehsal olunan ipəyin onda bir hissəsi alınmağa başlanıbmış.

Bərmək və Şabran mahallarında rəiyyətlərin hər bir evindən 1 ruba buğda, 0,5 ruba arpa alınırdı. Kənddə darğa yox idisə darğalıq yerinə buğda və arpa məhsulunun onda bir hissəsində vergi xanın xeyrinə, habelə hər evdən 4 funt kərə yağı, qoyunu olanlardan hər 100 qoyuna görə 32 funt alınırdı (AKAK, c. IV, sən. 1007). Şabran mahalının Qaraqaşlı (48 vergi ödəyən ev) və Güləmli (7 vergi ödəyən ev) kəndləri naib Mirzə Məmməd xana məxsus olduqları üçün xəzinəyə ödəyəcəyi vergilərdən azad idilər. Şeşpara, Müşkür və Tip mahallarında da rəiyyətlərdən demək olar ki, eyni məbləğdə vergilər alınırdı (AKAK, c. IV, sən. 1007).

Xınalıq və Sırt mahallarında hər ev 1 ruba buğda və 0,5 ruba arpa, hər evdən 4,5 funt kərə yağı, hər yüz qoyundan 3-nü və hər 100 qoyuna görə 32 funt pendir ödəyirdi (AKAK, c. IV, sən. 1007).

Buduq və Yuxarıbaş mahallarında hər ev 1 ruba arpa, 4,5 funt yağ, qoyunu olanlar 100 qoyundan 2-ni və hər yüz qoyuna 32 funt pendir verməli idilər (AKAK, c. IV, sən. 1007).

Cəmi 161 həyətin olduğu Anaqdərə kəndində 17 həyət (2 axund, 6 molla, onlara qulluq üçün verilmiş 10 ailə) vergidən azad idi. Yerdə qalan 144 evin hər biri 2 ruba arpa ödəyirdi. Qoyunu olanlar hər yüz qoyundan 3-nü və hər 100 qoyuna 32 funt pendir ödəyirdi (AKAK, c. IV, sən. 1007).

Dağıstandan öz qoyunlarını qışlamaq üçün Quba xanlığı ərazisinə gətirənlərdən hər 100 qoyundan biri alınırdı.

Bütünlüklə mahallardan ildə 2462 ruba (1481 çətvər) buğda, 2509 ruba (1.254 çətvər 4 çərək) arpa və 261 pud 35 funt yağ toplanırdı. Bərmək mahalında 401 vergi ödəyən, 163 ödəməyən, Şabran mahalında 461 vergi ödəyən, 198 ödəməyən, Şeşpara mahalında 406 vergi ödəyən, 156 ödəməyən, Müşkür mahalında 219 vergi ödəyən, 73 ödəməyən, Tip mahalında 439 vergi ödəyən, 191 ödəməyən, Xınalıq mahalında 604 vergi ödəyən, 36 ödəməyən, Buduq mahalında 438 vergi ödəyən, 84 ödəməyən, Yuxarıbaş mahalında 604 vergi ödə-

yən, 34 ödəməyən, Sırt mahalında 432 vergi ödəyən, 52 ödəməyən, Anaqdərə mahalında 144 v. ödəyən, 17 ödəməyən ev vardı (AKAK, c. IV, sən. 1007). Beləliklə də Quba şəhəri və Kulqat qəsəbəsi də nəzərə alınmaqla bütün xanlıq üzrə 4272 vergi ödəyən və 1314 ödəməyən (cəmi 5586) ailə vardı. Göründüyü kimi əhalinin 23, 34 faizi vergilərdən azad idi. Mahallar arasında vergi ödəyənlərin xüsusi çəkisi ən çox Yuxarıbaş mahalında (94,7%), vergi ödəməyənlərin xüsusi çəkisi ən çox (Quba şəhərindən sonra) Bərmək mahalında (35,13%) olmuşdur.

Xan başpulu vergisinin toplamasını hər bir kəndin sakinlərinin vəziyyəti nəzərə alınmaqla yüzbaşıya və ya kəndxudaya etibar edirdi. İmkanlı ailələrdən 7 rubla qədər, ən yoxsul ailələrdən isə 3 rubldan az olmayaraq, ayrıca hər bir yüzbaşı və kəndxudadan 7 ilə 30 rubl arasında başpulu alınırdı. Mənbənin məlumatına görə başpulu heç də hər bir il yox, xan istədiyi illərdə toplanırdı.

Göründüyü kimi bəylər, axundlar, seyidlər, yasavullar, bəy nökərləri bütün vergilərdən azad idilər. Yüzbaşılar və kəndxudalar isə yalnız başpulu ödəyirdilər.

Buğda və arpa məhsulundan vergi sahədən məhsul toplandıqdan, kəndli yeni məhsul yetişinə kimi istehsalı üçün zəruri olan payı ayırdıqdan sonra alınırdı (AKAK, c. IV, sən. 1007).

Qoyun vergisinin alınması ildə iki dəfə həyata keçirilirdi. 100 qoyundan üçünü verməli olanlar yaz gələn kimi ikisini, 100 qoyundan ikisini verməli olanlar isə birini, payızda isə bir qoyun verirdilər. Pendir də payızda alınırdı. Qışda çox soyuq olduqda, yaxud ayrı səbəblərə görə qoyunların bir hissəsi tələf olduqda xəzinəyə yığılmalı qoyunların sayı da azaldılırdı. Tələfat az olduqda ildə xəzinə üçün 1000 baş qoyun toplanırdı. Yağı yazda alırdılar.

İpək məhsulunun onda biri yayda, ipək artıq yetişdiyi zaman alınırdı (AKAK, c. IV, sən. 1007).

Qeyri-müsəlmanlardan göstərilən vergilərdən əlavə evlidən 1 xan manatı, 15 yaşından yuxarı subayların hər birindən 50 qəpik alınırdı (AVPRİ, f. 77, siy. 7, iş 159, v. 47).

Bəzən fövqəladə hallar üçün əhalidən müəyyən məbləğdə pul vergisi toplanırdı. Torpaq kəndlər üzrə bölünmüşdür.

Quba şəhərindəki boyaqxana ildə 2500 rubla müqatiəyə verilirdi. Mənbənin verdiyi məlumata görə rus qoşunları Qubanı alarkən böyaqxana dağıdılmışdı və boyama işi evlərdə aparılırdı. Bu işdən xəzinəyə cəmi 150 xan abbasısı toplanırdı. Qapan vergisi də toplanırdı, lakin onu müqatiəyə vermirdilər. Həm də bu rüsum yalnız ipək çəkmək üçün istifadə olunan tərəzilərdən alınırdı.

Karvansara rüsumunun müqatiəsi 700 rubl gəlir gətirirdi. Hamamın müqatiəsindən ildə 600 rubl gəlir götürülürdü (AKAK, c. IV, sən. 1007).

Gömrük yığımı ildə 300 rubla müqatiəyə verilirdi. Hətta Bakı və Dərbənddən gətirilən mallardan da gömrük alınırmış. Qəssabxana dükanları ildə 1000 rubla müqatiəyə verilirdi. Quba şəhərində 22 dükan vardı və onların hər birindən ayda 60 qəpik, hamısından birlikdə ildə 158 rubl 40 qəp. xəzinəyə gəlir daxil olurdu (AKAK, c. IV, sən. 1007).

İ. Berezinin yazdığına görə 1825-ci ildə Dərbənddə 10294 nəfər sakin yaşayırdı (Березин, his. III, əlavələr, cədv. 4). S. Qmelinin məlumatına görə XVIII yüzilliyin 70-ci illərində Dərbənddə 14 min ev vardı, bundan 100-ü ermənilərə məxsus idi (Гмелин, 19). P.Q. Butkovun hesablamalarına görə əsrin sonunda Dərbənddə 1700 ev qalmışdı (Бутков, his. 2, 582). 1796-cı ilə aid mənbədə Dərbənddə 2090 evin olduğu bunlardan 90-da qriqoryan etiqadlı sakinin yaşadığı qeyd olunur (РГВИА, f. ВУА, iş 18474, his. 1, v. 18 və a.ü.). Müqayisə üçün qeyd edək ki, dəqiq məlumata görə 1825-ci ildə Dərbənddə 10165 azərbaycanlı, 89 yəhudi və cəmi 40 erməni yaşayırdı (Березин, his. 3, əlavələr, cədv. 4).

Şəhərlərdə hələ feodal münasibətləri hökm sürürdü. Şəhər əhalisinin bir hissəsi əkinçiliklə və bağçılıqla məşğul olur və feodal vergi və mükəlləfiyyətləri ödəyirdilər. Şəhərlər özünüidarəyə malik deyildilər və xanın hakimiyyəti altında idilər.

O dövrün müasiri yazırdı ki, Quba xanlığında qızıl, gümüş və qurğuşun yataqları aşkar edilmişdir. Lakin xan qonşu Dağıstan feodallarının basqınlarından ehtiyat edib qızıl və gümüş mədənlərinin basdırılmasını əmr etmişdi, qurğuşun mədənlərindən isə istifadə olunurdu (Bax: Əliyev, 34). 1778-ci ilin sentyabrında Qubadan keçən Andrey Filatov da Qubanın yaxınlığında Şahdağda mədən tapıldığını və burada gümüş hasil edildiyini yazırdı (Абдуллаев (1965), 129).

Quba xanlığının qərb bölgələrində yerləşən Axtıpara, Doqquzpara camaatları maldarlıq və əkinçiliklə yanaşı sənətkarlıqla məşğul olurdular.

Axtıçayın yuxarı axarı boyunca, Axtıdan 5 verst aralı qaynar mineral su mənbələri var idi. Müasirin sözlərinə görə hələ IV əsrdə sakinlər bu mənbələrin yanında hamam tikmişdilər. Artıq o zaman bu mənbələrdən müalicə məqsədləri ilə istifadə olunur və feodal hakimlər onlardan gəlir götürürdülər (Абдуллаев (1965), 129).

XVIII yüzilliyin ikinci yarısında əmtəə istehsalının və bazar münasibətlərinin inkişafı ilə əlaqədar vergi və mükəlləfiyyətlərin pulla toplanması geniş hal almışdı. Ancaq hələ məhsul rentası üstünlük təşkil edirdi.

Kəndlilər bəzən vergi və mükəlləfiyyətlərin ağırlığına qarşı çıxış edirdilər. 1736-cı ildə onlar Xudatı mühasirəyə almışdılar. Quba xanı yalnız Tarku şamxalı və Dərbənd hakiminin köməyi ilə bu hücumu dəf etməyə nail olmuşdu (Бакиханов, 117).

1775-ci ilin iyulunda Dərbənddə Fətəli xana qarşı çıxış baş vermişdi, üsyançılar bir il əvvəl Dərbənddən Tabasarana qaçmış yüzbaşı Hacı Balabəyin dəstəsi ilə birləşmişdilər (АВПРИ, f. 77, siy. 7, v. 104-106; Абдуллаев (1965), 181).

**İnzibati – ərazi bölgüsü**

Xanlığın ərazisi inzibati cəhətdən mahallara bölünürdü.

1796-cı ildə rus hərbiçilərinin tərtib etdiyi məlumata görə tabe olunmuş ərazilər Quba xanlığından ayrıldıqdan sonra xanlığın tərkibində cəmi 8 mahal var idi. Bunlardan ən böyüyü əslində Sırt və Tip mahallarının ərazisini əhatə edən Quba mahalı idi. Quba mahalı çox iri olduğuna görə, iki naib tərəfindən idarə olunurdu.

Hacı Şərif bəyin idarə etdiyi birinci Quba dairəsində cəmi 52 kənd var idi. Həmin kəndlərdə cəmi 1274 həyət var idi (AVPRİ, f. 77, siy. 7, iş 159, v. 36). Bu kəndlərin ən böyükləri 300 həyətdən ibarət olan Tahircar, 200 həyətdən ibarət Kulqat, hərəsi 70 həyətdən ibarət olan Xudat və Kurlal qala idi. Kəndlərdən 17-si yuxarı axarından başlayaraq Samur çayının sahili boyunca dağlıq ərazidə, 9-u dağətəyi zonada, 10-u düzənlikdə, 9-u Qusar çayı boyunca düzənlikdə yerləşirdi.

Həsən bəyin idarəsində cəmi 38 kənd vardı. Ən böyük kəndlər 80 həyətdən ibarət Alpan, 50 həyətdən ibarət Kamil və Nügədi kəndləri idi. Həsən bəyin idarəsində olan kəndlərdən 5-i Qubyal və Qusar çayları arasında aşağı ərazidə, 25-i Qudyal çayı boyunca düzənlikdə, 9-u Ağ çayı boyunca dəniz sahilində, 3-ü Qara çayı boyunca dağla dəniz arasında yerləşirdi (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 37-38 a.ü.).

Xanın yay iqamətgahı olan Quba şəhəri də bu ikinci dairənin ərazisində yerləşirdi. Lakin 2000 həyətdən ibarət və 7000 sakini olan Quba şəhəri naib Vəli bəy tərəfindən idarə olunurdu. Fətəli xanın göstərişi ilə üç tərəfdən xəndək və bişməmiş kərpicdən inşa edilmiş divarlarla əhatə olunmuş, dördüncü tərəfi isə Qudyalçayın sərt sahili ilə müdafiə olunurdu (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 37-38 a.ü.).

Quba mahalında dağlıq kənlərin sakinləri torpaq əkinçilik üçün o qədər yararlı olmadığından arpadan savayı, Qud-

yal çay boyunca isə arpa və çətənədən savayı heç nə əkmirdilər. Bu kənlərdə maldarlıq və arıçılıq yaxşı inkişaf etmişdi. Düzənlikdə yerləşən kənlərin sakinləri (xüsusən Xudatdan başlayaraq) həm maldarlıqla məşğul olur, həm də müxtəlif taxıl növləri əkir, pambıq, bağça məhsulları və barama yetişdirirdilər (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 36-37 a.ü.).

Qeyd edək ki, Hacı Şərif bəyin idarəsində olan kəndlərdən 3-də o zaman heç kim yaşamırdı, Kasın (20 həyət) və Tahir qışlağı (5 həyət) kəndləri isə müxtəlif yerlərdən gəlmiş qaçqınlarla məskunlaşdıqlarından vergilərdən azad idilər (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 36-37 a.ü.).

Quba naibi Vəli bəyin qardaşı Yusif bəyin idarə etdiyi Rustov mahalında 22 kənddə 491 həyət vardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 37 və a.ü.).

Bu mahalda ən böyük kəndlər 50 həyətdən ibarət Rustov (Şeşpara), 40 həyətdən ibarət Vəlvələ, 60 həyətdən ibarət Çiçi, 45 həyətdən ibarət Zərqova, 40 həyətdən ibarət Gəndab idilər. Kəndlərdən 4-ü Çaqaçuq çayının sahilində dağ yamaclarında, 7-si Vəlvələ çayının sahilində dağ yamaclarında, 11-i Şabrançayın sahilində düzənlikdə və dağ yamaclarında yerləşirdi. Mənbədə yazıldığına görə bu mahalda həm dağ yamaclarında, həm də xüsusən düzənlikdə müxtəlif taxıl növləri – Quba mahalının düzənlik hissəsində əkilən bütün növlər əkilirdi (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 41-43 a.ü.).

Həsən bəy tərəfindən idarə olunan Müşkür mahalında 20 kənd, həmin kəndlərdə cəmi 299 həyət vardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 40 və a.ü.). Kəndlərdən 10-u Qusarçayın aşağı axarında düzənlikdə, 7-si Qudyalçayın aşağı axarında düzənlikdə, 3-ü Qaraçayın aşağı axarında düzənlikdə yerləşirdi. Bu kəndlərdən ən böyükləri 60 həyətdən ibarət Qaracalı, 45 həyətdən ibarət Böyük Xaçmaz, 40 həyətdən ibarət Naburlu idi. Quba mahalının düzənlik hissəsindəki kəndlərlə eyni təsərrüfat şəraitinə malik idi (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 40 və a.ü.).

Hacı Səfərəli bəy tərəfindən idarə olunan Şabran mahalında 66 kənd vardı. Həmin kəndlərdə 1282 həyət vardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 41-43 a.ü.). Kəndlərdən 16-sı Qaraçayın sahilində düzənlikdə, 29-u Vəlvələçayın sahilində düzənlikdə, 15-i Şabrançayın sahilində düzənlikdə, 5-i Dəvəçiçayın sahilində düzənlikdə yerləşirdi. Kəndlərdən ən böyükləri 50 həyətdən ibarət Çarxı, 180 həyətdən ibarət Şahsevən tavabı (Məhəmməd xanın mülkiyyətində sayılan bu kəndin sakinləri Fətəli xanın hakimiyyəti dövründə Muğandan köçmüşdülər), 50 həyətdən ibarət Bayat, 80 həyətdən ibarət Xəlilli, 130 həyətdən ibarət Usallı, 60 həyətdən ibarət Kolanı və 40 həyətdən ibarət Hulovlu idi. Mənbənin məlumatına görə Şabran mahalında taxılçılıq və maldarlıq kifayət qədər yaxşı inkişaf etmişdi. Ancaq taxılçılıq burada Müşkür mahalında olduğuna nisbətən az inkişaf etmişdi. Bu mahalda bağlar az idi, sakinlərin çoxu yay vaxtını dağlarda keçirirdilər (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 41-43 a.ü.).

Yenə Hacı Səfərəli bəyin idarə etdiyi Sədan mahalında cəmi 5 kənd (92 həyət) vardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 44 və a.ü.). Bu kəndlər Ataçay və Gilgilçay arasında dağ yamacında yerləşirdi. Həm də kəndlərin ikisində – Calğan və Uqahda deyəsən o zaman daimi yaşayan əhali yox idi, çünki siyahıda bu kəndlərin qarşısında adam sayı sütunu boşdur. Ən böyük kəndlər 40 həyətdən ibarət Sədan və 30 həyətdən ibarət Dağ Quşçu idi (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 44 və a.ü.). Çıraqqala da bu mahalın ərazisində idi. Mənbənin verdiyi məlumata görə Fətəli xan sıldırım qayada yerləşən bu qədim qalada ev inşa etdirmişdi. Dağın yamacında bir çox digər evlər də tikilmişdi. Onlarda adam yaşamırdı, lakin düşmən hücumu zamanı 500-dən çox ailə sığına bilirdi. Qala xüsusi olaraq düzəldilmiş akvadukt vasitəsilə dağlardan gətirilən bulaq suyu ilə təmin olunurdu.

Sədan mahalında maldarlıq yaxşı, taxılçılıq isə əla inkişaf etmişdi. Bağlar isə yox idi. Yenə Hacı Səfərəli bəy tərəfindən idarə olunan Bərmək mahalında 533 həyətdən ibarət

23 kənd vardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 44 a.ü.-45). Kəndlərdən ən böyükləri 60 həyətdən ibarət Xanağa, 80 həyətdən ibarət Göyxanlı (Qioxani), 80 həyətdən ibarət Xızımuğanlı və 40 həyətdən ibarət Siyəzən idi. Mahalın kəndləri dağ yamaclarında, bulaqların yanında yerləşirdilər. Mahalın ərazisində Xıdırzində qalası vardı. Burada vergilərdən azad şeyxlər yaşayırdı. Bu qədim qala Çıraqqaladan 25 verst aralıda yerləşirdi və daxilində olan bulaqlarla təchiz olunurdu. Düşmən hücumu zamanı qalada 500-ə yaxın ailə sığına bilirdi. Mahalda taxılçılıq, sakinlərin ehtiyacını ödəyəcək səviyyədə, maldarlıq isə yaxşı inkişaf etmişdi. Bağçılıq yayılmamışdı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 44 a.ü.-45).

Heydər bəy tərəfindən idarə olunan Dağıstan (Yuxarıbaş) mahalında 980 həyətdən ibarət 17 kənd vardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 46 və a.ü.). Bunlardan 4-ü yüksək dağlıq ərazidə, 13-ü isə dağ vadisində yerləşirdi. Mahalda arpadan başqa heç bir taxıl növü əkilmir, sakinlər öz ehtiyaclarını ödəmək üçün buğdanı ayrı yerlərdən alırdılar. Maldarlıq isə əksinə çox yaxşı inkişaf etmişdi. Sakinlər qışda düzənliyə köçərək qazma evlərdə, yaxud komalarda yaşayırdılar (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 46 və a.ü.).

Samur çayının yuxarı axarında çayın hər iki sahilində yerləşən, əhalisi Qafqazdilli xalqlardan və türklərdən ibarət olan «azad» Quba camaatları Şəki və Qazıqumık xanlıqları ilə həmsərhəd idilər. Azad camaatlar 30-a qədər kəndi əhatə edən 3 dairə təşkil edirdilər (РГВИА, ф. ВУА, иш 486, в. 3-4; Абдуллаев (1965), 186). Bu camaatlar irsi hakimlər tərəfindən idarə olunur və Axtıpara, Doqquzpara və Altıpara adlanırdılar (Абдуллаев (1965), 186). Əvvəllər onlar Dərbənd hakiminə tabe idilər, XVIII yüzilliyin ortalarında isə Quba xanının hakimiyyəti altına keçdilər.

Mənbəyə görə 1796-cı ildə Quba xanlığı ərazisində (Dərbənd və ətrafı istisna olmaqla) cəmi 1 şəhər, 245 kənd və 6364 həyət vardı.

Qeyd etmək lazımdır ki, təhlil olunan mənbə səhih olmamaqla bərabər həmdə natamamdır. Anıxdərə, Buduq və Xınalıq mahalları bu mənbədə öz əksini tapmamışdır. Beləliklə müqayisəli təhlil göstərir ki, mövcudluğunun əksər vaxtlarında Quba xanlığının tərkibində 3 şəhər (Quba, Dərbənd və Salyan) və 12 mahal (Bərmək, Sədan, Rustov (Şeşpara), Sırt, Tip, Şabran, Müşkür, Anıxdərə, Buduq, Xınalıq, Ulus, Dərbənd) və bir sultanlıq (Salyan) olmuşdur.

Quba xanlığının tərkibinə daxil edilmiş keçmiş Dərbənd xanlığının ərazisi şimalda usminin torpaqları, qərbdə Tabasaranla, cənub-qərbdə Qazıqumuklu Xanbutayın (II Surxay xanın) mülkləri ilə həmsərhəd idi. Bu ərazidə iki mahal mövcud idi: Dərbənd və Ulus mahalları. Dərbənd şəhərinin də daxil olduğu Dərbənd mahalı naib Qədir bəy tərəfindən idarə olunurdu. Dərbənd şəhərində 2180 ev, mahalın 6 kəndində 265 ev vardı. Ulus mahalı da adı xatırlanan Qədir bəy tərəfindən idarə olunrdu və 780 evi olan 15 kənddən ibarət idi (AMEA TİEA, inv. 1795 (2), s. 396-397).

Qeyd edək ki, Quba şəhərinin yaranma tarixi barədə mənbələrdə və tarixi ədəbiyyatda yekdil fikir yoxdur. Müəlliflərin bir qismi şəhərin yaranmasını XVIII əsrin birinci yarısına aid edirlər ki, bu tamamilə yanlışdır. İrəlidə biz bu şəhərin hələ XVII əsrin sonlarından eyni adlı yarımmüstəqil xanlığın mərkəzi olduğunu qeyd etmişik. Mövcud mənbələrin böyük əksəriyyəti Qubanın yaşayış məntəqəsi və ola bilsin ki, kiçik şəhər kimi nəinki XVIII əsrdən, hətta XVII əsrdən də xeyli əvvəl mövcud olduğunu göstərir. Tarixi ədəbiyyatda bu şəhərin artıq XI əsrdə mövcud olması barədə fikir var. XIII əsr müəllifi Yaqut Həməvinin Coğrafiya lüğətində Azərbaycan şəhərləri sırasında «Qübbə» şəhərinin də adı çəkilir (bax:Мамедов, 14). Akademik V.V. Bartold 1578-ci ildə Osmanlı sultanı III Murad tərəfindən 8 Azərbaycan şəhərinin tutulduğunu yazaraq onların arasında Qubanın da adını çəkir. Arxeoloji qazıntılar Quba yaşayış məskəninin eramızın birinci minilliyinin ortalarında meydana çıxdığını sübut edir. Quba şəhərindən bir

qədər aralıda yerləşən indiki Nərimanabad qəsəbəsindəki Sandıqtəpə yaşayış yeri və qəbirstanlıqda tapılmış abidələr bunu sübut edir (Orucov A. Xəlilov C., 55-58).

Quba adının mənşəyi çox müxtəlif şəkildə izah olunur.

Bu məsələnin tədqiqi bizim kitabın qarşısında duran vəzifələrə daxil deyildir. Ancaq oxucuda müəyyən təsəvvür yaransın deyə biz bəzi fikirləri verməyi lazım bilirik. Bir sıra tədqiqatçılar şəhərin eyni adlı tayfanın adı ilə adlandırılması barədə mülahizə irəli sürmüşlər (Xəlilov (1992), 28-34; Xəlilov (1994), 45-47).

Tədqiqatçı Quba adını guya onun əsasını qoymuş Sasani şahı I Qubadın (488-531) adı ilə əlaqələndirir. Daha başqa bir tədqiqatçı isə Quba toponimini Kuba etnonimi ilə əlaqələndirir və bu etnonimi bir vaxtlar Cənubi Qafqazda olub məskunlaşmış türkdilli tayfaların adı ilə eyniləşdirir (Bax Мамедов, 13). Y.Yusifov Quba adını iber-qafqaz dillərinə aid edərək, güman edir ki, antik müəllif Ptolemeyin xatırladığı alban şəhəri X(H)obota Quba adının prototipidir (Mamedov, 13). Bu coğrafi termin Şirvan ərazisində iki şəkildə mövcud olmuşdur. XIII əsrə aid bir ərəb mənbəyində «Kuva» şəklində, Səfəvilər dövrünə (XVI əsr) aid digər mənbələrdə Qübbə şəklində xatırlanır. Ə.Hüseynzadənin fikrincə Qübbə Qubanın ərəbləşdirilmiş formasıdır. Ə.Hüseynzadə müasir Azərbaycan dilinin (qıpçaq ünsürlərinin rast gəlindiyi) Quba dialekti nümunəsində Quba toponiminə qıpçaq mənsubiyyəti verir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın digər bölgələrində, Dağıstanda Mərkəzi Asiyada, hətta Səudiyyə Ərəbistanında Quba adlı yaşayış məntəqələrinə rast gəlmək olur ki, bu da Quba adının yerli səciyyə daşımadığını göstərir.

XVI əsrin sonlarında osmanlı mənbələrində Quba şəhərinin adı çəkilir. O dövrün məşhur tarixçisi Mustafa Ali Əfəndinin yazdığına görə osmanlıların səfəvilərlə apardığı müharibə nəticəsində 1578-ci ildə osmanlılar tərəfindən ələ keçirilən Şirvan iki əyalətə-Böyük və Kiçik Şirvan əyalətləri-

nə bölünmüşdü. Mərkəzi Dərbənd olan kiçik Şirvan əyalətinə daxil olan üçüncü sancaq Quba adlanırdı (Fərzəlibəyli, 20). Digər osmanlı tarixçisi İbrahim Əfəndi Pəcəvinin 1583-cü ilə aid məlumatında deyilirdi ki, Dərbənddən bir qədər aralıda Beştəpə adlı yerdə osmanlılarla səfəvilər arasında baş verən döyüşdə qızılbaşların qoşununa Qubadan da xeyli döyüşçü cəlb edilmişdi (Fərzəlibəyli, 20).

M. Biberşteyn Qubanın şərq üsulu ilə divar və qalalarla möhkəmləndirilmiş kiçik bir şəhər olduğunu qeyd edirdi (Биберштейн, 17; Абдуллаев (1965), 195).

Hüseynəli xan tərəfindən inşa edilən xan sarayında onun varisləri tərəfindən sonradan yenidən bərpa işləri aparılmış və saray rəngarəng naxışlarla bəzədilmişdi. Azərbaycan memarlıq abidələrini öyrənən Şeblikin qeyd edir ki, Quba sarayı öz zəngin naxışlarına görə XVIII əsrin başqa saray tikililərinin səciyyəsi nümunəsidir (Bax: Абдуллаев (1965), 195).

1770-ci ildə Qubada olmuş Rusiya professoru S.Q. Qmelin özünün bu şəhərlə bağlı qeydlərində şəhərin və xan sarayının təsvirini vermişdir. O, yerli əhalinin məlumatına əsaslanaraq bildirir ki, 30 il bundan əvvəl şəhər daş divarlarla əhatəyə, dövrəyə alınmışdır (Гмелин, 48-49).

XVIII əsrdə Qubada 600 ev olmuşdur ki, bu da şəhərdə təxminən 3 min nəfərin yaşadığını göstərir. Qubadan bir qədər aralı-Qudyalçayın sol sahilində yəhudilərin yaşadığı Kulqat (ola bilsin ki, Gulhan – T.M.) qəsəbəsi mövcud idi. P.Q.Butkovun məlumatına görə burada 1796-cı ildə 200 ev var idi (Бутков (Выдержки), 205).

Şəhərin əhalisinin sayının 70-ci illərdə 7 min nəfərə, şəhərdəki evlərin sayının isə 2 minə çatması haqqında mənbələrdə məlumat verilir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 11).

Quba şəhərinin əhalisi əsasən bəy, ruhani, sənətkar və tacirlərdən ibarət idi. Bəzi mənbələrdə burada əhalinin xeyli hissəsinin sənətkarlardan ibarət olduğu göstərilir (AKAK, c. IV, səh. 37-38).

Qeyd edək ki, xanlıqlar dövründə feodal müharibələrinin tez-tez baş verməsinə və həmin müharibələrinin ölkə iqtisadiyyatına mənfi təsir göstərməsinə baxmayarq sənətkarlıq öz inikşafından qalmamışdı. Xanlıqların mərkəzlərinə çevrilmiş şəhərlər, o cümlədən Quba və Dərbənd şəhərləri həm də sənətkarlıq mərkəzləri idilər. Sənətkarlar bu şəhərlərin əhalisinin əhəmiyyətli hissəsini təşkil edirdilər.

XIX əsrin 30-cü illərində Qubada 15 dəmirçinin, 50-ci illərində 13 xarratın qeydə alınması (Əlizadə, 35, 50), həmin sənət növlərinin bu şəhərdə hələ əvvəlki dövlətlərdən inkişaf etdiyini göstərir.

O zamanlar Quba əhəmiyyətli ticarət şəhəri idi. Şəhərdə ticarət çoxaldıqca əhalinin sayı da artmağa başlayırdı. İ. Berezin Quba şəhərinin görünüşünü belə təsvir edir: «Quba dağların amfiteatrı ilə… əhatələnmiş bir dərədə yerləşmişdir ki, dağların başı buludlarda, yamacları qalın meşələrdədir, çay ilan kimi qıvrılır. Çayın sərt sahilinə evlər səpələnmişdir. Evlər müxtəlif rənglərdədir, məscidlərin dördbucaqlı damları vardır və bütün tikililər yaşıl ağaclarla bürünmüşdür» (Березин, II his., 63-64).

Quba xanlığının digər, həm də ən böyük şəhəri Dərbənd şəhəri idi. Azərbaycanın ən şimal-şərq nöqtəsində yerləşən Dərbənd həm mühüm hərbi-strateji əhəmiyyətə malik idi, həm də ölkənin ticarət-sənətkarlıq mərkəzləri içərisində özünəməxsus yer tuturdu. Dərbənddən cənubdan şimala uzanan karvan yolu keçməklə yanaşı, həm də Dərbənd Xəzər sahilində olan mühüm limanlardan biri idi: Karvan yolunun Dərbənddən sonrakı mühüm məntəqəsi Qızlar idi. Dəniz vasitəsilə Dərbənd Bakı, Həştərxan və başqa şəhərlərlə əlaqə saxlayırdı. Dərbəndin ticarətində azərbaycanlılarla yanaşı Dağıstan xalqları da fəal iştirak edirdilər. Mənbədə deyilir ki, «Dağıstan xalqları Dərbəndə 10 min manat gümüş pul dəyərində mahud, qoyun dərisi, yağ, bal, xalça, palaz gətirirlər» (Обозрение, IV his., 181).

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Dərbənddə 6 karvansara və 500-dən çox dükanın olması (Bronevskiy, 338) şəhər əhalisinin xeyli hissəsinin ticarətlə məşğul olduğunu göstərir.

Arxiv materiallarından aydınlaşır ki,, 1791-ci ildə Dərbənddən Rusiyaya dəniz yolu ilə 27300 man. 64 qəp., quru yolu ilə 54789 man. dəyərində mal aparılmışdır. Elə həmin il Həştərxan limanı vasitəsilə Rusiyadan Dərbəndə 11850 man. 73 qəp. dəyərində mal gətirilmişdi (РГАДА, f. 1261, siy. 6, iş 949, v. 85-123). Rus konsulu Skibinevskinin yazdığına görə Rusiyadan Dərbəndə mahud, boyalar, ətirlər, şəkər, ipək və pambıq parçalar, ev əşyaları və s. gətirilirdi (АГС, c. II, 691-692).

Dərbənd şəhəri dağlardan dəniz sahilinədək 1730 sajen məsafədə uzanırdı (Гербер (Описание), 86). Hündür enli qala divarları ilə əhatə olunmuşdu. Şəhər üç hissədən ibarət idi. Şəhərin ən yuxarı hissəsi Narınqala adlanırdı. Burada xan sarayı, məscid, əyanların evləri, su anbarı və su quyuları yerləşirdi. Qarnizon da bu hissədə yerləşirdi. Üçbucaq şəklində tikilmiş Narınqala şəhərin «Dərbənd» adlandırılan orta hissəsindən doqquz müdafiə bürcü olan divarla ayrılmışdı. Şəhər əhalisinin böyük hissəsi orta hissədə yaşayırdı (Гербер (Описание), 86). Bu hissədə xana məxsus ikimərtəbəli iki ev, ictimai binalar, 500-ə qədər dükan və 195 sənətkar emalatxanası, habelə 15 məscid, 6 karvansara və bir zərbxana yerləşirdi (Бутков, II his., 202; Броневский, 338).

Şəhərin Dübari adlanan hissəsində əvvəllər nə vaxtsa yunanlar və digər xristianlar yaşamışlar. Görünür sonralar iqtisadi tənəzzül səbəbinə görə onlar Dərbəndi tərk edərək başqa yerə köçmüşlər. Bu hissədə şəhər sakinləri mühasirə vaxtları öz mal-qaralarını otarırdılar.

1796-cı ildə Dərbənddə olmuş A.Serebrov və F.Simonoviç şəhərdə 2180, P.Q.Butkov 2199 ev olduğunu yazırlar (ИГ и ЭД, 142, 176, 202).

Dərbənd əhalisinin xeyli hissəsi ticarətlə yanaşı həm də sənətkarlıqla məşğul olurdu. Şəhərdə ipək və pambıq parçalar, mis qablar, dəmir əşyalar və s. istehsal olunurdu. Təkcə ipək parça istehsal edən 200-ə yaxın dəzgah var idi (Обозрение, IV his., 178). Sənətkarlıq məhsullarının xeyli hissəsi evlərdə qadınlar tərəfindən istehsal olunurdu. Onlar başlıca olaraq xalça-palaz toxuyur, həyətdə ipək qurdları bəsləyirdilər. Dərbənddə papaqçı, dəmirçi, başmaqçı, sərrac, silahsaz, boyaqçı, zərgər və s. sənətkarlar vardı (АРДТА, f. 24, siy. 1, iş 36, v. 10). Şəhər sənətkarlarının əsas hissəsini toxucular təşkil edirdi. XVIII əsrin sonlarında Dərbənddə 30 ipək, 115 pambıq parça istehsal edən karxana var idi (Бутков, II his., 202).

Məlumdur ki, bir müddət Şamaxı şəhəri də Quba xanlığının tərkibində olmuşdur. Şamaxı vaxtilə Azərbaycanın ən iri sənətkarlıq mərkəzlərindən biri idi. 1734-cü ildə Şamaxıda güclü müqavimətə rast gəldiyi üçün Nadir şəhəri özülünə kimi dağıtmış və əhalisini Yeni Şamaxıya (Ağsuya) köçürmüşdü. Köhnə Şamaxıda hökmranlıq edən Məhəmməd Səid xan 1763-cü ildə Yeni Şamaxını ələ keçirib oranın əhalisinin bir hissəsini Köhnə Şamaxıya köçürdü. Bunun nəticəsində Şamaxıda iqtisadi canlanma müşahidə olunur (Mustafayev, 33).

1768-ci ildə Şamaxı xanlığını ələ keçirən Qubalı Fətəli xan Yeni Şamaxının əhalisinin yerdə qalan hissəsini də köhnə Şamaxıya köçürmüş, Yeni Şamaxını özülünə qədər dağıtmışdı. Çox ehtimal ki, Yeni Şamaxının iqlim şəraitinin pis və içməli suyun az olması, habelə Yeni Şamaxıda qiyam təhlükəsinin olması Fətəli xanın belə hərəkət etməsinə səbəb olmuşdu. Ancaq, Quba məmurlarının özbaşınalıqları nəticəsində Köhnə Şamaxıda müşahidə olunan iqtisadi canlanma tənəzzül ilə əvəz olundu (Mustafayev, 33-34). Tezliklə 1779-cu ildə Fətəli xan Köhnə Şamaxıya dağıstanlıların hücum təhlükəsini nəzərə alaraq buranın əhalisini Yeni Şamaxıya (Ağsuya) köçürdü (Биберштейн, 17). Bir qədər sonra baş vermiş güclü zəlzələ isə Köhnə Şamaxının tamamilə dağılmasına səbəb oldu (Обозрение, IV his., 149).

**Mərkəzi idarə aparatı.**

Quba xanlığında irsi idarəçilik, yəni monarxiya rejimi mövcud idi. Monarxiyanın başında qeyri-məhdud qanunverici, məhkəmə və icra hakimiyyətinə malik xan dururdu.

Hakimiyyət atadan böyük oğula keçirdi. Xanın hakimiyyəti mütləq, qeyri-məhdud səciyyə daşıyırdı. Xan hakimiyyəti həm icra formasında həm də feodal hüququnun yardımı ilə məhkəmə formasında gerçəkləşdirirdi. Hüquq qeyri-rəsmi səciyyə daşıyırdı. Onun mənbəyi şəriət, ilk növbədə Quran idi. Hüququn digər, daha az vacib olmayan mənbəyi yerli adətlər idi. Xanın istədiyi şəxslərə torpaq, yaxud torpaqdan alınan gəliri (və ya bir hissəsini) bağışlamaq hüququ vardı. Torpaq sahibliyini və ümumiyyətlə, mülkiyyət hüququnu təsdiq edən sənəd təliqə adlanırdı. Əgər xan torpağı müəyyən şərtlə (başlıca olaraq torpağı alanın xan ordusunda xidmət etməsi şərti ilə)alırdısa, belə torpaq mülkiyyəti forması tiyul adlanırdı.

Xan hakimiyyətində iki ünsür: prinsipcə müstəbidlik, rejiminə görə feodal ünsürləri çulğaşırdı (Иваненко, 136-137). Xan mütləqiyyətinin normativ hüquqi sənədi xan fərmanları idi. Sonralar, Rusiya, Azərbaycanı işğal etdikdən sonra rus məmurları da silki mənsubiyyəti və rütbələri müəyyənləşdirmək üçün xan fərmanlarından hüquqi sənəd kimi istifadə edirdilər (Мамедова, 19).

Xanın yanında «Divanxana» və yaxud «Xan şurası» mövcud idi. Divanxana məşvərətçi orqan idi. Burada mühüm dövlət məsələləri: hərb və sülh, vergilərin təyin olunması və toplanması, itaət göstərməyən bəylərə divan tutulması və onların əmlakının müsadirə olunması, mühüm cinayət işləri və digər dövlət əhəmiyyətli məsələlər nəzərdən keçirilirdi. Xan divansız da qərar qəbul edə bilərdi. Divanxananın müəyyən iş qrafiki yox idi. Divan üzvləri zərurət olduqda və xanın bilavasitə göstərişi ilə toplanırdılar. Müasirlərin sözlərinə görə divan xanın qərarını elan edir, divan üzvləri başlarını tərpətməklə öz

razılıqlarını bildirirdilər. Divanxanada ən yüksək vəzifələr vəzir, divanbəyi, qalabəyi, xəzinəağası, qoşunnavis, fərrasbaşı idi.

Xanlıqda xandan sonra ikinci mühüm şəxs nazir (vəzir) idi. O, bütün idarəçilik aparatının başçısı və xanın birinci məsləhətçisi idi. Vəzirin vəzifə rəmzləri qələmdan və mahud çalma idi (Мамедова, 20). Mərkəzi xan aparatında digər yüksək rütbə divanbəyi idi. Divanbəyi divanın dini rəhbəri idi, hüquqi məsələlər üzrə başlıca məsləhətçi idi. Divanbəyinin və ruhani rəhbər Şeyxülislamın səlahiyyətləri bəzi məsələlərdə üst-üstə düşürdü. Mahal, yaxud şəhər qazilərinin hökmlərindən divanbəyinə, yaxud Şeyxülislama şikayət etmək olardı (Мамедова, 21).

Xanın şəxsi təsərrüfatına eşikağası başçılıq edirdi. Divanxanada qoşunnovis, yaxud qoşun mirzəsi vəzifəsi də vardı. Mühüm vəzifələrdən biri də Xəzinədarağaşı idi. O, xəzinəyə nəzarət edirdi, xan bu vəzifəyə ən yaxın və inanılmış adamlarını təyin edirdi (Мамедова, 21). Bilavasitə xana tabe idi. Divanxanada bir sıra ikinci dərəcəli vəzifələr (yasavul, fərraş, mehmandar və s.) də var idi.

Feodal nərdivanının növbəti pilləsində bəylər dururdular. Bəylər çoxsaylı təbəqə idilər, xanlara müxtəlif inzibati və hərbi qulluq göstərirdilər; hakim sinfin özəyini təşkil edirdilər. Bəylər irsi və qulluq bəylərinə bölünürdülər. Üç bəy nəsli – Quba, Buduq və Alpan bəyləri daha üstün vəziyyətdə idilər. Vaxtilə İran şahlarının fərmanı ilə bəy olanlar daha varlı və daha böyük nüfuza malik idilər. İri bəylər böyük hüquqlara malik idilər və xan hakimiyyətinin güclənməsini istəmirdilər.

Bəylər içərisində mahalları və şəhərləri idarə edən naiblər xüsusilə nüfuza malik idilər. Mahal naibləri xanın özü tərəfindən nüfuzlu bəylərin içərisindən təyin olunurdu. Mahal naibi vəzifəsi adətən irsən, atadan oğula keçirdi, ancaq bu zaman xan tərəfindən təsdiqi tələb olunurdu. Naiblər mahal ərazisində maliyyə, polis və məhkəmə işlərinə başçılıq edirdilər. Onlar vergi və mükəllifiyyətləri bölüşdürür, onların toplanma-

sına nəzarət edirdilər, mahalın sərhədlərinin mühafizəsini təmin edir, məhkəmə araşdırması tələb etməyən mübahisələri həll edir, məhəkəmələrin hökmlərini icra edirdilər. Mahal naibləri vəzifələrini yerinə yetirmək müqabilində məvacib əvəzi olaraq müəyyən kəndlərdən toplanan gəlirlərin bir hissəsini alırdılar.

Şəhərdə hakimiyyətə qalabəyi başçılıq edirdi. Eyni zamanda kələntər vəzifəsi də var idi. Onlar başlıca olaraq tacirlərin fəaliyyətinə nəzarət edirdilər. Qalabəyi isə şəhərdə asayişə və təhlükəsizliyə cavabdeh idi və birbaşa xana tabe idi. Onun sərəncamında xüsusi mühafizə dəstələri var idi. Həmin dəstələr xan sarayının qarşısında, yaxud qala divarlarının yanında dururdu. Qalabəyinin tabeçiliyində darğalar və əsəsbaşılar vardı. Darğa ən çox bazara nəzarət edirdi. Əsəsbaşı isə gecə keşikçilərinin rəisi idi. Şəhərlərdə məhəllə yüzbaşıları, yaxud kətxudaları vəzifəsi də vardı. Şəhər idarəçiliyində sənətkar-birlikləri həmkarların da özünəməxsus yeri vardı. Həmkarlar Qərbi Avropadakı sex təşkilatları tipində olub, sənət sahələri üzrə formalaşdırılır, sex daxilində qayda-qanunların yerinə yetirilməsinə nəzarət edirdi. Lakin Azərbaycan şəhərlərində həmkarların səlahiyyətləri çox məhdud idi.

Kəndlər kəndxudalar, yaxud kovxalar tərəfindən idarə olunurdu. Daha iri kəndlərin kəndxudaları yüzbaşı titulu daşıyırdılar. Kətxudalar bir qayda olaraq kənd icması tərəfindən seçilir və mahal naibi tərəfindən təsdiqlənirdi. Sonralar yüzbaşı titulu daşıyan kəndxudalar xan tərəfindən təyin olunmağa başlandı.

İdarəetmədə yüksək məmurlar əsas rol oynayırdılar. Onlara misal olaraq, sərkəre amili (maliyyə işləri üzrə məmur), eşikağasını (xanın daxili və xarici işləri üzrə məsul), əmiruaxuru (baş mehtər), xəzinədarı və başqalarını göstərmək olar.

Xanlıqda məhkəmə, maliyyə, polis xidməti və orduya xüsusi fikir verilirdi.

**Məhkəmə işi.**

Xanlığın idarə olunmasında məhkəmə böyük yer tuturdu. Məhkəmə sistemi demək olar ki, bütünlüklə ruhanilərin nəzarəti altında idi. Şəriət məhkəmələrinə əsasən kənd, mahal qazıları və xanlığın baş qazisi rəhbərlik edirdi. Lakin məhkəmənin hökmü şübhə doğurduqda xan məhkəmənin işinə müdaxilə edə bilərdi. Məhkəmədə müsəlman hüququ böyük təsirə malik idi. Dini-şəriət məhkəməsi ən müqəddəs və ədalətli məhkəmə sayılırdı. V.İvanenko yazırdı ki, «daha çox adi hüquq əsasında və öz bildiyi kimi hərəkət edən xanların özləri də, bir çox hallarda alim axundların məsləhətinə qulaq asır və hətta bir qədər dolaşıq və mürəkkəb işləri onların mühakiməsinə verirdilər» (Иваненко, 140).

Dövrün müasirinin yazdığına görə bütün edam cəzaları, bu halda və bütün başqa hallarda öz bildiyi kimi hərəkət edən, heç nədə və heç kimə hesabat verməyən xanın iradəsindən asılı idi (ПФАРАН, f. 99, iş 41, v. 185).

Müsəlman hüququ və yaxud şəriət Rusiya və Avropa qanunvericiliyi ilə müəyyən oxşarlıqları olmaqla yanaşı çoxlu özünəməxsus xüsusiyyətlərə malik idi. Bu xüsusiyyətlər təkcə ailə və varislik hüququnda (burada onlar labüd idi) deyil, həm də sahiblik hüququ və təəhüd üzrə hüquqlarda var idi. Şəriətə görə torpaq üzərində ali sahiblik hüququ yalnız dövlətə məxsusdur və torpağa sahiblik hüququ ali hakimiyyət tərəfindən xüsusi şəxslərə sanki müvəqqəti və bu şəxslər üçün müəyyən və məcburi, lakin hakimiyyətin özü üçün təsadüfi və qeyri-məcburi şərtlər əsasında verilir. Müsəlman hüququna görə boş torpaqların suvarılması, təmizlənməsi, yaxud yararlı hala salınması həmin torpaqlara sahiblik hüququnun alınması üçün əsas yaradır. Yenə həmin hüquqa görə satılan sahənin qonşusu üçüncü şəxslə alqı-satqı haqqında bağlanan müqaviləni öz xeyrinə poza bilər. Girovun toxunulmazlığı hüququna görə, əgər borclu borcunu ödəməyibsə, onun borcu təmin etmək üçün qoyulmuş əmlakı, borclunun razılığı olmadan nə borc verən, nə də hakimiyyət orqanları tərəfindən satıla bilməzdi; la-

kin borcu ödəməyə məcbur edilmək üçün borclu zindana salına bilərdi (Иваненко, 142).

Şəriət cinayət hüququ sahəsində daha çox özünəməxsus xüsusiyyətlərə malikdir. Cinayəti qızışdıranlar, cinayətə yol verən və onu gizlədənlər cəzalandırılmırdılar; qətl, yara və zədə vurmaq yalnız zərərçəkənin şikayəti əsasında təhqiq olunur, qan intiqamı öldürülənin yaxın qohumlarının ayrılmaz hüququdur; lakin tərəfləri pul ödənişinə və barışığa razı salmaq məhkəmənin borcudur: edam cəzası, bədən cəzası, pul cərimələri yeganə cəza tədbirləridir; özbaşınalığa, qanuna riayət etməmək cəzalandırılmır (Иваненко, 142).

Xanlıqlarda feodal hüququnun mənbəyini hakim sinfin iradəsi, bu sinfin mənafelərinin ifadəsi kimi xanın özünün iradəsi qanuniləşdrilmiş yerli adətlər idi. Adətən xanlığın ali hakimiyyət orqanı tərəfindən edam cəzasına məhkum olunmuş şəxsin əmlakı xanın sərəncamına keçirdi. Xan bu əmlakı istədiyi adama bəxşiş edə və ya özündə saxlaya bilərdi (РГВИА, f. ВУА, iş 18486, v. 73). Berezinin yazdığına görə Quba xanı öz xanlığında tamamilə suveren idi. O, heç kimdən soruşmadan və heç kimə hesabat vermədən, hər kəsi və hamını rütbəsindən asılı olmayaraq edam edə və ya bağışlaya bilər, qova və təltif edə bilərdi. Xan bütün icra və məhkəmə hakimiyyətini, hətta şəriət üzrə mühakimə olunmalı işləri üzrə öz əlinə toplamışdı, bütün işlərin baxılmasına xanın dəftərxanasında başlanılır, sonra şəriət mollalarının təhqiqatına və baxılmasına keçirdi. Daha sonra isə hökm xan tərəfindən təsdiq olunur və icra edilirdi. Pul alınması ilə bağlı şikayətlər bilavasitə xana edilirdi. Xan özü təhqiqat aparırdı. Əgər cavabdeh borcdan imtina edirdisə, tələbkar şahidlər göstərməli idi, əgər o haqlı olduğunu sübut edirdisə, cavabdehin əmlakı hərrac yolu ilə satılır və əldə olunan məbləğ ilə borc ödənilirdi. Cavabdeh isə yalan söyləyib pulu verməkdən imtina etdiyinə görə ümumi şərq metodu ilə çubuqla və pul tənbehi ilə cəzalandırılırdı. Bir qədər mühüm cinayət-oğurluq üstündə birinci dəfə cəzalandırmırdılar, yalnız oğurlanmış şeylər geri alınırdı; ikinci dəfə

oğurluq üstündə çubuqla cəzalandırılırdı, üçüncü dəfə oğurluq üstündə isə günahkarın ya burnu, ya qulağı, ya da əli kəsilirdi. Nəhayət, müvvəfəqiyyətsiz qəsdə görə günahkar həbsxanaya salınır, zərərçəkən əgər yaralanmışsa caninin hesabına müalicə olunurdu; yaralı sağaldıqdan sonra cani çubuqla və pul tənbehi ilə cəzalandırılırdı. Qatil tutularkən xana verilirdi; o isə qatili öldürülənin qohumlarına verirdi və onlar onun həyatı ilə istədikləri kimi rəftar edə bilərdilər. Onlar ya qatili öldürür, ya da qan bahası alıb buraxırdılar. Əgər qatil imkan tapıb gizlənə bilirdisə, onda öldürülənin qohumları intiqam almağı muzdla hər hansı adama həvalə edə bilərdilər. Həmin şəxs artıq qatili öldürməyə görə heç bir məsuliyyət daşımırdı (Березин, I his., 45-47; АВПРИ, f77, siy.7, iş 159, v. 47-48).

Əgər qatil yaxa qurtaracağına ümid bəsləmirdisə, onda o, adətən müəyyən vaxta qonşu xanlığa qaçır, qayıtdıqdan sonra isə hər hansı nüfuzlu bəyin və ya hətta xanın özünün himayəsi altına keçir, həmin şəxs düşmənçilik edənlər arasında vasitəçi kimi olur və onları barışdırmağa çalışırdı (Обозрение, III his., 324; Иваненко, 143).

Dini yaxud şəriət məhkəmələrinin təşkili müxtəlif xanlıqlarda eyni cür deyildi. Bəzi xanlıqlarda bu məhkəmə ruhanilər tərəfindən seçilən və xan tərəfindən təyin olunan yarımruhani və yarımdünyəvi qazi idi. Digər xanlıqlarda isə məhkəmə kollegial idi və orada qazidən başqa da həlledici, ya da məşvərətçi səslə axundlar və əfəndilər də iştirak edirdilər (Иваненко, 140).

Şəriət məhkəməsi ən çox mülki mübahisə və işlərə, mübahisə edən qohumları barışdırmaq, malikanə və əmlakı varislər arasında bölüşdürmək və s. məsələlərə baxırdı. Şəriət məhkəməsi nikah və boşanmaya, dul qadınlar və yetimlərə qəyyumluğa dair məsələlərə baxır, qəbalələri, qəbzləri, dini vəsiyyətləri, girov yazılarını və digər aktları təsdiq edirdi. Daha çox şəxsi mənafelərə toxunan cinayət işləri, zorakılıqla özgə əmlakına yiyələnmək, zinakarlıq (ər-arvad sədaqətini pozmaq), qız qaçırmaq, yara və zədə yetirmək, qarətlə bağlı olma-

yan qətl işlərinə də şəriət məhkəməsində baxılırdı. Qarət, quldurluq, tacirlərin fırıldaqları, xəyanət, hərbi cinayətlərə isə dünyəvi hakimlər və xanın özü tərəfindən baxılırdı (Иваненко, 140-141).

Mirası aşağıdakı qaydada bölürdülər: qardaşların hər birinə 8 pay, bacıların hər birinə 4 pay, anaya isə 1 pay. Şəriətlə hər kişinin 4 arvadı ola bilərdi. Ən kiçik günah üstündə arvadı boşamaq olardı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 48).

Məhkəməyə şeyx-ül-islam yaxud qazi sədrlik edirdi. Həm dünyəvi, həm də dini məhkəmələrdə məhkəmə prosesi hər hansı rəsmiyyət olmadan, yazılı qeydiyyat aparılmadan və tələsik aparılırdı. Mübahisə edənlər bir-birini mübahisəni məhkəməyə aydınlaşdırmağa dəvət edirdilər. Bu cür dəvətdən boyun qaçırmaq pis iş hesab olunduğu üçün tərəflər dərhal hakimin yanına gedirdilər. Hakim əvvəlcə iddiaçını, sonra isə cavabdehi dinləyirdi. Lazım gəldikdə şahidlər dindirilirdi. Şahidlər çatışmadıqda və iş mübahisəli olduqda hər iki tərəf and içməli idi, bu zaman cavabdehə üstünlük verilirdi.

Bundan sonra mübahisə edənlər kənar edilir və məhkəmə üzvləri öz aralarında məsləhətləşirdilər. Hökm quran əsasında çıxarılırdı (Иваненко, 140-141). Əgər müvafiq məsələnin izahı quranda olmazdısa, hakimlər hədislərə (müsəlman ruhanilərinin daha çox məşhur nümayəndələrinin izahları, nitqləri) müraciət edirdilər. Əgər hədislərdə də məsələnin qənaətbəxş cavabı tapılmazdısa, hökm yerli adətlər nəzərə alınmaqla, bu cür işlərin keçmişdə həllini nəzərə almaqla, yaxud hakimin lazım bildiyi kimi çıxarılırdı.

Hökm yarlıqda tərtib olunur və məhkəmənin bütün üzvləri öz möhürlərini vururdular. Məhkəmədə yarlıqların qeydiyyatı aparılmırdı və buna görə də eyni məsələ üzrə tərəflərə tamamilə bir-birinə zidd qərarlar verilməsi halları da az olmurdu (Иваненко, 140-141; Мильман, 46-47). Narazı qalan tərəf xana şikayət edə bilərdi. O, zaman xan ya baş qazının özünə, yaxud da öz müşavirlərinə, və yaxud axundlara işə yenidən baxmağı tapşırırdı (Иваненко, 141).

Şəriət məhkəməsi xanın məhkəmə hüquqlarını məhdudlaşdırmırdı. O, məhkəmə tədqiqatına qarışa və istənilən mərhələdə işi istədiyi kimi həll edə bilərdi. Mənbədə deyilirdi ki, əgər xan hər hansı cəzanı təyin etmək istəyərsə bunu sərbəst və maneəsiz edə bilər (Иваненко, 141-142). Xəyanət, qoşundan fərarilik, qarət kimi cinayətlərin bilavasitə xanın yurisdiksiyasına daxil olduğunu qeyd etmişdik.

Əhali çox hallarda mülki işləri icma, münsif, yaxud barışıq məhkəmələrində həll edirdi. İcma məhkəməsinin heyəti çox hallarda maraqlı tərəflərin arzusu ilə, bəzən isə kəndxudanın seçkisi ilə müəyən olunurdu. Sudan istifadə növbəsinin pozulması, torpaq sahələri arasında mərzlərin pozulması ilə əlaqədar işlərdə onbaşıların iştirakı vacib idi. Münsif, yaxud barışıq məhkəməsi, mübahisələri yerli adətlər əsasında həll edirdi (Мильман, 49).

Digər xanlıqlarda olduğu kimi Quba xanlığına daxil olan şəhərlərdə də iki növ məhkəmə mövcud idi: məhkəmeyi şəriyyə və əsnaf məhkəməsi. Birinci məhkəmədə cinayət işlərinə baxılır, talaq verilir, miras mübahisələri həll olunurdu. Rəsmi hakim qazı adlanırdı (Əliyev F., 60-61). Ustbaşının başçılıq etdiyi əsnaf məhkəməsində nisbətən yüngül məsələlər: sənətkarlar, usta, kargər və şagird arasındakı mübahisələr həll olunur, əsnaf qayda-qanununun pozulması, yerli əhalinin ustalardan etdiyi şikayətə və s. baxılırdı.

Əsnaf məhkəmələrinin iclasına əsnaf ağsaqqalları da dəvət olunurdu. Əsnaf məhkəmələrinin hökmləri «ürf» və «adətlərə» uyğun çıxarılırdı. Müqəssir, yaxud iddiaçı məhkəmənin hökmündən razı qalmadıqda, məhkəmeyi-şəriyyəyə müraciət edə bilərdi (Əfəndizadə, 5; Əliyev F., 61). Bir əsnafın üzvü digər əsnafın üzvündən şikayət etsəydi, o zaman hər iki tərəfin ustabaşıları bir yerə toplaşıb mübahisəli məsələləri həll edirdilər. Əgər ustabaşıların da arasında mübahisə düşsəydi, o zaman bu işə əsnafların ağsaqqalları və digər şəxslər də cəlb olunurdular.

Məhkəmələrdə hakimlərdən əlavə mirzə, gözətçilər və bir neçə qasid də olurdu (Əliyev F., 61). Əgər məhkəmədə ali silkin nümayəndələrinə aid bir işə baxılırdısa, o zaman məhkəmə iclasına onların özləri də dəvət olunurdular ki, məhkəmənin hökmü onların qəzəbinə səbəb olmasın (Броневский, 449-450).

Məhkəmələrdə rüşvətxorluq geniş yayılmışdı. S.Qmelin yazırdı: «Hakimlər pulu çox sevdikləri üçün heç zaman ədalətli hərəkət etmirlər. Çox qəribədir, deyirlər ki, Bakıda heç ədalətə nail ola bilmərsən» (Гмелин, 24).

Mənbələrin verdiyi məlumata görə Quba xanlığında qismən şəriət qanunlarına əsaslanan aşağıdakı qaydalar var idi. Ata öldükdə oğlanları bərabər pay, qızların hər biri oğlanın payının yarısına bərabər pay alırdı. Buna görə də xalq arasında deyilərmiş ki, iki qadın bir kişiyə bərabərdir. Qardaşın öz dul qalmış bacısını yenidən ərə vermək hüququ vardı. Boşanma zamanı uşaqlar atanın yanında qalırdı. Həm də kişinin elə şifahi tərzdə üç dəfə qadına – «mən sənin talağını verdim» - deməsi boşanma üçün kifayət idi. Xanlığın sakinlərinin çoxluğunu təşkil edən sünnilər şafii islam hüquq məktəbinin qaydalarına əməl edirdilər. Bu qaydalara görə ər əvvəllər boşadığı arvadı ilə yenidən yalnız o zaman kəbin kəsdirə bilərdi ki, qadın da ayrı bir kişiyə ən qısa müddətdə də olsa kəbin kəsdirib sonra ayrılsın (Обозрение, IV his., 124; AMEA TİEA, inv. 787, s.1). Yəqin elə bunun nəticəsidir ki, indi də bu bölgənin bəzi yaşlı sakinləri deyirlər ki, ər öz arvadını talağ verdikdən sonra yenidən ona evlənə bilməsi üçün qadın formal olaraq heç olmazsa xoruzla kəbin kəsdirib sonra boşanmalıdır. Şiə məzhəb əhalinin içərisində mövcud olan qaydaya görə kişi boşandıqdan sonrakı üç ay müddətində keçmiş arvadının dolanışıq xərcini ödəməli idi (Обозрение, IV his., 125).

Xanlığın bəzi yerlərində qızın qaçırılması üçün valideynlərin qızı qaçıranı öldürmək hüququ var idi. Günahkar pul ödəməklə yaxasını cəzadan qurtara bilərdi. Şafii hüquq məktəbinə mənsub şəxslər arasında olan adətə görə qadın ərinə

xəyanətə görə yalnız o zaman cəzalandırıla bilərdi ki, dörd nəfər onun xəyanətini təsdiqləsin (Обозрение, IV his., 125).

**Hərbi iş.**

Xan hakimiyyətinin əsas dayağı ordu idi. Digər Azərbaycan xanlıqlarında olduğu kimi Quba xanlığında da silahlı qüvvələrin özəyini xan qvardiyası, maaflar və bəy drujinaları təşkil edirdi. V.M.İvanenko yazırdı: «Xan qoşunları adını çəkdiyimiz maaflardan, lazım gəldiyi təqdirdə onlara qoşulan kəndləri və mahalları idarə edən bəylərin silahlı dəstələrindən ibarət idi. Bu üsulla təşkil olunan qoşunun əsgərləri öz təsərrüfatlarından yalnız qısa müddətə ayrılır və qarət olunmuş qənimətlə və vergilərdən azad edilmək, müxtəlif növlü xırda icarələr və s. şəklində xüsusi xan lütfü ilə təltif olunurdular» (Иваненко, 139). Quba xanı böyük miqdarda silahlı nökərlərə və maaflara malik idi.

Xanlığın qüdrəti onun malik olduğu hərbi qüvvənin miqdarı və keyfiyyətindən asılı idi. Qismən yüksək ruhlu, yaxşı silahlanmış və bacarıqlı döyüşçülərə malik olmayan xanlıq, şübhəsiz ki, uzun müddət öz istiqlaliyyətini qoruya bilməzdi. Hərbi qüvvə təkcə xarici təhlükədən qorunmaq üçün deyil, həm də daxili əmin-amanlığı qorumaq üçün lazım idi. Məhz buna görə də hərbi qüvvələr haqqında qayğı xanlığın başlıca vəzifəsi sayılırdı (Левиатов, 40).

Ordu müharibə başlanması ərəfəsində yığılırdı. Naiblər, tayfa başçıları və iri feodallar xanın tələbini eşidən kimi ona döyüşçü yollamalı idilər. Quba xanlarının sərəncamında 10 mindən 25 minə qədər silahlı döyüşçü ola bilirdi.

Daimi döyüşçülər silahı, atı və döyüş üçün lazım olan digər ləvazimatı divanxanadan alırdılar. Onlar günün müəyyən hissəsini hərbi təcrübələrini artırmaq məqsədilə təşkil olunan təlim keçməklə məşğul olurdular (Мильман, 43). Lakin əsgərlər hərb işinə sənət kimi deyil, müəyyən iş kimi baxırdılar. Buna görə də onlar lazım gələn vaxtda əlverişli hərbi taktika seçmək qabiliyyətinə malik deyildilər.

Quba xanlığında hərbi nökərlər daimi qoşunun – xan qvardiyasının özəyini təşkil edirdilər. Xanlıqda hərbi nökərlərlə yanaşı «namnayz» (namnəvis-«nam»-farsca ad, «nəvis»-yazılmış-yəni adı yazılmışlar) da var idi. İrəlidə qeyd olunduğu kimi, onlar hərbi əməliyyatlar zamanı tam silahlanmış şəkildə xanın süvari qoşununda vuruşurdular. Buna görə də heç bir digər mükəllifiyyət daşımır və vergi ödəmirdilər (Колониальная пол., I his., 84).

Daimi silahlı qüvvələr qismən müasir silahlarla silahlanmışdılar. Bununla bərabər ata babadan qalmış döyüş adətlərindən də istifadə olunurdu. Qoşun müxtəlif tipli və markalı «dayandoldurum» tüfənglərlə silahlanırdı. Tüfəngçilər xan qoşunundan ön sıralarda yeriyir, xanın keçəcəyi yerlərdə təhlükəli və şübhəli hadisələri aradan qaldırırdılar. Tüfəngçi dəstəsində başçılıq edən zabit «tüfəngçi başı» adlanırdı. Daimi qoşun «zənburək» adlanan yüngül və dəvələrin üstündə daşınan toplara malik idi.

Qoşun üzərində ali komandanlıq xana məxsus idi. Qoşun on, yüz və min nəfərə ayrılırdı. Bu dəstələrə müvafiq olaraq onbaşı, yüzbaşı və minbaşı başçılıq edirdi (АВПРИ, f. 77, siy. 1, 1828-ci il, iş 18, v. 4, 8, 32, 83, 101).

Xanlıqda daimi qoşundan başqa divanxanada soyuq silahlarla silahlanmış bir çox yasavul, fərraş və nökərlər də var idi. Yasavul xan bir yerdən başqa yerə keçərkən onun keçəcəyi yolları mühafizə edən və xanın ətrafında dolaşan şəxslərə, fərraş isə divanxanada təmizlik işlərinə baxan və daxili qayda-qanuna nəzarət edən şəxslərə deyilirdi (Dəlili, 76).

Xan qoşunlarının tərkibində muzdlular da olurdu. Adətən muzdlular dağıstanlı döyüşçülərdən toplanırdı. 1770-ci ilin aprelində Fətəli xanın 10 min muzdlu döyüşçüsü vardı (AVPRİ, f. 77, siy. 1, 1770-ci il, iş 13, v. 35). Muzdlular baha başa gəlir və az etibarlı idilər. Onlar qarətlə də məşğul olurdular. 1780-ci ildə Qarabağa yürüş zamanı Fətəli xanın dağıstanlı döyüşçüləri müəyyən muzdu almadıqları üçün geri qayıdarkən

Quba xanına məxsus yerləri qarət etmişdilər (РГВИА, f. 52, iş 218, v. 47-48).

Digər Azərbaycan xanlıqlarında olduğu kimi Quba xanlığında da qoşunla yanaşı müharibə zamanı və ya xanlıq üçün təhlükə yarandığı zamanlarda qeyri-nizami hərbi qüvvələr-çəriklər də toplanırdı. Xanın tələbi ilə mahal naibləri, tayfa başçıları və iri feodallar müəyyən miqdarda çərikçilər verməli idilər. Bundan əlavə belə hallarda kənd icmaları da öz çəriklərini çıxarmalı idilər. Quba xanlığında demək olar ki, bütün yaşlı kişilər silahlı idilər. 1796-cı ildə Dərbəndi işğal etmiş rus qoşunlarının komandanı gen. V.Zubovun tələbi ilə Dərbəndin şəhər əhalisi xan qoşunu ilə birlikdə tərksilah olunduğu zaman verilən silahların sayı 11 min ədəd olmuşdu (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 56) ki, bu da Dərbəndin bütün əli silah tuta bilən sakinlərinin lazım gəldikdə xan ordusu sıralarında vuruşduğunu göstərir.

# II FƏSİL. XVIII ƏSRİN İKİNCİ YARISINDA QUBA XANLIĞININ QONŞU DÖVLƏTLƏRLƏ VƏ BAŞQA AZƏRBAYCAN XANLIQLARI İLƏ MÜNASİBƏTLƏRİ

## Fətəli xanın Azərbaycanı birləşdirmə siyasətinə başlaması

Fətəli xanın səyləri nəticəsində XVIII yüzilliyin 50-ci illərinin sonuna yaxın Salyanı və Dərbəndi də özünə birləşdirərək xeyli güclənmiş Quba xanlığı Azərbaycanda mühüm rol oynamağa başlamışdı. 1759-cu ildə Qazıqumuqlu Məhəmməd xan tərəfindən Şəki xanlığından məhrum edilən Hüseyn ağa Fətəli xanın yanına gələrək ondan yardım istədi. A. Bakıxanova görə Hüseyn xan, tezliklə Quba qoşunu ilə hərəkət edib, narazı şəkililərlə birləşərək Məhəmməd xanı qovmuş, Şəkidə hakimiyyəti yenidən ələ keçirmişdi (АВПРИ, f. 77, siy. 5, iş 2 (1722-1796), v. 32 və a.ü.).

Qafqaz xəttindəki rus qoşunlarının mirzəsi Şamurzin Azərbaycanda (və ola bilsin ki, həm də İranda) olmuş və geri qayıdarkən 1763-cü il noyabrın 19-da bildirmişdi ki, onun eşitdiyinə görə Kərim xan Zənd Ərdəbil şəhərinə gəlib Fətəli xanın yanına elçi göndərərək Şamaxıya daxil olmaq fikrində olduğunu bildirmiş və buna Fətəli xanın razılığını istəmişdi. Fətəli xan öz növbəsində nümayəndəsini Kərim xanın yanına göndərib bildirmişdi ki, onun Kərim xanla heç bir düşmənçiliyi yoxdur və həmişə yaxşı münasibətdə olmaq istəyir. Fətəli xan məsləhət görürdü ki, Kərim xan öz sakitliyi xatirinə yalnız Kür çayından o tərəfki əhali üzərində hakimiyyətini yaysın, Kürdən bu tərəfə keçməsin və ona – Fətəli xana heç bir zərər yetirməsin, əks halda o, Rusiya imperatriçəsindən yardım istəyəcək və bu yardımı alacağına ümid edir (АВПРИ, f. 77, siy. 5, iş 2 (1722-1796), v. 33 a.ü.).

Qeyd edək ki, Kərim xan Şamaxıya da iki nəfəri göndərib qarşıdakı ilin yazında ora gəlmək fikrində olduğunu bildirmişdi. Lakin Şamaxı xanı müqavimət göstərmək fikrində idi. Fətəli xanın Kərim xanın Şamaxıya yürüş cəhdinə mənfi

münasibət göstərməsi təkcə Kərim xanın Kürdən şimala irəliləməsini istəməməsi ilə bağlı olmayıb, həm də Fətəli xanın özünün Şamaxıda gözü olması ilə bağlı idi. Mənbədə deyilir ki, Fətəli xan, Qazıqumuq hakimi Məhəmməd, Qaytaq hakimi Əmir Həmzə Şamaxı xanları sadə mənşəyə malik olduğu üçün paxıllıq edərək onları hakimiyyətdən kənarlaşdırıb Şamaxını Quba xanlığına vermək, kəndlərini isə bölüşdürmək istəyirlər (АВПРИ, f. 77, siy. 5, iş 2, v. 33 a.ü.).

Şamaxı hərbi cəhətdən xeyli güclü xanlıq idi və buna görə də onu ələ keçirməyin yüngul olmayacağı aydın idi. Buna görə də Fətəli xan əvvəllcə zəngin, lakin hərbi cəhətdən Şamaxıdan çox zəif olan Bakı xanlığını tabe etmək və bununla da Şamaxı xanlığı ilə həlledici mübarizə üçün qüdrətini artırmaq qərarına gəldi.

**Bakı xanlığının asılı hala salınması**

Qeyd etdiyimiz kimi Bakı xanlığı iqtisadi cəhətdən zəngin (ilk növbədə neft və duzla) idi. Bakı o zaman Xəzər dənizi sahilində ən möhkəm və əlverişli liman şəhəri idi. Abşeron yarımadasını əhatə edən Bakı xanlığı cəmisi 34 kəndi əhatə edən iki naiblikdən ibarət idi: Maştağa və Binəqədi naiblikləri. Xanlıqda bir şəhər- Bakı var idi. 1796-cı il məlumatına görə xanlıqda cəmi 1820 ev var idi və 9100 nəfər[5] əhali var idi (Искендерова 19).

Bakı xanlığı hərbi cəhətcə zəif idi və cəmi 500-1000 nəfər döyüşçüsü vardı.

Fətəli xan Bakıya əvvəlcə iqtisadi zərbə endirmək qərarına gəldi. Quba xanlığı Rusiya ilə ticarəti öz limanlarına – Dərbənd, Niyazabad və Salyana yönəldərək Bakını iqtisadi məngənəyə aldı. Eyni zamanda Fətəli xan diplomatik hərəkət edərək Bakı xanlığını xarici düşmənlərdən müdafiə etməyi öz öhdəsinə götürdü.

---

[5] Qeyd. Gətirilən məlumat xeyli azaldılmışdır, belə ki, vergi verən ailələrin bir çoxu can vergisi və digər vergidən xilas olmaq üçün öz ailələri ilə birlikdə siyahıya almadan yayınırdılar.

Fətəli xan Bakı xanlığını hərbi yolla deyil, tamamilə dinc yolla öz nəzarəti altına aldı. Bu işdə «nikah diplomatiyasından» istifadə olundu.

1767-ci ildə Fətəli xan bacısı Xədicə Bikəni hələ Mirzə Məhəmməd xanın dövründə Bakını idarə edən oğlu Məlik Məhəmməd bəyə verdi. Bəzi mənbələrə görə Fətəli xan əvvəlcə Xədicə Bikəni qaynı Əmir Həmzəyə söz verib, sonra sözünə əməl etmədiyindən qəzəblənən Əmir Həmzə Dərbəndi ələ keçirib Narınqalada möhkəmlənibmiş. Yalnız Avar xanının vasitəsi ilə Əmir Həmzə Dərbəndi tərk etmişdi və əvəz kimi Molla Xəlilli kəndini almışdı (Серебров, 201-202). Dövrünün ağıllı qadınlarından biri olan Xədicə Bikə qardaşının məsləhətləri ilə Bakı xanlığının idarəçilik işlərinə qarışır, həmişə Quba xanlığının xeyrinə çalışırdı. Tarixi mənbələrin verdiyi məlumata görə Məlik Məhəmməd xan müxtəlif işlərlə bağlı Bakıdan çıxdıqda xanlığı Xədicə Bikə idarə edirdi. Məsələn, əri iki il Qarabağ xanının əsiri olduğu vaxt, habelə Məkkəyə ziyarətə getdiyi zaman bu igid və bacarıqlı qadın Bakını idarə etmişdir. Rus hökuməti tərəfindən İrana konsul təyin edilən İ. Tumanovski 1780-ci ildə Bakıdan Ənzəliyə gedərkən Xədicə Bikənin hərəkətlərini müşahidə edərək yazmışdı ki, dövlət hakimiyyətinə başçılıq onun tərəfindən həyata keçirilir. Rəsmən Bakıda xanlıq qalsa da faktiki olaraq o Qubaya tabe edilmişdi. 1770-ci ildə Bakıda olmuş S.Q. Qmelin Saray kəndində Quba xanlığının qarnizonunun yerləşdiyini və Bakı xanlığının Quba xanının himayəsi altında həmişə Fətəli xanın vassal asılılığında olduğunu bildirirdi. O, Fətəli xana illik xərac verir, bütün hərbi yürüşlərində iştirak edirdi. Fətəli xan 1780-ci ildə Məlik Məhəmmədin oğlu Mirzə Məhəmmədi Bakı xanı elan etmiş, Məlik Məhəmmədin anası Xədicə Bikə isə qəyyum olmuşdu (Абдуллаев (1965), 210-211).

Fətəli xana rəsmən müraciət edənlər onu «Quba, Dərbənd, Bakı və Salyan rəisi» adlandırır, Rusiya dövlətinin ticarət öhdəçiliyində onun adı «Quba, Dərbənd və Bakı hakimi» kimi yazılırdı (Абдуллаев (1965), 102-103). Səciyyəvi haldır

ki, Bakı xanı tərəfindən sıxışdırılan rus tacirlərini müdafiə etmək tapşırığı almış rus admiralı Voynoviçlə danışıqları Məlik Məhəmməd xan yox Fətəli xan aparmışdı.

Bacısı Xədicə Bikəni Məlik Məhəmməd xana verməklə Bakı xanlığını özündən asılı vəziyyətə salıb uğur qazanan Fətəli xan eyni zamanda bu hərəkəti ilə özünə böyük zərər də yetirdi. Məsələ burasındadır ki, irəlidə qeyd olunduğu kimi, Fətəli xan əvvəllər Xədicə Bikəni arvadı Tuti Bikənin qardaşı Qaraqaytaq usmisi Əmir Həmzəyə verməyi vəd etmişdi. İndi Əmir Həmzə Quba xanının barışmaz düşməninə çevrildi. Fətəli xanın böyük kömək gözlədiyi bu qohumluq A.A.Bakıxanovun yazdığı kimi böyük bir bədbəxtlik mənbəyinə çevrildi (Бакиханов, 164).

**Şamaxı xanlığının ələ keçirlməsi**

Bakı xanlığının tabe edilməsi ilə şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsinin birinci mərhələsi başa çatdı. İkinci mərhələdə Şamaxı və Cavad xanlıqlarını birləşdirmək uğrunda mübarizə getmişdir. Şamaxını almaq uğrunda mübarizə çox amansız və qanlı oldu.

Şamaxı xanlığı həm iqtisadi, həm də hərbi-strateji cəhətdən Fətəli xanın diqqətini cəlb edirdi. Xanlıq şimal-şərqdə Quba xanlığı ilə, şərqdə Bakı, cənub-qərbdə Qarabağ xanlıqları ilə, cənubda Kür çayı ilə həmsərhəd idi. Şamaxı xanlığının mərkəzi Şamaxı şəhəri məlum olduğu kimi 1734-cü ildə Nadir tərəfindən dağıdılmış, əhalisi Yeni Şamaxı adlandırılan yerə (Ağsuya) köçürülmüşdü. Əsrin ikinci yarısında şəhər bərpa edilmişdi (Джафаров, 5).

Bəzi kitablarda bu xanlıq Şirvan xanlığı kimi adlanır. Lakin bu yanlışdır, çünki Şirvan minillik tarixi olan Şirvanşahlar dövləti ilə bağlı olan bir anlayış olub bütün şimal-şərqi Azərbaycanı əhatə edir. Şamaxı xanlığı isə Şirvanın kiçik bir hissəsini-mərkəzini əhatə edirdi. Quba xanlığının özü, Dərbənd, Bakı və Cavad xanlıqları da tarixi Şirvan ərazisində yaranmışdılar.

O dövrdə Şamaxı xanlığının hərbi-siyasi qüdrəti barədə müxtəlif məlumatlar vardır. Bəzi müəlliflər Şamaxı xanlığının 2 mindən çox döyüşçüsü olmadığını, bəziləri isə, şəhərdə 40 çuğun topun olduğunu və 5-6 min döyüşçünün saxlandığını qeyd edirlər (Bax: Абдуллаев (1965), 213).

Quba və Şamaxı xanları arasında mübarizə hələ Quba xanının Dərbəndə hücumundan əvvəl başlamışdı. O zaman Şamaxı ərazisində iki xanlıq mövcud idi. Biri mərkəzi Köhnə Şamaxı olan və sərkərlər sülaləsinin başçılıq etdiyi, digəri isə mərkəzi Yeni Şamaxı olan və Hacı Məhəmmədəli xanın başçılıq etdiyi xanlıq. Hacı Məhəmmədəli Quba ilə müttəfiq münasibətlərində, sərkərlər isə düşmən münasibətdə idilər. Hələ 1758-ci ildə Hüseynəli xanın vəfatından istifadə edən Sərkərlərin qoşun başçılarından biri – Razi bəy Quba xanlığının Bərmək mahalına basqın edib oranı talan etmiş və 200 ailəni özü ilə Şamaxıya aparmışdı (Абдуллаев (1965), 214). İ.Hacınskinin yazdığına görə bu zaman atasının dəfni ilə məşğul olan Fətəli xan bu hadisədən atasının vəfatının yeddinci günü xəbər tutmuş, xanlıq taxtına çıxmaq mərasimini yüngülcə keçirib, qoşun toplayaraq şamaxılılara qarşı hərəkət etmişdir. Şamaxılı Məhəmməd Səid xan Fətəli xanı sərhəddə qarşılamış, baş vermiş vuruşmada Məhəmməd Səid xanın qardaşı Ağa Razi bəy həlak olmuş, qalib gələn Fətəli xan geri qayıdarkən öz növbəsində bir çox ailəni Şamaxı xanlığından Qubaya köçürmüşdü (Hacınski, 8-9).

Dərbəndi birləşdirdikdən və Bakı xanlığını asılı hala saldıqdan sonra isə Quba xanlığı xeyli qüvvətlənmişdi. Quba xanı Şamaxı xanından onun ərazisini dağıstanlıların hücumundan qorumaq üçün ildə 10 min manat tələb etmiş və mənbələrin məlumatına görə Şamaxı xanı həmin məbləği 4 il ödəmişdi (Бутков, I his., 253). Rus konsulu M. Sulyakovun verdiyi məlumatda deyilirdi ki, cənubi Dağıstan feodalları – Qaraqaytaq usmisi, Qazıkumux xanı və Tabasaran qazısı Fətəli xana müraciət edərək, onların Şamaxıya hücum etmələrinə icazə verməsini xahiş etmişdi, lakin Quba xanı onların Quba xanlığının

ərazisindən keçərək Şamaxıya hücum etmək cəhdlərinin qarşısını almışdı. Məlumata görə Fətəli xan dərhal «ehtiyat tədbiri» görüb usmi, xan və qazinin yürüş məqsədi barədə şamaxılılara xəbər göndərmişdi (Абдуллаев (1965), 216).

Bir müddətdən sonra Şamaxı hakimləri Quba xanına xərac verməkdən imtina etdilər və iki xanlıq arasında münasibətlər pisləşdi. Nəticədə 1765-ci ildən 1769-cu ilədək davam edən 4 illik Quba-Şamaxı mübarizəsi başladı. Şəkili Hüseyn xanın Şamaxıya kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu.

Quba xanının hərbi qüdrətini görən Şamaxı hakimi Məhəmməd Səid xan onunla açıq döyüşə girməyə cürət etmədi. Qubanın köhnə müttəfiqləri ilə yanaşı Qazıqumuq və Qaraqaytaqdan muzdlu döyüşçülər də Fətəli xanın sərəncamında idilər. Quba qoşunları asanlıqla Müci qalasını tutdular (АВПРИ, f. 77, siy. 1, 1767-ci il, iş 3, v. 6). Şamaxı xanı Quba hakimlərindən asılılığı qəbul etməyə məcbur oldular və hərbi xərcləri ödəməyi vəd etdilər (АВПРИ, f. 77, siy. 1, 1767-ci il, iş 9, v. 9, 28).

Bakıdakı rus konsulu M.Sulyakov Xarici İşlər Kollegiyasına 13 sentyabr 1767-ci il tarixli məktubunda bu məsələ ilə bağlı yazırdı ki, Fətəli xan Bakı xanı ilə sövdələşib, öz təbəələrindən 12 min nəfərlik qoşun toplayaraq Şamaxıya hərəkət etmiş və Şamaxının yaxınlığındakı dağda yolu çox dar olduğu üçün keçilməz sayılan Müci adlı qalanı fənd işlədərək çox asanlıqla və heç bir itki vermədən ələ keçirmişdir.Fətəli xan yanındakı ağsaqqalardan birini Şamaxı xanının yanına göndərərək öz qoşununu hazırlamasını istəmiş və döyüş günü təyin edibmiş.Konsulun məlumatına görə Şamaxı xanı hərbi cəhətdən üstünlüyə malik idi və 25 minə qədər döyüşçü toplaya bilərdi, ancaq Fətəli xanla döyüşə girməyə cəsarət etməmişdir, çünki bir çox Şamaxı feodalları ona sadiq deyildilər və Şamaxı hakimi ehtiyat edirdi ki, döyüş zamanı onlar düşmən tərəfə keçə bilərlər.Məhz buna görə də

Məhəmməd Səid xan ətraf xanların vasitəçiliyi ilə Quba xanı ilə barışmışdır.Fətəli xan Müci qalasını tərk etmiş və ələ keçirdiyi qəniməti geri qaytarmışdır.İndi hər iki hakimin arasında dostluq var, hər iki tərəf qarşı tərəfin təbəələrinə və karvanlarına toxunmağı qadağan etmişdir(AVPRİ, f.77(SRP), siy.1, 1767-ci il, iş 9, v.27 a.ü. – 28; Abdullaev.İz istorii, Əlavələr, s.157). 1768-ci ilin əvvəllərində Quba və Şamaxı nümayəndələri arasında danışıqlar getdi və yeni saziş bağlandı (АВПРИ, f. 77, siy. 1, 1768-ci il, iş 17, v. 178).

Lakin müqavilə öhdəlikləri yerinə yetirilmədi. Şəkili Hüseyn xanın Şamaxı xanına kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu. Yaranmış vəziyyətdən çıxış yolu arayan Fətəli xan Hüseyn xanla Məhəmməd Səid xanın arasını vurdu və birinci Quba xanının tərəfinə keçdi. Fətəli xan Şamaxıya qarşı yeni yürüşə hazırlaşmağa başladı. Onun qoşunlarının tərkibinə daimi hissələrlə yanaşı, Dərbənd, Quba, Bakı və Salyandan toplanmış çərik dəstələri, habelə Tabasaran və Aquşadan gəlmiş muzdlular daxil idi. 1768-ci ilin mayında Quba qoşunları Şamaxıya doğru hərəkət etdilər. Eyni zamanda digər tərəfdən Quba xanının müttəfiqi şəkili Hüseyn xanın qoşunları hücum edirdi (АВПРИ, f. 77, siy. 1, 1768-ci il, iş 17, v. 178). Qoşunların səfərbər edilməsi və hərəkəti elə sürətlə baş verdi ki, şamaxılılar müdafiəni təşkil edə bilmədilər. Müttəfiq qoşunları Şamaxı xanlığının bütün ərazisini tutdular. Şamaxı şəhəri mühasirəyə alındı. Şəhərdə aclıq başladı. Şamaxı şəhəri uzun mühasirəyə tab gətirmədi və 1768-ci ilin iyununda təslim oldu (АВПРИ, f. 77, siy. 1, 1768-ci il, iş 17, v. 84).

Şamaxı xanları Fətəli xana yox, Şəki xanına təslim olmağı üstün tutdular. Son dərəcə ehtiyatlı bir şəxs olan Hüseyn xan bunu Fətəli xana bildirdi. Quba xanı ona cavan Ağasının gözlərini çıxarmağı, daha yaşlı Məhəmməd Səid xanı isə həbs etməyi məsləhət gördü. Hüseyn xan belə də hərəkət etdi. Məhəmməd Səid xan həbs edildisə də azacıq sonra yaşı çox oldu-

ğuna görə (o zaman onun 60 yaşı vardı) azadlığa buraxıldı (Абдуллаев (1965), 222).

Fətəli xan Ağası xanı oğlanları ilə birlikdə Bakıya aparmağı əmr etdi, özü isə Şamaxıya gəlib, yeznəsi-Məhəmməd Səid xanın oğlu Məhəmməd Rza bəyi formal olaraq Şamaxı xanı elan etdi, bütün işlərin idarəsi isə Fətəli xanın əlində idi (Hacınski, 21).

Məhəmməd Səid xanın digər oğlanları Əsgər və Qasım bəylər, həmçinin Ağası xanın oğlu Mustafa bəy vəziyyəti belə görüb Qarabağa qaçdılar. Lakin, Fətəli xanla yaxşı münasibətdə olan Ərəş sultanı Şəhabəddin onları hiylə yolu ilə Ərəşə gətirib həbs etdi. Bir qədər sonra dustaqları Fətəli xanın elçisi Məhəmməd Kərim bəy və Şəki xanının nümayəndəsi Hacı Səid bəyin müşayiəti ilə Şamaxıya göndərdi. Şəki və Şirvan sərhəddində olan Göyçay sahilində, Fətəli xanın guya Şəkiyə hücuma keçməsi barədə yalan şaiyə buraxan Sərkərlər sülaləsi tərəfdarlarının hiyləsi baş tutdu və bu xəbərə inanan Hacı Səid bəy Şamaxı xanlarının oğlanlarını azad edərək, Şəkiyə qayıtdı. A.Bakıxanov bu barədə yazır: «Azad olunmuş məhbuslar Cara, oradan isə Avarıstana getdilər, bir neçə il əvvəl öldürülmüş Nutsal xanın qardaşı oğlu və kürəkəni Ümma xanı öz tərəflərinə çəkib, onu Şirvana gətirdilər» (Бакиханов, 167). (Ancaq burada onu qeyd etmək lazımdır ki, Nutsal xan əslində 1768-ci ildən çox sonra – 1773-cü ildə qətlə yetirilmişdir).

Fətəli xan Şamaxı xanlığının ərazisini Hüseyn xanla bölüşdürdü: Sədari və Qəsari mahalları Yeni Şamaxı ilə birlikdə Şəki xanına, xanlığın yerdə qalan hissəsi isə Köhnə Şamaxı ilə birlikdə Quba xanına çatdı. Bu yerlərin idarə olunması üçün onlar öz naiblərini təyin etdilər. Köhnə Şamaxının naibi Fətəli xanın qardaşı Abdulla bəy oldu (Бакиханов, 160; Azərb. tar. (1996), 526).

Bu hadisədən sonra Fətəli xanın nəinki Azərbaycanın şimalında, eləcə də cənubunda şöhrəti yayıldı. Rus konsulluğunun əməkdaşı İvan Matveyev və

Həştərxan taciri Stefan Şaripinin prikazçiki Yeqor Zamyatin 1768-ci il 10 sentyabr tarixdə konsul M.Sulyakova yazırdılar ki, avqustun 17-də Fətəli xan yanında 15 min döyüşçü olmaqla Yeni Şamaxıya gələrək şəhərdən iki verst aralıda düşərgə salmışdır, sonra 2 min döyüşçü ilə Yeni Şamaxıya girərək şəhəri idarə edən Manaf bəyi və bir sıra əyanları həbs etmişdir. Çünki Manaf bəy bir sıra əyanlarla Fətəli xana qarşı çıxmaq qərarına gəlmiş və bu barədə Şəkili Hüseyn xana məktub göndərmişdi. Digər əyanlar və Yeni Şamaxı sakinlərinin yarısı bu niyyətlə razı deyildilər və Fətəli xanın hakimiyyəti altında olmağı arzulayırdılar.Hüseyn xan Manaf bəyə məsləhət görmüşdü ki, əlverişli məqamda qala qapılarını bağlasın və Fətəli xana meylli olan bütün ağsaqqalları məhv etsin, Hüseyn xan özünü yetirənə kimi qapıları heç kimə açmasın.Məktub müəllifləri yazırdılar ki, Fətəli xan cəld hərəkət edərək rəqiblərini qabaqlamış, Manaf bəyi üç kətxuda ilə birlikdə həbs edərək Dərbəndə göndərmişdir, Məhəmməd Səid xanı qardaşı ilə birlikdə öz yanında saxlayır, bütün Şamaxı kətxudaları və sakinləri Fətəli xanın hakimiyyəti altında olmağı arzulayırlar.İ.Matveyev və Y.Zamyatin yazırdılar ki, onlar Şamaxıda olduqları zaman bir çoxlarından eşitmişlər ki, Ərdəbil və Təbriz xanları və bəzi kətxudalar əhalini incitdiklərinə görə Kərim xan Zənd tərəfindən həbs olunaraq Şiraza aparılmışlar.Yerdə qalan kətxudaların nümayəndələri Fətəli xanın yanına gələrək Ərdəbili və Təbrizi hakimiyyəti altına almasını xahiş etmişlər, Fətəli xan Şəki xanı ilə məsələni çürütdükdən sonra həmin şəhərlərə hərəkət edəcəyini vəd etmişdir.Məktub müəllifləri bildirirdilar ki, indi Fətəli xan Köhnə Şamaxıya qardaşı Abdulla bəyi naib təyin etmək, Yeni Şamaxının idarəsini isə Məhəmməd Səid xana tapşırmaq istəyir. Ancaq Məhəmməd Səid xan bu təklifdən imtina edərək onun ailəsi ilə birlikdə Quba və Dərbənddə yerləşdirilməsini, iki kəndin mülkiyyətinin ona verilməsini

istəyir (АВПРИ, f.77(SRP), siy.1, 1768-ci il, iş 12, v.98 – 99; Абдуллаев. Из истории, Əlavələr, s.158 – 159).

Şamaxı xanlığının Şəkinin payına düşən mahalları ondan alındı və Qubaya birləşdirildi (Azərb. tar. (1996), 527).

Terek qoşunu bölük komandiri Adil Çerkasski 20 noyabr 1768-ci il tarixdə Qızlar komendantı Potapova yazırdı ki, Qubalı_Fətəli xan Şamaxıda təhlükədədir, çünki o, əvvəl şəkili Hüseyn xanla birləşib Şamaxını tutmuşdu. Hüseyn xan şamaxılı Ağası xanı tutub Fətəli xandan xəbərsiz kor etmiş, qardaşların əmlakını mənimsəmişdir. Fətəli xana yalnız 20 min manat vermişdir (özünə 40 min manatlıq əmlak götürmüşdür). Buna görə Fətəli xan Hüseyn xandan incimiş, aralarında mübahisə baş vermişdir. Eyni zamanda Fətəli xandan narazı olan şamaxılılar Hüseyn xana məktub yazıb ondan yardım istəmişlər. Hüseyn xan Şamaxıya hücum etmişdir. Fətəli xan da bundan xəbər tutub akuşalılardan və Tavlı mahalından qoşun toplamış, Tarku şamxalından da yardım istəmişdir. Şamaxı yaxınlığında baş verən döyüşdə əvvəlcə Hüseyn xan qalib gəlsə də, sonra Şamxal Fətəli xanın köməyinə çatmışdır. Hüseyn xan darmadağın edilmişdir. Şəki xanı az saylı tərəfdarı ilə zorla qaçıb canını qurtara bilmişdir (АВПРИ, f. 77, siy. 5, iş 16(1767-1769), v. 261 a.ü.). Çerkasskinin yazdığına görə Fətəli xana yardıma gəlmiş Akuşa kadisi, Hüseyn xan darmadağın edildikdən sonra ondan Gürcüstana basqın etmək üçün kömək verməsini xahiş etmişdi. Lakin Fətəli xan bundan imtina etmişdir, çünki Kür çayından cənubdakı torpaqları tutmaq, daha sonra isə Kərim xan Zəndlə mübarizəyə başlamaq niyyətindədir (АВПРИ, f. 77, siy. 5, iş 16(1767-1769), v. 262).

1769-cu ilin mayında Həştərxan quberniya dəftərxanasına daxil olmuş məlumatda deyilirdi ki, Fətəli xan Şamaxıda şəkili Hüseyn xana qarşı yürüşə hazır vəziyyətdədir. Hüseyn xan yardım üçün II İrakliyə müraciət etmiş, İraklı Fətəli xana yazmışdır ki, Hüseyn xana qarşı hücum fikrindən çəkinsin, yoxsa şəkililərə yardım göstərəcəkdir (АВПРИ, f. 77, siy. 5, iş 16 (1767-1769), v. 279).

Həştərxan general – qubernatoru İ.Beketovun Xarici İşlər Kollegiyasına yazdığı 25 iyul 1769-cu il tarixli məlumatında deyilirdi ki, Şamaxıdan iyulun 16-da Həştərxana gəlmiş Cəfər adlı bir Dərbənd sakini xəbər verirdi ki, Fətəli xanla şəkili Hüseyn xan arasında ixtilaf yaranmışdır, bir – birilərinə qarşı qoşun göndərmişlər, ancaq hələ aralarında döyüş baş verməmişdir.Şamaxı ruhaniləri gizli surətdə Hüseyn xana yazmışlar ki, heç nədən qorxmadan Fətəli xana qarşı döyüşə girsin, onlar ona kömək edəcəklər.Ağsunun idarəsini Hüseyn xana vermək vəd olunurdu.Bundan xəbər tutan Fətəli xan Hüseyn xanla barışmış, Hüseyn xan Şəkiyə qayıtmışdır.Fətəli xan ali ruhanilərin bir hissəsini həbs etmiş, digərilərini cərimələyərək ailələri ilə birlikdə Quba və Dərbəndə sürgün etmişdir. Ağsunun (Yeni Şamaxı) qalan sakinlərinin hamısını Köhnə Şamaxıya köçürmüş, bu şəhərin bütün qapılarını bağlayaraq içərisinə çayın suyunu buraxdırmış, bu yolla şəhəri dağıtmışdır(АВПРИ, f.77(SRP), siy.1, 1767 – 1769-cu illər, iş 16, v.297; Абдуллаев.Из истории, Əlavələr, s.162).

Fətəli xanla Hüseyn xan arasındakı ixtilaf və Yeni Şamaxının dağıdılması haqqında konsul Sulyakovun Xarici İşlər Kollegiyasına 16 avqust 1769-cu il tarixli məlumatında daha geniş bəhs olunur. Konsul yazır: Fətəli xan Şamaxını aldıqdan sonra hər yolla şəhərdə sabitlik yaratmağa çalışırdı, lakin onun bütün cəhdləri nəticə vermədi; Şamaxılılar sabiq Şamaxı xanı Məhəmməd Səid xana və şəkili Hüseyn xana müraciət edərək, Fətəli xanı və onun yanında olan dərbəndliləri, qubalıları, salyanlıları və bütün şiələri qırmağı təklif etdilər. Hüseyn xan 10 minlik qoşun toplayaraq iyun ayında hərəkət edib Şamaxının yanında düşərgə saldı.Bunu eşidən Fətəli xan ordusu ilə düşmənin qarşısına çıxdı, 500 qubalı döyüşçünü isə ehtiyat üçün Şamaxıda saxladı.Fətəli xanın yanında 15 min döyüşçü vardı ki, bunun da 5 mini şamaxılı idi və xan şamaxılı

döyüşçülərə etibar etmirdi.Şamaxılı döyüşçülərin rəisləri Fətəli xanı hər vəchlə döyüşə təhrik edirdilər və fikirlərini bununla əsaslandırırdılar ki, qəfil zərbə ilə düşmən çaxnaşmaya düşəcəkdir.Ancaq Fətəli xan bu məsləhəti qəbul etməyərək həmin gün heç bir hərəkət etmədi.Gecə düşən kimi, o, guya hansısa məxfi müşavirə üçün Şamaxı ruhanilərinin başçılarını və Məhəmməd Səid xanı yanına çağırdı.Onların hamısını həbs etdirib Şamaxıya göndərdi. Səhər açılan kimi Fətəli xan düşmənə sarı hərəkət etdi.Hüseyn xan məğlubiyyətə uğrayacağını görüb müqavimətsiz təslim oldu.Hüseyn xan and içərək öhdəlik götürdü ki, lazım gəldikdə hərbi qüvvə ilə Fətəli xana yardım edəcək, digər vaxtlarda isə Şamaxı şəhərinin təhlükəsizliyini qoruyacaq, Sulyakovun məlumatına görə bundan sonra Fətəli xan Məhəmməd Səid xanı 26 nəfər hacı ilə birlikdə mühafizə altında Dərbəndə göndərmişdir(АВПРИ, f.77(SRP), 1769-cu il, iş 1, v.66 – 67; Абдуллаев.Из истории.., Əlavələr, s.163 – 164).

Sulyakovun yazdığına görə Fətəli xan Yeni Şamaxını dağıtmaq və sakinləri üçün Köhnə Şamaxıda evlər tikməkdən ötrü 6 min nəfər işçi aparmışdı. Konsul yazır ki, bir çoxları düşünürdülər ki, Fətəli xan bu hadisələrdən sonra şamaxılılara qarşı cəza tədbirləri görəcəkdir. Ancaq Fətəli xan hər şeyi unudaraq, əksinə şamaxılılara qarşı mərhəmət göstərmişdir. Öz anbarlarından Şamaxının aclıq çəkən sakinlərinə 4 min taqar (10 min rus çətvəri) taxıl (150 min xan manatı dəyərində) paylatdırmışdır (АВПРИ, f.77(SRP), siy.1, 1769-cu il, iş 1, v.66 – 67; Абдуллаев. Из истории, Əlavələr, s. 163 - 164).

Şamaxının idarəsi Fətəli xanın qardaşı Abdulla bəyə tapşırıldı. Lakin o, özbaşına vergiləri artırır, əhalini incidirdi. Nəticədə 1769-cu ildə Şamaxıda qiyam qalxdı. Qiyamçılar şəkililərin yardımı ilə Şamaxıda Quba hakimiyyətini ləğv etmək istəyirdilər. Fətəli xan böyük qüvvə ilə Yeni Şamaxıya, Hü-

seyn xanın üzərinə getməyi qərara aldı. Əvvəlcə Məhəmməd Səid xanı gizli müşavirə adı ilə çağırıb həbs etdirdi. Səhərə yaxın Şəki qoşununun üzərinə hücum edib darmadağın etdi. Şəki xanı təslim oldu və Şamaxıya iddialarından əl çəkdi. Yeni Şamaxı dağıdıldı, əhalisi isə Köhnə Şamaxıya köçürüldü (Azərb. tar. (1996), 527-528).

Fətəli xan Şamaxıdakı vəziyyətdən çox narahat idi. O, gələcəkdə burada ola biləcək çıxışlara yol verməmək məqsədi ilə Məhəmməd Səid xanı Dərbəndə sürgün etdi. Onun kor edilmiş qardaşı Ağası xan isə 1769-cu ildə Qarabağa qaçdı (Бутков, I his., 253; Абдуллаев (1965), 228).

Şəki xanının himayəçiliyindən istifadə edən Ağası xan Şəki və Qarabağ xanlıqlarının arasında Kür çayının sahilində Kotevan adlı yerdə məskən saldı (Бакиханов, 161). O, Şəki, Qarabağ, Avar və digər xanlıqlarının hakimlərinin dəstəyindən istifadə edərək 16 il ərzində buradan Şimal-şərqi Azərbaycan dövlətinin torpaqlarına basqınlar etmiş və Şamaxıda öz hakimiyyətini bərpa etməyə çalışmışdır (Абдуллаев (1965), 264). Ağası xan yardım üçün hətta Osmanlı sultanına da müraciət etmişdi (АВПРİ, f. 77, siy. 6, iş 482, v. 91; Абдуллаев (1965), 264).

1770-ci ilin yayında Şamaxıdan Salyana, Rəştə və daha cənuba doğru hərəkət edən akad. Qmelinin yazdığına görə o, Şamaxı xanının kor qardaşı Ağası xanın qorxusundan Quba yüzbaşısının müşayəti ilə getmişdi. 1773-cü ilin dekabrında İrandan Rusiyaya qayıdan Qmelin Ağası xanın hücumlarının onlara mane olduğunu yazır (Гмелин, II his., 110).

Quba ilə Avar xanlığı arasında da böyük ziddiyyət vardı. Avar xanları onun birləşdirmə siyasətinə qarşı çıxdılar. Bu qarşıdurmada Ağası xanla avarlar bir mövqedən çıxış edirdilər. Şamaxının idarəçiliyindən kənarlaşdırılmış Fətəlinin doğma qardaşı Abdullanın Dağıstana qaçıb öz qardaşından onun sahibi olduğu ərazinin yarısını tələb etməsi Fətəli xanın vəziyyətini daha da mürəkkəbləşdirdi.

Rus ordusunun zabiti, milliyətlə erməni olan mayor Mirzə bəy Vahanov 17/28/ oktyabr 1769-cu il tarixli donosunda yazırdı ki, Fətəli xanın qardaşı Abdulla Dərbənd və Şamaxı şəhərlərini ona verməyi tələb etmişdi. Fətəli xan isə bildirmişdir ki, həmin şəhərləri silah gücünə aldığından heç kimə güzəştə gedə bilməz. Bir qardaş kimi ata mülklərindən pay olaraq ona Niyazabad və ətrafını verə bilər. Narazı qalan Abdulla bəy dağlara çəkilərək Fətəli xana düşmən olan Dağıstan hakimləri ilə əlaqə yaratmışdır (АВПРИ, f. 77, siy. 5, iş 16 (1767-1769), v. 320 və a.ü.).

Lakin Şamaxı xanlığının ərazisini bütünlüklə ələ keçirməklə Fətəli xan Şəkili Hüseyn xanı öz açıq düşməninə çevirdi.

Fətəli xan 1767-ci ildən bəri Dərbənddə sürgündə olan sabiq Şamaxı xanı Məhəmməd Səidi 1775-ci ildə yenidən Şamaxıya hakim təyin etdi və o, on il yenidən Şamaxını «xan» titulu ilə idarə etdi. Sonra Fətəli xan bu vəzifəyə Məhəmməd Səid xanın oğlu Məhəmməd Rza bəyi təyin etdi. 1786-cı ildə Fətəli xan Şamaxıda sərkərlər sülaləsinin hakimiyyətini tamamilə ləğv etdi və Şamaxını təyin etdiyi canişininin vasitəsi ilə biləvasitə özü idarə etməyə başladı (Абдуллаев (1965), 269-270; Бутков, I his., 253).

**Cavad xanlığının Quba himayəsinə daxil olması.**

Şamaxı xanlığının birləşdirilməsi ilə eyni vaxtda – 1768-ci ildə Kürlə Arazın qovuşduğu yerdə yerləşən, çox da böyük ərazisi olmayan Cavad xanlığı da şimal-şərqi Azərbaycan dövlətinin tərkibinə daxil edildi. Cavad hakimi Həsən xan könüllü surətdə Fətəli xandan asılılığı qəbul etdi (Абдуллаев (1965), 231).

O dövrdə Muğan da Cavad xanlığının tərkibində idi. Cavadı birləşdirməklə Quba xanlğı cənubi Azərbaycan xanlıqları, döyüşkən şahsevən elatları, həmçinin Şəki, Qarabağ, Qaradağ və Ərdəbil köçəriləri ilə təmasda ola bilərdi. Muğan uzun illər müxtəlif xanlıqlar arasında mübarizə obyekti olmuş-

du. Məsələn, 1758-ci ildə Qarabağın və Şəkinin birləşmiş qoşunları Muğan uğrunda Astrabad və Mazandaran hakimi Məhəmməd Həsən xan Qacar ilə döyüşmüşdülər. Muğanı Quba xanlığının himayəsinə daxil olaraq özü üçün xarici basqınlara qarşı etibarlı dayaq əldə etdi.

Lakin, 1778-ci ildə Gilan xanı Hidayət xan Cavad şəhərini mühasirəyə aldı və ələ keçirdi. Cavad şəhərinin əhalisinin bir hissəsi Rəştə köçürüldü. Bundan xəbər tutan Fətəli xan Gilana hücum etmək istədi. Lakin Cənubi Dağıstan feodalları tərəfindən müdafiə edilən Qaraqaytaq usmisi bildirdi ki, əgər Fətəli xan Hidayət xana qarşı yürüş etsə, onlar Dərbəndə basqın edəcəklər (Абдуллаев (1960), 22). Fətəli xan fikrindən daşınmaı oldu.

Göründüyü kimi, Qubalı Fətəli xan dağınıq Azərbaycan torpaqlarını birləşdirmək siyasətini tədricən həyata keçirirdi. XVIII yüzilliyin 70-ci illərinə yaxın Şimali Azərbaycan ərazisinin demək olar ki, yarısı Quba xanının hakimiyyəti altında idi və xanlıq öz qüdrətinin zirvəsinə çatmışdı.

Şimal-şərqi Azərbaycan torpaqlarının siyasi birliyi yarandı. Fətəli xanın təyin etdiyi sultan, naib, yaxud vali Salyanı, Şamaxını, hakim isə Dərbəndi idarə edirdi. Bakı və Cavad xanları yenə əvvəlki tək öz xanlıqlarını idarə etsələr də Quba xanının vassalı sifətilə onun hərbi-inzibati tabeliyində idilər.

Azərbaycanın bir hissəsində də olsa feodal dağınıqlığına son qoyulması o zaman üçün müsbət hal idi. Hərc-mərcliyə müvəqqəti də olsa ara verildi, ticarət əlaqələri bir qədər genişləndi.

70-ci illərə yaxın Quba xanlığının qüdrəti və nüfuzu o dərəcədə yüksəldi ki, bir çox zəif feodal hakimlər-xanlar İran dövlətinin qurbanı olacağından ehtiyat edərək, havadarlıq üçün Fətəli xana müraciət edirdilər. Qızlar şəhərinin komendantı Potapovun tapşırığı ilə Fətəli xanın yanında olmuş Tarki sakini Bulat xəbər vermişdir ki, o, Dərbənddə Fətəli xanın sarayında Gilan, Ərdəbil, Təbriz, Gəncə xanlıqlarının hədiyyələrlə gəlmiş nümayəndələrini görmüşdü. Onlar öz hakimləri

adından Fətəli xandan himayədarlıq xahiş etmişdilər (Bax: Azərb. tar.(1993), 191).

**Fətəli xanın perspektiv planları.**

Fətəli xan yalnız qonşu torpaqları birləşdirməklə kifayətlənmək niyyətində deyildi. Bütün cənubi Azərbaycanı və hətta İranın bəzi yerlərini ələ keçirmək də onun planlarına daxil idi. Təsadüfi deyil ki, İrandan qaçan bir çox siyasi xadimlərə Quba xanının sarayında sığınacaq verilirdi. O cümlədən özünü II Təhmasibin oğlu Süleyman (əslində Abbas-T.M.) Mirzə adlandıran bir nəfər də Quba xanının sarayına pənah gətirmişdi. Mixail Markovun Həştərxan qubernatoruna verdiyi məlumatda deyilirdi: «Süleyman Mirzə beşinci ildir ki, atası Təhmasibin dörd arvadı ilə birlikdə Qubadadır. Onun atası II Təhmasib Nadir şahın oğlu Rzaqulu Mirzə tərəfindən Xorasan əyalətinin Səbzəvar şəhərində öldürülmüşdür (O zaman Nadir şah Hindistanda yürüşdə idi – T.M). Qubalı Hüseynəli xan Süleyman Mirzəni Mazandarandan öz yanına götürmüşdü». General-mayor Fraundorf Çerkasov və Yusup Qasımovun sözlərinə əsaslanaraq rus sarayına eyni məzmunlu məlumat verirdi. «Süleyman Mirzənin» rus sarayına iki məktubu mövcuddur, məktublardan Süleyman Mirzənin İran taxtına iddia etdiyi aydınlaşır (Абдуллаев (1965), 188-189).

Fətəli xan Şamaxını öz dövlətinin paytaxtına çevirmək qərarına gəlmişdi. Mənbənin verdiyi məlumata görə öz ailəsi ilə birlikdə Dərbənddən Köhnə Şamaxıya köçmək niyyətində olan Fətəli xan burada öz təhlükəsizliyini təmin etmək üçün Dərbənd, Quba və Salyanın etibar etdiyi sakinlərini Şamaxıya köçürmək istəyirdi (AVPRİ, f. 77, siy. 1, 1769-cu il, iş 1, v. 6). Mənbədə Köhnə Şamaxıya minə qədər ailənin köçürülməsinin nəzərdə tutması və hətta onların bir hissəsinin artıq buraya köçürüldüyü qeyd olunurdu. Yeni Şamaxının sakinlərini də Köhnə Şamaxıya köçürmək qərara alınmışdı (АВПРИ, f. 77, siy. 1, 1769-cu il, iş 1, v. 316; Абдуллаев (1965), 320-321, 512).

Fətəli xan Köhnə Şamaxını möhkəmləndirmək üçün böyük səy göstərirdi. Şamaxını şimal-şərqi Azərbaycan dövlətinin mərkəzinə çevirmək barədə qərar təsadüfən qəbul olunmamışdı. Görünür Fətəli xan özünü keçmiş Şirvanşahlar dövlətinin varisi kimi qələmə vermək istəyirdi. XIX yüzillikdə yaşamış N. Zeydlits yazırdı: «Fətəli xan Quba, Bakı, Şamaxı, Salyanı öz hakimiyyəti altında birləşdirərək, bu yolla Şirvanşahlar dövlətini bərpa edir» (Зейдлиц, 23-24; Абдуллаев (1965), 512). Şamaxı Azərbaycanın şimal və cənubi hissəsini birləşdirən coğrafi mərkəzdə yerləşir, Şirvanın iqtisadi mərkəzi sayılır, beynəlxalq tranzit ticarətinin mühüm məntəqəsi hesab olunurdu. Quba şimal-şərqi Azərbaycanın siyasi mərkəzinə çevrilsə də təsərrüfat-iqtisadi cəhətdən Şamaxı və Bakıdan geri qalırdı.

Digər tərəfdən öz iqamətgahını Şamaxıya köçürməklə Fətəli xan güman ki, buradakı separatçı qüvvələrin müqavimətini qırmaq istəyirdi. Şamaxı həm də Şəki və Qarabağ xanlıqları uğrunda mübarizədə, Cənubi Azərbaycana irəliləmək üçün mühüm strateji əhəmiyyətə malik idi.

1768-ci ilin payızında şimal-şərqi Azərbaycanda olub vəziyyəti öyrənmiş irəlidə adını xatırlatdığımız rus zabiti Adil Çerkasski yazırdı: «Fətəli xan qoşun toplayır və topladıqdan sonra dərhal Kürün o biri sahilinə – oradakı İran (Cənubi-Azərbaycan nəzərdə tutulur) şəhərlərini tutmağa gedəcəkdir, sonra isə gücləndiyi təqdirdə Kərim xanla mübarizəyə başlamaq, ona qalib gəlmək niyyətindədir» (АВПРИ, f. 77, siy. 1, 1768-ci il, iş 16, v. 261).

Konsul Boqolyubov 1770-ci ilin iyununda Rusiya Xarici işlər kollegiyasına yazırdı ki, Quba xanı Qarabağ xanlığının iqamətgahı tutmaq niyyətindədir, onu alandan sonra isə Təbriz şəhərinə, artıq vəkilin mülklərinə getmək istəyir (АВПРИ, f. 77, siy. 1, 1768-ci il, iş 13, v. 38; Абдуллаев (1965), 514).

Fətəli xan öz diqqətini Cənubi Dağıstana da yönəldirdi. Qaraqaytaq usmisi, avar və Qazıqumuq xanları, Canqutay hakimi və digər Dağıstan hakimləri Quba xanlığının fəal siyasət

yürütməsinə mane olur, öz basqınları ilə onun təsərrüfat-iqtisadi inkişafını ləngidirdilər. Usmi Əmir Həmzə və onun müttəfiqləri Quba xanlığının qüvvələrini parçalayaraq Quba və Dərbəndi müdafiə etməyə vadar edirdilər.

Fətəli xan cənub istiqamətində hücuma keçməzdən əvvəl Quba və Dərbəndin təhlükəsizliyini möhkəmləndirməyi qərara aldı. Cənubi Dağısğanda Tarki və Buynakla yanaşı daha bir dayağa malik olmaq üçün o, şamxalla ittifaqa girərək o zamankı Qazıqumuq xanını devirib, yerinə Eldar bəyi oturtmaq qərarına gəldi. Eldar bəy Qazıqumuqlu Məhəmməd xanın qardaşı oğlu idi, o zaman Şamaxının Qubaya məxsus hissəsini idarə edirdi. Əgər bu plan baş tutsaydı Fətəli xan Təbrizə yürüş etmək niyyətində idi (АВПРИ, f. 77, siy. 6, iş 470, v. 75-76; Абдуллаев (1965), 516). Eyni zamanda Fətəli xan və onun müttəfiqləri Tarki və Buynak hakimləri Qaraqaytağa hücum edib usmi Əmir Həmzəni oradan qovmaq və Qaraqaytağın idarəsini qardaşı Ustar xana vermək barədə razılığa gəldilər.

**Fətəli xanın Osmanlı dövləti ilə əlaqələri.**

Osmanlı dövləti Quba xanlığının artan nüfuzunu nəzərə alaraq onunla sıx münasibətlər yaratmağa çalışırdı. Qızlar komendantı gen. Potapov Xarici İşlər Kollegiyasına 1769-cu il aprelin 5/16/-də yazırdı ki, Van paşası Fətəli xana yazmışdır ki, ehtiyatlı olsun, rus qoşunlarının hücumu ehtimalına qarşı tədbirlər görsün. Sulyakov 1768-ci ilin sonunda Salyandan bu barədə Potapova xəbər vermişdi. Sulyakov bildirirdi ki, bütün sünnüməzhəb azərbaycanlılar Osmanlı dövlətinə rəğbət bəsləyirlər və hətta osmanlı qoşunları gəlsə sevinərlər (АВПРИ, f. 77, siy. 5, iş 17, v. 208 və a. ü.). Qızlar sakini erməni Anton Artyomov 1771-ci il yanvar ayının 14/25/-də xəbər vermişdi ki, o, Dərbəndə gəlməzdən əvvəl üç əsilzadə osmanlı türkünün bura gəldiyini eşitmişdir. Osmanlı Sultanı Fətəli xanı və Dağıstan hakimlərini birləşib ruslara və onların əlaltısı olan gürcülərə qarşı mübarizəyə çağırırdı (АВПРИ, f. 77, siy. 7, iş 150, v. 19 a.ü.).

Dağıstan hakimləri məktubu alanda Sultanın elçilərinə bildirmişdilər ki, onlar Fətəli xansız heç nə cavab verə bilməzlər. Fətəli xan nəyə razılaşsa onlar da onu etməyə hazırdırlar. Həmin Osmanlı təbəəsi burdan Dərbəndə gəlib sultanın məktubunu Fətəli xana çatdırmışdı. Xan bununla əlaqədar divanı toplayıb bildirmişdi ki, sultan kömək istəyir, biz bir müsəlman kimi bu istəyi yerinə yetirməyə borcluyuq. Ancaq Osmanlı uzaqdır, Rusiya isə yaxın. Ona görə də fikirləşib cavab vermək lazımdır. Sonra Fətəli xan Dərbənddən Qubaya getmişdir. Burada olanda osmanlı elçilərini yanına çağırıb, onları yenidən qəbul etmişdir. Xanın elçilərə hansı cavab verdiyi məlum deyildi (АВПРИ, f. 77, siy. 7, iş 150, v. 20).

A.Artyomov daha sonra demişdi ki, sultan Fətəli xana çoxlu pul göndərmişdir ki, xan digərlərini də sultanın tərəfinə çəksin. Ancaq elçilər Axısqa şəhərinin yanından keçərkən II İraklinin adamları elçiləri ölənə kimi döymüş və xəzinəni ələ keçirmişdilər. Fətəli xan bundan çox məyus olmuş və indi yanında olan osmanlı təbəəsi Qasım ağanı pul almaq üçün Sultanın yanına göndərmək istəyir.

A. Artyomovun dediyinə görə Fətəli xan Sultanın məktubunu alan kimi qasid göndərib Həştərxanda olan elçisi «Aqazelalı» (yəqin ki, Ağazeynal) bəydən 40 günə kimi geri qayıtmasını tələb etmişdi.

Bakıdakı rus konsulluğunun tərcüməçisi Mustafa Murtazaliyev də A. Artyomovun sözlərini təsdiqləyərək bildirmişdi ki, o, Şamaxıya gələrkən 1771-ci il yanvarın 11-də sultanın elçisi də Fətəli xana məktubla bu şəhərə gəlmişdi. Fətəli xandan xahiş olunurdu ki, din birliyinə görə xan Rusiyaya qarşı mübarizədə sultana yardım etməlidir. Xan camaatın içində deyib ki, o, Rusiya-Osmanlı müharibəsinə qarışmır, ancaq osmanlı elçisini zəngin hədiyyələrlə yola salıb. Mustafa Şamaxıda yaşayan xristianlardan və bir çox şiə şamaxılılardan öyrənib ki, xan osmanlılarla həmrəy olmadığını şiələrə görə deyib, əslində isə yaxın günlərdə sultan ona xeyli məbləğdə pul göndərmişdir ki, o digərlərini Türkiyə tərəfə çəksin, ancaq xəzinə

Axısqa şəhərinin yanında II İraklinin adamları tərəfindən qarət olunub. Yenidən pul almaq üçün Qasım ağanı Türkiyəyə göndərmək fikrindədir (АВПРИ, f. 77, siy. 7, iş 150, v. 23 və a.ü.).

Murtuzaliyev də, Fətəli xanın yanında yalnız Şamaxı dəstəsi olduğunu yazaraq, sultanın məktubunu alan kimi xanın qasid göndərib Həştərxanda olan elçisi Hacı Ağa Zelalinin 40 günə geri qayıtmasını tələb etməsini təsdiq etmişdir (АВПРИ, f. 77, siy. 7, iş 150, v. 24 və a.ü.).

İrandakı rus konsulu M.Sulyakov da Fətəli xanın Rusiyaya rəğbət bəsləmədiyini yazırdı.Belə ki, o Xarici İşlər Kollegiyasına göndərdiyi məlumatda bildirirdi ki, Rusiya Elmlər Akademiyasının üzvü professor S.Qmelin Ənzəlidə olarkən geri qayıdanda Kubeçiyə və Dağıstanın bəzi digər dağ kəndlərinə getmək niyyətində olduğunu söyləmişdir. Qulyakov bundan çox narahat olaraq yazırdı ki, Fətəli xan və bir çox Dağıstan hakimləri Rusiyaya qarşı "zərərli niyyətlərə" malikdir, buna görə də professorun adı çəkilən yerlərə getməsi təhlükəlidir. Sulyakovun məlumatına görə dvoryan Filatov demişdi ki, Qmelin Dərbənd və Qubada olarkən sakinlər onun hərəkətlərində casusluq niyyətləri görüb mənfi münasibət göstərmişlər (АВПРИ, f.77, siy.7,iş 150, v. 35 – 36).

### Quba xanlığına qarşı iki düşmən blokun yaranması

Quba xanlığının genişlənməsi qonşu feodal hakimlərini narahat etdi. Quba xanlığı və ondan asılı ərazilərlə həmsərhəd olan Qarabağ, Şəki xanları, Cənubi Dağıstan hakimləri daha çox təlaş keçirirdilər. İki feodal bloku yarandı: birinə Şəki və Qarabağ xanları, sonradan həm də Şamaxıdan qovulmuş Ağası xan daxil idi. Digər bloka Cənubi Dağıstan hakimlərindən Qaraqaytaq usmisi Əmir Həmzə, Qazıqumuqlu Məhəmməd xan, avar xanları Nutsal və Ümmə, Tabasaran kadisi Rüstəm, canqutaylı Əli sultan, Dişsiz Məhəmməd, Tavlin feodalları, Kostyukovlu Həmzə Əlişov daxil idilər. Əndəri feodalları Temuf

Həmzə, Əmirsultan Kazanalınov və başqaları da onlara kömək edirdi (Бакиханов, 162-163; Абдуллаев (1965), 510).

Cənubi Qafqazda amirliyə can atan Kartli-Kaxetiya çarı II İrakli də Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmə siyasətinə müqavimət göstərirdi. O, Qarabağ və Şəki xanlarının Qubaya qarşı yönəlmiş ittifaqını müdafiə edirdi.

Fətəli xan öz düşmənlərini parçalamaq yoluyla onlara qalib gəlmək qərarına gəldi. Qarabağlı İbrahim xana və Kartli-Kaxetiya çarı II İrakliyə Şəki xanlığına qarşı birgə çıxış etməyi təklif etdi (АВПРИ, f. 77, siy. 5, iş 12, v. 99; Абдуллаев (1965), 516).

Lakin hadisələr ayrı istiqamətdə cərəyan etdi. Kartli-Kaxetiya çarının müdaxiləsi, Cənubi Dağıstan feodallarının Fətəli xana mənfi münasibəti və onların Qarabağ və Şəki xanları ilə mümkün əlaqəsi hadisələrin gedişinə böyük təsir göstərdi. Quba xanlığının daxili vəziyyəti də yaxşı deyildi. Şamaxıda sərkərlər sülaləsini bərpa etməyin tərəfdarları fəaliyyət göstərir və Şamaxıdakı həyəcanlar Fətəli xanın xeyli vaxtını və qüvvəsini alırdı. Rus zabiti Andrey Filatov 1770-ci ilin sentyabrında yazırdı ki, Quba xanının qoşunları qayda-qanunu bərpa etmək üçün Köhnə Şamaxıya getmiş və 6 gün orada qalmışdır (АВПРИ, f. 77, siy. 5, iş 17 (1767-1774), v. 254 a.ü.).

Beləliklə, 1771-1772-ci illərdə şərait Quba xanlığının zərərinə olaraq dəyişdi. Fətəli xan müvəqqəti olaraq müdafiə mövqeyinə keçməli oldular. Quba xanlığının hakimiyyət dairələri 1771-ci ilin sentyabrında rus konsuluna müraciət edərək Qarabağ xanını Şəki xanı ilə ittifaqdan və Quba xanlığına qarşı hərbi əməliyyatlardan daşındırmağı xahiş etdilər (Абдуллаев (1965), 521).

Rusiyanın Ənzəlidəki konsulu Boqolyubovun yazdığına görə 1772-ci ilin əvvəlində Qubalı Fətəli xan Şəkili (sənəddə yanlış olaraq Qarabağlı getmişdir) Hüseyn xana qarşı yürüş etmiş, ancaq uğur qazanmamışdır. Sonda qəflətən Hüseyn xanın basqınına məruz qalıb məğlub olaraq qaçıb. Lakin Hüseyn xan Fətəli xanı təqib etməyərək Quba xanlığının ərazisinə hü-

cum etməmiş, onu öz torpaqlarından sıxışdırıb çıxarmaqla kifayətlənmişdir. Fətəli xanın uğursuzluğunun mühüm səbəblərindən biri yəqin məvacibləri gecikdirildiyindən dağıstanlı döyüşçülərin özbaşına onun qoşununu tərk etməsi olmuşdur. Boqolyubov daha sonra Fətəli xanla Hüseyn xanın barışdıqlarını qeyd edirdi (АВПРИ, f. 77, siy. 7, iş 119, v. 6 a.ü.-7).

Rusiya konsulunun yazdığına görə yerlilər Şamaxıda sərkarlar sülaləsinin hakimiyyətinin bərpa olunmasını arzulayırdılar. Bu qədim ticarət şəhəri Fətəli xanın ağır vergi siyasəti nəticəsində müflisləşibdi, Boqolyubov hesab edirdi ki, Fətəli xan Şamaxını uzun müddət əlində saxlaya bilməyəcək (АВПРИ, f. 77, siy. 7, iş 119, v. 7). Rus konsulunun bu məlumatı belə bir qənaətə gəlməyə əsas verir ki, nəinki digər xanlar Azərbaycanın birləşdirilməsi prosesinə müqavimət göstərmiş, heç digər xanlıqların əhalisinin özü də birləşməyə hazır olmadığından əlahiddə yaşamağa meylli idilər.

Mənbələrin məlumatından bu da aydınlaşır ki, 70-ci illərin əvvəllərində çətin vəziyyətə düşən Fətəli xan məyusluğa qapılıbmış. Xanın 30 yaşlı doğma qardaşının ölümü də ona pis təsir göstərmişdi. Fətəli xan Quba və Şamaxının idarəsini naiblərinə tapşıraraq Dərbəndə getmiş, özünü ətraf aləmdən təcrid edərək yaşayırmış (АВПРИ, f. 77, siy. 7, iş 119, v. 7).

**İlk qarşıdurma.**

1773-cü il noyabrın sonu-dekabrın əvvəllərində Şəki, Avar, Qarabağ xanlıqlarının və Qubaya düşmən digər feodal hakimlərinin birləşmiş qüvvələri Şamaxı üzərinə yeridilər. Maraqlıdır ki, Avar xanı daim Kartli-Kaxetiya ərazisinə basqınlar etdiyi halda indi II İrakli avarların öz ərazisindən keçib Şamaxıya hücum etmələrinə razı olmuşdu. Hətta II İrakli ondan asılı olan borçalılılardan, qazaxlılardan Avar xanına kömək də vermişdi (АВПРИ, f. 77, siy. 5, iş 16, v. 282; Абдуллаев (1965), 521). Fətəli xan qüvvəsi az olduğundan Şamaxını tərk etməli oldu. Müttəfiqlərin cavadlı Həsən xanı öldürüldü-

yü haqqında xəbər yayılmışdı. Ağası xan Köhnə Şamaxıya daxil oldu (Абдуллаев (1965), 521).

Terekdəki kazak qoşununun döyüşçüsü dvoryan Filatov Qızlar komendantına verdiyi 15/26/ dekabr 1773-cü il tarixli məlumatda bu hadisəni belə təsvir etmişdi: əvvəllər xəbər alınmışdı ki, avar xanı topladığı qoşunla Gürcüstanın yaxınlığında durur və bu ölkəyə basqın etmək niyyətindədir. İndi isə belə məlumat alınmışdır ki, Ümmə xan Carda olarkən II İrakli ilə barışmış və saziş bağlamışlar, bu sazişə görə gürcü çarı Car camaatlarına ildə 3 min manat verməyi öhdəsinə almış və əmanətlər götürmüşdür ki, Ümmə xan digər dağıstanlı döyüşçüləri Gürcüstan ərazisinə buraxmasın (АВПРИ, f. 77, siy. 6, iş 467 (1774), v. 3). II İrakli hakimiyyəti altında olan borçalılı və qazaxlı döyüşçülərdən bir hissəsini Ümmə xana vermiş, Ümmə xan isə Şəkili Hüseyn xanla, Gəncə xanı və keçmiş Şamaxı hakimi Ağası xanla birləşib qəflətən Şamaxıya basqın etmişdir. Şamaxı sakinləri müqavimətsiz təslim olmuşlar, Fətəli xan və Kumık hakimi Eldar bu zaman Şamaxıda olsalar da yanlarında qoşun az olduğuna görə şəhəri tərk etməli olmuşlar, Fətəli xan Qubaya, Eldar isə Bakıya getmişdir. Fətəli xanın müttəfiqi olan şahsevən tayfa başçısı Həsən xan həlak olmuşdur (АВПРИ, f. 77, siy. 6, iş 467, v. 3 və a.ü.; siy. 5, iş 17, v. 284 a.ü.-285).

S.Qmelin də Fətəli xanın düşmənlərinin Şamaxıya basqını haqqında məlumat verir. O yazır ki, 1773-cü il noyabr ayının 20-də şəkili Hüseyn xan və Şamaxıdan qovulmuş Ağası xan qəflətən Şamaxıya həmlə etmişlər. Fətəli xandan narazı olan şamaxılılar Ağası xanla gizli əlaqə yaratmışlar. Bu zaman Şamaxıda olan Fətəli xan qısamüddətli müqavimətdən sonra yanında olan azsaylı salyanlı döyüşçülərlə və bu zaman Şamaxıda olan bakılı Məlik Məhəmməd xanla Dərbəndə qaçmalı olmuşdu. Quba xanına tabe olan ərazilərdə qarətlər və toqquşmalar baş verirdi.Lənkəran xanının nəvəsi qətlə yetirilmiş, bir çox tacirlər, hətta rus tacirləri qarət olunmuşdu. Fətəli xanın

xidmətində olan salyanlı döyüşçülər Salyana qaçmışdılar. Dağıstanlı döyüşçülər Fətəli xanın qohumu və sərkərdəsi Eldar bəyi xüsusi səylə axtarırdılar.Eldar bəy Salyana sığınmışdı. Dağıstanlılar Salyan naibindən onun verilməsini tələb etmiş, lakin mənfi cavab almışdılar. Şamaxı ilə Salyan arasında olan 500 Muğan tərəkəməsi düşmən hücum edən zaman Şamaxı yaxınlığında olmuş, sonra Salyana qaçmışdılar. Fətəli xanın düşmənləri onları təqib etmiş və Kür çayını keçmələrinə mane olmaq istəmişdilər (ПФА РАН, f.3/394, iş 20, v.117 a.ü. – 118).

Fətəli xan Tarku şamxalı Murtuza Əlinin yanına adam göndərərək xahiş etmişdir ki, mümkün qədər döyüşçü toplayıb, hər birinə 30 manat və daha çox ödəsin (АВПРИ, f. 77, siy. 6, iş 467, v. 3 a.ü.).

Yuxarıda adı keçən Filatov 1774-cü ilin aprelində Qızlar komendantı polkovnik Ştenderə yazırdı ki, indi Fətəli xan Dərbənddədir və yanında öz qüvvələrindən başqa 10 min nəfərə qədər yalnız dağıstanlı döyüşçü var (АВПРИ, ф. 77, siy. 6, iş 470, v. 14). Avar xanı Şamaxıdadır və onun da yanında çoxlu döyüşçü var. Filatov yazırdı ki, Qazıqumuq hakimi usmi Əli Sultan və Bamat Avar xanı ilə məktublaşırlar. Fətəli xan və şamxal onların döyüş zamanı öz döyüşçüləri ilə Avar xanının tərəfinə keçəcəyindən ehtiyat edirlər (АВПРИ, f. 77, siy. 6, iş 470, v. 14).

Fətəli xan məğlubiyyətlə barışmayaraq, Aquşa, Tabasaran, Dərbənd və Qubadan çoxlu qüvvə toplayıb Şamaxı yaxınlığında düşmənlərini məğlubiyyətə uğratdı. Avarlar xüsusilə çox itki verdilər. Döyüş zamanı Avar hakim Nutsal xan həlak oldu. Ağası xan Elevliyə qaçdı (Hacınski, 12-13; Абдуллаев (1965), 522).

A.A. Bakıxanovun yazdığına görə Ağası xan avar hakimi Nutsal xanla birləşdi. Sonra isə Nutsal xan Qarabağa öz kürəkəninin yanına getdi; Ağası xan isə Şamaxını tutdu. Fətəli xan dağıstanlılardan və qubalılardan qoşun toplayaraq, Məlik Məhəmməd xanın da qoşunlarını birləşdirərək Şamaxının üzə-

rinə yeridi. Baş verən döyüşdə Ağası xan məğlub oldu və özününkülərdən təcrid olunmuş Nutsal xan isə şəhərin yuxarı hissəsində qapandı. Fətəli xan aman vəd edərək Nutsal xanı öz düşərgəsinə çağırdı (Бакиханов, 161).

Hər üç xan çadırda söhbət etdikləri zaman Fətəli xanın qoşununda olan akuşalılar Fətəli xanı çağırıb qan düşmənləri olan Nutsal xanın qətlə yetirilməsini tələb etdilər. Məcburiyyətdə qalan Fətəli xan çadırı arxadan kəsib Məlik Məhəmməd xanı çıxarmağı əmr etdi. Nutsal xan dərhal öz yoldaşları ilə birlikdə öldürüldü. İ. Hacinski də bu məlumatı təsdiq edir.

**Gavduşan döyüşü.**

1774-cü ildə Qaraqaytaq usmisi Əmir Həmzənin, qazıqumuqlu Məhəmməd xanın, avarlı Ümmə xanın birləşmiş qüvvələri, habelə Tabasaran kadisi Rüstəmin, canqutaylı Əlisultanın, Dişsiz Məhəmmədin dəstələri Qubaya doğru hərəkət etdilər. Kostyukov, Enderi və başqa yerlərin feodalları da bu koalisiyanın tərəfindən çıxış edirdilər (Абдуллаев (1965), 524). Yürüşün təşkilatçısı Fətəli xanın barışmaz düşməni Əmir Həmzə idi. Cənubi Dağıstan feodalları elə sürətlə hərəkət edirdilər ki, qubalılar onları dəf etmək üçün yeni qüvvələr toplamağa macal tapmadılar. Digər yandan onların sadiq müttəfiqləri – Tarku şamxalı və Buynak hakimi Tarku və Buynakı müdafiə etməyə məcbur idilər.

Qubaya yürüşün iştirakçıları əsl məqsədlərini guya Avar xanının və oğlanlarının intiqamını almaq istəyi ilə pərdələyirdilər (Бакиханов, 161; Абдуллаев (1965), 525).

Fətəli xan və onun düşmənləri Xudatın yaxınlığında Qavduşan çölündə qarşılaşdılar. Üstünlük əvvəlcə Fətəli xanın tərəfində idi. Lakin usminin oğlu Əli bəy Quba qoşunlarının mərkəzinə cəsarətli zərbə vurdu və döyüşün gedişi dəyişdi. Hər iki tərəfdən böyük itkilər oldu. Dişsiz Məhəmməd, Qazıqumuqlu Eldar bəy və məsum şeyx Əli bəy həlak oldular. Məğlubiyyətə uğramış Fətəli xan Qubada duruş gətirə bilmədi və Salyana çəkildi (Бакиханов, 162).

Qələbədən ruhlanan Əmir Həmzə birləşmiş qoşunların başında Dərbəndə tərəf hərəkət etdi. O, eyni zamanda belə bir şaiyə yayıb bacısı – Fətəli xanın arvadı Tutu Bikənin müdafiəsinə başçılıq etdiyi Dərbənd qalasına çatdırdı ki, guya Fətəli xan döyüşdə həlak olub və onlar xanın cənazəsini də özləri ilə gətirirlər. Usmi həlak olmuş Dişsiz Məhəmmədin cənazəsini öz bacısına Fətəli xanın cənazəsi kimi təqdim edərək qalanın qapılarının açılmasını istədi. Lakin Tutu Bikə qardaşının yalanına inanmadı və düşmənə qala divarlarından atəş açmağı əmr etdi (Бакиханов, 162). Əmir Həmzə təqribən doqquz ay Dərbəndi mühasirədə saxladı. Tarixçi E.İ. Kozubskinin yazdığına görə Tutu Bikə şəhəri mərdliklə müdafiə edirdi. O, qala divarları üzərində şir kimi duraraq, hər şeyə özü rəhbərlik edir, qala toplarının atəşi ilə qardaşını hədələyirdi (Azərb. tar. (1960), 369). Dərbəndin müdafiəsində şəhərin naibi Hacı bəy və Məlik Hacı bəy buduqlu da fərqlənirdilər (Бутков, II his., 19). Dərbəndin mühasirənin uzanmasından istifadə edən Fətəli xan dəniz vasitəsilə oraya qayıtdı (Абдуллаев (1965), 538).

Gavduşan məğlubiyyətindən sonrakı aylar Quba xanlığı üçün çox böhranlı dövr idi. Fürsətdən istifadə edən Ağası xan müvəqqəti də olsa Şamaxını ələ keçirmişdi. Fətəli xan qüvvələrini birləşdirərək düşmənin sonrakı irəliləyişinin qarşısını almağa nail oldu. Bakı şəhərinin əhalisi silahlı dəstələri ilə birlikdə usminin qoşunlarının hücumunu dəf edə bildilər və sonuncular Bakının mühasirəsini ləğv etməyə, Dərbəndə tərəf çəkilməyə məcbur oldular (Абдуллаев (1965), 538-539).

**Dərbəndin müdafiəsi.**

P.Q. Butkovun məlumatına görə bütün Dərbəndi və ətrafını aclıq bürümüşdü. Ancaq Qazıqumuqlu Məhəmməd xan getdikcə vəziyyətin pisləşdiyni görərək Quba və Gülhanı tərk etdi və Qazıqumuqa qayıtdı (Алкадари, 83; Абдуллаев (1958), 75; Абдуллаев (1965), 539). Quba xanının müttəfiqi olan Tarki şamxalının qoşunları, buynaklılar bir neçə dəfə

Dərbəndin mühasirəsini yarmağa cəhd etsələr də buna nail ola bilmədilər.

Fətəli xan hələ Salyanda olarkən Dərbəndli Mirzə Bayatı kömək və himayə xahişi ilə Peterburqa çariçə II Yekaterinanın yanına göndərdi. Çar sarayında Fətəli xanın elçiləri yaxşı qarşılandılar. İmperatriça bir neçə piyada və topçu taborunun Qaraqaytaq usmisinə qarşı Dərbəndə göndərilməsini Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medemə əmr etdi. De-Medemin Dərbəndə göndərilməsinin başqa səbəbi də vardı. Rusiya Elmlər Akademiyasının üzvü professor S.Q.Qmelin Azərbaycana etdiyi ikinci səyahəti zamanı (1772-1773) Əmir Həmzə tərəfindən həbs edilmiş, bir qədər keçdikdən sonra həbsdə ölmüşdü. Qmelin II Yekaterinanın tapşırığı ilə göndərilmişdi və elmi axtarışlarla yanaşı casus məlumatı toplamaqla da məşğul olurdu. Əmir Həmzə məhz buna görə onu həbs etmişdi. Əmri yerinə yetirən de-Medem 1775-ci ilin martında Əmir Həmzənin mülklərinə qoşun yeritdi. Fətəli xanın müttəfiqi Tarki şamxalı Murtuzəli De-Medemə qoşuldu. De-Medem Dərbənddən şimalda yerləşən və «İran xarab» adlanan yerə çatdı. Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkib de-Medemə qarşı çıxdı, lakin məğlubiyyətə uğradı. Fətəli xan De-Medemə Dərbəndi tutmağı və onu Rusiya himayəsinə qəbul etməyi təklif etdi. De-Medem Dərbəndə daxil oldu.

De-Medemin başçılığı ilə rus hərbi hissəsinin Dərbəndə daxil olması Osmanlı imperiyasında böyük narahatlıq doğurdu. Türkiyədə hesab edirdilər ki, Rusiya yenicə bağlanmış sülh müqaviləsini pozmuşdur (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 104; Абдуллаев (1965), 531). Dəməşqdən Bakı vasitəsilə Dərbəndə gələn iki osmanlı məmuru bura rus qoşunlarının niyə daxil olduğunu və niyə indiyə qədər qaldığını soruşmuşdu (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 104; Абдуллаев (1965), 531). Osmanlı vəziri Rusiyanın Cənubi Dağıstandakı niyyətləri barədə rəsmi sorğu verdi (АВПРИ, f. 77, siy. 6, iş 443, v. 47-48; Абдуллаев (1965), 531).

Osmanlılarla münasibəti yenidən kəskinşəldirmək istəməyən rus hökuməti geri çəkilməli oldu. II Yekaterina de-Medemə əmr etdi ki, Türkiyə və İranı hələlik «əsəbləşdirmək» olmaz, buna görə də Dərbənddə saxlanan kiçik dəstəni də çıxarmaq lazımdır. Əmr yerinə yetirildi (Абдуллаев (1965), 532-535; Маркова, 157).

Beləliklə, gərgin hərbi və diplomatik mübarizə nəticəsində Fətəli xan 1774-cü ilə kimi asılılığında olan ərazilər üzərində öz nəzarətini bərpa edə bildi. Şamaxı yenidən tabe edildi. 1775-ci ildə Fətəli xan Ağsunun (Yeni Şamaxını) idarəsini bundan əvvəl 7 il Dərbənd zindanında yatmış Məhəmməd Səid xana tapşırdı. Kotevanda (Əlvənddə) qərar tutan Ağası xan da zahirən tabeçilik göstərdi və ətraf yerləri idarə etməyə başladı (Бакиханов, 163).

Fətəli xan Əmir Həmzəni sakitləşdirmək üçün ona qarşı qəti tədbir görməyi qərara aldı. O, usminin qardaşı oğlunu-əmisindən incimiş Məhəmmədxan bəyi müxtəlif vasitələrlə öz tərəfinə çəkdi. A.A. Bakıxanovun yazdığına görə Fətəli xan Məhəmmədxan bəyi öz əmisinə qarşı qaldırıb Dərbənddən 3 fərsəx aralı bir yerdə qala tikdirdi, həmin qalanın adını «Xanməhəmmədqala» qoydu və Qubadan oraya 100 ailə köçürdü (Бакиханов, 163). İ. Hacınski isə qalanın Dərbənddən 20 fərsəx aralıda tikildiyini və bura Qubadan 200 ailə köçürüldüyünü qeyd edir (Hacınski, 17).

Qazıqumuqlu Məhəmməd xanın oğlu Şahmərdan bəy də Fətəli xanın tərəfinə keçdi və əvəzində Qəbərək kəndindən başlayaraq Kürə dairəsinin aşağı hissəsinə qədər olan yerləri, habelə Güney mahalını Fətəli xandan aldı (Hacınski, 17-18).

1776-1777-ci illərdə öz lal oğlu Novruz bəyin adından Tabasaranı idarə edən Xanım Bikə Qaraxan qızı vəfat etdi. Fətəli xan keçmiş məsumun oğlu Məhəmməd Hüseyn bəyi məsum vəzifəsinə təyin etdi (Бакиханов, 164).

**Rusiyaya ilk elçilik.**

1775-ci ilin yazında Fətəli xan Dərbənd hakimi və Quba naziri vəzifələrini daşıyan Mirzəbəy Fərhadbəyovun başçılığı ilə Rusiyaya elçilik göndərdi. Elçini Mirzə Sadıq Məhəmmədvəliyev, habelə Məhəmməd Əlibəyov, Piri Seyidəhmədov, Novruz Muradov-Maşanqulov və Səfərəli Ocaqquliyev müşaiyət edirdi (АВПРИ, f. 77, siy. 1, 1775-ci il, iş 15, v. 2,21). Elçilik çariçəyə şimal-şərqi Azərbaycanın Rusiyanın himayəsinə keçməsi barədə Fətəli xanın xahiş məktubunu aparırdı. Fətəli xan imperatriçədən düşmənlərinə qarşı mübarizədə və düşmənlərin qopardığı ərazilərinin geri qaytarılmasında ona hərbi yardım göstərilməsini istəmiş, əvəzində Dərbəndi Rusiyaya verəcəyini bildirmiş və şəhərin açarlarını rus sarayına göndərmişdi. Fətəli xan onun Krım xanının hüququnda Rusiya himayəsinə qəbul olunmasını xahiş edirdi. Krım isə məlum olduğu kimi 1774-cü il kiçik Qaynarca sülhü ilə bitərəf, müstəqil dövlət elan edilmişdi. Göründüyü kimi, Quba xanı Rusiya himayəsinə keçməsinin əsas şərti kimi müstəqilliyinin saxlanmasını irəli sürürdü. Rusiya himayəsi yalnız müttəfiqlik şərtlərində öz əksini tapmalı idi. Bu isə əslində Qubanın Rusiyadan cüzi asılılığı demək olardı. Quba xanının elçiləri 1775-ci ilin mayında Həştərxana, iyununda isə Moskvaya çatdılar (Абдуллаев (1965), 545-547).

Lakin Rusiya özü bilavasitə Azərbaycanı zəbt etmək istəyirdi və buna görə Fətəli xanın xahişini yerinə yetirmədi. Üç dəfə müzakirədən sonra dövlət şurası qərara aldı ki, Fətəli xana müstəqil qalmaqla qonşuların ondan qopardığı mülklərin geri alınmasında Rusiya ona kömək edə bilməz. Bəhanə kimi guya Quba xanlığı ərazisinin İrana aid olması göstərilirdi (АВПРИ, f. 77, siy. 1, 1775-ci il, iş 15, v. 53-54; AQS, c.1, his. 2, 788-789; Абдуллаев (1965), 549). Əslində isə xanın himayəyə keçmək şərtləri Cənubi Qafqazı bilavasitə ələ keçirmək istəyən Rusiyanı qane etmirdi. Digər yandan bu zaman Rusiyanın diqqətini Krım, Qara dəniz, Dunay, Polşa və digər beynəlxalq və daxili məsələlər daha çox cəlb edirdi. Y. Puqaçovun başçılığı ilə kəndli müharibəsi tüğyan etməkdə idi.

**Kərim xan Zəndlə münasibətlər.**

Fətəli xanın güclənməsi Mərkəzi İrana öz hakimiyyətini yaymış Kərim xan Zəndi də narahat edirdi. İranda belə bir xəbər yayılmışdı ki, Quba xanının xahişi ilə Dərbənddə guya bir neçə minlik rus hərbi ordusu (500 nəfər əvəzinə) saxlanılmışdır və onlar tezliklə Şamaxıya, oradan isə İrana hücuma keçəcəklər. Buna görə də, İran hökumət dairələri Quba xanına rəqib olan feodalların köməyi ilə birləşmiş şimal-şərqi Azərbaycana qarşı qəti hərəkətlərə hazırlığa başladılar. Bu işdə əsas rolu Kərim xan Zəndə qohum olan Gilan hakimi Hidayət xan (onun bacısı İran hakiminin oğlunun arvadı idi) oynayırdı (Абдуллаев (1965), 555).

Kərim xan Zənd Quba xanını əvvəlcə ona müxtəlif hədiyyələr vermək, onunla qohum olmaq və başqa üsullarla Rusiyadan ayırmağa cəhd etdi. 1775-1776-cı illərdə Ənzəidə rus konsulu olan Georgi Mark Xarici İşlər Kollegiyasına göndərdiyi məktubda yazırdı ki, Kərim xanın fərmanı ilə rəştli Hidayət xan dərbəndli Fətəli xanı satın almaq üçün ona çoxlu hədiyyə, pul və mal göndərib bildirir ki, vəkil onunla qohum olmaq istəyir, tələb edir ki, Dərbənd xanının bacısı Fatmanı onun oğluna (Əbülfət xana – T.M) versin, əgər Fətəli xan Rusiyadan üz döndərsə, vəkildən istədiyi hər bir yardımı alacaqdır (Абдуллаев (1965), 556).

Fətəli xanın özü də Rusiya sarayına yolladığı məktublarda Kərim xanın ona hədiyyələr və pul göndərdiyini, lakin vəkilin təklifini qəbul etmədiyini yazırdı (АВПРИ, f. 77, siy. 1, iş 15, v. 13-18; iş 2, v. 65-66; Абдуллаев (1965), 558).

1775-1776-cı illərdə Qubalı Fətəli xan və İran hakimi Kərim xan Zənd arasında iki dəfə elçi mübadiləsi olmuşdur. Əvvəlcə İrandan bir nümayəndə gəlmiş, sonra Fətəli xanın Əfrasiyab adlı bir nümayəndəsi və daha iki qubalı onunla İrana gedərək, orada danışıqlar aparmışdılar. General de-Medem Dərbənddə olan vaxt onlar İran hakiminin məktubu ilə birgə geri qayıtmışdı. Kərim xanın ikinci elçisinin Qubaya gəlişinə

cavab olaraq Fətəli xan Mir Məhəmməd Hüseyn adlı bir nəfəri Şiraza göndərmişdi (Абдуллаев (1965), 558-559).

İranla münasibəti pisləşdirməkdən çəkinən Fətəli xan manevr edir, Kərim xanla qohum olmaq məsələsini yubadırdı.[6] Kərim xan və onun tərəfdarları Fətəli xanın niyyətini anlayıb təzyiq və hətta şantaj üsuluna əl atdılar. 1776-cı ilin iyun ayında Hidayət xan İrandakı Rusiya konsulluğunun məmuru olan Karp Latınsevi Rəştə dəvət edib ona mühüm bir məlumat vermişdi. Guya Fətəli xan Şiraza göndərdiyi bir elçisi vasitəsilə Dərbənddəki rus döyüşçülərini qovmaq üçün Kərim xan Zənddən böyük qoşun xahiş etmişdir (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 7).

**Gilanlı Hidayət xanla münaqişə.**

Terek qoşunu yasavulu Karp Kuznetsov Qızlar komendantı Ştenderə 18/29/ fevral 1776-cı il tarixli məlumatında yazırdı ki, o Ənzəli limanında xidmət edən Rusiyanın müvəqqəti nümayəndəsi Karp Latınsevin yanına məktub aparıbmış, Gilanda olarkən Kuznetsov qoşun toplandığını görüb bunun məqsədi ilə maraqlanmışdır. Deyiblərmiş ki, Salyan naibi Gilan xanının Ağası xana göndərdiyi atları və onları müşayət edən adamları tutduğu üçün Hidayət xan Salyana həmlə hazırlayır. Salyan naibi Kuznetsovla söhbətində Fətəli xanın göstərişi ilə Hidayət xanın göndərdiyi atları ələ keçirdiyini təsdiq etmişdi (АВПРИ, f. 77, siy. 6, iş 481, v. 4 və a.ü.).

1778-ci ilin aprel ayında Gilan hakimi Hidayət xan Ağası xan və Qaytaq usmisi ilə əvvəlcədən razılaşdırdığı hərbi yürüşə başladı. Yürüş Quba xanlığına tabe olan yerləri talamaq məqsədi daşıyırdı. Salyanı tutan və qarət edən Gilan qoşunları Muğana hücuma keçdilər. Onlar sabiq Şamaxı xanı Ağası ilə birləşib Cavad xanlığına doğru irəlilədilər. Bundan xəbər tutan Fətəli xan dərhal onlara qarşı hərəkət etmək qərarına gəldisə

---

[6] A.Bakıxanovun məlumatına görə Fətəli xan Kərim xan Zəndin oğluna nişanlanmış bacısı Fatma xanımı şamaxılı Məhəmməd Səidin oğlu Məhəmməd Mirzə bəyə (Məhəmməd Rza) ərə vermişdir (Bakixanov, 166).

də, Cənubi Dağıstan feodallarının təzyiqi nəticəsində öz səfərini təxirə saldı. Gilanlılar Cavadı da qarət edib, bir neçə yüz sakini Rəştə və Ənzəliyə köçürdülər (Абдуллаев (1965), 565-566).

Ənzəlidəki rus konsulluğunun tərcüməçisi Vanslov Həştərxan qubernatoru Yakobiyə göndərdiyi 28 aprel 1778-ci il tarixli məlumatında yazırdı ki, həmin ilin fevral ayında gilanlı Hidayət xan Muğan çölünə daxil olub usmiyə qiymətli bəxşişlər göndərərək qubalı Fətəli xana qarşı mübarizədə ondan yardım istəmişdir.Buna görə də Fətəli xan Hidayət xanın onun himayəsində olan muğanlı Tale Həsən xana basqın etmək niyyətindən xəbər tutub ona qarşı çıxmaq istədikdə usmi ona işarə vermişdi ki, əgər Fətəli xan onun dostu Hiidayət xanın düşmənlərini müdafiə edəcəksə usmi Dərbəndə həmlə edəcəkdir.Bu səbəbdən də Fətəli xan Dərbəndi tərk etməyə cəsarət etməmiş, Hidayət xan Cavad qalasını almış və Salyanı qarət etmişdi (АВПРИ, f.77, siy.6,iş 481, v. 222).

Cavad qalasının mühasirəsi aprelin 5-i ,yaxud 6-da günorta başlamışdı. Gilanlılar əvvəlcə şəhərə 7 bomba atmış, sonra toplardan atəş açmışdılar. Müdafiəçilərin qüvvəsi çox az olduğundan onlar vahiməyə düşmüş, Tale Həsən xanın oğlu və qardaşı qılınclarını boyunlarından asaraq aman diləyi ilə Hidayət xanın qarşısına çıxmışlar. Hidayət xan isə Tale Həsən xanın özünün onun düşərgəsinə gəlməsini tələb etmişdi.Ertəsi günü Cavad xanının özü Hidayət xanın düşərgəsinə getmiş, ancaq sonuncu xəyanətkarcasına onu həbs etmişdi.Hidayət xanın qoşunları Cavada daxil olaraq şəhəri qarət etmişdilər.Bu zaman şəhərdə sakinlərdən başqa 150 dağıstanlı döyüşçü, 1500 nəfər şamaxılı Ağası xanın qaçmış təbəəsi, 600 şəkili və 300 dərbəndli(oxu: qubalı) vardı. Hidayət xan dağıstanlı döyüşçülərin hər birinə xələt və 50 manat verərək onları usminin yanına yollamışdı.Şamaxı xanı Cavadın alınmasında köməklik göstərdiyinə görə Hidayət xan

qaçqın şamaxılıları da sərbəst buraxmışdı. Qalan 900 nəfəri yəni, şəkililəri və dərbəndliləri (oxu: qubalılar) isə Rəştə göndərmək niyyətində idi. Hidayət xan Cavadı qarət edərkən eşitmişdi ki, Tale Həsən xan gilanlıların hücumu ərəfəsində öz əmlakını qarabağlı İbrahimxəlil xanın yanına göndərmişdir.Hidayət xan məktub göndərərək İbrahimxəlil xandan Tale Həsən xanın əmlakını tələb etmiş, əks halda ona qarşı yürüş edəcəyi ilə hədələmişdi. İbrahimxəlil xan cavab vermişdi ki, Hidayət xanla aralarındakı dostluğa görə Tale Həsən xanın əmlakını xoşluqla ona verir(АВПРИ, f.77, siy.6,iş 481, v. 222 a.ü).

1779-cu ildə mərkəzi İranda 20 ilə yaxın hakimiyyətdə olan Kərim xan Zənd vəfat etdi. İranda hakimiyyət uğrunda mübarizə yenidən qızışdı. Şah taxtına ən real namizəd olan Ağaməhəmməd xan Qacarın hücumuna məruz qalan Hidayət xan Gilandan dəniz yolu ilə Bakıya, oradan isə kömək istəmək xahişi ilə Fətəli xanın yanına – Qubaya getdi, Quba xanı ona Mirzə bəy Bayatın başçılığı ilə 9 min döyüşçü verib, Rəştə göndərdi. Quba döyüşçüləri, A. Bakıxanovun məlumatına görə Rəşti tutub, Hidayət xanı yenidən Gilan taxtına əyləşdirdilər. İsgəndər bəy Hacınski də, bu məlumatı demək olar ki, eynilə təsdiq edir (Бакиханов, 164-165; Hacınski, 18-19).

**Rus hakimiyyət orqanları ilə ixtilaf.**

Fətəli xanla Rusiya arasında yaxın münasibətlər olsa da, həmin münasibətlər bəzən pisləşirdi. Buna misal olaraq, Müşkürdən bir qədər aralı – Samur çayının mənsəbi yaxınlığında Yemelyan Skvortsov adlı bir rus tacirinə məxsus olan gəminin batması ilə əlaqədar ixtilafı göstərmək olar. Yükü xam ipək və ipək parçalardan ibarət olan gəmidə Həştərxan, Quba, Dərbənd, Bakı, İsfahan, Tula, Gilan, tatar və hind tacirlərinin malları vardı (Абдуллаев (1965), 568-569).

Quba xanı itmiş malların axtarışı və toplanması üçün qubalılardan və rus məmurlarından ibarət bir heyəti hadisə yerinə yolladı. Görülən tədbirlər nəticəsində ətraflarda yaşayan

əhalidən 25 min rubl dəyərində mal götürülərək Qızlara göndərildi (РГВИА, f. 52, iş 350, his., 9, v. 78; АВПРИ, f. 77, iş 478, v. 17, 144, 165, 147-148; Абдуллаев (1965), 570).

Qraf Paninin Fətəli xana göndərdiyi 10 mart 1776-cı il tarixli məktubda deyilirdi ki, Peterburqda Gilandan Həştərxana doğru üzən rus ticarət gəmisinin 1775-ci ilin payızında Quba xanlığının sahillərində qəzaya uğraması, xanın dalğaların sahilə atdığı malları axtarıb taparaq sahiblərinə qaytarması üçün tədbirlər görməsi haqqında xəbərlər alınmışdır.Bu Fətəli xanın Rusiyaya səmimi münasibətini əks etdirir(AVPRİ, f.77/6, iş 478, v. 4 və a.ü.).

Panin bu cür hərəkəti təqdirəlayiq sayır və xana öz təşəkkürünü bildirirdi(AVPRİ, f.77/6, iş 478, v. 5 – 6).

Oğurlanmış malların bir qisminin tapılıb qaytarılmasına görə Rusiya hakimiyyət orqanları əvvəlcə Fətəli xana dəfələrlə öz razılığını bildirmiş, lakin, az sonra vəziyyət dəyişmişdir. Quba xanının daxili və xarici düşmənləri, o cümlədən ermənilər belə bir şayiə yaydılar ki, guya gəmi qəzası nəticəsində itmiş mallar Quba hakimiyyət nümayəndələrinin iştirakı ilə yerli əhali tərəfindən qarət olunmuşudur. Bəziləri hətta iddia edirdi ki, guya qarətin izlərini itirməkdən ötrü yaxın kəndlərin sakinləri xilas olan sərnişinləri və gəmi heyətini öldürmüş, mallar isə Quba xanı və naibi tərəfindən mənimsənilərək Dərbənddə, Qubada və Bakıda gizlədilmişdir. Məsələni aydınlaşdırmaq üçün Həştərxan quberniya dəftərxanası mayor Mirzəbəy Vahanovu Qubaya və Dərbəndə ezam etdi. Onunla birlikdə başqa bir erməni – Minas Diqlyansov da gəlmişdi (Абдуллаев (1965), 572).

Mirzəbəy Vahanov itmiş malların sahibləri, əsasən erməni tacirləri ilə birlikdə[7] Fətəli xanın itən malların mənimsənilməsində təqsirləndirilməsi üçün can atırdı. Rəngsaz Minasın, dərbəndli tacirlər Georgi Abramovun, keşiş Xozinin,

---

[7] Y.Skvortsovun gəmisindəki malların böyük əksəriyyəti, daha dəqiq desək 435485 rublluq malın 316164 rubl dəyərində hissəsi ermənilərə məxsus idi (Абдуллаев (1965), 569).

Səfəryanovun yalan məlumatlarını həqiqət kimi qələmə verən M.Vahanov guya gəmi qəzasından xilas olan iki erməni və dörd azərbaycanlı tacirin Şahdağ yaxınlığında olan bir kənddə saxlanıldığını, gəmidəki bütün malların isə yerli əhali tərəfindən mənimsənildiyini bildirir və Fətəli xanın cəzalandırılmasını tələb edirdi (Абдуллаев (1965), 572-573). Bu kobud və əsassız ittihamdan əsəbləşən Fətəli xan da öz növbəsində 1776-ci ilin may ayının 20-də general de-Medemə yazdığı raportda onda olan malların qaytarıldığı barədə rus hakimiyyətinə məlumat verib yazıdı ki, əgər ona inanmırlarsa o, öz evində və bütün mülklərində axtarış aparılmasına razıdır (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 193-194).

Lakin mayor Mirzəbəy Vahanov və Minas Diqlyansov Fətəli xanın guya təqsirli olduğunu israr etməkdə davam edirdilər. M.Vahanovun 1776-cı il iyün ayının 21-də Həştərxan quberniya dəftərxanasına göndərdiyi raportda Quba xanına qarşı müxtəlif mənbələrdən topladığı və düzgünlüyü yoxlanılmamış materiallar, o cümlədən Hidayət xanın guya Fətəli xanın 700 min rubl dəyərində olan malları mənimsədiyi və gəmi heyətini isə öldürdüyü barədəki şayiəsi öz əksini tapmışdı (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 193-194).

M.Vahanovun Dərbənddə yaşayan erməni əlaltıları Fətəli xana mənfi münasibət bəslədikləri üçün onun barəsində yeni-yeni iftiralar uydururdular. Bir məlumata görə, Fətəli xan Dərbəndin yuxarı hissəsində – Narınqalada əvvəlcə yüzdən çox erməni ailəsini yerləşdirmiş, sonradan isə, 1776-cı ilin əvvəllərində, məlum olmayan səbəblərə görə həmin ermənilər şəhərin aşağı hissəsinə köçürülmüş və onlar 3 min rubl cərimə olunmuşlar. Qaytaq usmisi və Tabasaran qazisinə yaxın olan Petros İvanovun iki yox, üç gəminin qəzaya uğraması haqqında məlumatı da şübhə doğurur (Абдуллаев (1965), 574).

Quba hakimləri malları yalnız Rusiya tacirlərinə vermək istəməyərək bir yerə toplayıb möhürlədilər. Dərbənddəki rus hərbi dəstəsinin komandiri mayor İ.Kridner malları toplayan Quba məmurunu camaat arasında döydü və xanın dalınca

söydü. Rus hakimiyyət orqanları Dərbənddə rus hərbi hissəsinin olmasından istifadə edərək içərisində təkcə rusların deyil, habelə İran, Quba, Dərbənd və Bakı tacirlərinin də payı olan malları da zorla ələ keçiridilər (Абдуллаев (1965), 575).

Ənzəlidə rus konsulu vəzifəsini müvəqqəti ifa edən Karp Latınsevin bu hadisə ilə bağlı verdiyi məlumata görə yanvarın 22-də Gilanda Həştərxan taciri Skortsovun Rəştdən yola salınmış yüklə dolu gəmisinin Dərbənd yaxınlığında qəzaya uğraması xəbəri alınmışdır. Sahilə atılmış bütün malları Quba xanı ələ keçirmişdir. O, elan etmişdir ki, qədimdən belə qayda vardır ki, gəmi qəzaya uğradıqda sahilə atılmış mallar həmin yerin hakiminə çatır. Bu xəbər Gilanlı Hidayət xana çatdıqda dərhal bu barədə Latınsevə məlumat verərək onu bir neçə rus taciri ilə öz yanına məsləhətə çağırmışdır. Latınsev bir neçə rus taciri ilə Rəştə Hidayət xanın yanına getmişdir. Xan onları qəbul edib bildirmişdir ki, xanlıq etdiyi 12 ildən artıq bir müddətdə 20-dən artıq gəmi Gilan sahillərində qəzaya uğramışdır, bu zaman malların heç biri itməmiş və mənimsənilməmişdir. İndi malların yarısının İran tacirlərinə məxsus olduğu gəmi qəzaya uğradığı zaman Fətəli xan sahilə atılmış malları toplayıb ümid edir ki, rus çarlarının belə fərmanı vardır ki, hər hansı gəmi harada qəzaya uğrayırsa adamları çıxmaq şərtilə mallar o ərazinin sahibinə çatmalıdır. Buna görə o da belə malları mənimsəyəcək. Hidayət xan bildirmişdi ki, o, Fətəli xanı Rusiya tabeçiliyində olan hesab etdiyinə görə İran tacirlərinin mallarının ondan alınıb sahiblərinə verilməsini tələb edir. Əgər rus hökuməti Fətəli xanı öz təbəəsi hesab etmirsə onda icazə versin ki, Hidayət xan Fətəli xanın təbəələrindən özünə dəyən zərəri alsın. Fətəli xanın dediyi qayda həqiqətdirsə bundan sonra Hidayət xan da Gilanda qəzaya uğrayacaq gəmilərdən sahilə düşən malları özünə götürəcək (АВПРИ, f.77, siy.6, iş 481, v.25-26, Абдуллаев (1965), 574).

General de-Medem də öz növbəsində Fətəli xana qarşı başqa cəza üsullarına əl atdı. O, Quba xanının, Rusiyadan qayıdan səfiri Mirzə bəy Fərhadbəyovu, az sonra isə Fətəli xa-

nın başqa elçisi Hacı bəyi Qızlarda altı ay müddətinə girov saxladı. Rus generalı Fətəli xana təhdidedici və təhqiramiz tərzdə bir məktub göndərib yazırdı ki, guya Fətəli xan Rusiyanın himayəsi altında olduğu halda öz ağılsızlığı ucbatından onu aldatmaq fikrinə düşmüşdür (Абдуллаев (1965), 575-576).

Fətəli xan generala cavab məktubunda heç bir günahı olmadığını yazır və gəmi qəzası barədə belə məlumat verirdi: «O gəmini dalğalar dörd hissəyə bölmüş, bütün mallar isə batmışdır. Dalğalar gəmidəki qayıqları Tarkiyə, yelkənləri isə Bakıya atmışdır (Абдуллаев (1965), 577). De-Medem hətta öz hökumətinə Fətəli xanı və Bakı xanını cəzalandırmağı təklif edir, bunun üçün əlavə hərbi qüvvələr və artilleriya göndərilməsini və ona səlahiyyət verilməsini xahiş edirdi. Bu təklif Xarici İşlər Kollegiyasının iclasında müzakirə olunsa da II Yekaterina onu qəbul etmədi. Çariçə bildirdi ki, «İrana məxsus olan yerlərdə silah işlətmək Rusiyanın siyasəti ilə düz gəlmir və arzuolunmaz hadisələrə səbəb ola bilər» (Абдуллаев (1965), 577-578).

Qafqazdakı rus qoşunlarının komandanlığı işi bu yerə çatdırıb Fətəli xana qarşı ittihamlarını gücləndirdikdə xan da komandanlığa qarşı soyuq münasibət nümayiş etdirməyə başladı. Dərbənddəki rus hərbi dəstəsinin komandirinin Dərbəndə qaçmış 8 kəndlinin Kostyukov və Aksay hakimlərinə geri qaytarılması haqqında Quba xanından etdiyi xahiş rədd edildi. Hətta məsələyə general de-Medemin özü qarışıb dərhal kəndlilərin qaytarılmasını tələb etsə də Fətəli xan cavab verdi ki, əgər ruslar onun qaçmış kəndlilərini geri verməsələr, o, heç kəsi qaytarmayacaqdır (Абдуллаев (1965), 580).

Fətəli xan Müşkür yaxınlığında tapılan və gürcülərə məxsus malları da rus hakimiyyət orqanlarına verməkdən imtina edib bildirdi ki, II İrakli ilə onun arasında dostluq vardır və buna görə də vasitəçiyə ehtiyacı yoxdur, özü gürcülərlə əmlakı bölüşdürə bilər (Abdullaev (1965), 579).

Quba xanlığı ilə Rusiya arasında qarşılıqlı münasibətlərin gərginləşməsi Fətəli xanın düşmənlərinin fəallaşmasına şə-

rait yaratdı. 1776-cı ilin iyul ayında bir sıra Kürə kəndlərinə iddia ilə Qazıqumuq xanı Quba xanına qarşı çıxış etmişdi. Dərbənddə cənubi Dağıstan feodalları Hacı Balabəyi Quba hakimiyyətinə qarşı çıxışa təhrik etmişdilər. Rus hakimiyyət orqanlarına təklif olundu ki, Fətəli xanı Rusiyaya daha münasib olan başqa adamla (məsələn, sabiq Dərbənd xanı Məhəmməd Hüseynin oğlu ilə) əvəz etsin (Абдуллаев (1965), 579).

Gilandakı rus konsulunun müşaviri Merkin 3/14/ aprel 1777-ci il tarixli məlumatına görə Fətəli xanın bəzi əyanları onu devirib Qubanı Qazıqumuqlu Məhəmməd xanın hakimiyyəti altına vermək barədə gizli razılığa gəliblərmiş və bu məqsədlə də Qazıqumuq xanına məktub göndəriblər. Lakin Fətəli xan qəsddən vaxtında xəbər tutmuş və qəsdin Dərbənddəki iştirakçılarını qəfil həbs edib Qubaya göndərmiş, sonra Qubadakı iştirakçıları da həbs etdirmişdi. Cəmi 12 nəfər həbs olunmuşdur, sonra onları boğub öldürmüşlər. İndi Fətəli xan Ümmə xan Şamaxıdan qayıdan zaman ona hücum etmək fikrindədir (АВПРИ, f. 77, siy. 6, iş 481, v. 106-107).

Qafqaz komandanlığının kobud müdaxiləsindən qəzəblənmiş Fətəli xan itmiş malların axtarılması və sahiblərinə qaytarılmasını dayandırdı. O, bildirdi ki, sahilə atılmış mallar adətə görə həmin yerdə mülkü olan hakimə çatır (Абдуллаев (1965), 580).

Qafqaz komandanlığı Fətəli xanın rus hökuməti ilə yazışmasına imkan vermədiyindən xan gizli yolla müşavir P.V.Bakuninə, knyaz Q.A.Potyomikinə və II Yekaterinanın özünə məktublar göndərdi. Fətəli xan Qafqazdakı rus hakimiyyət orqanlarının, xüsusən də gen. de Medemin kobud hərəkətlərindən, özbaşına Quba səfirini Qızlarda saxlamasından gileylənirdi. Ona qarşı irəli sürülən ittihamları rədd edən xan yazırdı ki, o dərəcədə alçaq və tamahkar deyil ki, rus tacirlərinin 3-4 yaxud 5 batman ipəyini oğurlasın, yaxud gizlətsin, bununla özünü dost-düşmən içərisində biabır etsin (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 74; Абдуллаев (1965), 580). Xan daha sonra yazırdı ki, imkan daxilində itmiş malları axtarıb taparaq

sahiblərinə qaytarmışdır. Lakin o dənizin yerinə cavabdeh ola bilməz. Fətəli xan bununla əlaqədar yazırdı: «Allahdan qorxun… durmadan və əbəs yerə söyməkdən əl çəkin» (АВПРИ, f. 77, siy. 6, iş 478, v. 154; Абдуллаев (1965), 581-582). Xan rus hökumətindən baş verənləri araşdırmaq üçün xüsusi komissiya təşkil olunmasını tələb edirdi.

Rus hökuməti Fətəli xanın haqsız yerə ittiham olunduğunu anladı və II Yekaterina 15 dekabr 1776-cı il tarixli buyruğu ilə de-Medemdən bundan sonra əndazədən çıxmamağı və iki elçini – Mirzə bəyi və Hacı bəyi dərhal Qubaya buraxmağı tələb etdi. Lakin rus hökuməti Qubaya komissiya göndərməkdən imtina etdi (Абдуллаев (1965), 583).

Tezliklə de-Medem vəzifəsindən azad olundu və 1777-ci ildə general Yakobi Qafqaz xəttindəki rus qoşunlarının komandanı təyin olundu. Hələ bundan əvvəl – 1776-cı ilin aprelində Dərbənddəki rus hərbi dəstəsinin rəisi mayor Kridner, mayor Fromqoldla əvəz olunmuşdu. Qeyd edək ki, sonralar N.İ.Paninə məktubunda gen. de Medem Fətəli xanla münaqişədə özünün də günahkar olduğunu etiraf etmişdi (Абдуллаев (1965), 584).

**Gilanlı Hidayət xanla münaqişənin dərinləşməsi.**

Fətəli xanın ölkənin birləşdirmək siyasəti yalnız qonşu Azərbaycan xanlarının deyil, həm də Gilanlı Hidayət xanın müqavimətinə rast gəlirdi. Hidayət xan tez-tez qonşuluğunda yerləşən Azərbaycan xanlıqlarına basqınlar edirdi. O, 1778-ci ildə Fətəli xanın himayəsində olan Cavad xanlığına basqın edib Cavad şəhərini dağıtdı.

Ənzəlidəki rus konsulunun tərcüməçisi İvan Vanslov 28 aprel / 9 may 1778-ci il tarixli donosunda yazırdı ki, Gilanlı Hidayət xan yanvar ayında Muğana basqını ərəfəsində usmiyə zəngin hədiyyələr göndərərək onu dəstəkləməsini xahiş etmişdir. Qubalı Fətəli xan Hidayət xanın Cavada hücum etməsindən xəbər tutaraq özü ona qarşı çıxmaq istəmişdir. Usmi Fətəli xanı hədələyərək bildirmişdi ki, əgər o, Hidayət xana

qarşı çıxsa Dərbəndə basqın edəcəkdir. Bundan sonra Fətəli xan hərəkətini dayandırmağa məcbur olmuşdu. Hidayət xan cavadlı Tale Həsən xanı əsir etmiş, Cavad şəhərini isə tamamilə dağıtmışdır. Salyanın bir çox sakini isə Gilana aparılmışdır (АВПРИ, f. 77, siy. 6, iş 479 (1776-1782), v. 155; iş 481, v. 222).

İvan Vanslov Hidayət xanın hücumu haqqında yazırdı ki, onun ordusu aprelin 17-də axşamüstü Cavadın mühasirəsinə başlamış və mühasirə növbəti səhərədək davam etmşdir. Şəhərə 7 bomba atılmış, sonra toplardan atəş açılmışdır. Şəhərdə çaxnaşma başlamış, şəhərdəkilər təslim olmağı qərara alaraq Hidayət xandan aman diləmişlər. Hidayət xan Həsən xanın özünün onun hüzuruna gəlməsini tələb etmişdir və ertəsi günü Həsən xan özü Hidayət xanın hüzuruna getmişdir. Hidayət xan Həsən xanı həbs edərək öz qoşununa şəhərə daxil olmağı əmr etmişdir. Şəhər qarət olunmuş və dağıdılmışdır. Bu zaman şəhərdə 150 dağıstanlı, 1500 qaçqın şamaxılı, 600 şəkili, 300 qubalı və dərbəndli varmış. Hidayət xan dağıstanlıların hər birinə 50 rubl və bir xələt bağışlayaraq onları usminin yanına buraxmışdır. Hidayət xan şamaxılı Ağası xanla yaxşı münasibətdə olduğu üçün şamaxılıları da sərbəst buraxmışdır. Şəkililəri, qubalıları və dərbəndliləri isə, Vanslovun yazdığına görə, Rəştə göndərməyə hazırlaşırdılar və bəlkə də artıq göndərmişdilər. Onların yarısının işlətmək üçün Rəştdə saxlanacağını, digər yarısının isə Ənzəlidə qala inşasına cəlb ediləcəyi nəzərdə tutulurdu (АВПРИ, f. 77, siy. 6, iş 479, v. 155 a.ü.; iş 481, v.222 və a.ü.).

Hidayət xan Həsən xanın sərvətini saxlamaq üçün əvvəlcədən qarabağlı İbrahim xanın yanına göndərməsi barədə xəbər almışdı. O, İbrahim xandan Hidayət xanın sərvətini verməyi tələb edib, əks təqdirdə Qarabağa hücum edəcəyi ilə hədələmişdi. İbrahim xan Həsən xanın sərvətini verməyə hazır olduğunu bildirmişdi (АВПРИ, f. 77, siy. 6, iş 479, v. 156; iş 481 v.222 a.ü.).

Çox maraqlıdır ki, Fətəli xan və gilanlı Hidayət xan barışmaz düşmən olsalar da bir müddət sonra Hidayət xan Ağa Məhəmməd xan Qacar tərəfindən Gilandan qovulduqda Ağa Məhəmməd xanı daha təhlükəli düşmən hesab edən Fətəli xan Hidayət xana kömək göstərmişdi.

Щяштярхан губернатору Жуковун 12/23/ апрел 1782-ъи ил тарихли рапортундан мялум олур ки, щямин илин йанварын 2-дя эиланлы Щидайят хан губалы Фятяли ханын, усминин, Таркы шамхалынын вя диэяр щакимлярин она вердийи 6 мин нямфярлик гошунла Эилана дахил олуб йенидян бурада юз щакимиййятини бяргярар етмишдир (**АВПРИ**, ф. 77, сий. 6, иш 8 (1774-1801), в. 54 вя а.ц.).

**<u>Lяnkяran xanlıьы ilя mцnasibяtlяr</u>**

Fяtяli xan Lяnkяran hakimi Qara (Ъяmalяddin) xanla ittifaq yaratmыш, sonra isя onu юzцndяn asылы vяziyyяtя salmышdы.Bu sяbяbdяn dя Qara xan Fяtяli xanыn yцrцшlяrindя, o ъцmlяdяn Qarabaь vя Gilan xanlыqlarыna yцrцшlяrdя iштirak etmiшdi (**РГВИА**, f.52, siy.1, iш 286, Ы his., v.6 - 7 a.ц.; ЫЫ his., v.43 - 44; iш 331, v.11 - 13).

Lənkəran xanlığı ilə münasibətlərin kəskinləşdiyi vaxtlar da olurdu.Gen. P.Potyomkin 1786-cı il iyunun 25-də qraf A.İ.Voronsova yazırdı ki, hal – hazırda Fətəli xan Kür çayından cənubdadır, o, Talış(Lənkəran – T.M.) xanlarının qoşunlarını darmadağın etmişdir(НА СПб. ИИ РАН, ф.36(Воронцовы), siy.1, iş 1218).

**Qarabağ xanlığı ilə münasibətlər.**

Ağası xanı müdafiə edən qarabağlı İbrahim xan da Fətəli xanın birləşdirmə siyasətinə qarşı çıxanlardan idi. Çünki o, da qubalı Fətəli xan kimi dağınıq Azərbaycan torpaqlarını öz

ətrafında birləşdirməyə cəhd edirdi. Qarabağ xanlığı ilə Quba xanlığı arasında toqquşma labüd oldu. Bakılı Məlik Məhəmməd xan bu iki xanı barışdırmaq məqsədi ilə Şuşaya getdi. Lakin İbrahim Xəlil xan Məlik Məhəmməd xanın səmimiliyinə inanmayıb, onu 1779-cu ildə zindana salmışdı və Məlik Məhəmməd iki il Şuşada həbsxanada qalmışdı (Бутков, II his., 73; III his., 146). 1781-ci ildə Məlik Məhəmməd xan Nəçəfə ziyarətə getdi və orada da vəfat etdi. Onun on bir yaşlı oğlu II Mirzə Məhəmməd xan taxta çıxdı, dayısı Fətəli xan onun qəyyumu oldu (Бакиханов, 165).

Fətəli xanın Qarabağ xanlığına qarşı təşkil etdiyi bir neçə yürüşü heç bir nəticə verməmişdi. 1780-ci ildə Fətəli xan öz qoşunları ilə Qarabağ xanlığının ərazisinə daxil olarkən Kartli-Kaxetiya çarı II İrakli İbrahim xanın yardımına şahzadələrdən Georgi və Davidin başçılığı altında qoşun göndərdi. Şahzadə David həmçinin Fətəli xanın qoşunlarının tərkibində olan dağıstanlı muzdlu döyüşçüləri yoldan çıxarıb Quba xanının düşərgəsini tərk etmələrinə nail oldu. Bunun nəticəsində baş vermiş toqquşmada Quba qoşunları məğlub oldu. 1781-ci ilin əvvəlində Fətəli xan yenidən Qarabağa basqın etdi, Kür çayı sahilinə qədər irəlilədi. Bu zaman bir çox kənd qarət olundu, xeyli əhali və mal-qara Quba xanlığına köçürüldü (АВПРИ, f. 77, siy. 6, iş 479 (1776-1782), v. 303).

Avar hakimi Ümmə xanın yanında olmuş Hacı Mirzə Qaragözovun 1783-cü ilin fevralında söylədiyinə görə 2 ay bundan əvvəl Urmiyalı İmamqulu xan Təbrizi tutub Nəcəfqulu xanı və onun oğlunu həbs etmişdir. Bundan sonra İmanqulu xan Qubalı Fətəli xana məktub yazaraq birləşib İbrahim xana qarşı hücuma keçməyi təklif etmiş, Fətəli xan bu təkliflə razılaşmışdır. Müasirlərdən biri yazırdı ki, Fətəli xan toplanmış qoşunların bir hissəsinin şamxalın, yaxud başqa bir nəfərin başçılığı ilə Gilana göndərmək, özü isə İmamqulu xanla birləşib İbrahim xana qarşı hərəkət etmək istəyir (РГАДА, f. 23, iş 13, his. 3, v. 76 a.ü.).

1783-cü ilin əvvəllərində Fətəli xan Qarabağa böyük yürüş təşkil etmişdi. Qraf Voynoviçin tapşırığı ilə xanın yanına gedən tərcüməçi Mustafa Murtazaliyev Fətəli xanı Ağdamda tapmışdı. Şamaxılı Məhəmməd Səid xan və qardaşı Ağası xan, Şəkili Hacı Əbdülqədir xan, muğanlı Tale Həsən xan, Tarku şamxalı Murtuza Əli, lənkəranlı Qara xan, Buynak hakimi Bamat, Qaytaq hakiminin qardaşı Ustarxan, Canqutay hakimi Əhməd xan, Tavlin hakimi Xazbulat Əlibəyov, Əndəri hakimi Fətəli xanın düşərgəsində idilər. Murtazaliyev Fətəli xanın yanında nə qədər qoşun olduğunu öyrənə bilməmişdi. Lakin bu qədər çox hakimin bir yerə toplaşması xeyli qüvvə cəmləşdirildiyini göstərirdi. Deyilənlərə görə yalnız muzdluların sayı 13 min nəfərə çatırmış. Bu qüvvəyə müqavimət göstərməyin imkansızlığını anlayan Qarabağlı İbrahim xan Şuşaya sığınıb işin sonunu gözləyirdi (РГВИА, f. 52, siy. 1, iş 126, his. 1, v. 6).

Qoşunlar Şuşa yaxınlığındakı kəndləri qarət etdilər. 100 min başa qədər qoyun, 30 min iribuynuzlu mal-qara ələ keçirilmişdi. Ətraf kəndlərin sakinləri kəndləri tərk edib Şuşaya və digər yerlərə qaçmışdılar. Yolda muzdlu dağıstanlı döyüşçülər onlara basqın etmiş, bir hissəsini qırmışdılar. Xristianların əmlakını əlindən alıb özlərini azad buraxmışdılar. 150 nəfər müsəlmanın hər birinin yerinə Fətəli xan 10 manat verərək onların buraxılmalarına nail olmuşdu (РГВИА, f. 52, siy. 1, iş 126, his. 1, v. 6).

Gülüstan məliyi Adamın Gürcüstandakı Rusiya emissarı Y.Reyneqsə verdiyi məlumata görə yalnız İbrahim xanın müttəfiqi II İraklinin qoşunla Quba qoşunlarına qarşı çıxmasından sonra Fətəli xan Qarabağı tərk etmişdi. Məliyin yazdığına görə qubalılar çoxlu kəndi qarət edərək iki min nəfər müsəlmanı və yüz nəfər xristianı əsir götürmüşdülər. Yalnız xristianlara üç milyon manat məbləğində zərər dəydiyi iddia olunurdu (РГАДА, f. 23, iş 13, his. 3, v. 27, 145; f. 15, iş 449, v. 190 a.ü.-193 a.ü.).

**Fətəli xanın Cənubi Azərbaycana öz təsirini yaymaq cəhdtləri. Rusiya və Kartli-Kaxetiya çarlığının buna müqaviməti**

Бязи мялуматлара эюря, Фятяли хан Ибращим ханла щагг-щесабы чцрцтдцкдян сонра Ярдябил яйалятиня эетмяйя щазырлашырды. Чцнки бу вилайятин щакими юлмцшдц. Ярдябил ханы Ибращим ханын гощуму олдуьундан Фятяли хана гаршы мцхалиф мювге тутурмуш. Фятяли хан даща сонра Эилана щцъум едиб Щидайят ханы девирмяк, йериня айрысыны тахта чыхармаг ниййятиндя имиш. Фятяли ханын Щидайят хандан наразылыьынын башлыъа сябяби бир мцддят яввял Мящяммяд Щясян (яслиндя Аьа Мящяммяд хан) Гаъар Эилана щцъум едиб Щидайят ханы орадан говдугдан сонра Фятяли ханын йардымы иля йенидян щакимиййятини бярпа ется дя Губа дюйцшчцляриня разылашдырылмыш мябляьи вермякдян имтина етмяси олмушду. Щидайят хан щятта дюйцшчцлярин атларыны ялляриндян алыб юзлярини бурахмышды (РГВИА, ф. 52, сий. 1, иш 286, щис. 1, в. 7).

Rus rяsmi arxiv sяnяdlяrindяn gюrцnцr ki, doьrudan da Hidayяt xan Gilanda yenidяn hakimiyyяtя qubalы Fяtяli xanыn yardыmы ilя gяlmiшdir.Hяштяrxan qubernatoru vяzifяsini ifa edяn Jukov Xariъi Ишlяr Kollegiyasыna 12 aprel 1782-ъi il tarixli mяlumatыnda yazыrdы ki, onun Иrandakы rus konsulu Tumanovskidяn aldыьы mяlumata gюrя Aьa Mяhяmmяd xan Qaъar qardaшы Murtuzaqulu xanы Rяштdяn qovduqdan sonra Gilan mцxtяlif яyanlar tяrяfindяn idarя olunurdu.1782-ъi il yanvarыn 2-dя

isя Hidayяt xan qubalы Fяtяli xan, Qaytaq usmisi, Tarku шamxalыnыn verdiyi dяstяlяrlя vя baшqa qoшunlardan ibarяt ъяmi 6 min dюyцшчц ilя(o ъцmlяdяn bir hissяsi kubanlы idi) Gilana daxil olub hakimiyyяti yenidяn яlя keчirmiшdir (АВПРИ, f.77/5, iш 8, v. 54).

Qeyd edяk ki, Fяtяli xanыn kubanlылardan qoшun toplamasы xяbяri rus hюkцmяtini narahat etmiшdi.Hюkцmяt Krыmdakы nцmayяndяsi Veselovskiyя tapшыrmышdы ki, bu mяsяlяni hяrtяrяfli araшdыrsыn (АВПРИ, f.77/5, iш 8, v. 56 vя a.ц.).Veselovski mяsяlяni araшdыraraq bildirmiшdi ki, Kubanda Fяtяli xan цчцn qoшun toplanmыr, yalnыz noqaylardan kiчik bir qrup adam qubalы Fяtяli xanla vя bяzi Daьыstan hakimlяri ilя onlarыn tяbяяliyя qяbul olunmasы barяdя razылыьa gяlmiшlяr (АВПРИ, f.77/5, iш 8, v. 61 vя a.ц.).

Fяtяli xanыn 1782-ъi ildя ЫЫ Yekaterinaya gюndяrdiyi mяktubdan aydыnlaшыr ki, Qызlar komendantы Qызlar sakini Haъы Mirzя bяyi vя poruчik Pyotr Petrovu Fяtяli xanыn yanыna gюndяrяrяk yanыnda saxladыьы gцrъц шahzadяsi Aleksandr Bakarovun Rusiyaya tяslim etmяsini tяlяb edibmiш.Aleksandr yardыm almaq цчцn Daьыstana, oradan da Dяrbяndя gяlmiшdi. Fяtяli xan yazыrdы ki, шahzadя Aleksandr Daьыstanda olduьu zaman шamxal Murtuza Яli, Qaytaq usmisi Яmir Hяmzя, ъцmяkяndli Яli Sultan Dяrbяndя gяlib Fяtяli xana birlikdя Gцrъцstana hцъum etmяyi tяklif ediblяr. Fяtяli xan buna

razыlыq vermяsя dя onlar Gцrъцstana hцъum etmiш vя Fяtяli xanыn yazdыьыna gюrя ЫЫ Iraklini Tiflisdяn qovub Aleksandrы gцrъц taxtыna чыxarmыш, юzlяri чoxlu qяnimяtlя geri, Daьыstana qayыtmышlar (АВПРИ, f.77(SRP), siy.2, 1765 – 1797-ъi illяr, iш 15, v.107 – 117; Абдуллаев. Г. Из истории.., Яlavяlяr, s.178 – 182).

Fяtяli xan ЫЫ Iraklinin hяrяkяtlяrindяn шikayяtlяnяrяk yazыrdы ki, o vя qarabaьlы Ibrahimxяlil xan birlяшib hiylя ilя gяnъяli Mяhяmmяd xanы tutmuш(Шушada hяbsdя saxlanыrdы) vя Gяnъяnin idarяsini юz aralarыnda bюlцшdцrmцшlяr.Onlar hяmчinin Qaradaь hakimi Mustafa xanы яyanlarы ilя birlikdя hяbsя alыb Qarabaьda saxlayыrdыlar.Nяhayяt, Ibrahimxяlil xan Fяtяli xanыn yeznяsi bakыlы Mяlik Mяhяmmяd xanы da tutub hяbsdя saxlayыrdы.Mяhz bu sяbяblяrя gюrя dя Fяtяli xan Daьыstan hakimlяrinin Gцrъцstana hцъumuna mane olmamышdы.Fяtяli xan yazыrdы ki, ЫЫ Irakli Ibrahimxяlil xana yardыm gюstяrmяklя, яslindя onun vasitяsilя Azяrbayъana yiyяlяnmяk istяyir.Fяtяli xan tяlяb edirdi ki, ЫЫ Irakli ъaniшinini Gяnъяdяn geri чaьыrsыn, Irяvan xanlыьыndan pul xяraъы istяmяsin, "ona mяxsus" olan Gцrъцstanla kifayяtlяnib, Azяrbayъanыn iшlяrinя qarышmasыn, Ibrahimxяlil xanla ittifaqdan яl чяksin (АВПРИ, f.77(SRP), 1765 – 1797-ъi illяr, iш 15, v.107 – 117; Абдуллаев. Г. Из истории.., Яlavяlяr, s.178 – 182).

Fяtяli xan ilk vaxtlar шahzadя Aleksandrы Rusiyaya tяslim etmяkdяn imtina etsя dя sonda Rusiyanыn tяzyiqlяri qarшыsыnda dayana bilmяdi vя 1782-ъi ilin sonlarыnda шahzadяni Rusiyaya gюndяrdi(РГВИА, f.52, siy.1, iш 331,his. Ы,v.23, Абдуллаев Из истории.., Яlavяlяr, s.170)

Fətəli xanın aprel ayında P.S. Potyomkinə yazdığı məktubdan aydınlaşır ki, o, yəni Fətəli xan yanına gələn «Misir Abbasini» Salyanda saxlayır. P.S. Potyomkinin Fətəli xanın yanına göndərdiyi mayor Qauzenə xan demişdi ki, guya Gilana rus konsulu Tumanovskini azad etmək üçün gedir. Mayorun ehtimalına görə isə əslində Fətəli xan Hidayət xanın xəzinəsini ələ keçirməyə gedirdi. Sonra lənkəranlı Qara xan və Aslan xanla birləşib Ərdəbilə gedərək «Misir Abbasini» şah elan etmək istəyir. Sonra da «şahın» adından Rusiyaya elçi göndərəcək. Bu məsələ ilə bağlı rus hökumətinin mövqeyini soruşan P.S. Potyomkin hələlik rus hökumətinin mövqeyini öyrənənədək II İrakliyə məktub göndərib Təbriz, İrəvan və Xoy xanlarını Fətəli xanla birləşməyə yol verməməyə çağırmışdı (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 48).

Fətəli xan gen. Potyomkinə yazırdı ki, o, yəni Potyomkin Fətəli xandan II İraklini rahat buraxmağı tələb etmişdir. Buna görə xan yalnız İbrahim xanı cəzalandırıb, geri döndüyünü, Gürcüstana getmədiyini yazırdı (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 49). Fətəli xan bunu da yazırdı ki, Nadir şahın oğlu Rzaqulu Mirzə Səbzəvarda şah Təhmasibi ailə üzvləri ilə birlikdə qətlə yetirərkən bir xeyirxah kəndxuda onlardan bir nəfəri – Abbas Mirzəni xilas etmişdir. Abbas Mirzə Nadirin və Kərim xanın hakimiyyəti dövründə müxtəlif yerlərdə gizlənmişdir (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 49). İndi xanların taxtda Səfəvi nəslindən olan bir şəxsi görmək arzularını bilib Salyana gəlmişdir. Bu günlərdə Ərdəbilə gedəcəyik. Bir çox Azərbaycan xanları da bura gələcək və burada Abbas Mir-

zəyə sədaqət andı içiləcəkdir (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 49 a.ü.).

Qeyd edək ki, İbrahim xan da gen. Potyomkinə yazırdı ki, Fətəli xan onun dostu İraklini Azərbaycan xanları arasında ədavət yaratmaqda ittiham edir. Gəncə, Qaradağ xanlarının, Səid xanın tutulmasının səbəbini bununla əlaqələndirirdi. İbrahim xanın yazdığına görə neçə il idi ki, o və İrakli Səid xanın oğlanlarından inciklik görürdülər. Nəhayət Gəncədə (əslində mənbədə Gəncə yazılsa da söhbət Gilandan gedir (T.M.)) xalq üsyan etmiş, İraklidən və Fətəli xandan yardım istəmişlər. İbrahim xan və İrakli gəncəliləri Nəsirəli xanın zülmündən azad etmişlər. Onu həbs etmişlər. Nəsirəli xan beş il həbsdə qalmış, Kərim xan öldükdən sonra azad edilmişdir. İbrahim xan bunu da yazırdı ki, təbəələri heyvanları yaylağa apararkən qəflətən Fətəli xanın basqınına məruz qalmışdır (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 55 a.ü.-56).

İbrahim xanın yazdığına görə Kərim xanın kürəkəni olan gilanlı Hidayət xan qanuni hakim Nəsirəli xanı həbsdə saxlayırdı. Kərim xanın ölümündən sonra o, bir yolla azad olmuş və Məhəmməd Həsən (oxu: Ağa Məhəmməd) xanın köməyilə Gilan taxtına yiyələnmişdir. Öz xəzinəsini itirməkdən qorxan Hidayət xan onu gəmiyə yükləyib Rusiyaya qaçmaq istəmiş, lakin Fətəli xan onu qaçmağa qoymayıb bildirmişdi ki, 6 min nəfər dağıstanlı döyüşçünün köməyi ilə onu taxta bərpa edəcək. Lakin döyüşçülər Gilanda elə vəhşiliklər törətmişlər ki, Hidayət xan onları qovmalı olmuşdur (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 55 a.ü.).

İbrahim xan bunu da yazırdı ki, Fətəli xan guya şah Hüseynin nəslindən olan bir qondarma şahzadəni Salyana gətirmişdir. İbrahim xan Fətəli xanın qondarma «Abbas Mirzəyə» yazdığı məktubu ələ keçirərək gen. Potyomkinə göndərmişdi (РГАДА, f. 23, iş 13, his. 3, v. 99).

Elə bu zamanlarda II İrakli gen. Potyomkinə Fətəli xanın osmanlılarla məktublaşdığını xəbər verirdi (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 55 a.ü.). Süleyman paşanın Fətəli xana

göndərdiyi və ələ keçirilmiş məktubundan aydınlaşır ki, Fətəli xan osmanlı sarayına tez-tez məlumatlar göndərirmiş. Süleyman paşa eyni zamanda Fətəli xanla İbrahim xan və digər xanlar arasında ara müharibələrindən narahat olduğunu yazırdı. Çünki Rusiya qoşunlarının Azərbaycan və İrana tərəf hərəkət etdiyini eşitdiyini bildirirdi. Paşa hesab edirdi ki, belə təhlükəli məqamda bütün müsəlman hakimləri bir nəfər kimi ayağa qalxıb düşmənə müqavimət göstərməlidir. Osmanlı tərəfdən hər cür yardım vəd olunurdu (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 58 a.ü.).

Qondarma şahzadə «Mir Sultan Abbası» Fətəli xana Məşhəddən Yəzdə gəldiyini, Əli Murad xan bu şəhərə hücum edərkən orada olduğunu, sonra Salyana getdiyini yazırdı (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 61).

Bir rus casusu Fətəli xanın və Tarki şamxalının elçilərinin Gilanda olduqlarını və yenidən hakimiyyətə gəlməkdə göstərilmiş yardıma görə vəd olunmuş məbləği ödəməyi tələb etdiklərini, əks halda basqınla hədələdiklərini yazırdı (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 61).

II İrakli rus komandanlığına yazırdı ki, Şamaxılı Məhəmməd Səid xan və Şəki xanı Fətəli xanla müttəfiqdirlər. Çar Şəki xanının qardaşı oğlu Hüseyn xanın Carda olduğunu və Şəkidə hakimiyyəti ələ almağa çalışdığını yazır və bildirirdi ki, İrakli ona kömək göstərməyə hazırdır, çünki bu Gürcüstana və Rusiyaya da xeyirli olar (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 115).

P. Potyomkin Tarki şamxalı Murtuza Əliyə məktubunda çoxdan Fətəli xandan məktub almadığından gileylənir və ehyam vururdu ki, Quba xanının rahatlığı Rusiaya sədaqətindən asılıdır (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 139).

II İrakli öz tituluna Şəmsəddin, Qax, Şəki, Şirvan, Gəncə, İrəvan və başqa yerlərin hakimi və valisi rütbələrini də əlavə etmişdi (РГВИА, f. 52, siy. 1, iş 286, his. 1, v. 171 a.ü.). Qeyd edək ki, bu zaman rus hökuməti də Azərbaycan xanlıqlarını ləğv edib onların ərazisinin bir hissəsini bilavasitə

işğal etmək, digər hissəsini Kartli-Kaxeti çarlığına qatmaq, üçüncü hissəində isə oyuncaq «Ermənistan» dövləti yaratmaq planı tərtib etmişdi. Dərbənd və Quba bilavasitə Rusiyanın əlinə keçəcək yerlərin sırasına daxil idi.

Fətəli xan şimal-qərbi Azərbaycan torpaqlarını – Qarabağ və Gəncə xanlıqlarını, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarını da öz dövlətinə birləşdirmək istəyirdi.Bunun üçün də nəinki Qarabağ xanlığının, eləcə də onun müttəfiqi II İraklinin müqavimətini qırmaq istəyirdi.Fətəli xan 25 minə qədər döyüşçü toplamışdı(РГВИА, f.52/1, iş 256, h.I, v.34).Hazırlanmış plana görə əvvəlcə eyni zamanda həm Qarabağ, həm də Gəncə xanlıqlarına zərbə endirilməli idi.Ancaq Qafqazdakı rus qoşunlarının komandanlığı Fətəli xandan öz niyyətindən əl çəkməyi qəti surətdə tələb etdi və xan geri çəkilməli oldu(ətraflı məlumat üçün bax: Абдуллаев(1958), 108 – 112).

1783-cü il aprelin 6-da knyaz Q.Potyomkin gen. P.Potyomkinə göstəriş vermişdi ki, onun komandasına verilmiş korpusla Dərbəndi zəbt etsin (РГАДА, f. 23, iş 13, his. IV, v. 26-27). Mayın 19-da generala yeni məxvi order göndərən knyaz həmin göstərişi yenidən təsdiqlədi və həm də Fətəli xanın özünü tutmağı tövsiyyə etdi. Bu məqsədlə digər xanların ona qarşı qəzəbindən istifadə etmək, onlara imkan vermək lazım idi ki, Fətəli xana zərbə vursunlar. Q.Potyomkin hətta hələlik İbrahim xanın devrilməsi fikrindən əl çəkərək ondan Fətəli xana qarşı mübarizədə istifadə etməyi təklif edirdi.

Kartli-Kaxetiya çarlığı Rusiya himayəsindən istifadə edib bütün Cənubi Qafqazı özünə tabe etməyə, ilk növbədə Gəncəni tutmağa can atırdı. II İraklinin təcavüzkar niyyətləri Qubalı Fətəli xanın kəskin müqavimətinə rast gəldi. O, hətta 1782-ci ildə II İrakli ilə rəqabət aparan sabiq Kartli çarı VI Vaxtanqın nəvəsi Aleksandr Amilaxvariyə öz sarayında sığınacaq verdi.[8] Fətəli xan Aleksandra gürcü taxtına yiyələnməkdə

---

[8] Aleksandr Amilaxvari rus ordusunda kapitan rütbəsində xidmət edirdi. 1762-ci ildə devrilmiş və qətlə yetirilmiş III Pyotra sədaqətlə xidmət etdiyinə görə 1766-cı

kömək edəcəyinə söz verdi. Bundan xəbər tutan Qafqaz xəttindəki rus qoşunlarının komandanı P.S. Potyomkin 1783-cü ilin payızında iki kifayət qədər güclü hərbi dəstə təşkil etməyə başladı. Bir dəstə Sulak çayının sahilində, keçmiş Svyatoy Krest qalasının yanında, başqa biri Terekin sahilində Daryal dərəsinin girəcəyində durmalı idi. Əgər Fətəli xan və Knyaz Aleksandr öz niyyətlərini həyata keçirməyə başlayardılarsa, bu dəstələrin birincisi Dərbəndə doğru, digəri isə Gürcüstana irəliləməli idi (Левиатов, 143).

Məhəmməd Səid xan Fətəli xanın əvvəllər Kərim xan Zəndin oğluna nişanlanmış bacısı Fatimə xanımı öz oğlu Məhəmməd Mirzə bəy üçün istədi. Ağası xan bundan narazı qaldı və iki qardaş arasında ixtilaf yarandı (Бакиханов, 165).

1783-cü ildə Krım Rusiyaya ilhaq edildi. Həmin ilin yayında Kaxeti-Kartli çarlığının Rusiya himayəsinə qəbul edilməsi barədə fərman verildi. 1783-cü ilin noyabrında Tiflisə rus qoşunu daxil oldu (Левиатов, 142).

Hələ 1783-cü ilin mayından ruslar Şimali Qafqazdan Gürcüstana gedən yolu düzəltməyə başladılar. 1784-cü ilin yazında bu yolun başlanğıcında Vladikavkaz (Qafqaza yiyələn) rəmzi adı verilən qala inşa edildi (Левиатов, 142). Bu cür əks tədbirlər Fətəli xanı II İrakliyə qarşı çıxış etməkdən çəkindirdi. Üstəlik P.S. Potyomkinin tələbilə Aleksandrı rus komandanlığına təslim etdi (Левиатов, 144).

Rus hökümətinin gizli niyyətlərindən xəbərsiz Fətəli xan cənuba yürüşə ciddi hazırlaşırdı. Əvvəlcə o, öz arxasını təhlükəsiz etmək qərarına gəldi. Buna görə də 1784-cü ildə Fətəli xan Ağası xana kömək edən qarabağlı İbrahim xana qarşı yeni yürüş etdi, Ağdamı və Qarabağın demək olar ki, bütün düzən hissəsini var-yoxdan çıxardı. Şəkili Əbdül Qədir xan[9] da bu yürüşdə iştirak edirdi. İbrahim xan yanında olan şəkili

---

ildə hərbi rütbəsi əlindən alınmış və Rusiyadan deportasiya edilmişdi (Бутков, II his., 141).

[9] 1774-cü ildə Hüseyn xanı öldürən Əbdülqədir Şəki xanı olmuşdu. Əbdülqədir xan Hüseyn xandan fərqli olaraq Fətəli xanla müttəfiqlik münasibətləri yaratmışdı (Левиатов, 149-150).

Hüseyn xanın oğlu Məhəmməd Həsən ağanı Cara göndərdi. Sonuncu oradan carlıların köməyilə yürüşdən qayıdan Əbdül Qədirə həmlə etdi və məğlubiyyətə uğrayan Hacı Əbdül Qədir xan Ağası xanın yanına Əlvənd adlı yerə qaçdı. Məhəmməd Həsən xanın tələbiylə Ağası xan Əbdül Qədiri ona verdi. Əbdül Qədir öz yeddi oğlu ilə birlikdə qətlə yetirildi (Kərim ağa, 19; Бакиханов, 165).

Fətəli xanın nəzərləri Cənubi Azərbaycanda ilk növbədə mühüm hərbi-strateji əhəmiyyətə malik Ərdəbil xanlığına yönəlmişdi. Həm də Ərdəbil şəhəri ölkənin cənubunda böyüklüyünə görə Təbrizdən sonra ikinci şəhər idi.Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, Fətəli xan Ərdəbil xanlığını və digər cənub xanlıqlarını tabe etməklə kifayətlənmək niyyətində deyildi.Onun daha uzaqgörən planları var idi. O, Rusiya ilə ittifaqda öz əlaltısı yalançı şahzadə Abbas Mirzəni şah taxtına oturtmaq istəyirdi. Quba hakimi hər vasitə ilə öz namizədinin şah II Təhmasibin oğlu olduğunu sübut etmək istəyirdi. Görünür ki, Fətəli xanla əlbir olan İsfahan, Qəzvin və Nəcəfin ali ruhaniləri Abbas Mirzəni tanıdıqlarını və ona tabe olacaqlarını təsdiq edən sənədə imza atıb, möhürlərini basmışdılar (Bax: Абдуллаев(1958), 120).

Yəqin ki, Fətəli xan anlayırdı ki, ya Ağa Məhəmməd xan Qacar, ya da Əlimurad xan şah taxtına yiyələnsələr ona Cənubi Azərbaycan torpaqlarını birləşdirməyə imkan verməyəcəklər. Abbas Mirzəni taxta oturtmaqla o, ölkənin cənubunu ələ keçirmək vəzifəsini asanlaşdırmış olurdu.Digər yandan Fətəli xan güman edirdi ki, Türkiyə, eləcə də İngiltərə və Fransa Ağa Məhəmməd xan Qacarın, ya da Əlimurad xanın tərəfindən çıxış edə bilərlər.Buna görə də o, özünü Rusiyanın regiondakı maraqlarının müdafiəçisi kimi göstərməklə sonuncunun dəstəyinə nail olmaq istəyirdi.

Rus hökümətinə Abbas Mirzənin taxta çıxarılmasının vacibliyinə inandırmaq üçün Fətəli xan öz elçisi Mirzə Sadıq Məmmədvəliyevi Rusiyaya göndərmişdi.

Rus hakimiyyət dairələri Abbas Mirzənin taxt-taca iddiasının əsaslılığına şübhə ilə yanaşsalar da uzun müddət bunu biruzə vermir, Fətəli xanın planına münasibətlərini açıqlamırdılar.

Cənubda isə hadisələr sürətlə inkişaf edirdi.Rəqiblərini qabaqlayıb onlara öz qüvvələrini cəmləməyə imkan verməmək üçün Fətəli xan rus hökümətі ilə danışıqların nəticələrini gözləməyərək cənuba yürüş təşkil etdi.1784-cü ilin may ayında o, vassallarının və müttəfiqlərinin qoşunları ilə birlikdə hərəkət edib Ərdəbili, sonra da Meşkini aldı. Qoşunların ön dəstələri cənuba hərəkəti davam etdirdilər (РГВИА, f.52/1, iş 131, v.31; Butkov, II his., 140 – 141; Abdullayev (1958), 123).

Fətəli xanın cənuba yürüşü nəinki İrandakı şahlığa iddiaçıları, eləcə də Cənubi Qafqazın və Dağıstanın bir sıra feodal hakimlərini narahat etdi.Qaraqaytaq usmisi, Avar xanı və Cənubi Dağıstanın bəzi hakimləri Dərbənd və Qubaya zərbə endirməyə hazırlaşmağa başladılar .Qarabağlı İbrahimxəlil xan və Ərdəbildən qovulmuş Nəzərəli xan da öz qoşunlarını toplayıb Ərdəbil istiqamətində hücuma keçdilər. Xoylu Əhməd xan da onlara yardıma 3 min nəfərlik dəstə göndərmişdi (Абдуллаев (1958), 123 – 124).

II İrakli də yürüşə açıq düşmən münasibətini göstərib rus hökümətini inandırmağa çalışdı ki, guya Fətəli xan axalsıxlı Süleyman paşa ilə əlaqədə hərəkət edir. Nəhayət ki, Rusiyanın bu yürüşə mənfi münasibət bəslədiyi anlaşıldı (Абдуллаев (1958), 124).

Fətəli xanın nailiyyətləri II Yekaterinanın siyasi niyyətlərinə uyğun gəlmirdi. O, Cənubi Qafqaz və Dağıstanda kifayət qədər güclü olan Fətəli xanın daha da güclənməsini istəmirdi. Buna görə də knyaz Q.A. Potyomkin 1785-ci ilin fevralında Fətəli xandan Cənubi Azərbaycanı tərk etməyi tələb etdi (Бутков, II his., 141; Левиатов, 144). Bu hərəkətlər Fətəli xanı başladığı yürüşü dayandırıb geri qayıtmağa məcbur etdi.

Arxiv sənədlərindən məlum olur ki, Fətəli xan 1784-cü ilin sonunda II İrakliyə ittifaq bağlamaq təklifi edibmiş,

İrakli bildirmişdi ki, əgər Fətəli xan qarabağlı İbrahimxəlil xanla düşmənçilikdən əl çəkərsə bu ittifaqa gedə bilər.Bir qədər bundan əvvəl İbrahimxəlil xan İraklinin yanına adam göndərərək bildirmişdi ki, Fətəli xan onun mülklərindən bir hissəsini ələ keçirmək istəyir. II İrakli ittifaq haqqında danışıqlar aparmaq üçün nümayəndəsi Mirzə Qurgen Mixaylonu Quba xanının yanına göndərmişdi. Mirzə Qurgen 36 gün Fətəli xanın sarayında qalıbmış (РГАДА, f.15, iş 226, v.37 və a.ü.).

Mirzə Qurgenin yazdığına görə o, Fətəli xanın sarayında olarkən bura Osmanlı sultanının elçisi gəlmişdi.Axalsıxlı Süleyman paşanın xəzinədarı olan bu şəxs özü ilə sultan fərmanı, 3 min əşrəfi pul və bir sıra qiymətli hədiyyələr gətirmişdi. Qurgen yazır ki, xan onun yanında qəsdən sultan elçisini qəbul etməyəcəyini bildirsə də gizlində elçini qəbul etmiş, hədiyyələri almışdı. Fərmanda deyilirdi ki, rus çarı Gürcüstanı himayəyə alıb gücləndirməklə əslində keçmişdə İran şahına məxsus olan bütün əraziləri zəbt etmək niyyəti güdür. Sultan Azərbaycan xanlarını və Dağıstan hakimlərini 1785-ci ilin yayında Rusiyaya qarşı ümumi müharibəyə başlamağa çağırırdı. Pul ilə yardım edəcəyinə söz verirdi (РГАДА, f.15, iş 226, v.37 a.ü. – 38).

Mirzə Qurgenin yazdığına görə Fətəli xan II İrakli ilə ittifaq məsələsindən danışarkən Qurgen bildiribmiş ki, bu məsələ Qafqaz xəttindəki rus qoşunlarının komandanlığı ilə razılaşdırılmalıdır. Xan qəzəblə deyibmiş ki, bilmir ki, onlar ruslardan nə gözləyirlər, onlardan heç bir xeyir yoxdur (РГАДА, f.15, iş 226, v.38 və a.ü.).

Fətəli xan Şəki xanlığını da özünə tabe etməyə çalışırdı. Lakin, Gavduşan məğlubiyyətindən sonra o, Şəkiyə olan iddialarından müvəqqəti olaraq əl çəkməli olmuşdu.

Məhəmməd Həsən xan Fətəli xana qarşı mübarizədə Ağası xanın, Məhəmməd Səid xanın və onların tərəfdarlarının köməyindən istifadə edirdi.

Gözlənilmədən Fətəli xan öz keçmiş rəqibi qarabağlı İbrahim Xəlil xandan kömək aldı. Bu yaxınlaşmaya səbəb aşağıdakı hadisə olmuşdu. Xanlığa sahib olmaq üçün İbrahim xanla mübarizə aparan onun doğma qardaşı Mehralı bəy Fətəli xanın himayəsində idi. O, 1785-ci ildə Bakıdan Fətəli xanın düşərgəsinə gedərkən Ağası xanın oğlu Əhməd bəy tərəfindən öldürülmüşdü. Fətəli xan onun cənazəsini böyük hörmətlə Qarabağa göndərmişdi. Görünür elə bunun nəticəsi idi iki, Qarabağ xanlığının hərbi qüvvələri Fətəli xanın ixtiyarına verildi. Özünün Qarabağ tərəfindən təhlükəsizliyini təmin edən Fətəli xan Ağası xanın üzərinə yeridi. Məhəmməd Həsən xan tələsik Şəkiyə çəkildi. Ağası xan Fətəli xana təslim oldu və Qubaya sürgün edildi (Бакиханов, 166) Fətəli xan Şəki xanlığının ərazisinə daxil oldu. Müqavimətin imkansızlığını görən Məhəmməd Həsən xan barışıq istədi və öz bacısını Fətəli xana ərə verdi. Sonralar Fətəli xan da öz növbəsində bacısı Peykər xanım Məhəmməd Həsən xana ərə verdi (Бакиханов, 165-166; Левиатов, 151). Eyni zamanda Məhəmməd Həsən xan keçmiş Şamaxı xanlarının ailə üzvlərini Fətəli xana verməyə məcbur oldu (Левиатов, 151).

Bu hadisədən sonra gəncəli Cavad xan da Fətəli xandan asılılığı qəbul etdi.

Uğurlardan ruhlanan Fətəli xan yenidən Cənubi Azərbaycana öz təsirini yaymaq fikrinə düşdü. Knyaz Q. Potyomkin 10/21 dekabr 1786-cı il tarixdə Kremençuqdan II Yekaterinaya yazırdı ki, gen. Potyomkin ona yazmışdır ki, Azərbaycan xanları və xüsusən Dağıstan hakimləri Fətəli xanın əlaltısı olan Abbas Mirzənin şah seçilməsinə mane olacaqlar. Bu dövrdə Abbas Mirzə Bakıda Fətəli xanın nəzarəti altında idi (РГВИА, f. 52, siy. 2, iş 32, v. 138).

Dərbənddən verilən məlumtda göstərilirdi ki, Fətəli xan öz namizədini şah elan etmək üçün Ərdəbilə yollanmaq istəyir. Gen. Potyomkin kn. Potyomkindən soruşurdu ki, əgər doğrudan da Abbas Mirzə şah elan olunsa o, bu məsələyə necə münasibət göstərsin (РГВИА, f. 52, siy. 2, iş 32, v. 138 a.ü.).

Noyabrın 27 (dekabrın 7-də)-də mayor Komarski Fətəli xanın təhvil verdiyi Aleksandr Bakarovu Həştərxana gətirmişdi. Bakarov Fətəli xanın qoşun toplayıb Qaraqaytaq hakimi və usmi ilə birləşib, digər hakimləri də cəlb etməklə Abbas Mirzəni şah elan etmək fikrində olduğunu təsdiq etmişdi (РГВИА, f. 52, siy. 2, iş 32, v. 138 a.ü.).

Fətəli xanın elçisi Mirzə Sadıq yazırdı ki, əgər rus hökuməti xanın köməyinə bir-iki alay göndərsə xan bütün İranı, hətta Hindistan sərhəddinə kimi torpaqları tuta bilər (РГВИА, f. 52, siy. 2, iş 32, v. 186).

Gen. P.S. Potyomkin knyaz Q.A. Potyomkinə 25 noyabr (6 dekabr) 1786-cı il tarixli raportunda yazırdı ki, alınan xəbərlərə görə Fətəli xanla Avar xanı arasında müharibə başlayır. Bu xəbərdən aydın olur ki qarabağlı İbrahim xan da qohumu Avar xanının tərəfindən çıxış edəcəkdir. Fətəli xanın ələ keçirdiyi məktubdan aydın olur ki, İbrahim xan Avar xanına kömək edəcəyini vəd etmişdir (РГВИА, f. 52, siy. 1, iş 366, his. IV, v. 234). Fətəli xan Azərbaycanı birləşdirmək işində Rusiyanın dəstəyini qazanmaq, yaxud heç olmasa onu bitərəfləşdirmək istəyirdi.

P.S. Potyomkin G. Potyomkinə göndərdiyi 20 yanvar (8 fevral) 1787-ci il tarixli raportunda yazırdı ki, Fətəli xanın nümayəndəsi Hacı İbrahimi geriyə – Salyana yola salmışdır. Hacı İbrahimlə danışıqdan məlum olmuşdur ki, Fətəli xan deyəsən şamxal və avar xanı ilə eyniləşdirilməmək, gürcü çarı İrakliyə verilmiş hüquqlar əsasında Rusiya himayəsinə girmək istəyir (РГВИА, f. 52, siy. 1, iş 416, his. I, v. 262).

1787-ci ilin iyununda göndərdiyi raportunda gen. Potyomkin yazırdı ki, Fətəli xan öz məmuru Mirzə Sadığı imperatriçənin himayəsinə qəbul olunması barədə ərizə ilə göndərmişdir. O, həmçinin knyaz Potyomkinin adına məktub göndərmişdi. Fətəli xan II Yekaterinaya məktubunda yazırdı ki, özü təbəələri ilə birlikdə himayəyə qəbul olunmasını xahiş edir, necə ki, gürcü çarı İrakli öz təbəələri ilə birlikdə qəbul olunub (РГВИА, f. 52, siy. 1, iş 416, his. I, v. 290-291). Knyaz Pot-

yomkin kansler qraf Bezborodkaya yazırdı ki, Fətəli xan kral adı almaq istəyir (РГВИА, f. 52, siy. 1, iş 416, his. I, v. 691).

**Sərkərlər xanədanının üzvlərinə divan tutulması.**

Məhəmməd Səid xan onun da Ağası xan kimi sürgün oluna biləcəyindən qorxub xəlvəti surətdə Fətəli xana qarşı mübarizəyə hazırlaşmağa başladı. Bundan xəbər tutan Fətəli xan Ağası xanı Qubadan Qonaqkəndə köçürüb elə təsəvvür yaratdı ki, guya onu Şamaxı xanlığının taxtına oturtmaq fikrindədir. Hələ Fətəli xana qarşı açıq çıxış etməyə özünü qadir saymayan Məhəmməd Səid xan Kasainə, oradan Şəki xanlığına – Qəbələyə qaçdı. Məhəmməd Səid xanın oğlu Məhəmməd Rza bəy isə qaynı Fətəli xanın yanına gəlib itaətini bildirdi. Fətəli xan onu nominal Şamaxı xanı təyin etdi. Bundan əvvəl Fətəli xan Ağası xanı Əhməd və Məhəmməd adlı iki oğlu ilə birlikdə Bakıya göndərmişdi (Бакиханов, 166).

Fətəli xan şəkili Məhəmməd Həsən xandan Məhəmməd Səid xanı və oğlanlarını verməyi tələb etdi. Vəziyyətinin çıxılmaz olduğunu görən Məhəmməd Səid xan özü Fətəli xanın yanına gəldi. Fətəli xan onu və iki oğlunu (Mahmud bəyi və İskəndər bəyi) Salyana göndərdi. Məhəmməd Səid xanın digər iki oğlu Əsgər bəy və Qasım bəy, habelə Ağası xanın oğlu vəziyyəti belə görüb Qarabağa qaçdılar. Lakin Ərəş sultanı Şəhabbəddin şəkili Məhəmməd Həsən xanın göstərişi ilə onları Ərəşə çağırıb həbs etdi. Məhəmməd Həsən xan bunları zəncirləyib Fətəli xanın yanına göndərdi. Göyçayın sahilində Sərkərlər ailəsi tərəfdarlarından biri yalandan şaiyə buraxdı ki, guya Fətəli xan Şəki tacirlərini qarət və həbs etmiş, qoşunla Şəkinin üzərinə gedir. Dustaqları müşaiyət edən Haçı Səid bəy bu şaiyəyə inanıb Fətəli xanın nümayəndəsi Məhəmməd Kərim bəyin əl-qolunu bağlayıb özü Şəkiyə qayıtdı. Sərkərlər ailəsinin azadlığa çıxmış üzvləri Cara, oradan da Avarıstana gedib Nutsal xanın qardaşı oğlu Ümmə xanı Şirvana gətirdilər. Ümmə xan qəflətən Ağsuda olan Fətəli xana hücum etdi və 9 ay onu mühasirədə saxladı. Fətəli xan onunla danışıqlara gir-

məli oldu və Nutsal xanın qanbahası olaraq öz qızı Pəricahan xanımı Ümməyə verməyə razı oldu. Salyan da cehiz kimi veriləcəkdi. Ümmə xan Avarıstana qayıtdı. Əsgər, Qasım və Mustafa isə Qarabağdan Axalkalaka keçdilər, oradan da Türkiyəyə getdilər (Бакиханов, 166-167)

Sərkərlər sülaləsi nümayəndələrinin gələcəkdə çıxışlarının qarşısını almaq üçün Fətəli xan qəti tədbirə əl atmaq qərarına gəldı. Onun əmrilə 1788-ci ildə Salyanda Məhəmməd Səid xan iki oğlu ilə birlikdə, Bakıda Ağası xan oğlanları ilə birlikdə, Qubada isə Fətəli xanın qaynı Məhəmməd Rza xan qətlə yetirildilər. Sərkərlər ailəsinin daha üç üzvü kor edildi (Бакиханов, 167, Серебров, 204). Fətəli xanın tədbiri barədə İsgəndər bəy Hacınski daha müfəssəl məlumat verir. O, yazır: «Fətəli xan, Ale-Sərkar dudmanının uzaqlara çəkilmiş bu üzvlərinin onun işlərinə bir daha mane ola bilməyəcəyinə əmin olmasına baxmayaraq, həmin dudmanın həbsdə olan başqa üzvlərini belə bir vəziyyətdə qoyub uzaq səfərə çıxmağa cürət etmirdi. Əgər burada olmayarkən, onlardan biri zindandan qaçmağa müvəffəq olardısa, - çoxlu tərəfdarları olan və hələ də hər şeyin xalqının xatirində qaldığı Şirvan xanlığına gələrək ümumi üsyan qaldıra bilərdi. Bu isə Quba xanına çox baha oturardı, qan bahasına və böyük zəhmətlərlə əldə eilən torpaqlardan başqa, öz ata-baba mülkü belə əlindən çıxa bilərdi. Bu iş həmçinin xanlıq taxtına çıxdıqdan iyirmi il sonra icrasına başladığı tədbirləri poza bilərdi. Şamaxını fəth etmək isə bu tədbirlər uğrunda atılan ilk və bəlkə də ən mühüm addım idi. Məhəmməd Səid xanı iki oğlu ilə birlikdə Salyanda, habelə Ağası xanı iki oğlu ilə Bakıda və Məhəmməd Rzanı Qubada öldürməyi və bundan əlavə Ağası xanın iki və ya üç oğlunun kor edilməsini əmr etdi» (Hacınski, 23).

**Şəki xanlığı ilə ixtilaf.**

Fətəli xanın Sərkərlər sülaləsi üzvlərini məhv etməsi Şamaxıda böyük qəzəb doğurdu. Bundan istifadə edən şəkili Məhəmməd Həsən xan güclü bir qoşun toplayaraq o vaxtlarda

Ağsuda olan Fətəli xana hücum etdi. Əvvəlcə üstünlük şəkililərin tərəfində idi və onlar hətta şəhərə də soxuldular. Lakin Fətəli xan qubalılar və dərbəndlilərlə birlikdə onların üzərinə atıldı, ardınca dağıstanlılar Məhəmməd şamxalın oğlu Mehdi bəyin başçılığı ilə şəkililərin qarşısını aldılar (Бакиханов, 168).

Bu döyüşdən danışan İsgəndər bəy Hacınski yazır ki, şamxal Məhəmmədin oğlu Mehdi bəyi öz köməyinə çağırmış Fətəli xan düşməni sərhəddə qarşılamağa fürsət tapmayıb, onunla Köhnə Şamaxının lap yaxınlığında üz-üzə gəldi. Uzun sürən şiddətli müharibə başlandı. Bu müharibədə Şəki qoşunu hər yerdə üstün gəlirdi. Qələbə açıqdan-açığa Məhəmməd Həsən xanın tərəfində idi. Hətta onun qoşununun bir hissəsi Şamaxıya belə girmişdi. Quba piyadası düşmənin ümumi təzyiqi qarşısında demək olar ki, tək qalmışdı və o da uzun müddət dözə bilməzdi (Hacınski, 24).

İsgəndər bəy Hacınskinin yazdığına görə Fətəli xanın müttəfiqi Mehdi bəy Şəki xanı ilə gizlincə sövdələşibmiş və buna görə də vuruşmada iştirak etmirdi. Bunu görən Quba qoşun başçılarından biri geri çəkilməkdə olan öz piyadasını dağıstanlıların möhkəmləndirilmiş səngərlərinə tərəf çəkmiş və bununla da şəkililərin bu səngərlərə yaxınlaşmasına nail olmuşdu. Bu vaxta qədər müharibənin laqeyd tamaşaçısı olan şamxal qoşunu, qubalıları təqib edən düşmənin onların səngərinə yaxınlaşdığını gördükdə, lap yaxın məsafədən atəş açmalı oldu. Düşmən çoxlu tələfat verərək, qaçmağa başladı. Quba xanı fürsətdən istifadə edib döyüşün gedişini öz xeyrinə dəyişdi. Məğlub olmuş Məhəmməd Həsən xanın əsgərlərinin xeyli hissəsi öldürülmüş, yaralanmış və əsir düşmüşdü. Xanın özü isə, güclə qaçıb canını qurtarmış və yalnız iki nökəri ilə mülkünə qayıda bilmişdi. Düşməni təqib edən Fətəli xan Şəki xanlığının ərazisinə daxil oldu. Lakin öz bacısı – Məhəmməd Həsən xanın arvadının məsləhəti ilə Şəki xanı ilə barışdı (Hacınski, 25).

Bu döyüş barədə rus mənbələrində də maraqlı məlumat verirlər. General P. Potyomkin knyaz Q. Potyomkinə 1/12/ iyun 1787-ci il tarixli raportunda yazırdı ki, bir müddət əvvəl Canqutay hakimi Əli Sultan və şəkili Məhəmməd Həsən xan Fətəli xana qarşı hücuma keçmişlər. Əvvəlcə onlar Fətəli xanı sıxışdırmağa müvəffəq olmuşlar. Lakin Fətəli xan hiylə işlədərək nəinki təhlükədən xilas olmuş, həm də düşmənləri üzərində tam qələbə qazanmışdır. Şəkili Məhəmməd Həsən xan və canqutaylı Əli Sultan döyüşdə 1300 nəfər itirmiş, 2400 nəfər, o cümlədən Əli Sultanın özü əsir götürülmüşdür. Şəki xanı qaçmaqla canını qurtara bilmişdir. Bundan sonra Fətəli xan şamxala 100 min manat verib onu və muzdluları evə buraxmışdır. Gen. Potyomkinin yazdığına görə bu döyüşdən sonra Şamaxıya girən Fətəli xan sərkərlər xanədanının bütün üzvlərini məhv etmiş, Şamaxı əsilzadələrini Dərbəndə köçürmüş, qalan sakinlərin üzərinə isə bac qoymuşdur (РГВИА, f. 52, siy. 1, iş 416, his. I, v. 262).

**II İrakli ilə sövdələşmə.**

1785-ci ilin əvvəllərində Fətəli xan II İrakliyə görüşə hazır olduğunu bildirmiş, lakin bu zaman təhlükəsizliyinin təmin olunması üçün girovlar istəmişdi. İrakli Qarabudaqda görüşməyi təklif etmiş, lakin girov verməkdən imtina edib bununla əsaslandırmışdı ki, bu yerlərin ağası ruslardır. İrakli həm də eyham vurmuşdu ki, əgər Fətəli xan qarabağlı İbrahim xana qarşı getmək istəsə çar qılıncını Quba xanlığına qarşı çevirəcək (РГАДА, f. 15, iş 197, v. 4 a.ü.). Fətəli xan II İraklidən Qarabağa basqında yardım üçün 500 döyüşçü istəyibmiş. Fətəli xan İbrahim xanın kiçik qardaşını hakimimyyətə bərpa etmək istəyirdi. II İrakli gürcü knyazı Qarsevana yazırdı ki, Fətəli xan bu təklifin müqabilində Gəncənin İraklinin nəzarəti altına keçməsinə razıdır. Fətəli xan İraklinin yanına Mirzə Mikayıl adlı bir şəxsi göndərmişdi. İrakli nümayəndəyə bildirmişdi ki, P.S. Potyomkinlə məsləhətləşməmiş heç bir cavab verə bilməz (РГАДА, f. 15, iş 197, v. 4 a.ü.).

Alınan məlumatlara görə gəncəli Məhəmməd xanın qardaşı Həsən xanın oğlu İbrahim xanın yanında nəzarət altında saxlanan Əli bəy Şuşadan naməlum bir yerə qaçmışdır. İraklinin sözlərinə görə Fətəli xan gəncəliləri ona qarşı çıxışa təhrik etmişdir. Buna görə də İrakli ora qoşun göndərmişdir. Razılaşdırılmış vaxtda rus qoşunlarının da Qazaxa daxil olacağı gözlənirdi. İrakli yazırdı ki, öndə gedən gürcü dəstələri adəti üzrə qarət və viran etməyə başlayacaqlar ki, sonra rus qoşunları Gəncəyə daxil ola bilsinlər (РГАДА, f. 15, iş 197, v. 6 a.ü.).

Yeni yaranmış şəraitdə Fətəli xanın cənuba yürüşü Rusiya üçün sərfəli olardı, çünki Fətəli xanla Ağa Məhəmməd xan toqquşar, beləliklə də hər ikisi zəifləyər, Rusiyanın regionda möhkəmləsinə mane ola biləcək ciddi qüvvə qalmazdı.Türkiyə ilə yeni müharibənin yaxınlaşması və Ağa Məhəmməd xan Qacarın hücum təhlükəsinin yaranması da II İraklini də Fətəli xanla yaxınlaşmağa vadar edirdi. P.S.Potyomkin 1786-cı ilin sonlarında Fətəli xana məktub yazıb onu Ağa Məhəmməd xan Qacarın hücum təhlükəsi ilə əlaqədar II İrakli ilə barışmağa çağırırdı (РГВИА, f.52, siy.194/1, iş 336, his. IV, v.225 a.ü.).

1788-ci ilin əvvələrində Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək yolunda səylərini yenidən gücləndirdi.O, Qarabağa yeni hücum üçün ordu toplamağa başladı (РГВИА, f.52, siy.194/1, iş 481, v.99).

Ümmə xan qəzəbləndi və qəflətən Ağsuya hücum edərək 9 ay onu mühasirədə saxladı.Yalnız Rusiyanın müdaxiləsi və Fətəli xanın müəyyən güzəştlərə getməsi nəticəsində Ümmə xan geri döndü (Бакиханов, 167, Бутков, II his., 278).

Rusiyanın müqaviməti üzündən II İrakliyə qarşı yürüşə başlaya bilməyən Fətəli xan manevr etdi. Fətəli xan gürcü çarını görüşə dəvət etdi və ona Cənubi Azərbaycana və İrana birgə yürüş etməyi təklif etdi. O, II İrakli ilə Şəmkir çayının sol sahilində görüşdü. Görüşdə çarın zəbt etdiyi keçmiş Şəm-

şəddin sultanlığının ərazisinin Gəncə xanına qaytarılması barədə razılıq əldə edildi (Hacınski, 28-29). Tərəflər qərara aldılar: Gürcüstan çarı Cənubi Qafqazda «asayişi qorusun» (yəni bu region onun nəzarətinə verilir) Fətəli xan isə gələn il Cənubi Azərbaycana hərəkət etsin (Hacınski, 26-27; Бакиханов, 169).

**Fətəli xanın ölümü, Azərbaycan tarixində onun yeri.**

İrakli ilə görüş zamanı Fətəli xan qəfil xəstələndi. Şamaxıya qayıdan zaman xəstəliyi şiddətləndi. Xan tələsik Bakıya bacısı Xədicə Bikənin yanına getdi. Fətəli xanın II İrakli tərəfindən zəhərləndiyi də güman edilir. O, burada 1789-cu ildə martın 22-də 58 yaşında ikən vəfat etmişdir (Бакиханов, 169). Bakıda Bibiheybət məscidinin həyətində dəfn olunmuşdur. XX əsrin 30-cu illərində yol çəkilişi bəhanəsi ilə bu məscid partladıldığından Fətəli xanın baş daşı oradan çıxarılıb Azərbaycan MEA Tarix muzeyinə verilmiş və hal-hazırda orada saxlanmaqdadır.

İ. Hacınski yazır: «Fətəli xan çoxdan bəri icrasına çalışdığı planları xəyalında qurub hazırladığı bir zamanda tale işi dəyişdi. O, bu görüşdə xəstələndi. Şamaxıya qayıdan zaman xəstəliyi tədricən şiddətləndi. Bu şəhərdə nə qədər dava-dərman etdilərsə heç bir fayda vermədi. Xəstəliyinin gündən-günə artdığını görən və əcəlinin çatdığını hiss edən Fətəli xan tələsik Bakıya, sadiq dostu bacısının (Xədicə Bikənin-T.M) yanına getdi. O, burada 1789-cu ildə 54 yaşında ikən həyatını başa çatdırdı» (Hacınski, 27).

Fətəli xan Azərbaycan tarixində özünəməxsus iz buraxmış, görkəmli şəxsiyyətlərdən biri olmuşdur.

Дюврцня эюря, савадлы вя мялуматлы шяхс иди. Евдя тящсил алмышды. Рус, фарс вя тцрк диллярини эюзял билирди. 1770-ъи илдя онун гябулунда олмуш проф. С.Г. Гмелин Щяштярхан губернаторунун тягдимат

мяктубуну Фятяли ханын юзц охудуьуну йазыр.

Fətəli xan, məlumdur ki, öz siyasi əleyhdarlarına qarşı əsasən amansız olmuşudr. Feldmarşal A.V. Suvorov (1730-1800) Fətəli xanı olduqca ağıllı, mərdanə, şöhrətpərəst, yorulmaz, təşbbüskar və güclü şəxs kimi xarakterizə edir (Письма и бумаги, 388). Rus tarixçisi P.Q. Butkov yazır: «O, geniş ağıl sahibi idi… fars siyasətini bilirdi, cəsur, təşəbbüskar, şöhrətpərəst, dərrakəli və yorğunluq bilməyən adam idi» (Бутков, II his., 252).

Siyasi qüvvələri bir mərkəz ətrafında birləşdirməyə çalışan, vahid Azərbaycan yaratmaq amalını əldə rəhbər tutan Fətəli xan İran və Türkiyə siyasətçilərinin əksinə olaraq şiə və sünnü məzhəblərini bir-birindən o qədər də fərqləndirmirdi. S.Q. Qmelin yazırdı ki, o, özünün şiə olduğunu açıq-aşkar boynuna alsa da sünnü məzhəbli azərbaycanlılara və dağıstanlılara da hörmət edir və heç bir məzhəb ayrı-seçkiliyinə yol vermir (Гмелин, III his., 49).

Görkəmli Azərbaycan tarixçisi A.Bakıxanovun yazdığı kimi ölümünə yaxın bütün Şərqi Qafqaz Fətəli xanın təsiri altında idi. Cavadlı Həsən xan , bir müddət Qubada saxlanan və Fətəli xanın tərəfindən Lənkəran taxtına çıxarılan Mir Mustafa xan, Fətəli xanın yardımı ilə Gilanda hakimiyyətini bərpa edən Hidayət xan çoxdan ondan asılı idilər. Şamxal, Usmi Qazıkumık xanı da onun təsiri altında idilər. Avar xanı və Mehtili hakimi onunla sülh münasibətləri saxlamağa məcbur idilər. Maysum və Tabasaran qazisi ondan asılı idilər. Həddibuluğa çatmamış bacısı oğlu – Bakı xanı onun himayəsi altında idi. Qaradağ, Təbriz və digər yerlərin xanları onun himayəsinə nail olmağa çalışırdılar. Yalnız Qarabağlı İbrahim xan güclü istehkamlara arxalanaraq ona tabe olmaq istəmirdi (Бакиханов, 168).

Fətəli xanın birləşdirmə siyasətinə hələ XIX əsrdə qiymət verməyə çalışmışlar. Əhməd bəy Cavanşir Fətəli xanın Cənubi Qafqazın ən qüdrətli hökmdarlarından biri olduğunu

qeyd edərək onu öz torpaqlarının toplayıcısı adlandırmışdı (Əhməd bəy, 24). Lakin hələ birləşdirmə siyasətinin müvəffəqiyyətini təmin edə biləcək qüvvələr yox idi. XVIII əsrdə Azərbaycan ticarəti tənəzzül etmişdi. Daimi feodal-ara müharibələri ilə xarici basqınlar ticarətin inkişafına imkan vermirdi.

Kəndlilər üçün Fətəli xan öz sələflərindən artıq heç nə edə bilmədi. Demək olar fasiləsiz gedən müharibələr də ölkənin gah bu, gah da digər hissəsi var-yoxdan çıxırdı. Fətəli xanın saxlamalı olduğu muzdlu qoşunların xərcinin ağırlığı xeyli dərəcədə kəndlilərin, tacirlərin və sənətkarların üzərinə düşürdü. Muzdluların bir hissəsi kəndlilərin mənzillərində gecələyirdi. Bu kəndliləri var-yoxdan çıxarırdı. Muzdlu qoşunlar bəzən özləri də qarətlə məşğul olurdular.

Fətəli xanın nailiyyətləri iqtisadi zəminə malik deyildi, onun şəxsi istedadının, uğurlarının, gərgin fəaliyyətinin nəticəsi idi. Aydın idi ki, böhranlı xarici siyasi vəziyyət yarandığı, yaxud Fətəli xana bərabər xələfi olmadığı təqdirdə onun qurduğu dövlət dağılmalı idi.

Fətəli xanın ölümündən sonra onun yaratdığı şimal-şərqi Azərbaycanın dövlət birliyi dağıldı. Onun oğlanları (əvvəlcə Əhməd xan, daha sonra isə Şeyxəli xan) yalnız Qubanı və Dərbəndi öz hakimiyyətləri altında saxlaya bildilər.

# III FƏSİL. XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUS ÇARİZMİNİN CƏNUBİ QAFQAZDA İŞĞALÇLIQ SİYASƏTİ VƏ QUBA XANLIĞI. ŞEYXƏLİ XANIN RUS MÜSTƏMLƏKƏÇİLƏRİNƏ QARŞI MÜBARİZƏSİ

**Şimal-Şərqi Azərbaycan dövlət birləşməsinin dağılması.**

Fətəli xanın vəfatından sonra böyük oğlu Əhməd xanlıq taxtına çıxdı. (1789-1791). Əhməd atası kimi bacarıqlı deyildi. Fətəli xanın hakimiyyətinin son illərində Quba xanlığı ilə münasibəti yaxşılaşmış Şəki xanlığı ilə ixtilaf yenidən gücləndi və Məhəmməd Həsən xan öz bibisi oğlu olan Əhməd xana qarşı qalxdı. Əhməd xana qarşı təkbaşına mübarizə aparmağın çətinliyini anlayan Şəki xanı bu işdə şamaxılılardan istifadə etməyi qərara aldı.

Keçmiş Şamaxı xanı Məhəmməd Səidin Türkiyədə olan oğlanları Əsgər bəy və Qasım bəy, Ağası xanın oğlu Mustafa bəy Fətəli xanın ölümünü eşidərək geri qayıtdılar, əvvəlcə Qarabağa, oradan isə Şamaxıya gəldilər. Şəkili Məhəmməd Həsən xan onları silahlandırdı, bir vaxtlar Yeni Şamaxının hakimi olmuş Hacı Məhəmməd Əli xanın oğlu Manaf bəyi də onlara qoşub Şamaxıya hücum etdi. Əhməd xan onların qarşısını almaq iqtidarında olmadığı üçün Qubaya çəkildi (Бакиханов, 169; Fərzəlibəyli, 106). Məhəmməd Həsən xan Şamaxıda sərkərlərin hakimiyyətini bərpa etdi. Ağsunun idarəsi isə Manaf bəyə həvalə olundu. Bir həftə sonra sərkərlər Ağsunu aldılar, zəif və qabiliyyətsiz Manaf bəyi öldürdülər. Məhəmməd Səid xanın oğlu Əsgər Şamaxı xanı elan olundu. Ağası xanın oğlu Mustafa bəy isə Əlvənddə Kotev adlı yerdə möhkəmləndi (Бакиханов, 169).

1791-ci ildə Əhməd xanla bakılı II Mirzə Məhəmməd xan arasında narazılıq yarandı. Əhməd xana bac verməyi vəd edən Məhəmməd Qulu ağanın təhriki ilə Əhməd xan Salyana göndərmək adı ilə Bakıya bir qədər qoşun yolladı. Məhəm-

məd Qulu ağa xəlvəti Bakıya gəldi və qısa vuruşmadan sonra burada hakimmiyyəti ələ aldı. Devrilmiş II Mirzə Məhəmməd xan Qubaya göndərildi. Lakin Bakıda hakimiyyəti ələ alan Məhəmmədqulu xan Əhməd xana xərac verməkdən imtina etdi. Əhməd xan peşiman olub yenidən II Mirzə Məhəmməd xanı hakimiyyətə gətirmək istədisə buna nail olmadı (Бакиханов, 170). Manaf xanın qətlinə görə sərkərlərdən inciyən şəkili Məhəmməd Həsən xan Əhməd xanla barışdı və Şamaxını qaytarmaqda ona kömək edəcəyini vəd etdi. Əhməd xan və Məhəmməd Həsən xan Ağsuya yaxınlaşıb şəhəri mühasirəyə aldılar, Əsgər xan Məhəmməd Həsən xanın qoşununda olan muzdlu dağıstanlı döyüşçülərə 5000 tümən göndərib onların şəhər ətrafından getmələrinə nail oldu. Müvəffəqiyyət qazanmağa inamı qalmayan Əhməd xan və Məhəmməd Həsən xan Ağsunun ətrafını tərk etdilər (Бакиханов, 170).

Bundan bir qədər sonra Əhməd xan Qubada vəfat etdi. Onun 13 yaşlı qardaşı, Salyanda naib olan Şeyxəli xan tələsik Qubaya gəlib xan taxtına yiyələndi və öz yerinə yeddi yaşlı qardaşı Həsən ağanı Salyan naibi təyin etdi (Бакиханов, 171).

**Quba xanının Ağa Məhəmməd xan Qacarla münasibətləri.**

Azərbaycan xanlarının heç birinin, ölkəni bərlişdirməyə nail olmadıqları və xanlıqlar arasında ara müharibələri geniş vüsətdə davam etdiyi bir zamanda əslən Azərbaycan türkü olan digər bir şəxs – Qacarlar tayfasından olan Ağa Məhəmməd xan İran ərazisində vahid dövlət yaratmaq üzrə idi. Kərim xan Zəndin ölümündən sonra Şiraza qaçan Ağa Məhəmməd xan Qacar Astrabada gəldi. Burada möhkəmlənib uzun və amansız mübarizədən sonra İsfahanı, Yəzdi, Kermanı, Şirazı özünə tabe edə bildi. Ağa Məhəmməd Gilanda əvvəlcə gilanlı Hidayət xanın, sonra isə öz doğma qardaşı Murtuzaqulu xanın şiddətli müqavimətinə rast gəldi.

Fətəli xan cənubdan artan təhlükəni vaxtında düzgün qiymətləndirərək Hidayət xana əhəmiyyətli yardım göstərirdi.

İrəlidə qeyd olunmuşdu ki, 1782-ci ildə Fətəli xan Hidayət xana Gilanda hakimiyyəti geri qaytarmağa kömək etmişdi (Левиатов, 162). 1786-cı ilin sentyabrında Hidayət xan həlak olduqdan sonra Fətəli xan Ağa Məhəmməd xanın qardaşı və rəqibi Murtuzaqulu xanın hakimiyyətə gəlməsinə çalışırdı və buna nail oldu. Murtuzaqulu xan Fətəli xandan aldığı qoşunla və Fətəli xandan asılı olan lənkəranlıların köməyi ilə 1787-ci ilin dekabrında Gilana sahib oldu (Левиатов, 162). Yeri gəlmişkən qeyd edək ki, Ağa Məhəmməd xanın güclənməsini arzulamayan Rusiya da Murtuzaqulu xana kömək edirdi (Бутков, II his., 314).

1791-ci ilə kimi Ağa Məhəmməd xan Azərbaycanın cənub xanlıqlarını da özündən asılı hala sala bildi. Bundan sonra isə Cənubi Qafqazda möhkəmləmmək qərarına gəldi. Lakin bu işdə o, Rusiyanın ciddi müqavimətinə rast gəldi.

Osmanlı dövləti ilə növbəti müharibəni müvəffəqiyyətlə qurtardıqdan sonra, daha doğrusu 1792-ci ildən Rusiya Azərbaycan xanlıqlarını özünə tabe etmək xəttini qətiyyətlə həyata keçirməyə başlayır. II Yekaterina 1793-cü ilin aprelində Qafqaz xəttinin komandanı general Qudoviçə göndərdiyi sərəncamda Xəzəryanı bölgələri Rusiyanın hakimiyyəti altına almağı, buna mane olmaq istəyən xanları isə hərbi qüvvə ilə cilovlamağı əmr edirdi (Бутков, II his., 287).

Beləliklə, şimaldan və cənubdan iki böyük dövlət – Rusiya və Qacar dövləti xanların müstəqilliyini əllərindən almaq istəyirdi. Rusiya ilə müharibədə böyük itkilərə məruz qalan Osmanlı dövləti Azərbaycanın işlərinə fəal qarışa bilmirdi və yalnız bəzi xanlarla, ilk növbədə qarabağlı İbrahim xanla əlaqə saxlayaraq, onun Ağa Məhəmməd xana qarşı durmaq niyyətini müdafiə edirdi (Левиатов, 163).

Belə bir şəraitdə artıq 1793-cü ildə Şeyxəli xan, öz səfiri Mirzə Həsəni Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. Qudoviçin yanına göndərdi və elçi öz xanı adından Rusiyaya sədaqət andı içdi. Bu barədə Qudoviçin raportu

1793-cü il avqustun 11-də oxundu (АГС, с. 1, his. 2, 743-796).

Lakin Qudoviç Dərbəndə bir zabit göndərib Şeyxəli xanın özünün təbəəlik şərtlərini imzalamasını xahiş etdikdə, xan bundan imtina etdi. O, yalnız Ağa Məhəmməd xan Qacarın sərkərdəsi Süleyman xanın qoşunla yaxınlaşmasından qorxub Rusiya imperiyasının himayəsini istədiyini bildirmiş, indi təhlükə sovuşduğundan fikrindən daşınmışdı (Дубровин, История, ъ. 3, 12-13). Qacarın hücumu ərəfəsində Şimali Azərbaycanda çox mürəkkəb siyasi vəziyyət mövcud idi.

Şimali Azərbaycan xanlarını Ağa Məhəmməd xan Qacara münasibətlərinə görə üç qrupa bölmək olar: birinci qrupa onun tərəfini saxlayanlar - gəncəli Cavad xan, Şeyxəli xan şəkili Məhəmməd Həsən xan, ikinci qrupa Ağa Məhəmmədə düşmən münasibət bəsləyən Qarabağ, İrəvan, Şamaxı və Lənkəran (Talış) xanları daxil idi. Bakılı və Naxçıvan xanları isə tərəddüd edirdilər.

Şimali Azərbaycan xanlarının bu cür qruplaşması təsadüfi olmayıb, xanların siyasi məqsədini əks edirdi. Cavad xan Kartli-Kaxetiya çarı II İraklinin və qarabağlı İbrahim xanın ittifaqından ehtiyat edirdi. Bu ittifaq Gəncə xanlığını təhdid edirdi. İbrahim xanla II İrakli arasında Gəncəni bölüşdürmək barədə razılıq mövcud idi (Левиатов, 165).

Rusiyanın təzyiqini hiss edən qubalı Şeyxəli xan Ağa Məhəmməd xan Qacara həm də ona görə meyl edirdi ki, itaət edəcəyi təqdirdə Ağa Məhəmməd xan bütün Şirvanın idarəsini ona verməyi vəd edirdi (Левиатов, 166).

**Rusiya ilə münasibətlər.**

Türkiyə ilə 1787-1791-ci illər müharibəsi başa çatdıqdan sonra Rusiyanın əl-qolu açıldı. Qafqazdakı siyasi xətt konkretləşdirildi. Qafqazdakı rus qoşunlarının baş komandanı Qudoviçin adına verilən imperatriçənin 1792-ci il 8 may tarixli buyruğunda Rusiyaya xeyirxahlıqla yanaşan bütün xanların onun ali hakimiyyətinə qəbul olunacaqları barədə onların

arxayın edilməsinə göstəriş verilirdi. 1793-cü il aprel buyruğunda isə açıq-aşkar bildirilirdi ki, Xəzər dənizindəki rus eskadrasına düşmənlərlə düşməncəsinə rəftar etmək icazəsi verilir (Левиатов, 162, 166).

Rus hökuməti Azərbaycanda mövqeyini möhkəmlətmək üçün xanlar arasında olan ixtilaflardan məharətlə istifadə edirdi. Məlumdur ki, Bakı hakimi Məhəmmədqulu xan vəfat etdikdən sonra qubalı Şeyxəli xan məqamdan istifadə edib öz adamı Mirzə Məhəmmədi Bakı taxtına çıxarmışdı. Lakin Bakı sakinləri bundan narazı qalmış və Mirzə Məhəmmədi qovaraq Hüseynqulu xanı taxta çıxarmışdılar (АВПРИ, f. 77, siy. 1, 1792-ci il, iş 1, v. 18-19). Həmin andan etibarən bakılı Hüseynqulu xanla Şeyxəli xan arasında kəskin ədavət gedirdi. Şeyxəli xan Bakı xanlığının onun tabeçiliyində olmasını tələb edirdi. Vəziyyəti öyrənib ondan Rusiyanın xeyrinə istifadə etmək üçün II Yekaterina 1791-ci ildə Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. Qudoviçə Quba və Bakı hakimlərindən Bakı xanlığına sahib olmaq hüququna dair dəlillərini öyrənməyi əmr etmişdi ki, «ədalətli qərar» qəbul oluna bilsin, yaxud iki tərəf barışdırılsın (АВПРИ, f. 77, siy. 1, 1792-ci il, iş 1, v. 15 a.ü.).

Bir neçə il sonra isə Hüseynqulu xanın Rusiya təbəəliyini qəbul etmək istəməsini görən gen. Qudoviç Şeyxəli xanın yanına bir zabit göndərərək ona Rusiyaya sədaqət andının mətninə Bakı və ətraflarını da salmağa icazə vermişdi (АВПРИ, f. 77, siy. 1, 1792-ci il, iş 1, v. 25). Görünür elə bu səbəbdən Hüseynqulu xan 1795-ci ilin feralında öz nümayəndəsini Qudoviçin yanına göndərib ayrıca təbəəlik andı içməyə razılıq verməyə vadar olmuşdu (АВПРИ, f. 77, siy. 1, 1792-ci il, iş 1, v. 6; Дубровин, История, III c., 14).

Ağa Məhəmməd xan Qacarın niyyətindən xəbərdar olan rus sarayı Şimali Azərbaycana hərbi müdaxilə yolu ilə onu önləməyə çalışırdı. Qudoviç 1795-ci ilin may ayındakı məlumatında saraya bildirdi ki, Ağa Məhəmməd xan bir tərəfdən İrəvan şəhərinə həmlə etməyə hazırlaşır, digər tərəfdən

keçmişlərdə şahların tacqoyma mərasimi keçirdikləri Kür çayı boyunda yerləşən Muğana tələsir. Buradan o, Şamaxı, Şəki, Şuşa və Talış hakimlərini özünə tabe etmək üçün yürüş edəcək, sonra isə Qarabağdan Gürcüstana qoşun çəkəcəkdir (Дубровин. История, III c., 16).

General Qudoviçin məlumatını nəzərdən keçirən Dövlət Şurası ona aşağıdakıları tövsiyyə etdi:

1. Əlahəzrət imperatriçəyə ümid bəsləyən və Rusiyanın tərəfdarı olan yerli hakimlərin yekdil olmasına çalışmalı;
2. Bu məqsədə nail olmaq üçün ilk növbədə heç olmasa qüclü Talış xanının əbədi olaraq əlahəzrət imperatriçənin təbəəliyinə keçmək arzusuna əməl etməli.

Rus hökuməti Qacar sarayına ünvanlanmış bəyanatında bildirilirdi ki, Xəzər dənizi boyunda yerləşən vilayətlər, həmçinin Gürcüstan onun himayəsi altındadır və adları çəkilən yerlərə təcavüz Rusiyaya qarşı yönəlmiş hərəkət kimi qiymətləndiriləcəkdir. P.Q. Butkov bu məsələ ilə bağlı yazır ki, Rusiya sarayı Ağa Məhəmməd xana işarə vermək istəyirdi ki, əgər o, şah kimi tanınmasını istəyirsə, birincisi, Xəzər dənizi sahilində yerləşən və rus tacının hakimiyyətində olan hakimlərə – Kartli çarına, Şamxala, Usmiyə, Dərbənd, Bakı, Talış, həmçinin Şuşa və digər yerlərin xanlarına qarşı düşmənçilik hərəkətlərindən əl çəkməlidir (Бутков, II his., 331).

### Ağa Məhəmməd xan Qacarın Şimal Azərbaycana yürüşü və Quba xanlığı.

1795-ci ilin yayında Ağa Məhəmməd xanın 80-85 minlik qoşunu Ərdəbili tutub ora toplandı. Mirzə Camal yazır ki, Ağa Məhəmməd xan Tiflis, İrəvan, Qarabağ və Talış vilayətlərini qəsb etmək üçün böyük ordu ilə Azərbaycana tərəf hərəkət etdi. Əvvəlcə sərkərdələrinin ən görkəmlisi olan Əliqulu xan Şahsevəni başqa xanlarla birlikdə İrəvan qalasının üstünə göndərdi. Özü isə bütün İraq, Fars, Azərbaycan və Xorasan qoşunları ilə Şuşa qalasına yönəldi (Mirzə Camal (1959), 26).

İbrahim xan Ağa Məhəmməd xanın yürüşünə mane olmaq üçün Araz çayı üzərindəki Xudafərin körpüsünü partlatmağı əmr etdi. Lakin İran qoşunları üzən körpülər hazırlayıb çayı keçdilər. İrəvan xanını tabe edən ikinci dəstə də, Dağıstana hücum etməli olan birinci dəstə də əsas qüvvələrə qoşuldu (Azərb. tar. (1996), 547).

1795-ci il iyunun axırlarında Şuşa mühasirəyə alndı. İbrahim xan qalanın müdafiəsinə ciddi hazırlaşmışdı. Düşmənin həmləsi boşa çıxdı. Qaladakılar müdafiə olunmaqla kifayətlənmir, özləri də əks hücuma keçirdilər. Şuşanın mühasirəsi getdikcə uzanırdı. Bu bir tərəfdən Qacar döyüşçülərinin döyüş ruhunu aşağı salır, itkiləri, fərariliyi artırır, digər tərəfdən Gürcüstana hücumu təxirə salır, onun müdafiəyə hazırlaşması, Rusiyadan kömək alması üçün vaxt verirdi. Bunu nəzərə alan Ağa Məhəmməd xan 33 günlük mühasirədən sonra, 1795-ci il avqustun əvvəllərində Gürcüstana yola düşdü (Azərb. tar. (1996), 547-548).

Bəzi tarixçilər güman edirlər ki, Ağa Məhəmməd xanın Gürcüstana yürüşünə səbəb İraklinin itaət göstərməməsi ilə yanaşı Ağa Məhəmməd xan Şuşanı mühasirə etdiyi zaman gürcülərin Gəncəyə qarşı təşkil etdikləri cəza yürüşü olmuşdu. Sentyabrın 12-də Ağa Məhəmməd xanın qoşunları Tiflisi tutdu. Şəhər dağıdıldı, 10 min nəfərə qədər adam əsir aparıldı (Маркова, 288).

Tiflis yürüşünü uğurla başa çatdıran Ağa Məhəmməd xan qoşunlarını 1795-ci ilin sonlarında Muğanda cəmlədi. Şəkili Məhəmməd Həsən xan qoşunlarını Ağa Məhəmməd xanın köməyinə göndərdi. Qacar qoşunlarının bir dəstəsi Şəki xanlığının qoşunu ilə birlikdə Şamaxı xanlığı üzərinə yeridi. Şamaxılı Mustafa xan Fit dağa çəkildi və 1796-cı ilin fevralınadək orada qaldı. Birləşmiş qüvvələr Yeni Şamaxıya daxil olub, onu dağıtdılar. Məhəmməd Həsən xan Mustafa xanı mühasirəyə alarkən qardaşı Səlimin özünü Şəkidə xan elan etməsi xəbərini eşidib, təcili geri qayıtdı. Ağa Məhəmməd xan sərkərdəsi Dəvəli Mustafa xanı Şamaxıya hakim təyin etdi. Lakin

Dəvəli Mustafa xanın zülmünə tab gətirməyən əhali onu qətlə yetirdi (Azərb. tar. (1996), 549-550).

Məhəmməd Həsən xan yenidən Ağa Məhəmməd xanın yanına dönərkən Səlim xan Avarlı Ümmə xanın və Qarabağlı İbrahimxanın köməyindən istifadə edərək, 1795-ci ilin dekabrında özünü Şəki xanı elan etdi və Ağa Məhəmmədin təqibindən yaxa qurtarmaq üçün «Gələsən Görəsən» qalasına çəkildi (Azərb. tar. (1996), 550).

**Rus qoşunlarının Azərbaycana yürüşünün başlanması.**

Tiflisin alınıb yandırılması ilə Gürcüstanı rəsmi olaraq himayə altına alan, lakin, onu müdafiə etməyən Rusiyanın nüfuzuna ağır zərbə vurdu. II Yekaterina sarsılmış nüfuzunu bərpa etmək məqsədilə general Qudoviçə 1795-ci il 16 noyabr fərmanı ilə müvafiq göstərişlər verdi. Yalnız Gürcüstanı deyil, həm də Şirvanı və eləcə də Bakını «müdafiə» etmək əmr olunurdu. Xüsusilə də Ağa Məhəmmədi Xəzər dənizi sahillərinə buraxmamaq, onun qoşunlarının Dağıstana hücumunun qarşısını almaq tələb edilirdi (Левиатов, 175).

Fərmanda deyilirdi: «hərgah o, (Ağa Məhəmməd – T.M) Şirvana daxil olub Şamaxı və Bakını tutaraq və bununla Xəzər dənizinə və bizim hüdudlarımıza yaxınlaşsa, zəruri hazırlıqları və bütün lazımi tədbirləri görmək yolu ilə onun Dağıstana mümkün hərəkətinin qarşısı alınmalı və Dərbəndin bizim qoşunlar tərəfindən tutulması yolu ilə təbəələrimiz Tarki şamxalı, Qaraqaytaq usmisi və Dərbənd xanının təhlükəsizliyi təmin edilməli və onlar himayəsiz qoyulmamalıdır. Sonrakı yürüşdə isə Ağa Məhəmməd xanın qoşununu məğlub və təqib etməyə çalışmalı, əgər axıradək mənafelərimizə və iradəmizə müqavimət göstərməyə cəhd edərsə onu hakimiyyətdən kənar etməli» (Дубровин, III his., 60-61).

Azərbaycanı zəbt etməyi planlaşdıran rus hökuməti onu parçalamaq niyyətində idi. Dağıstanı və Azərbaycanın Şirvan bölgəsi də daxil olmaqla Araz çayına qədər bütün Xəzər-

yanı ərazisini Rusiyanın nəzarəti altına almaq məqsədi qoyulmuşdu. Bu ərazilərin bir hissəsi isə birbaşa Rusiya idarəçiliyinə keçməli idi (Бутков, II his., 367).

Azərbaycana yürüşə hazırlaşan Rusiya hökuməti hələ burada olan və ciddi hərbi potensiala malik Ağa Məhəmməd xan Qacarla vaxtından əvvəl münaqişədən yayınmaq üçün onda şübhə yaratmamağa çalışırdı. Qoşunlar təyinat yerinə az-az miqdarda göndərilirdi. Həm də Polşanın üçüncü bölüşdürülməsi ilə məşğul olan Rusiyanın Cənubi Qafqaza birdən-birə iri hərbi kontinget göndərməyə imkanı da yox idi.

1795-ci ilin dekabrında gen. Savelyevin komandası altında 3 piyada batalyonu, bir kazak eskadronu, 250 kazak, 500 kalmik, 6 səhra topundan ibarət hərbi qüvvə Qızlardan Dərbənd İstiqamətində yola düşdü (Butkov, II his., 350). Yalnız bundan sonra II Yekaterinanın gen. İ.Qudoviçə 1796-cı ilin yazında başlanacaq yürüşə hazırlaşmaq barədə buyruğu gəldi. Ancaq yürüşə komandan İ.Qudoviç yox, II Yekaterinanın məşhur sevimlilərindən biri olan Platon Zubovun yaxın qohumu 24 yaşlı təcrübəsiz gənc general-poruçik V.A.Zubov təyin olundu. İ.V.Qudoviç isə Qafqaz xəttində qalıb yürüşə gedən qoşunları ərzaq və hərbi sursatla təmin etməli idi.

Yürüşdə iştirak etməli olan rus qoşunları Qızlar ətrafında toplanmalı idi. General-poruçik V.A. Zubovun başçılıq etdiyi ordu 30 min nəfər əsgər və 100-ə qədər topa malik olmalı idi. Qoşunun bir hissəsi ordunun əsas qüvvələri artıq Azərbaycanda olduğu zaman, yəni 1796-cı ilin yayında və payızında gəldi (Azərb. tar. (1996), 547-551).

V. Zubovun qoşunları tərkibində əslən Cənubi Qafqazdan olan xristianlar da var idi. Onlardan biri, Rusiyadakı erməni kilsəsinin arxiyepiskopu İosif Arqutinski Azərbaycanda yaşayan bir ovuc xristianı, xüsusilə Qarabağ məliklərini Rusiyanın tərkibinə çəkmək üçün onlara məktub yazaraq, burada xristian dövləti yaratmağın zəruriliyindən söz açırdı. Bir qədər sonra, rus qoşunları Dərbəndi zəbt etdikdən sonra İosif Arqutinski buradakı xristianları müsəlmanlara qarşı qaldırmağa,

müsəlmanları ermənilərin qarşısında alçaltmağa başladı. İosif Eçmiədzin patriarxı ilə əlaqəyə girib Qarabağda və Cənubi Qafqazın digər yerlərində yaşayan xristianlara birgə məktublar yazdı. Məktublarda deyilirdi ki, rus qoşunları ermənilərin müstəqil dövlətini yaratmaq, «Böyük Ermənistan» xülyasının gerçəkləşdirilməsinə kömək etmək üçün gəlmişlər (Дубровин, История, III c., 147-148).

Qeyd etmək lazımdır ki, Ağa Məhəmməd xanın dağıdıcı yürüşündən sonra bir çox Azərbaycan xanları öz hakimiyyətlərini qoruyub saxlamaq naminə müəyyən dərəcədə Rusiyaya yaxınlaşmağa meyl göstərməyə başlamışdılar. Rus hakimiyyət orqanları xanların münasibətindəki bu dəyişikliklərdən yürüşü asanlaşdırmaq üçün istifadə etməyə çalışırdılar. Hələ 1795-ci ilin oktyabrında gen. Qudoviç Şeyxəli xana məktub göndərərək Rusiya himayəsini xahiş etmiş Dağıstan hakimləri ilə əlaqəyə girməsini tapşırmışdı. Ancaq Şeyxəli xan rus qoşunlarının yardımından imtina etmiş, bununla belə Ağa Məhəmməd xana qarşı mübarizəyə hazırlaşmaq üçün çoxlu pul istəmişdi (Бутков, II his., 350-351). Azərbaycan hakimləri, o cümlədən Şeyxəli xan Ağa Məhəmməd xana qarşı Rusiya yardımından istifadə etməyə meyl göstərsələr də, Rusiyadan da asılılığa düşmək istəmirdilər. Təsadüfi deyil ki, 1796-cı ilin fevralında gen. Savelyev rus hərbi dəstələri ilə birlikdə usminin mülklərinə daxil olduğu zaman Şeyxəli xan tələsik Qubadan Dərbəndə gəldi və xanın Dağıstan hakimləri ilə birlikdə Qacar təhlükəsinə qarşı birgə hazırlıq tədbirlərini müzakirə etmək üçün gələn rus mayoru Axverdovu qəbul etməkdən nəinki imtina etdi, hətta onunla çox həqarətlə rəftar edərək, bir müddət saxladılar və sonra buraxdılar (Дубровин, История, III his., 98). Bu vaxta kimi Şeyxəli xanla düşmənçilik edən bakılı Hüseynqulu xan indi onun tərəfinə keçdi və Dərbəndin müdafiəsi üçün topçularla birlikdə 2 top göndərdi (Бутков, II his., 350-351). Şeyxəli xanın belə rəftarı Savelyevin qəzəbinə səbəb oldu. 27 mart 1796-cı il tarixli raportunda general yazırdı ki, yürüşlə bağlı hazırlıq qurtaran kimi Şeyxəli

xanı cəzalandırmaq üçün Dərbəndə gedəcək (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 4).

**Dərbəndin rus qoşunlarına müqaviməti.**

General-mayor Savelyev Dərbəndə yaxınlaşaraq bir nəfəri Şeyxəli xanın yanına göndərib Ağa Məhəmməd xana qarşı müdafiə ittifaqı bağlamaq üçün səlahiyyətli nümayəndəsinin göndərilməsini tələb etdi. Şeyxəli xan bu tələbi yerinə yetirməkdən imtina edərək bildirdi ki, rus qoşunlarının Quba xanlığına buraxılması haqqında imperatriçənin fərmanını görmür. O, bildirdi ki, doğrudur, əvvəllər ruslardan Ağa Məhəmməd xana qarşı qoşun toplamaq üçün pul göndərilməsini xahiş etmişdir. Lakin bunu İran hökumətinin qüdrətini bilmədiyindən etmişdir. İndi o, bu cür kiçik bir rus hərbi dəstəsini Dərbəndə buraxmaq istəmir, çünki nəinki iranlıların onun mülklərini talan edəcəklərindən, eləcə də rus dəstəsinin zərər çəkəcəyindən ehtiyat edir, böyük rus hərbi dəstəsi gələrsə çoxlu qan tökülər. Şeyxəli xan bunu da bildirdi ki, rus əsgərlərini şəhərə buraxmaq dini əqidəyə uyğun gəlmir, çünki islam qeyri dindən olanın müsəlmanın evində gecələməsinə yol vermir. Müsəlman qadınları kafirlərlə görüşməməlidirlər (Дубровин, История, III c., 98; История Кабардинского, 216).

General bildirdi ki, Dərbəndin darvazaları açılmazsa şəhər top atəşinə tutulacaq. Xan nəinki rədd cavabı verdi, hətta Savelyevin dəstəsi Dərbəndə yaxınlaşdıqda ona qarşı süvari dəstəsi göndərdi. Savelyev şəhərdən aralandı və ondan 2 verst məsafədə düşərgə saldı. Sonrakı gün o Dərbəndə hakim olan yüksəkliyi tutub orada top batareyası qurdu. Bu batareyadan atəş açıldıqdan sonra Şeyxəli xan nümayəndə göndərib şəhərə atəş açılmamasını xahiş etdi, bildirdi ki, əgər ruslar ona əmanət versələr onları şəhərə buraxa bilər. Savelyev Şeyxəli xanla danışıqlar apara-apara ikinci batereyanı da qurdu. Mühasirədəkilər müdafiə olunurdular, bağların xəndəklərində sığınaraq atışma aparırdılar. Lakin polkovnik Mənsurovun başçılığı ilə

göndərilən batalyon onları sıxışdırdı (Дубровин, История, III c., 98; История Кабардинского, 216).

Gen. Savelyev 18 aprel 1796-cı il tarixli raportunda yazırdı ki, 4180 nəfərdən ibarət dəstə ilə Dərbəndin qala divarlarına çatmışdır və kəskin müqavimətə rast gəlmişdir. Savelyev Şeyxəli xanın əleyhdarlarını öz tərəfinə çəkməyə cəhd göstərdi və onun rəqibi şamaxılı Mustafa xana məktub göndərdi ki, sonuncu öz qüvvələri ilə Dərbənd ilə Bakı arasında əlaqəni kəssin (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 5-6).

Qeyd edək ki, Şamaxılı Mustafa xan ümumi düşmənə qarşı mübarizədə qubalılara yardım göstərmək əvəzinə hətta Şeyxəli xanı ona yardım etmək istəyən Bakı xanlığı ilə təcrid etmişdi (История Кабардинского, 221).

Yürüşdə iştirak edən qoşunlar üç korpusdan ibarət idi: Baş korpus, Qafqaz korpusu və general-mayor Bulqakovun korpusu (Левиатов, 177).

Qoşun toplamağa çox vaxt itirmək istəməyən V. Zubov 12 min nəfərlik, 21 topa malik ordu ilə Dərbəndə doğru irəlilədi. Dərbəndin yaxınlığında general-mayor Savelyevin əvvəlcədən bura yeridilmiş dəstəsi Zubovun qoşunlarına qoşuldu (Маркова, 291).

1796-cı ilin mayın 1/12/-də qr. Zubov gen. Bulqakovun 30 aprel/11 may tarixli raportunu aldı. Bulqakov bildirirdi ki, öz dəstəsi ilə 20 verst irəliləyərək Darbaq kəndindən bir qədər aralı Meydan bulaq adlı kiçik çayın yanında dayanmışdır (АВПРИ, f. 77, siy. 7, iş 158 (1796), v. 42).

Rusların əsas qüvvələrinin Dərbəndə yaxınlaşdığını bilən Şeyxəli xan Avarlı Ümmə xana öz bacısını ərə verməyi təklif edərək, kömək göndərməsini xahiş etdi və Türkiyəyə də elçi göndərdi. O qalanın müdafiəsini gücləndirdi. Artıq qapıları hördürdü. Savelyevin batereya qurduğu yerdə daş bürc inşa etdirdi (Дубровин, История, III c., 103-105).

Zubov şəhərə yaxınlaşan kimi nümayəndəsini Şeyxəli xana və sakinlərə ünvanlanmış bəyannamə ilə göndərdi. Lakin xanı və şəhərliləri təslim olmağa çağıran bu bəyannamənin

heç bir təsiri olmadı. Şəhərə dörd verst qalmış rusların kazak dəstələri dağlarda və yarğanlarda mövqe tutmuş döyüşçülərin atəşi ilə qarşılaşdılar. Atışma 3 saatdan artıq davam etdi. Özünü yetirən Qreben və Volqa kazakları, həmçinin Qafqaz yeger korpusunun üçüncü batalyonu dərbəndliləri şəhərə çəkilməyə məcbur etdi. Rus qoşunları qalaya yaxınlaşıb ətrafdakı yüksəkliklərdə yerləşdilər (Дубровин, История, III c., 105-106).

Dərbəndə yaxınlaşan V. Zubov gördü ki, şimal tərəfdən 60 sajen uzunluqda qabağa çıxmış bürc nəinki qala divarlarını qoruyur, həm də rus əsgərlərinin yerdəyişməsini təhlükə altına alır. Buna görə də həmin bürcü güclü artileriya atəşinə tutmağı əmr etdi. Lakin mərmilər bürcə qəti təsir göstərmir, geri sıçrayırdılar. Onda Zubov bu bürcdə yüzdən artıq döyüşçü olmayacağını ehtimal edərək onu həmlə ilə tutmağı əmr etdi (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 9).

Gecə Voronej piyada alayının bir batalyonu və iki rotası bürcü almağa təşəbbüs göstərdi. Lakin 25 nəfər döyüşçü itirdi, 31 nəfər ağır yaralandı, demək olar ki, bütün zabitlər yaralanmışdılar. Eyni zamanda 41 rus döyüşçüsü daş zərbəsindən ağır yaralanmışdı (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 45).

V. Zubov kapitan Simonoviçi dağlardan Dərbəndin arxasına aparan yolu öyrənmək üçün göndərdi. Daha sonra Bulqakovun başçılığı ilə 6 min nəfərlik bir dəstəni bu yolla göndərdi. Bu dəstə sərt və yarğanlı dağ yolu ilə hərəkət edib şəhərin cənub ətrafına çıxmalı idi. Beləliklə, Zubov Dərbəndi tamamilə mühasirəyə almalı idi.

Mayın 4-də Bulqakovun dəstəsi Tabasaran kadisi Rüstəmin bələdçiliyi ilə onun mülklərindən Dərbəndin cənub tərəfinə çıxdı (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 11). Mayın 1-də Zubov Dərbəndə hücum təşkil etdi. Şəhərdən bir mil aralıda Quba və Dərbənd süvariləri kazakları qarşıladılar, lakin qubalılar müvəffəqiyyətsizliyə uğradılar.

Həmin ərəfədə Bulqakovun əsgərləri 15 dərbəndlini əsir götürmüşlər. Dərbəndlilər dindirilən zaman bildirdilər ki, onları Şeyxəli xan məktublarla yardım xahişilə Bakıya və di-

gər yerlərə yola salıbmış. Dərbəndlilərin söylədiyinə görə şəhərdə cəmi 2500 əsgər var idi. Hər evdən bir, iki, bəzən üç nəfər hərbi xidmətə çıxır. Bütün sakinlər silahlıdırlar. Ümumiyyətlə hesab edirdilər ki, Dərbənddə silahlıların ümumi sayı 10 min nəfərə çatır. Bunlardan 400-ü qazıqumuq süvarisi, 1200-1300 nəfəri qubalı, 90-ı qaraqaytaqlı, 800-ü akuşalı, 900 nəfəri dağlı xarbuxlar (piyada və süvari) idi (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 53 a.ü.; Дубровин, Поход гр., 26).

V. Zubovun verdiyi məlumata görə dərbəndlilər Ağa Məhəmməd xanın yardımına ümid edirdilər. Gecə şəhərin demək olar ki, bütün ağlı kəsən, əli silah tutan sakinləri qala hasarlarının üstünə və bürclərə çıxırlar, 10 böyük, 10 da orta həcmli bürc vardı. Hər bürcdə 50-yə qədər döyüşçü yerləşirdi. Qalan, kiçik bürclərin hər birini 15-20 nəfər qoruyurdu. Qalada cəmi 80 bürc vardı (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 54).

Qaladan dənizə tərəf hərəsi 1000 döyüşçüdən ibarət iki dəstə mövqe tuturdu. Qala divarları özüldən yarıya qədər çox qalınlaşırdı. Şəhərdə cəmi 4 su quyusu var idi, şəhər ərazisindən bu qədər də bulaq axırdı (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 54 a.ü.).

Mübarizənin dördüncü günü Şeyxəli xanın şəhər qarşısında dağda inşa etdirdiyi böyük bürc ruslar tərəfindən alındı.

Rus qoşunları bir neçə gün ərzində qalanı top atəşinə tutdular, divar dağıdan batareyalar divarlara atəş açıb yarıq əmələ gətirirdilər (Левиатов, 178). Mayın 10-da qərb qülləsində yarıq əmələ gəldikdən sonra ruslar həmin yarıqdan qalanın içərisini atəşə tutmağa başladılar (AVPRİ, f. 77, siy. 7, iş 158, v. 54). Həmin gün şəhər əhalisinin bir hissəsi əhalini qırğından xilas etmək, şəhəri tamamilə dağılmaqdan qurtarmaq üçün Şeyxəli xandan şəhərin təslim olunmasını tələb etdi. Şeyxəli xan öz məiyyəti ilə qaladan çıxıb təslim olduğunu bildirmək üçün Hacı bəy Qorçunun oğlu Xızır bəyi nümayəndə kimi rusların hərbi düşərgəsinə göndərildi. (Бакиханов, 176).

Dərbəndin ruslar tərəfindən ələ keçirilməsində şəhərin müdafiəsində yaranmış bəzi çətinliklərlə bərabər o zaman şə-

hərdə yaşayan bir neçə qeyri-müsəlmanın satqınlığı da böyük rol oynamışdı. V Zubovun ordusunda olan A. Araratski adlı bir erməni Dərbəndin alınması barədə yazırdı: «Qraf. V.A. Zubov ordu ilə birgə Dərbəndə gəlməzdən əvvəl kazak generalı Savelyev kiçik bir korpusla artıq orada idi. Tezliklə böyük ordunun gəldiyinin şahidi olan Dərbəndin yüz evdən ibarət varlı erməniləri Rusiyanın bəyannamələrinin bihudə qalmayacağını, tez və ya gec şəhərin işğal olunacağını görüb özlərini təhlükədən qorumaq məqsədi ilə dərhal gizli məşvərət keçirdilər və qərara aldılar ki, rus ordusuna şəhəri qan tökmədən almağa kömək etsinlər. Bunun üçün onlar bir ermənini gecə iplə qaladan aşağı endirdilər ki, o, ruslara qalaya atəş açmaq üçün əlverişli olan nöqtələri, qalanı su ilə təmin edən bulağın yerini göstərsin, çünki bulağın yönünü dəyişdikdə camaat bir gün də susuz qala bilməz, həmin erməni sağ-salamat gəlib rusların düşərgəsinə çatdı və qrafa təqdim olunduqdan sonra tərcüməçi vasitəsilə öz gəlişinin məqsədini izah etdi (Azərb. tar. (1996), 551). Araratskinin yazdığına görə bu erməninin göstərdiyi nöqtələr güclü artilleriya atəşinə tutulmuş, şəhəri su ilə təmin edən bulağın yönü dəyişdirilmişdi.

**Dərbənd qalasının süqutu. Şeyxəli xanın hakimiyyətdən kənarlaşdırılması.**

Mayın 10-da gündüz saat 3-də şəhərin qapıları düşmənin üzünə açıldı və qala qapısının açarı general Savelyevə təqdim olundu. Şeyxəli xan məiyyəti ilə birlikdə Zubovun hüzuruna gətirildi. Qraf imperatriçə adından onun bağışlanacağını vəd etdi. Sonralar Şeyxəli xan xanlıqdan devrildi və Fətəli xanın qızı Pəricahan xanım Dərbəndə hakim, şəhərin I Pyotr dövründə işğalı zamanı onun idarəçiliyində iştirak edənlərdən birinin oğlu isə naib təyin edildi (Левиатов, 179-180).

Mayın 11-də gen. Savelyev Zubova məlumat verdi ki, Dərbənd alınarkən qalada 15 xırda və iri top aşkar edilmişdir. Narınqala qəsrində bir barıt zavodu vardı. Şəhərdə böyük binalardan 2 xan sarayı və hərəmxananı göstərmək olardı. Dirək

üzərində inşa olunmuş bir məscid də var idi. Sakinlərin söylədiyi rəvayətə görə bu məscidin binası guya Makedoniyalı İsgəndərin dövründə tikilibmiş (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 67). Şəhərdə bir qriqoryan kilsəsi, 1 zərbxana, 11 məscid, 6 karvansara və mehmanxana, 2096 müsəlman evi, 93 qriqoryan xristian evi, 30 parça fabriki, 50 sənətkar dükanı vardı, 6 gürcü kişi və bir gürcü qadın yaşayırdı. Savelyevin verdiyi məlumata görə yardımçı qüvvələrlə birlikdə 11 min nəfər əsir alınmışdı (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 57-57 a.ü.).

Mayın 13-də V. Zubov təntənə ilə Dərbəndə daxil oldu. Mayın 15-də V. Zubov Dərbənd qalasının açarlarını Yekaterinaya göndərdi. V. Zubov imperatriçəyə Şeyxəli xanı həbs etdirdiyini yazaraq, sonuncu ilə necə rəftar etmək barədə göstəriş istəyirdi (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 57 a.ü.).

V. Zubov 1796-cı ilin mayın 15-də Dərbənddən knyaz P. Zubova yazırdı ki, II Yekaterinanın buyruğunda yazılmışdır ki, gənc və dəyişkən xasiyyətli Şeyxəli xan Rusiyaya xidmətə vadar edilməlidir. Əgər görünsə ki, ətrafındakılar onun Rusiyadan üz çevirməsinə çalışırlar, belələrini uzaqlaşdırıb Həştərxana sürgün etməli, xanı ruslara rəğbət bəsləyənlərlə əhatə etməlidir (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 14).

V. Zubov yazırdı ki, Dərbənd qüvvəsi tükənənə qədər müqavimət göstərmiş və rus əsgərlərinin həyatları qurban getmişdir. Qubalı Şeyxəli xan əvvəllər Rusiyaya sədaqət andı içsə də sonra onun qoşunlarına qarşı silah qaldırmışdır. Xan qiyamçıdır, xanlıq əhalisi açıq ruslara düşməndir. Buna görə də qalibin humanistliyi hissindən başqa heç bir aman və hörmətə layiq deyil. Dərbəndlilər top atəşləri hesabına çoxlu və amansız döyüşlərdən sonra silahı yerə qoymağa məcbur edildiklərinə görə qarnizon hərbi əsir sayılır. Dərbəndin sakinləri və torpaqları isə qaliblərin sərəncamına keçir. Lakin V. Zubov hesab edirdi ki, «dərbəndliləri öz sərəncamında saxlamaqdan heç bir fayda, bu şəhərdən kiçicik bir xeyirlə istifadə imkanı yoxdur. Yalnız bu şəhəri itaətdə saxlamaq və arxanın təhlükəsizliyini təmin etmək üçün nə xanla nə də onun yaxınları ilə onları qı-

cıqlandırmaq üçün elə rəftar etmək olmaz, onları sakitləşdirmək lazımdır. Eyni zamanda Dağıstanda və onun əhalisində tamaha meyl görərək, dərbəndlilər üzərində nəzarəti o qədər də zəiflədə bilməz. Onların bundan sonra hər hansı narahatlıq gətirə bilməmələri üçün yalnız aşağıdakı vasitələri var: bu şəhər çox böyük olduğu üçün burada general Qudoviçin məsləhət gördüyü kimi 2 bölük yox, üç tabor saxlamaq, sakinləri isə tərksilah etmək lazımdı».

V. Zubov ehtiyat xatirinə, həm də dərbəndlilərin rəğbətini qazanmaq məqsədilə onların Şeyxəli xanın taleyindən çox narahat olduqlarını görərək, fikirləşdi ki, əvvəllər nəzərdə tutduğu kimi Şeyxəli xanı Həştərxana göndərsə bununla şəhəri təlatümə gətirə bilər. Dağıstan vasitəsilə göndərmək təhlükəlidir, böyük hərbi qüvvəni mühafizə dəstəsi kimi göndərməyin isə mənası yoxdur. V. Zubov həm də hesab edirdi ki, xanı Rusiyaya göndərsə mahal naibləri fürsətdən istifadə edib müstəqilləşərlər. Bu isə ruslar üçün əlverişli deyil. Şeyxəli xanı Dərbənddə qoymaq da təhlükəli idi, çünki hələ onun peşmançılığının həqiqiliyi sınaqdan keçirilməmişdi. Şeyxəli xanı taxtdan salmağı da V. Zubov məqsədəuyğun hesab etmirdi. Buna görə də V. Zubov hesab edirdi ki, Şeyxəli xanın Bakı xanı ilə əlaqələri olduğunu və başqa işlərdə bağlı faydalı ola biləcəyini nəzərə alaraq, onun özünün də sədaqətini sübut etmək üçün bunu istədiyini bildirərək xanı özü ilə götürməsi daha yaxşıdır, bu zaman xanı və əhalini ruslara müqavimətə təhrik edən məmurlar da götürüləcək. Əhalini və xanın ailəsini tamamilə sakitləşdirmək üçün V. Zubov hesab edirdi ki, xanlığın idarəsini xanın böyük bacısına tapşırıb, ruslar üçün nisbətən etibarlı məmurları xüsusən Xıdır bəyi ona köməkçi vermək məqsədəuyğundur, ancaq hamısına rus qarnizonu rəisi nəzarət etməli idi. V. Zubov nəzərdə tuturdu ki, adı xatırlanan Xıdır bəydən və Dərbənddə saxlanan digər məmurlardan əmanətlər alacaq və əmr edəcək ki, qarnizon rəisinin əmrlərini yerinə yetirsinlər (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 17 və a.ü.).

V. Zubov güman edirdi ki, bu yolla sakinlər sakitləşdiriləcək, əsir alınmış xanın özü və bacısı isə rus komandanlığının «humanistliyinə» əmin olacaq və onlarda ümid yaradılacaq ki, imperatriçə onların taleyini rəhmli surətdə həll edəcək, bu yolla onlar «sədaqətli olacaqlar». V. Zubov Dərbəndi rus ordusunun deposuna çevirmək fikrində idi. Zubov əsir götürülmüş muzdla xidmət edən dağıstanlı döyüşçülərini evlərinə buraxıb, silahlarını isə Dərbənddə saxlamaq fikrində idi (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 17 və a.ü.).

Eyni zamanda qatı antirusiya ovqatlı bir neçə Quba əyanı Rusiyaya sürgün olundu. Şeyxəli xanı Rusiyaya qarşı mübarizəyə təhrik etməkdə təqsirli bilinib Həştərxana sürgün edilən məmurlar aşağıdakılar idi: Əhməd bəy, Hacı Tahir, İbrahim bəy, Əlmuxtar, Məmmədseyid, Hacı Allahqulu, İmamqulu, Zülfüqar, Mirzə Əsgər, Zülfüqar, Hacı-Abı – cəmi 11 nəfər (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 17 və a.ü.).

V. Zubov doğrudan da Dərbəndin idarəsini Pəricahan xanıma – Şeyxəli xanın böyük bacısına həvalə edib, Xıdır bəyi də ona köməkçi təyin etdi. Xıdır bəydən və digər məmurlardan girovlar alındı. Həm Pəricahan xanım, həm də Xıdır bəy qaladakı rus qarnizonunun rəisinin nəzarəti altında hərəkət etməli idilər (AVPRİ, f. 77, siy. 7, iş 158, v. 72).

Ruslar Dərbəndin idarəsini Pəricahan xanıma təsadüfi tapşırmamışdılar. Qeyd edək ki, Dərbəndin mühasirəsi zamanı o, bir neçə dəfə öz sədaqətini izhar edərək nümayəndəsini qrafın düşərgəsinə göndərmiş və ona bir neçə vacib məsləhət vermişdi (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 82 a.ü.).

O zaman V. Zubova verilmiş buyruqda deyilirdi: «... bizim himayəmizə meyl edən, müqavimət göstərməyəcək bütün xanlar, şəhərlər və xalqlar, xüsusilə də Ağa Məhəmməd tərəfindən qovulmuş və onun zalimliyindən zərər çəkənlərin səylərinə mükafat olaraq şəhərlərin hakimliyi, mülk sahibliyi təsdiq olunmalı və sonrakı xidmətlərinə görə istədiyiniz kimi müqavimət göstərənlərin hesabına təltif edilməlidirlər. Açıq düşmən olanlar digərlərinə görk olmaq üçün tezliklə hakimiy-

yətdən kənar edilməlidirlər, müqavimət göstərən şəhərlərdən isə onların imkanlarına uyğun və siz necə düzgün hesab edirsinizsə xərac toplaya bilərsiniz» (Бутков, II his., 370).

V. Zubov yazırdı ki, Dərbənd və ətraf kəndlərdən təzminat almaq məsələsinə gəldikdə isə sakinlər çox yoxsuldurlar, zəruri yeməklərdən başqa heç nələri yoxdur, onların malqarası mühasirə zamanı divarlar arasında qapandığından çox üzülmüş vəziyyətdədir, əkin və bağlar düşərgə yerlərinə çevrildiklərindən məhv olmuşlar (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 21 a.ü.).

Çox qəribədir ki, Dərbənddə bu qədər cüzi pravoslav məzhəbli xristian – 6 kişi və 1 qadın gürcü olduğu halda V. Zubov burada pravoslav məzhəbinin sıxışdırıldığını iddia edərək «bu məzlumların hüquqlarını bərpa etməyi öz borcu saydığını» yazırdı (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 18 a.ü.).

V. Zubov 15/26/ may 1796-cı il tarixli relyasiyasında Dərbənddən yazırdı ki, aldığı məlumatlara görə Ağa Məhəmməd xan həmişə qubalılara və bakılılara umid verib ki, rusların təcavüzünə qarşı mübarizədə onlara lazım olduqda kifayət qədər yardım göstərəcək. Bakı və Quba xanları həmişə həmrəy olmuşlar (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 18 a.ü.). Şeyxəli xan dəfələrlə Ağa Məhəmməd xanın yanına öz elçilərini göndərmişdir. Sonuncu dəfə Xıdır bəyi göndərərək öz sədaqətini izhar etmiş və yardım xahiş etmişdir. Qazıqumuqlular və tabasaranlılar həmişə dərbəndlilərin müttəfiqi olmuşlar. Lakin bir çox qaraqaytaqlılar və tarkililər də Dərbənddə xidmət edirdilər (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 24).

Şeyxəli xanın mirzəsi Əsgərin izahatına görə Şeyxəli xan və xanlıq əhalisi Ağa Məhəmməd xan Salyana gəldikdə vahiməyə düşərək rus hökmdarına içdikləri sədaqət andından imtina etmişlər ki, Ağa Məhəmməd xan onların torpaqlarını var-yoxdan çıxartmasın (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 25 a.ü.-26).

V. Zubovun aldığı məlumatlara görə qoşunları yorulmuş və ərzaq qıtlığı hiss edən Ağa Məhəmməd xan aprelin so-

nunda Muğandan Tehrana yola düşmüşdür. Gilan, Mazandaran və Astrabad vilayətlərini möhkəmləndirmək fikrindədir. Sonra Muğana qayıtmaq istəyir, dərbəndliləri və Dağıstan xanlarını ruslara qarşı müqavimətə ruhlandırır (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 57 a.ü.).

Mirzə Əsgərin dediyinə görə Şeyxəli xanın əvvəllər Ağa Məhəmməd xanla heç bir əlaqəsi olmamış və hətta onun ilk əmrini yerinə yetirməmişdir. Yalnız Ağa Məhəmməd xan bir çox yerləri tutub Qarabağa həmlə etdikdən və Şeyxəli xana Qızlara kimi getmək niyyətində olduğu barədə xəbər göndərəndən sonra, Quba xanı ona hədiyyə olaraq 20 dəvə, 15 at, 500 yapınçı, və xeyli ərzaq göndərmişdir (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 26; iş 158, v. 80).

Mirzə Əsgərin söylədiyinə görə Quba xanının osmanlılarla heç bir əlaqəsi olmamışdır, yalnız 8 ay əvvəl Məkkəyə ziyarətə getmiş xanlıq təbəələri vasitəsilə Yusif paşadan rus qoşunlarının basqına hazırlanması barədə xəbərdarlıq almışdır. Sonra təxminən 3 ay əvvəl Şeyxəli xan İstanbula öz elçisini göndərmişdir. Mirzə Əsgərin sözlərindən belə məlum olur ki, əvvəllər Şeyxəli xan öz bibisi oğlu Mirzə Məhəmmədi Bakı xanlığının taxtına çıxartmağa çalışdığından Bakı xanı ilə araları soyuq olmuşdur. Lakin onunla uğursuz müharibədən sonra barışmış və bibisini ona ərə vermişdir. O vaxtdan dost münasibətlərdədirlər, ruslar Dərbəndi mühasirədə saxladıqları zaman Bakı xanı bir qədər barıt və öz topçularını göndərmişdir. Mirzə Əsgərin dediyinə görə Şeyxəli xan Tarki şamxalının qızını almaqdan imtina etdiyi üçün bir çox Dağıstan hakimləri ilə düşmən münasibətdə idi. Şeyxəli xan ancaq Qazıqumuqlu Xambutaydan və akuşalılardan yardım gözləyirdi (AVPRİ, f. 77, siy. 7, iş 160, v. 26 a.ü.).

Xanın möhürdarı Zülfüqar Mirzə Əsgərin söylədiklərini təsdiqləyərək əlavə etmişdir ki, 3-4 ay bundan əvvəl Qubadan Türkiyəyə göndərilmiş Hacı adlı şəxsin yolda öldürüldüyü haqqında xəbər yayılmışdır. Şeyxəli xanın Ağa Məhəmməd xanın yanına göndərdiyi şəxsin adı isə Qədir bəydir. Qədir

bəy geri dönüb demişdir ki, Ağa Məhəmməd xanın yanında 50 min nəfərə qədər döyüşçü var, rus ordusu yaxınlaşanda Quba xanına yardım göndərəcəyinə söz vermişdir (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 26 a.ü.-27; iş 158, v. 81 a.ü.-82).

Şeyxəli xan özü istintaq zamanı etiraf etmişdir ki, aprel ayında Hacı adlı məmurunu İstanbula yola salmaq üçün Ərzuruma göndərmişdir. Nümayəndə Sultana Şeyxəli xanın sədaqətini izhar etməli və yardım xahiş etməli idi. Bu məmura sultana hədiyyə etmək üçün təqribən 30 min manat məbləğində bahalı hədiyyələr və 10 min manat qızıl manat verilmişdi. Bundan sonra Şeyxəli xan Ağa Məhəmməd xana da məktub göndərmiş, ancaq hədiyyələr göndərməmişdir (АВПРИ, f. 77, siy. 7, iş 160, v. 27; iş 158, v. 82).

**Rus işğalçılarına qarşı partizan mübarizəsi.**

Dərbəndi aldıqdan sonra V.Zubovun başçılıq etdiyi ordu birləşməsi Kaspi korpusu iki həftə yerində qalıb öz arxasının təmin edilməsini gözlədi (Дубровин, III c., 118). General-mayor Çuquyevin komandasında gələn birinci Çuquyev alayını və gen.mayor Platovun komandasında gələn Orlovun don alayını öz qüvvələrinə birləşdirən V. Zubov mayın 24-də Bakı istiqamətində hərəkət etdi. Gen. Savelyevi 3 piyada taboru, 200 kazak və 4 səhra topu ilə Dərbənddə saxladı (Дубровин, III c., 124). Gen. Qudoviç öz komandası ilə gəlib Dərbənddə yerləşməli idi. İyunun əvvəlində rus qoşunları Samur çayını keçdilər.

Ruslar cənuba irəliləməklə bərabər Ağa Məhəmməd xanın hərəkətlərini diqqətlə izləyirdilər. Mayın 21 (iyünün birində) Salyanda olan qubalı məmur Həsəndən Şeyxəli xanın adına məktub alınmışdı. Məktubda deyilirdi ki, Lənkərandan Salyana gələn gəmi vasitəsilə xəbər alınmışdır ki, Ağa Məhəmməd xan ordu ilə Ərdəbilə daxil olmuşdur və guya Allahqulu və Sadıq xanları 40 min nəfərlik qoşunla Muğana göndərmişdir. Ağa Məhəmməd xan özü isə 2-3 günə Qarabağa hərəkət edəcəkdir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 109).

İrandakı rus konsulu Skibinevskinin 11/22/ may tarixli məktubunda deyilirdi ki, Ağa Məhəmməd xan öz xəzinəsi ilə Tehrandan Mazandarana – Sara şəhərinə keçmişdir. Ona sui-qəsddə iştirak edən qardaşı Əliqulu xanı və bir çox başqa xanları edam etdirmişdir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 95 a.ü.-96).

V. Zubov iyulun 1/12/-də general Qudoviçə yazırdı ki, imperatriçənin yay kampaniyası üçün qarşısına qoyduğu məqsədə çatmışdır.

O daha sonra yazırdı ki, qoşunu Bakıda yerləşdirə bilməz. Çünki, ətrafda nəinki meşə, otlaq, hətta bitki yoxdur. Buna görə də düşərgə yeri kimi Köhnə Şamaxını seçir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 109).

Qubaya yollanan general V. Zubov şəhərdən yarım mil aralı olan Təpələr adlı bir yerdə üç gün dayandıqdan sonra Şabrana gəldi, oradan da Bakıya tərəf üz tutdu. O, hakimiyyətdən devrilmiş Şeyxəli xanı da özü ilə aparırdı.

Hakimiyyətdən məhrum olan və ya Rusiya işğalı ilə barışmayan bəylər sui-qəsd hazırladılar və dağıstanlıları qəflətən rus qoşununa basqın etmək üçün çağırmaq istədilər (Бакиханов, 176).

Tezliklə Şeyxəli xan rusların nəzarəti altından qaçmağa nail oldu. At çapma yarışı keçirilərkən qəfildən gözdən itdi. A. Bakıxanovun yazdığına görə Pir Xəlil kəndinə yaxın bir yerdə Şeyxəli xan at sürmək bəhanəsi ilə qaçdı və bu hadisədən Quba vilayətində qarmaqarışıqlıq başlandı, əhali şəhəri tərk etdi (Бакиханов, 176).

V. Zubov P. Zubova 7/18/ avqust 1796-cı il tarixdə yazırdı ki, Şeyxəli xan qaçdığı üçün Dərbənddə və Qubada hər cür ehtiyat tədbirləri görülmüşdür. V. Zubov güman edirdi ki, Şeyxəli xanın qaçmasında Pəricahan xanımın və Dərbənd naibi Xıdır bəyin rolu olmuşdur. Yəqin ki, bu yolla onlar xanlıqda hakimiyyətin onlara keçəcəyini güman edirmişlər. V. Zubov hər ehtimala qarşı Şeyxəli xanın anadan ögey qardaşı Həsən

ağanı Dərbəndə gətirtdiyini yazırdı (АВПРИ, f. 77, siy. 7, iş 159, v. 49).

Bir neçə kəndin sakinləri də evlərini tərk edib dağlara qaçdılar. Şeyxəli xan Quba xanlığının bütün əhalisini rus qoşunlarına qarşı qaldırmaq istəyirdi. Bir məlumata görə o, Qriz kəndində məskən salıb buradan xanlığı idarə etməyə başladı (Дубровин, История, III с., 137-139). Digər məlumata görə isə, Şeyxəli xan Buduq kəndinə getdi və onun ailə üzvləri də bura gəldilər. Qraf Zubov Qubanı sakitləşdirməkdən ötrü Bulqakova 5 minlik bir qoşun verib, onu Buduq istiqamətinə yolladı, şəhərdə, həmçinin kəndlərdə bir qədər sakitlik yarandı. Şeyxəli xan Buduqda da dayanmayaraq Qrız kəndindən Axtıya və Misgəncəyə yönəldi (Бакиханов, 176; Buduqlu – Piriyev, 37).

Bəzi tarixi əsərlərdə belə məlumat var ki, Şeyxəli xan ətrafına topladığı adamlarla Dərbəndlə əlaqəni təmin etmək üçün saxlanmış general Bulqakovun dəstəsini narahat etməyə başladı. Son nəticədə Bulqakov üsyançıların sayının artdığını görərək düşmən haqqında məlumat toplamaq üçün polkovnik-leytenant Bakuninin başçılığı altında dörd bölük yeger, bir bölük qrenader və 50 kazakdan ibarət bir qüvvəni göndərdi (Броневский, 138).

Bulqakova xəbər çatmışdı ki, öz ailəsini Qrız kəndində yerləşdirən Şeyxəli xan hər gecə Çərəkə adlı kiçik çayın kənarına eyni adlı kəndə gəlir və burada öz sadiq adamları ilə məsləhətləşmələr aparır. Zubovun razılığı ilə Bulqakov Şeyxəli xanı həmin kənddə olarkən tutmaq üçün iki yüngül silahlı dəstə təşkil etdi. Bulqakovun özünün başçılıq etdiyi 450 nəfərlik dəstə Çərəkə kəndinə qarşı tərəfdən, Platovun başçılıq etdiyi min nəfərlik dəstə isə arxa tərəfdən sübh açılmamış eyni zamanda basqın etməli idilər. Quba naibi Vəli bəy bu plandan xəbər tutub öz bələdçiliyini təklif etmiş, məşəl ilə rus dəstəsinin önündə getmişdir. Əslində isə N. Dubrovinin yazdığına görə Vəli bəy məşəli yandırmaqla Şeyxəli xanın adamla-

rını duyuq salmış və ruslar gələnə kimi xan artıq kəndi tərk etmişdir (Дубровин, История, III c., 140-141).

Bulqakov Xınalıq və Qrız kəndəlrinə qasid göndərərək sakinlərdən xanın ailəsini tutub verməyi tələb etsə də heç bir nəticəyə nail olmamış və kəndliləri cəzalandıraraq, 8 əmanət, 150 iri buynuzlu mal-qara və 100 qoyun almışdır. Şeyxəli xan Şəki xanlığı ərazisinə qaçmış, lakin Səlim xandan lazımi vəsait ala bilmədiyinə görə anası və arvadı ilə dağlıq Fəmazə kəndinə getmiş, orada Samurun yuxarı axarındakı sakinləri öz ətrafına toplamağa başlamışdır (Дубровин, III c., 141-142).

Köhnə Şamaxı istiqamətində hərəkət edən rus qoşunları Qurdbulaq yaylağında düşərgə saldılar və istilər düşdüyündən bütün iyun ayını burada qaldılar. Avqustda Pirsaat çayını keçib qışlamaq üçün Cavada getdilər. Peterburqdan verilən göstərişə uyğun V. Zubov kontradmiral Fyodorova Lənkəran xanlığı ərazisinə və Salyana desant çıxarmağı əmr etdi və bu əmr yerinə yetirildi (Левиатов, 182).

Şamaxılı Mustafa xan V. Zubova böyük inamsızlıqla yanaşırdı. O, Köhnə Şamaxıdan getdi və çox vaxt Fitdağda, yaxud öz dağlıq mülklərində olurdu. Zubovun görüşünə gəlmək üçün onu çox dilə tutmaq lazım gəldi. Mustafa xan təzyiq altında II Yekaterinaya sədaqət andı içsə də onu hakimiyyətdən kənar edəcəklərini güman edir və rus qoşunlarına müqavimət göstərmək üçün müttəfiqlər axtarırdı. Onun təbii müttəfiqi bu cür vəziyyətdə olan şəkili Səlim xan idi. Keçmiş Şamaxı hakimi, xanlığı özünə qaytarmaq üçün fürsət axtaran Qasım xan Şəki mülklərində gizləndiyindən Səlim xanla Mustafa xan arasında çoxdan bəri ədavət mövcud olsa da yeni şərait bu iki xanı barışmağa məcbur etdi (Мустафаев (1989), 96).

Doğrudur, İbrahim xan oğlu Əbülfət xanı Qarabağın bir neçə əsilzadəsi ilə birlikdə töhfə, hədiyyələr və cins atlarla V. Zubovun hüzuruna göndərib, «Rusiya dövlətinə səmimi qəlbdən itaət edəcəyini və sədaqətini» bildirmişdi. V.Zubov xanın ərizəsini və nümayəndəsini imperatriçənin hüzuruna göndərmiş, bir knyaz vasitəsilə İbrahim xana qiymətli töhfə və hə-

diyyələr göndərərək, onu «əzəmətli padşahın mərhəmətinə ümidvar etmişdi…» (Mirzə Camal, 28-29). Zubov iri qiymətli daşlarla bəzənmiş bir əsanı Molla Pənah Vaqifə göndərdi (Mirzə Adıgözəl bəy, 55). Əslində İbrahim xanın bu addımı yalnız diplomatik səciyyə daşıyırdı, çünki, o, Zubovun işğalçı yürüşünün Qarabağ məliklərinin güclənməsi və onun hakimiyyətinin devrilməsi ilə nəticələnəcəyini yaxşı dərk edirdi. İbrahim xana Zubovun bu cür niyyətindən bəzi şeylər məlum idi. Çar İrakli bir dəfə qəzəbli vaxtında İbrahim xana bildirmişdi ki, o mülklərindən məhrum ediləcəkdir (Левиатов, 183). Bütün bunlar İbrahim xanı hərəkətə sövq edirdi.

İbrahim xan öz şübhələrini açıq bildirmirdi. Əksinə özünü tam sakit və Rusiyaya sədaqətli kimi aparır, ancaq zərbə endirməyə hazırlaşırdı. Məqsədini həyata keçirmək üçün rus qoşunu qərargahında olan Nurəli xan adlı bir cavandan istifadə etməyi qərara aldı. Nurəli xan Zəndlər nəslinə mənsub idi. Ağa Məhəmməd xan bu ailənin bütün üzvlərini təqib və məhv etdiyindən Rusiyaya qaçmışdı. Yürüş zamanı keçiləcək yerlərə bələd şəxs kimi Nurəli xan Zubovun yanına göndərilmişdi. Nurəli xana tamamilə etibar olunur, o, daim baş komandana öz sədaqətini göstərirdi. Güman edilirdi ki, lazım gələrsə, Nurəli xan hansısa xanlığa hakim təyin ediləcək. Nurəli xan rus düşərgəsində yaşayır, yaxşı təmin olunurdu. 100 nəfərə qədər məiyyəti var idi, demək olar ki, tamamilə sərbəst idi. V. Zubovun yanına gəlmiş Qarabağ elçiləri Nurəli xanla gizli əlaqəyə girdilər, İbrahim xanın göndərdiyi 3 min rubl məbləğində pulu ona verdilər. Elçilər bildirdilər ki, əgər Nurəli xan, Mustafa xan və Səlim xanın qüvvələrini birləşdirməyə kömək etsə və onların köməyi ilə V. Zubovun qətlini təşkil etsə İbrahim xan özünün Cənubi Qafqazın birinci gözəli hesab edilən qızını ona ərə verəcəkdir (Левиатов, 183).

Bu vədlərdən ruhlanan Nurəli xan razılıq verdi. O, Səlim xan və Mustafa xana onların hakimiyyətdən kənar ediləcəklərini, mülklərinin isə Nurəli xana veriləcəyini xəbər verərək ruslara qarşı çıxış etməyə çağırdı. Düşünülmüş plana

görə xanların birləşmiş qüvvələri rus düşərgəsini mühasirəyə almalı, baş komandanın çadırına soxulub onu öldürməli idi, sonra isə rus qoşununu məhv etmək lazım idi. Lakin axmaq təsadüf nəticəsində Azərbaycan xanlarının V. Zubova qarşı təşkil etdikləri qəsdin üstü açıldı. Nurəli xan at çaparkən papağı başından düşmüş, papağın içindəki məktub da yerə düşmüşdü. Nurəli xan bunu görməmiş, məktub Zubova çatdırılmışdı. Nurəli xan həbs edildi və Həştərxana sürgün olundu. Zubov xanlara münasibətinin dəyişdiyini biruzə vermədi (Бутков, II c., 397-398; Дубровин (1874); Дубровин, III c., 149-153).

V. Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana işğalçı yürüşü Osmanlı imperiyasını və şəxsən sultan III Səlimi xeyli narahat etdi. Türkiyə bütün vasitələrlə rusların Cənubi Qafqazdakı əməliyyatına mane olmağa çalışırdı. Rus qoşunlarının Azərbaycanda hərəkətinə mane olmaq üçün osmanlı ordusunun komandanlığı karvan yolları və körpüləri sıradan çıxartmağa çalışır və bu işə yerli feodalları cəlb edirdi. Bu məqsədlə Axısqa paşası Şamaxı və Şəki xanlıqlarına öz adamlarını göndərdi (Sadıqov, 40-41). Rus ordusunun cəzasından ehtiyat edən Şamaxılı Mustafa xan və şəkili Səlim xan osmanlı komandanlığının səsinə bu dəfə səs vermədilər. Şeyxəli xan və Qazıqumuqlu Surxay xan isə fəal surətdə ruslara qarşı mübarizə aparırdılar. Rus komandanlığı hər ehtimala qarşı tədbirlər hazırlamışdı. Qubada general-mayor Bulqakovun komandası altında Qafqaz korpusu və altı piyada batalyonu yerləşdirilmişdi. Rus ordusu bu tədbirləri o qədər məxfi şəkildə həyata keçirirdi ki, əks tərəf rusların Qubada bu qədər böyük qüvvəyə malik olmalarından xəbər tuta bilmədi.

Avqustun 30 sentyabrın 10-da V. Zubov gen. Bulqakovdan məktub aldı. Bulqakov yazırdı ki, Quba naibi Vali bəy Zubovun yanına getdikdən sonra rəis Həsən bəy Axtıparaya vəziyyəti öyrənmək üçün adam göndərmişdir. Həmin şəxs geri qayıdaraq bildirmişdi ki, Şeyxəli xan Axtıparadan İlisüya getmək istəmiş, lakin Xanbutay bunu məsləhət görməmişdir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 195).

Gen. Savelyev yazırdı ki, Qazıqumuq hakimi Xanbutayın yanına Hacı Məhəmməd adlı bir şəxsi göndərərək ona Rusiya təbəəliyini qəbul etməyi təklif etmişdir. Xanbutay bununla əlaqədar 50 ağsaqqalı Məşvərətə çağırmışdı. Ağsaqqalların çoxu bu təklifə qarşı çıxaraq bildirmişdilər ki, Xanbutay Rusiya təbəəliyini qəbul edərsə onlar onu xan kimi tanımayacaqlar. Xanbutay bildirmişdi ki, Rusiya təbəəliyini qəbul etmir, ancaq ruslara qarşı da heç bir hərəkət etməyəcəkdir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 205-206).

Gen. Savelyevin yazdığına görə, Kostyuk hakimi Mustafa bəy onu xəbərdar etmişdir ki, Qazıqumuqlu Xanbutay sentyabrın 29-30-u arasında gecə vaxtı Quba ətrafında müxtəlif yerlərdə yerləşən rus dəstələrinə eyni zamanda basqın etmək niyyətindədir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 229).

**Alpan döyüşü.**

Sentyabrın sonunda Qazıqumuq xanı və Şeyxəli xanın 13-15 min nəfərlik qoşunu Quba xanlığının şimal hissəsinə daxil oldu (Бутков, II his., 402). Dəstələr Alpan kəndinə yaxınlaşdılar. Qarşılarına çıxan polkovnik-leytenant Bakuninin başçılıq etdiyi azsaylı dəstə (500 nəfərə qədər) pusquya düşdü və ağır itkilərə məruz qaldı. Yalnız general Bulqakovun yardıma dəstə göndərməsi sayəsində Bakuninin dəstəsi tamamilə məhv edilməkdən xilas oldu (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 231 a.ü.-232).

General Bulqakovun verdiyi məlumata görə vuruşma nəticəsində 700 dağıstanlı döyüşçü və 900 muzdlu döyüşçü həlak olmuş, Surxay xanın oğlu Bayram, birinci məsləhətçisi Molla Tağı, baş məmurları Məhəmməd Sami bəy, Ağa Məhəmməd bəy, Aşurov Qurban, Nəbi, kəndxuda Yusifin oğlu, Surxay xanın 310 təbəəsi həlak olmuşdur. Qənimət kimi 2013 tüfəng, tapança, habelə çoxlu soyuq silah ələ keçirilmişdi. Alpan kəndinin yanında düşmənin 68 yaralı əsgəri əsir götürüldü. Onlar bildirdilər ki, Xanbutayın (Surxayın) digər oğlu Məhəmməd və qohumu Osman da yaralanmışdır (АВПРИ, f. 77,

siy. 7, iş 158, v. 239). Surxay zan öz qoşunu və yaxınları ilə birlikdə döyüş meydanından qaçdılar. Ruslardan polkovnik-leytenant Bakunin həlak oldu, kapitanlar Semyonov və Karaşev, poruçiklər Zlodeyev, Filatov, praporşik Krivpinov, unter zabitlər və sıravi yegerlər, qrenader və muşketyorlar, cəmi 46 nə fər həlak olmuş, 94 nəfər yaralanmışdır (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 235).

General Bulqakov bu hadisələrlə bağlı oktyabrın 1-də yazırdı ki, podpolkovnik Bakunin ona xəbər vermişdir ki, sentyabrın 30-u sübh tezdən onun kəşfiyyatçıları dərədə düşmənin olması haqqında məlumat çatdırmışlar. Bakunin yegerləri kare (düzbucaq şəklində hərbi nizam forması – T.M.) şəklində düzərək düşməni gözləyir. Bulqakov bu xəbəri və güclü atışma səsi eşidib 3 min nəfərdən ibarət piyada alayını 4 alay topu ilə Bakuninin yardımına göndərmişdir (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 235).

Polkovnik-leytenant Stoyanovun tabeliyində olan döyüşçülərdən düşmənin sayının 15 min nəfərə çatdığı haqqında məlumat alındı. Üsyançılara Xanbutay başçılıq edirdi. Üsyançılar itki vermələrinə baxmayaraq Qudyalçay sahilində rus hərbi dəstəsini mühasirəyə almağa çalışmışdılar. Kapitan Simonovun öncüllük etdiyi Uqliç piyada alayı döyüş yerinə gecə saat 10-da çatıb üsyançıların arxasına keçdi. İki tərəfdən atəşə məruz qalan üsyançılarda şaşqınlıq yarandı. Bundan sonra döyüş daha yarım saat davam etdi (АВПРИ, f. 77, siy. 7, iş 158, v. 231-232).

Rus qoşunlarının qələbəsinə baxmayaraq, V. Zubov Rus dövlətinə itaət edən Dağıstan feodallarından Qaytaq usmisinə və Tarki şamxalına tapşırdı ki, Qazıqumuq xanlığına basqın edib, rusların əleyhinə çıxdıqlarına görə oranı darmadağın etsinlər (АВПРИ, f. 77, siy. 1, iş 158, v. 42.)

Qubada baş verən hadisədən sonra Rus ordusu komandanlığı öz mövqeyini möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü. İlk növbədə ordunun arxa hissəsi möhkəmləndirildi. Dərbənd qalasında yerləşən Narınqala tamamilə rus qarnizo-

nunun ixtiyarına verildi və qalanın müdafiəsi xeyli möhkəmləndirildi (АВПРИ, f. 77, siy. 1, iş 158, v. 43).

Zubov Quba xanlığında Rusiyaya sadiq hakimimyyət yaratmağa çalışaraq Fətəli xanın kiçik oğlu Həsən ağanı İlisudan çağırtdırdı. Həsən bəy İlisu Sultanının qızından doğulmuşdu və anası ilə birlikdə Qax kəndində yaşayırdı. O, hələ azyaşlı idi. Noyabrın 3-də Həsən xan Quba xanı elan olundu. Baş komandanın müəyyənləşdirdiyi bir neçə ağsaqqal Quba xanlığının idarəsini həyata keçirməli idi (Левиатов, 184).

**Rus ordusunun xanlığı tərk etməsi.**

Qacar təhlükəsinin yenidən meydana çıxması bəzi Azərbaycan xanlarını, ilk növbədə İbrahim xanı yenidən Rusiya ilə yaxınlaşmağa məcbur etdi. Xorasanda üsyanı yatıran və Nadir şahın varislərindən biri olan Şahruxun zəngin sərvətini ələ keçirən Ağa Məhəmməd şah /o, 1796-cı ildə artıq şah titulunu qəbul etmişdi/ daha böyük ordu təşkil etməyə, Gilan və Mazandaranı möhkəmləndirməyə başladı. O, rus qoşunlarının tezliklə Cənubi Azərbaycana soxulacağını güman edir və onları dəf etməyə hazırlaşırdı. Ağa Məhəmməd şah Qarabağı tabe etmək cəhdindən əl çəkməmiş və 1796-cı ilin avqustunda Şuşanı tutmaq üçün dəstə göndərmişdi. Lakin dəstə uğur qazanmadı. Beləliklə, İbrahim xan bir daha Ağa Məhəmmədin Qarabağa iddialarından əl çəkmədiyini hiss etdi. Bununla əlaqədar İbrahim xan V. Zubova müraciət edərək, Şuşaya hərbi qüvvə göndərməsini xahiş etdi (Левиатов, 184-185).

1796-cı il oktyabrın əvvəlllərində rus qoşunları Qurdbulaq düşərgəsini tərk etdilər və Yeni Şamaxıya yaxınlaşdılar. Qafqaz qüvvələri də bura gəldi. 1796-cı il oktyabrın əvvəllərində V.A. Zubov Rusiyadan yeni qüvvələr aldı. Knyaz Sisianovun başçılığı ilə iki süvari polku, bir piyada batalyonu yanında 6 səhra topu olmaqla Dərbənd – Quba yolu ilə Rusiyadan gəldi (Левиатов, 185). Bundan sonra 4 min nəfərlik güclü bir dəstə ayrıldı və ona Gəncəyə hərəkət edib şəhəri tutmaq tapşırıldı. Dəstəyə general-mayor Rimski-Korsakov başçılıq

edirdi. Oktyabrın 21-də bu dəstə Pirsaat yaxınlığında Rus düşərgəsindən hərəkət etdi. Şəki xanlığının ərazisi ilə Gəncəyə tərəf irəlilədi. Dəstə Mingəçevirdə üzən körpülərlə Kür çayını keçdi və dekabrın 13-də Gəncəyə çatdı. II İrakli və İbrahim xan onun mülklərini tutmağa çalışdığından rus konsulu ilə gərgin münasibətlərə malik olmaq istəməyən Cavad xan da ruslara münasibətini dəyişməli oldu və Gəncəyə rus hərbi dəstəsini buraxmağa razılıq verdi. Gəncə qalasının qapılarını Rimski-Korsakov üçün açdı (Мустафаев Дж, 96).

Qafqaz korpusunu Gəncəyə yola saldıqdan sonra rus ordusunun əsas qüvvələri Yeni Şamaxıdan hərəkət etdi və noyabrın 21-də Kür və Araz çaylarının qovuşuğunda dayandı. Gələn ilin yazına kimi qışı burada keçirtmək nəzərdə tutulurdu. Dənizdən desant çıxarmaq yolu ilə rus eskadrasının onlara kömək göstəriləcəyi güman edilirdi. Rusiyanın nəzərləri artıq Cənubi Azərbaycana və Xəzər dənizinin cənub sahillərinə yönəlmişdi (AKAK, c. VI, his. 2, əlavələr, sən. 38). Bu hərəkətlər Ağa Məhəmməd şahın hakimiyyətinə güclü zərbə endirməli idi. Haqqında danışılan planı 1797-ci ilin yazında gerçəkləşdirmək nəzərdə tutulurdu.

Düşərgə Kür və Araz çaylarının qovuşduğu yerdən bir qədər aşağı, Kürün sol sahillərində yerləşirdi. Rus qoşunları burada yaxşı istirahət etdilər, çünki, Bakıdan dəniz, sonra da çay vasitəsilə sursat gətirilməsi çətinlik törətmirdi, Kür çayında kifayət qədər balıq var idi, Gürcüstandan donuz sürüləri gətirilirdi. Qoşqu heyvanları və atlar üçün kifayət qədər ot var idi.

Azərbaycanda möhkəmlənməyi qarşısına məqsəd qoymuş rus hakimiyyət orqanları bir sıra siyasi-iqtisadi tədbirlər həyata keçirməyə çalışırdılar. Zubov rus qoşunlarının mövqeyini möhkəmləndirmək və diyarın iqtisadi mənimsənilməsini təmin etmək üçün layihə hazırlamışdı. Bu layihəyə görə Kürlə Arazın qovuşduğu yerin yaxınlığında – Cavadın yanında II Yekaterinanın şərəfinə Yekaterinaserd adlanan qala salınmalı idi. Bura iki min cavan rus əsgəri göndərilməli, gürcü və er-

mənilər onlara gəlin verməyə məcbur edilməli idilər (Зубов (1873), 889-890). Bu qala cənuba qarşı yönəlmiş dayaq məntəqəsi olmalı idi. Bununla yanaşı, həmin qala ticarət qovşağı, Xəzər, Cənubi Qafqaz, qismən Orta Asiya və İran ticarətinin iri bazarı olmalı idi (Левиатов, 187).

Digər qala-liman, qoşunların başlıca təchizat bazası və eyni zamanda iri ticarət mərkəzi Bakı olmalı idi. V. Zubova 1796-cı il fevralın 19-da verilmiş fərmanda buyurulurdu ki, Bakı şəhəri və limanını alıb orada baş depo təsis etsin… həyati və hərbi sursatların gətirilməsini təmin etsin (Левиатов, 187). Bakı limanının böyüdülməsi və möhkəmləndirilməsi layihələri hazırlanırdı. Bakıdan başlayan quru yolu Lənkəran, Ərdəbil, Sultaniyə və Tehrandan keçərək İsfahana, daha sonra isə Fars körfəzi sahillərinə qədər uzanırdı. Bu yolda karvansaralar mövcud idi.

Güman edilirdi ki, əgər Bakı lazımi surətdə möhkəmləndirilsə və hər kəs şəxsi və əmlak toxunulmazlığına əmin olsa bu şəhər şübhəsiz bütün İran təchizatının qovşağı olar və ən varlı tacirləri özünə cəlb edər (Зубов (1873), 887). Bakı limanında işlərin görülməsi və Kürün mənsəbində Yekaterinaserd qalasının tikintisi üçün hətta Peterburqdan ustalar müəyyənləşdirilib göndərilmişdi (Бутков, II c., 418-419).

1796-cı ilin noyabrın 6-da II Yekaterinanın ölümü hadisələrin gedişini dəyişdirdi. Hakimiyyətə gələn I Pavel əks siyasət yeritməyə başladı. O, rus qoşunlarının tezliklə Cənubi Qafqazdan çıxarılması barədə sərəncam verdi. V.Zubova II Yekaterinanın vəzifəyə təyin etdiyi adam kimi nifrət bəsləyən I Pavel bütün alay komandirlərinə qoşunların Qafqaz xəttinə geri qayıtması barədə buyruqlar göndərdi. V.Zubov istefaya çıxdı və Bakıdan Həştərxana yola düşdü. Qafqaz xəttinə gələn bütün qoşunlara komandanlıq yenidən qraf Qudoviçə tapşırıldı. Rus qoşunlarının çıxarılması başladı, lakin bəzi hissələr 1797-ci ilin martına kimi Muğanda qaldılar (Левиатов, 188). Bu qışda adamların və atların yolda hərəkətinin, artilleriya və qoşquların aparılmasının çətinliyi ilə bağlı idi.

Bulqakov 1797-ci il martın 12-də yazırdı ki, Həsən xan əhalinin Şeyxəli xana tərəfdar olduğunu görüb Qubadan Dərbəndə köçmüşdür. Şeyxəli xan əhaliyə məktublar göndərərək rus qoşunları xanlıq ərazisini tərk etməkdə olduğu üçün yenidən ona tabe olmalarını tələb edirdi (РГИА, siy. 41, siy. 1, iş 199, iş 420, v. 43). Qubalı Şeyxəli xan, Qazıqumuq xanı və bir sıra başqa hakimlər geri çəkilən rus qoşunlarını təqib etməyə cəhd göstərdilər. Bir neçə dəfə rus qoşunlarını mühasirəyə almaq, Dərbənd yanında yolu bağlamaq cəhdlərinə baxmayaraq bütün qoşunlar Qafqaz xəttinə çıxdılar (Левиатов, 188).

İşğalçı rus qoşunları Azərbaycanı tərk edər-etməz Şeyxəli xan Qubada hakimiyyətini bərpa etdi. Martın 13-də Bulqakov Şeyxəli xanın artıq Qubada olduğunu, ətrafına xeyli döyüşçü topladığını yazırdı (РГИА, siy. 41, siy. 1, iş 420, v. 43).

Hələ ruslar Dərbənddə ikən Fətəli xanın qızı Pəricahan xanım atası Məhəmməd xanın vəfatından sonra Tarki şamxalı olan Mehdi bəyə ərə getdi. O, Fətəli xanın evində illərlə toplanan var-dövləti xanın kişi varisləri olmasına baxmayaraq özü ilə apardı. Pəricahan xanım Şeyxəli xandan icazəsiz bacısı Çimnaz xanımı Tabasaran qazisi Rüstəmin oğlu Abdulla bəyə ərə verdi. Rus qoşunları Quba xanlığı ərazisini tərk edən kimi öz müdafiəçilərindən məhrum olan Həsən xan Qaytağa qaçdı (Бакиханов, 177).

Xeyli ərazini işğal etmiş rus qoşunlarının I Pavel tərəfindən geri çağırılması bir tərəfdən böyük xərclər (31.700 min rubl), digər tərəfdən Avropada vəziyyətin mürəkkəbliyi ilə izah oluna bilər. Yerli xalqların işğalçı Rus qoşunlarına münasibəti, hakimiyyətdən kənar edilmiş xanların müqaviməti, İranda Ağa Məhəmməd şahın güclənməsi də öz təsirini göstərmişdi.

**Rus qoşunları getdikdən sonra Azərbaycanda siyasi vəziyyət və Quba xanının digər xanlarla münasibətləri.**

V. Zubovun başçılıq etdiyi rus qoşunları Azərbaycanı tərk etdikdən sonra Ağa Məhəmməd şah Qacar daha qətiyyətlə hərəkət etdi və o, 1797-ci ilin yayında Şuşaya hücum etdi. Şeyxəli xan əvvəlki tək Qacarı müdafiə edirdi. Bu yürüşündə Şuşanı almağa nail olsa da Ağa Məhəmməd şah elə buradaca saray sui-qəsdi nəticəsində qətlə yetirildi. İranda hakimiyyətə onun qardaşı oğlu Fətəli gəldi. O, Ağa Məhəmmədin babasının adı ilə adlandırıldığından nəvazişlə Baba xan deyə çağırılırdı.

Hələ 1795-ci ildə Hüseynqulu xan tərəfindən Bakıdan çıxarılmış və Qubada yaşayan, Şeyxəli xana öz bacısını verib, özü də onun bacısı ilə evlənmiş II Mirzə Məhəmməd xan da Hüseynqulu xanın Ağa Məhəmməd şah tərəfindən həbsindən[10] istifadə edib yenidən Bakıda hakimiyyətə yiyələnməyə cəhd göstərdi və tələsik Bakıya yönəldi. Lakin həbsdən xilas olmuş Hüseynqulu xan onu qabaqladı və Bakıya gəlib qalada möhkəmləndi. II Mirzə Məhəmməd xan Maştağa kəndində yaşamalı oldu. Danışıqlardan sonra rəqiblər Bakı xanlığını iki yerə bölmək haqqında razılığa gəldilər (Искендерова, 127).

**Rusiya ilə münasibətlərdə yeni mərhələ. Mədət bəyin elçiliyi.**

Şeyxəli xan Quba və Dərbənddə hakimiyyətini yenidən bərpa edən kimi yeni rus imperatoru I Pavelin gözündə özünə bəraət qazandırmaq məqsədilə elçisi Mədət bəyi Rusiyaya göndərdi. Xan Mədət bəylə həmçinin, özünə və xanlıq sakinlərinə rus hərbçilərinin yürüş zamanı vurduqları zərər haqqında şikayətnamələri də göndərdi. Şeyxəli xan çara məktubunda eyni zamanda Bakıya olan iddialarını da əsaslandırırdı (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 18 a.ü.). Şeyxəli xanın bu id-

---

[10] Ağa Məhəmməd şah Hüseynqulu xanın onun hüzuruna vaxtında getməməsindən qəzəblənərək onu həbs etdirmiş, Bakının idarəsini isə Şeyxəli xana tapşırmışdı (Искендерова, 127).

diası Qafqaz xəttindəki rus qoşunlarının komandanı gen. Qudoviçdə elçini Rusiyaya buraxıb-buraxmamaq məsələsində tərəddüd yaratdı. Bu barədə yuxarı orqanlardan məsləhət istədi.

Görünür mərkəzdən Qudoviçə Şeyxəli xanın elçisinin Rusiyaya buraxılmasını tövsiyyə etdilər və 1798-ci il aprelin 10-da elçi Sankt-Peterburqa gəldi (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 18 a.ü.). Şeyxəli xanın və xanlıq sakinlərinin məktubları rus hökumətinə təqdim olundu. Şikayətlərə Asiya xarici işlər kollegiyasının departamentində və kollegiyanın özündə baxıldı.

Şeyxəli xan bir məktubunda yazırdı ki, Savelyevin dəstəsinə Tiflisi dağıdandan sonra Muğana gəlib burada düşərgə salan Ağa Məhəmməd xanın qorxusundan müqavimət göstərmişdir. Məhz qorxu hissi və xanlıq sakinlərinin var-yoxdan çıxarılmasının qarşısını almaq istəyi onu Ağa Məhəmməd xana hədiyyələr göndərib itaətini bildirməyə vadar etmişdir (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 46). Şeyxəli xan həm də Dərbəndi mühasirə edib, şəhəri artilleriya atəşinə tutmaq haqqında əmr verən V.Zubovun təcavüzkar hərəkətlərini pisləyirdi. Dərbənd sakinləri də öz şikayətnamələrində V. Zubovun başçılığı ilə rus qoşunlarının Dərbənddəki bağlarda bütün ağacları və üzüm tənəklərini kəsməsindən, sakinlərə hər cür pisliklər etməsindən şikayətlənirdilər (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 46-47).

Şeyxəli xan Azərbaycan hakimlərinin V. Zubova etimadsızlığını onun Şeyxəli xanı hakimiyyətdən kənarlaşdırması ilə izah edirdi. Bu cür hərəkət təbii ki, digər xanlarda öz müqəddəratları üçün qorxu yaratmışdı (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 46).

Şeyxəli xan rus qoşunları xanlıq ərazisini tərk edərkən sakinlərə çox böyük zərər yetirdiyini yazırdı. Xanın gen. Bulqakova yazılı müraciətinə baxmayaraq o geri çəkilərkən kəndləri talan etmiş, Dərbənd, Quba, Müşkür və Bakıda yaşayan xristianları və müsəlmanların yanında qulluq edən, onların pulla aldıqları müxtəlif millətlərə mənsub kişi və qadınları apar-

mışdı (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 37). Xan yazırdı ki, rus qoşunları xanlığa iki yüz min tüməndən çox zərər yetirmişlər. Konkret olaraq aşağıdakı şəxslərə göstərilən məbləğdə zərər vurulmuşdu:

Musa xanın oğlu Hacı Məhəmmədin 500 man. Qiymətində bir nökəri, 500 man. qiymətində olan bir kənizi və 1000 man. nağd pulu, Hacı Əskərin oğlu Hacı Məhəmmədin 800 man. qiymətində iki nökəri və 1000 man. dəyərində iki kənizi və 1200 man. nağd pulu, Məşədi Qurban Əlinin 1500 man. qiymətində olan iki kənizi, dərbəndli Əhməd ağanın 400 man. qiymətində bir nökəri, Hacı İmanın 1500 man. qiymətində 3 kənizi, 400 man. qiymətində olan bir nökəri və 2000 man. nağd pulu, isfahanlı Mir Seyid Əlinin 1260 man. qiymətində olan iki nökəri, isfahanlı Mirzə Küçükün 500 man. qiymətində bir nökəri, 700 man. qifmətində bir kənizi və 1200 man. nağd pulu, dəvəli Hacı Məhəmməd Rəhimin 1000 manat pulu, 500 man. qiymətində bir nökəri və 500 man. qiymətində bir kənizi, Hacı Əbubəkrin 960 man. qiymətində iki nökəri əlindən alınmışdı. Züfüqar ağanın 1000 man. qiymətində iki nökəri, Məşədi Hacı Zakirin 400 man. qiymətində bir nökəri, şabranlı Allahverdinin 1000 man. qiymətində iki kənizi, Hacı Məhəmməd Kosanın 500 man. qiymətində bir nökəri, 1000 man. qiymətində iki kənizi və 1500 man. nağd pulu, şamaxılı Məhəmmədin 500 man. qiymətində bir kənizi, 300 man. qiymətində bir nökəri və 1500 man. nağd pulu, Hacı İbrahimin 800 man. qiymətində iki nökəri, Abuturabın 400 man. qiymətində bir nökəri, Hacı İbrahim Nəzərin 400 man. qiymətində bir nökəri, Hacı Tahir bəyin 500 man. qiymətində bir kənizi, 400 man. qiymətində bir nökəri və 900 man. nağd pulu, Kərbəlayı Ağarəhimin oğlu Hacının 900 man. qiymətində iki nökəri, 400 man. nağd pulu, Hacı Fərzəlinin 400 man. qiymətində nökəri, Molla Kazımın 900 man. qiymətində iki nökəri, Xudaverdinin 400 man. qiymətində bir nökəri, Mirzə Əskərin 500 man. qiymətində bir nökəri, İmamqulu bəyin 5000 man. qiymətində 10 nökər və kənizi, 20000 man. nağd pulu, 30000 man. qiymətin-

də vekseli, gəncəli Molla Kazımın 400 man. qiymətində bir nökəri zorla əllərindən alınmışdı (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 64 a.ü.-65 a.ü.).

Elçi Mədət bəyin təqdim etdiyi ayrı bir məktubda deyilirdi ki, gen. Savelyev Hacı Məhəmməddən bir oğlanı və bir qızı zorla alıb Rusiyaya aparmışdı. Generalın qardaşı oğlu Yefim Savelyev də əmisindən geri qalmayaraq Şabran sakinlərindən 5 qızı zorla almış və əsir kimi Rusiyaya aparmışdı. İş o yerə çatmışdı ki, Rus zabitləri Məhəmməd Qasımın əvvəllər dağlılardan pulla alıb öz arvadına çevirdiyi gürcü soyköklü Minanı, hətta hamilə olmasına baxmayaraq əlindən alıb Rusiyaya aparmışdılar. Mina Rusiyaya yolda ikən bir qız dünyaya gətirmiş və qızın adını Anaxanım qoymuşdular. Dərbəndli İmamqulu bəyə məxsus 10 nəfər müsəlman çərkəz nökər və kəniz də Rusiyaya aparılmışdı. Rusiya təbəəsi olan İvan adlı bir erməni bakılı Məlik Məhəmməd xanın oğlu Əbdürrəhman ağanın arvadını az yaşlı oğlu ilə birlikdə Rusiyaya aparmışdı (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 75-76). Şeyxəli xan Məhəmməd Yar bəyin oğlunun əsir alınıb Rusiyaya aparılmasından da şikayətlənirdi (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 83).

Şeyxəli xan ikinci məktubunda xanlıq sakinlərinə vurulmuş zərərin ödənilməsini xahiş edirdi. Xan eyni zamanda Azərbaycan – Rusiya ticarətinin bəzi məsələlərinə də toxunurdu. Daha doğrusu bir neçə Quba tacirinin pulunun Rusiya təbəələri tərəfindən mənimsənildiyindən şikayət olunurdu (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 75 a.ü.). Eyni zamanda belə bir şikayət də olmuşdu: Salyanlı Hacı İbrahim xan və qubalı Məhəmməd bir Həştərxan tacirindən 600 manata gəmi icarəyə götürmüşlər ki, ona 25 min pud duz yükləyib Qubaya göndərsinlər. Həştərxan taciri isə malı yükləyəndən sonra Qubaya aparmaq əvəzinə Dərbəndə aparıb burada olan gen. Savelyevə vermiş, duz rus ordusunun ehtiyaclarına sərf olunmuşdur. Bundan xəbər tutan azərbaycanlı tacirlər Həştərxana gedərək, Həştərxan gömrükxanasının məmuru erməni Arutundan duzun dəyərini – 1500 rubla ödəməyi xahiş etmişlər. Məmur isə bil-

dirmişdir ki, guya müflis olmuşdur və buna görə həmin məbləği verə bilməz. Eyni zamanda isə gəmi sahibi azərbaycanlı tacirlərdən 600 man. icarə haqqını tələb edirdi (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 82-83).

Şeyxəli xan məktublarının birində xanlıq ərazisində yaşayan və Rusiyaya aparılmış xristian ailələrinin verilməsini xahiş etmişdi. Bu ailələrin sayı 500-dən çox idi. Mədət bəy xristian ailələrin qaytarılmasına nail olmaq üçün onların xanlığın həyatında çox mühüm rol oynadıqlarını və guya Şeyxəli xanın qvardiyasını təşkil etdiyini bildirmişdi. Quba elçisi həmçinin 7 ildən bəri Həştərxanda həbsxanada saxlanılan Abbas xan Qacarın azad olunmasını xahiş etmişdi (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 56).

Şeyxəli xan həm də rus hakimiyyətindən daş binaların təmiri üçün lazım olan 4000 pud dəmir buraxılmasını xahiş etmişdi (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 83).

Asiya departamenti Şeyxəli xanın şikayətlərini nəzərdən keçirib öz rəyini Kollegiyaya bildirmişdi. Rus hökuməti ölkədə vergi ödəyən əhalinin sayını artırmaq marağından çıxış edərək felən Quba xanlığı ərazisindən sakinlərin Rusiyaya zorla köçürülməsinə bəraət qazandırdı. Xanlığa dəyən maddi zərər isə müharibənin təbii nəticəsi sayıldı. Buna görə də zərərin ödənilməsindən imtina edildi. Həm də xanlığa dəyən zərər üçün Şeyxəli xan təqsirkar çıxarılırdı. Bildirilirdi ki, əgər o müqavimət göstərməyib itaət etsəydi dağıntılar və talanlar olmazdı. Xanlıqdan Rusiyaya aparılan xristian ailələri ilə əlaqədar isə deyilirdi ki, onlar «könüllü getmişlər» və geri qayıtmağı arzulamırlar. Aparılan müsəlman nökərlərə və kənizlərə gəldikdə isə bildirilirdi ki, əgər onlar hələ xristianlığı qəbul etməyiblərsə axtarıb tapıb və arzuları varsa Mədət bəylə Azərbaycana göndərmək lazımdır. Onlar dönmək istəməzdilərsə keçmiş sahiblərinə vaxtilə satın alındıqları dəyəri ödəməli idilər. Xristianlığı qəbul edənlər isə heç bir əvəz ödəmədən Rusiyada qalırdılar. Abbas xan Qacarın azad olunması barədə xahiş təmin olunurdu. Quba xanının məmuru Yar bəyin oğlu Ağa

Zamanın tapılıb elçi ilə birlikdə vətənə göndərilməsi məsləhət görülürdü. Rus zabitlərinin Dərbənd sakinlərindən götürdüyü 30200 man. nağd pulun və 30000 man. dəyərində vekselin, bunları götürən şəxslərin müəyyənləşdirilib geri qaytarılması məsləhət görülürdü. Dərbənd və Quba tacirlərinin şikayətlərini araşdırıb müvafiq qərar qəbul etmək tövsiyyə olunurdu. Bakılı Məlik Əbdürrəhimin erməni İvan tərəfindən oğurlanıb Rusiyaya gətirilmiş arvadı və azyaşlı oğlu, dərbəndli İmamqulu bəyə məxsus 10 nəfər kənizi ilə, gen. Savelyevin dərbəndli Hacı Məhəmmədin Rusiyaya apardığı oğlu və qızı, generalın qardaşı oğlunun apardığı 5 şabranlı müsəlman qızla və dərbəndli Məhəmmədqasımın arvadı Mina və yeni doğulmuş qızı ilə bağlı göstəriş verilirdi ki, onları tapıb geri aparmaq üçün Mədət bəyə vermək lazımdır; əgər hansısa artıq xristianlığı qəbul etmişdisə Rusiyada qalmalıdır (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 100-105).

Asiya departamenti təklif edirdi ki, Şeyxəli xanın könlünü almaq üçün məxfi müşavir rütbəsi ilə təltif edib, ona və əyanlarına zəngin hədiyyələr vermək, birdəfəlik pulsuz 4000 pud dəmir buraxmaq, hər il Şeyxəli xana təqaüd kimi 1000 pud, dərbəndlilərə isə pulla 2000 pud dəmir buraxmaq olar. Qeyd edək ki, vaxtilə Şeyxəli xanla bir yerdə həbs olunmuş və sonra isə Rusiyaya aparılmış 10 məmuru azad olunmuşdu (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 106 a.ü.).

I Pavel Şeyxəli xana və ümumiyyətlə Quba xanlığına dəymiş zərəri ödəmək əvəzinə 1799-cu il sentyabrın 1-də fərman verdi ki, «Dərbənd, Quba, Salyan, Müşkür, Badkubə və digər mülklərin hakimi» Şeyxəli xanın bütün vilayəti məmnuniyyətlə təbəəliyə qəbul olunur və xana üçüncü dərəcə verilir. Eyni zamanda Şeyxəli xana qiymətli qılınc və samur kürkü, əyanları üçün 6 brilyant üzük, 6 qızıl zəncirli qızıl saat, 40 arşın məxmər, 50 arşın zərif mahud, 50 arşın atlas, ola bilsin ki, rus bombardmanından dağılmış Dərbənd məscidlərinin və yetim məktəblərinin təmiri üçün 2000 əşrəfi və 2000 pud dəmir göndərilirdi (АВПРИ, f. 77, siy. 6, iş 471, v. 134, 152-153).

**Qonşu xanlıqlar və Dağıstan hakimləri ilə münasibətlər.**

Şeyxəli xan Quba xanlığında hakimiyyətini tamamilə bərpa etdikdən sonra, xanlığın tərkib hissəsi olmuş Salyanı da ələ keçirmək qərarına gəldi. 1798-ci ildə rus sənayeçilərinin qayıqları vasitəsilə Kür çayı ilə hərəkət edən Quba qoşunları Salyanı ələ keçirdilər. Lakin, Şeyxəli xan Dərbəndə qayıdan kimi Salyan hakimləri və yerli əhali Mustafa xana tərəfdar çıxdı (Бакиханов, 179-180).

Şeyxəli xan Dərbənddə ağır xəstələndi və bundan istifadə edən onun keçmiş hərbi müttəfiqi Qazıqumuqlu II Surxay xan öz oğlu Nuh bəyi, yalandan özünü Həsən xan kimi qələmə verməklə, Quba qalasını ələ keçirməyə yolladı. Belə fitnəkarlıqla qalanı tutan Nuh bəyi yaxından müdafiə etmək məqsədilə Surxay xanın özü Qubanın Qullar kəndinə gəldi. Beləliklə, Quba ay yarım müddətində Qazıqumuq xanı tərəfindən idarə edildi (Бакиханов, 181).

Şeyxəli xan xəstəlikdən sağalan kimi Geysübol hakimindən və Akuşa icmalarından on minlik bir qoşundan ibarət yardım alıb Surxay xanı Qubadan çıxarmağa nail oldu. Surxay xanı Kurə mülklərində məğlubiyyətə uğradıb Çıraq kəndinə kimi talan etdi. Lakin, Qubaya girən on min dağıstanlı döyüşçüdən ibarət qoşunun məişətini təmin etmək əziyyəti qubalıların boynuna düşdü. A. Bakıxanovun yazdığına görə: «Şeyxəli xan Quba əhalisinə yürüşdə iştirak edən dağıstanlı döyüşçüləri öz evlərində saxlamaq və dolandırmaq barədə əmr etdi. Onlar əhalidən «dişkirəsi» adlı vergi də yığırdılar. Qubanın gəlirlərindən 8 min dağıstanlı döyüşçüyə müəyyən məbləğ verdikdən sonra Şeyxəli xan qalan iki min dağıstanlı döyüşçünü oranın gəlirləri ilə təmin etmək üçün Dərbəndə gətirdi. Dərbəndlilər də qubalılar kimi çətinlik çəkdiklərindən iki gün ərzində ümumi üsyan qaldırdılar. Beləliklə, pis rəftarı ilə bütün əhalini özünə qarşı qaldıran Şeyxəli xan çətin vəziyyətdə qaldı. Amma, o vaxt Dərbəndə xanın görüşünə gəlmiş bakılı II Mirzə

Məhəmməd xan dərbəndliləri sakitləşdirib, bildirdi ki, Şeyxəli xan dağıstanlı döyüşçülərin Dərbəndi tərk etmələri barədə vəd vermişdir. Bu hadisədən məyus olan Şeyxəli xan Qubaya getdi (Бакиханов, 181).

**Rusiya himayəsi barədə danışıqlar.**

Qeyd edək ki, 1796-cı ilin sonunda rus qoşunlarının Azərbaycanı tərk etməsi heç də Rusiyanın Cənubi Qafqazda, ilk növbədə Azərbaycanda möhkəmlənmək fikrindən əl çəkməsi demək deyildi. Sadəcə olaraq dövlətinin ağır maaliyyə durumunu və mürəkkəb beynəlxalq şəraiti nəzərə alan yeni çar I Pavel bu məqsədi həyata keçirmək üçün diplomatik vasitələrə üstünlük verirdi. İranda yeni hakimiyyətə gəlmiş Fətəli şah da əmisinin müharibə taktikasından əl çəkib strateji məqsədlərinə siyasi yol ilə çatmaq siyasətinə keçmişdi.

I Pavel İ. Quboviçə 1797-ci il 5 yanvar fərmanı ilə Rusiyaya xeyirxah münasibətdə olan Azərbaycan və Dağıstan hakimlərinə bir federativ dövlət halında birləşməyi təklif etməsini buyurdu. Bu hakimlərdən Rusiyaya sədaqət tələb olunur, rus hökuməti onlardan xərac tələb etməyəcəyini, daxili işlərinə qarışmayacağını vəd edirdi (Козубский, 123; Левиатов, 143).

I Pavel federasiya yolu ilə ayrı-ayrı xanlıqların İranın təsiri altına keçməsinə yol verməmək, yumşaq rəftarla onları Rusiyaya daha sıx bağlamaq istəyirdi. Belə bir siyasət xanlıqların Rusiyanın tərkibinə qatılması üçün özül hazırlamalı idi.

I Pavelin federasiya haqqında təklifinin gerçəkləşməsi üçün Qafqaz ordusunun yeni komandanı Y.F.Knorrinq yerli hakimləri və yaxud onların nümayəndələrini dəvət edib, rəqabət aparmağın zərərini və əmin-amanlıq şəraitində yaşamağın zərurətini başa salmalı, onların aralarında baş verən çəkişmələri, adət-ənənə, qanun və ya münsiflər məhkəməsi vasitəsi ilə həll etməyə çağırmalı idi. Bu da mümkün olmasa onlar Rusiya imperatoruna müraciət etməliydilər. Yerli hakimlər İran basqını və şahın niyyətinə qarşı birləşməli, bu ittifaqa şamxa-

lın, usminin və Tabasaran qazisinin təbəələrini cəlb etməli, öz təbəələrini qarət etməkdən əl çəkəcəklərinə and içməli idilər.

Qeyd olunduğu kimi real siyasi vəziyyət o zaman Fətəli şahı da Rusiya dövləti və Azərbaycan xanları ilə yumşaq davranmağa vadar edirdi. O, 1797-ci ilin sonunda I Pavelin yanına elçi göndərdi. Elçilərin ticarət haqqındakı təqdimatına Rusiya hökuməti müsbət yanaşdı, lakin bildirdi ki, İran şahı Gürcüstana, Tarki Şamxalına, Dərbənd, Bakı xanlarına, Xəzər dənizi ilə Gürcüstan arasında yerləşən torpaqlara qarşı iddialarından əl çəkməlidir (Azərb. tar. (1996), 574-575). Şeyxəli xan da öz növbəsində şahı taxta çıxması ilə təbrik edib, onunla münasibətləri normal saxlamağa cəhd etdi.

Bu zaman Şeyxəli xanın qardaşı Həsən xan Dərbəndin idarəçiliyini yenidən ələ keçirmişdi. Şeyxəli xanın basqınından ehtiyat edən Həsən xan öz elçisi Hacı Tağını rus sarayına göndərərək Dərbəndin ayrıca xanlıq kimi Rusiya himayəsinə qəbul olunmasını xahiş etdi.

Tezliklə Şeyxəli xan rus hökumətinə müraciət edərək onun sərəncamına altı min nəfərlik qoşun göndərilməsini xahiş etdi. Bu qoşunun köməyi ilə o, nəinki Dərbəndi geri almaq, həm də Bakı və Salyanı yenidən tabe etmək istəyirdi. Lakin rus hökuməti nə Şeyxəli xana, nə də Həsən xana yardım göstərmədi. Onların elçiləri hələ Rusiyada olduğu bir vaxtda qardaşlar barışdılar. Bu barışıq rus sarayı tərəfindən də bəyənildi. Heç bir tərəflə münasibətlərini korlamaq istəməyən rus hökuməti 28 avqust 1801-ci il tarixli fərmanla Həsən xanı Dərbənd, Şeyxəli xanı isə Quba hakimi kimi tanıdı (ПСЗ, c. 26, səh. 726-765).

**Şeyxəli xanla qardaşı Həsən xan arasında münaqişə.**

Bu zaman Quba xanlığının öz daxilində vəziyyət o qədər də yaxşı deyildi. A. A. Bakıxanovun yazdığına görə, 1800-cü ildə Dağıstanda taxıl çatışmamazlığı yaranmış və qəhətlik başlamışdı, təcili olaraq Dağıstanı taxılla təmin etmək lazım

idi. O vaxt Qubada yaxşı məhsul yetişdirildiyindən, Tarki şamxalının göstərişi ilə, oradan taxıl daşınması üçün 400 araba göndərildi, Şeyxəli xandan bir qədər narazı olan dərbəndlilər (çox güman ki, azacıq əvvəl Quba xanı tərəfindən oraya gətirilən iki min muzdlu dağıstanlı döyüşçüsünün əhaliyə verdikləri əziyyətə görə – T.M.) həmin arabaların öz torpaqlarından keçib Qubaya getməsinə yol vermədilər. Bu məsələni eşidən Şeyxəli xan Dərbənd əhalisini cəzalandırmaq qərarına gəldi. O, Məhəmməd Hüseyn bəyin əvəzinə bacısını Dərbənd naibi təyin etdi, eyni zamanda əhali içərisində nüfuzunu nəzərə alıb Sultan bəy Bayatı Dərbənd naibinin köməkçisi təyin etdi (Бакиханов, 181-182).

Lakin, Qazıqumuqlu II Surxay xan bu vəziyyətlə razılaşmayaraq, Şeyxəli xan Qubaya qayıdandan az sonra Həsən xanı Qaytaqdan öz yanına çağırmış və may ayının sonunda Dərbəndi yenidən ələ keçirmişdi. Surxay xan Həsən xanı Dərbənd hakimliyinə bərpa edərək, özü mülklərinə qayıtdı (Бакиханов, 182).

Tezliklə, yenidən Dərbənddə iğtişaş başladı. Buna səbəb xan sarayında Sultan bəy Bayatla Xıdır bəy Qorçi arasında baş verən mübahisə və döyüş oldu. Nəticədə Xıdır bəy öldürülmüş, Sultan bəy isə yaralanmışdı. Öz evinə qayıdan Sultan bəy hadisənin ertəsi günü Həsən xanın əmri ilə tutulub edam olundu. Sultan bəyin edamı dərbəndlilərin qəzəbinə səbəb oldu. Bundan istifadə edən Şeyxəli xan Şamaxı, Şəki və Bakı xanlarının, habelə şamxalın və akuşalıların köməyi ilə Dərbəndi mühasirə etdi. Mühasirədəkilərə yalnız Tabasaran qazisi yardım edirdi. Heç nəyə nail olmayan Şeyxəli xan 12 gündən sonra Qubaya qayıtmağa məcbur oldu. Onun səhhəti yenidən pisləşmişdi. Çox keçmədi ki, ətrafa Şeyxəli xanın vəfatı barədə yalan şayiə yayıldı və bu xəbər Surxay xana da çatdı. Qazıqumuq xanı Qubaya yeni hücuma keçdi və Ənik kəndi ətrafında Quba döyüşçülərini məğlubiyyətə uğratdı. Sonra o, Qubadan bir mil məsafədə yerləşən Zizik kəndinə gəlib dayandı, Şeyxəli xan xəstəlikdən ayağa durmağına baxmayaraq hələ

çox zəif olduğundan özünü müdafiəyə hazır deyildi. Belə bir böhranlı vəziyyətdə Quba xanının zövcəsi Ziba Nisə bəyim (II Mirzə Məhəmmədin bacısı) özünə ikinci ata saydığı Surxay xana xeyli hədiyyə yolladı. Düşmən tərəfindən olan ehtiram Surxay xanı Quba xanlığını tərk edib, öz mülkünə qayıtmağa vadar etdi. Surxayla Quba yürüşündə iştirak edən Həsən xan da, onun ardınca geri çəkildi (Бакиханов, 182).

Bir müddət sonra Şeyxəli xan qisas əlaməti olaraq Həsən xanın idarəçiliyində olan Ulus mahalına hücum edərək, bir neçə kəndin əhalisini Qubaya köçürdü. Beləliklə, Həsən xanın idarəçiliyində yalnız Dərbənd şəhəri qaldı (Бакиханов, 183).

Rus çarının 28 avqust 1800-cü il tarixli buyruğunda bir çox Azərbaycan xanlarına və Dağıstan hakimlərinə, o cümlədən Şeyxəli xan və Həsən xana öz aralarında sülh münasibətləri yaratmaları buyrulmuşdu. Bu buyruğun müəyyən nəticəsi oldu. Şeyxəli xan və Həsən xan Samur çayının sahilində görüşüb barışdılar və onların hər biri öz torpaqlarında qaldı. 1803-cü ildə Həsən xan ağır xəstələndi və vəfat etdi. Həsən xanın və Şeyxəli xanın əmisi qızı, həm də Şeyxəli xanın arvadı olan Ziba Nisə bəyim Şeyxəli xanı bağışladığını bildirib Dərbəndə çağırdı. Şeyxəli xan Dərbəndə gəldi, Həsən xanı bütün ədəb-ərkanı ilə dəfn etdi. İmam Qulu bəyi Dərbənd naibi təyin edib Bakıya qayıtdı (Бакиханов, 183-184).

**Mirzə Əsgərin Rusiyaya səfəri.**

1800-cü ilin ortalarında Peterburqa, imperatorun yanına bir sıra şimal-şərqi Azərbaycan xanlıqlarının, habelə Dağıstan hakimlərinin böyük bir elçi heyəti yollandı. Məqsədləri Rusiya dövləti tərəfindən himayəyə nail olmaq idi. Şeyxəli xanın nümayəndəsi Mirzə Əsgər, Dərbəndli Həsən xanın nümayəndəsi Hacı Tağı, Bakılı Hüseynqulu xanın nümayəndəsi Mirzə Hadı bəy, habelə Lənkəranlı Mir Mustafanın, şamxal Mehdi xanın, usmi Rüstəm xanın, Avarlı Ümmə xanın və Tabasaran qazisi Rüstəmin nümayəndələri də bu elçi heyətinin tərkibinə daxil idilər. Çar sarayında aparılan danışıqlardın sonra həmin

elçi heyəti üzvlərinin hər birinə öz xan və hakimlərinə təqdim olunmaq üçün məzmunları eyni olan ayrı-ayrı məktublar verilmiş və onlar yola salınmışdı. 1800-cü ilin avqust ayının 28-də imzalanan məktublarda yuxarıda adları çəkilən hakimlərə öz aralarında ümumi bir razılığa gəlmək və ittifaq yaratmaq təklif edilmişdi (Бакиханов, 182). Qeyd edək ki, belə bir təklif I Pavel tərəfindən 3 il əvvəl də Qafqaz qoşunları komandanı general Qudoviç vasitəsilə Azərbaycan və Dağıstan hakimlərinə bildirilmişdi. Bu zaman Rusiyanın başı Avropada bir sıra qlobal məsələlərə qarışmışdı. 1798-ci ildə Rusiya, İngiltərə və Avstriyanın iştirakı ilə, o zamanlar Avropa və Aralıq dənizi hövzəsində geniş işğalçılıq siyasətinə keçən Fransaya qarşı yeni birlik yaranmışdı. O vaxta qədər iki ənənəvi müttəfiq sayılan Fransa və Türkiyə arasında böyük ixtilafın yaranması Osmanlı imperiyasını Rusiyaya yaxınlaşdırdı və tarixdə ilk dəfə olaraq bu iki dövlət arasında 1799-cu ilin yanvar ayının 3-də İstanbulda ittifaq müqaviləsi imzalandı. «Əbədi ittifaq» müqavilənaməsi adlandırılan həmin sənədlə «padşahi-Ali-Osman» həzrətləriylə bütün rusiyalıların imperatoru arasında «əbədi dostluğun» yaranmasından bəhs edilir, Avstriya, İngiltərə və Prussiya da bu ittifaqa qoşulmağa dəvət edilirdi. «Türkiyə-Rusiya ittifaqı» 8 il müddətinə bağlanmış olsa da, bir il içərisində qüvvəsini itirmiş oldu. Napoleonun Misirdən getməsi, onunla I Pavelin yaxınlaşması ilə bu əbədi ittifaq lazımsız bir kağıza çevrildi. Rusiyanın Misirə hücum etmiş fransızlara qarşı mübarizə üçün göndərdiyi hərbi donanma 1799-cu ilin oktyabrında Qara dəniz istiqamətində geriyə hərəkət etdi (Azərb. tar. (1996), 572-573).

İngiltərə ilə İran arasında 1800-cü ilin dekabrında və 1801-ci ilin yanvarında imzalanan müqavilələr də nəticəsiz qaldı. Çünki tezliklə Fransaya qarşı Rusiya və İngiltərənin yaxınlaşması ingilislərin İran siyasətini zəiflətdi. Bütün bü siyasi dəyişikliklərə baxmayaraq XVIII yüzilliyin sonu – XX əsrin başlanğıcında yaranan belə mürəkkəb ziddiyyət heç də Qafqazın, o cümlədən Azərbaycanın Rusiya tərəfindən «unudulma-

sı» demək deyildi. Rusiyaya ayrı-ayrı xanlıqlar deyil, birləşmiş Azərbaycan xanlıqlarından ibarət bir dövlət- ittifaq lazım idi, çünki, belə bir ittifaqın olmaması onun öz xarici siyasətini yürütmək xəttini çətinləşdirirdi.

1800-cü ilin sonunda Quba elçisi Mirzə Əsgər yenidən Peterburqa səfər etdi. Xanın I Pavelə məktubunda Qubaya rus döyüşçülərinin göndərilməsi təklifi irəli sürülür, «əgər Siz bizə döyüşçü göndərsəniz... biz onların köməyi ilə mənim düşmənim şirvanlı Mir Mustafa xanı məhv edərik... Talışdan Şəkiyə qədərki bütün torpaqları Rusiyaya birləşdirərik» (Мамедов, 641) deyilirdi. Amma, Rusiya Quba xanının həmin təklifini qəbul etmədi, hələlik tələsməməyi məsləhət gördü.

**Georgiyevsk müqaviləsi.**

1801-ci ilin mart ayının 12-də Rusiya imperatoru I Pavel sui-qəsd nəticəsində həlak oldu və onun yerinə I Aleksandr (1801-1825) çar taxtına çıxdı. Yeni çar taxta əyləşdiyi gündən Qafqaza, o cümlədən Azərbaycan xanlıqlarına qarşı bir sıra ciddi tədbirlər həyata keçirməyə başladı. O, ilk növbədə Şərqi Gürcüstanı Rusiyaya birləşdirdi (1801). Qarşıda Qafqazın başqa vilayətlərinin birləşdirilməsi kimi mühüm məsələ dururdu.

I Aleksandr əvvəlcə atası I Pavel kimi Rusiyanın himayəsi altında Şimali Qafqaz birliyi yaratmağa cəhd edirdi. 1801-ci ildə Şeyxəli xan Dərbənd və Lənkəran xanları kimi I Aleksandrı taxta çıxması münasibətilə təbrik etmək üçün öz elçisini Peterburqa göndərdi. Yeni imperator elçiləri yardımla ümidləndirdi və xaricdən basqın təqdirində birləşib, onu öz qüvvələri ilə dəf etməyi məsləhət gördü. Danışıqlar zamanı rus hökuməti yenidən Azərbaycan və Dağıstan hakimlərinin federasiyasını yaratmaq məsələsini qaldırdı. I Aleksandr bu federasiyanın yaradılması üçün müvafiq buyruqlar verdi (Мустафаев Дж., 102). I Aleksandrın tapşırığı ilə general Sisianov xanlarla danışıq aparmaq üçün Georgiyevsk şəhərində görüş təşkil etdi. Orada Quba, Bakı, Lənkəran (Talış) xanları, Tarki şamxalı,

Qaraqaytaq usmisi, Tabasaran qazisi toplaşmalı idilər. Lakin danışıqlarda Azərbaycandan yalnız Quba və Lənkəran xanlarının nümayəndələri iştirak edirdilər. Dekabrın 26-da «Georgiyevsk müqaviləsi» imzalandı. Giriş və 12 maddədən ibarət olan bu müqaviləyə görə xanlar aralarında olan düşmənçilik, narazılıq və çəkişmələri bir tərəfə qoyacaqlarına, mübahisələri dinc yolla həll edəcəklərinə, İranın hücum edəcəyi halda ona qarşı birgə çıxış edəcəklərinə söz verdilər. Müqavilənin bəndlərindən beşi ticarət məsələlərinin tənzimlənməsinə həsr edilmişdi. Yerdə qalan bəndlər hərbi-siyasi məsələlərdən, ilk növbədə güclənməkdə olan İran təhlükəsinin dəf edilməsindən bəhs edirdi. Müqaviləni imzalayan tərəflər belə bir təhlükənin yarandığı şəraitdə Qavqazdakı rus qoşunlarının baş komandanının rəhbərliyi altında öz qüvvələrini birləşdirməyi öhdələrinə götürdülər (Azərb. tar. (1996), 576). Əslində, bu müqavilənin imzalanması tədqiqatçı C.Mustafayevin qeyd etdiyi kimi, XVIII əsrin 80-ci illərində rus diplomatiyasının aludə olduğu Rusiyanın cənub sərhədlərində İran və Türkiyə təhlükəsinə qarşı «sədd» yaratmaq ideyasının davamı idi (Мустафаев, 142). Lakin «birliyə» qoşulan tərəflər tezliklə İranın deyil, məhz Rusiyanın təcavüzünə məruz qaldılar.

**Rusiyanın qəti surətdə Azərbaycanı işğal etməyə başlaması və Quba xanlığı.**

Məlum olduğu kimi 1803-cü ildə Rusiya çarizmi qəti surətdə Azərbaycanı işğal etməyə girişmişdir. Beynəlxalq şərait Rusiya təcavüzünə əlverişli şərait yaradırdı. Belə ki, əsas rəqibi Napoleon Fransasına qarşı mübarizədə Rusiyanın yardımına kəskin ehtiyac hiss etdiyindən İngiltərə müvəqqəti olaraq Rusiyanın cənub istiqamətində eksnansiyasına fəal müqavimət göstərmirdi. Cənubi Qafqaz uğrunda mübarizənin digər mühüm rəqibi Osmanlı dövləti də bu zaman daxili iqtisadi – siyasi böhran içərisində idi və eyni zamanda cəmi bir-iki il əvvəl Napoleon Fransasının təcavüzünə məruz qalmış və bu za-

man hətta yardım üçün əzəli düşməni Rusiyaya belə müraciət etməli olmuşdu.

Azərbaycanın daxili siyasi vəziyyəti rus işğalları üçün əlverişli şərait yaradırdı. Rusiyaya bir o qədər də etibar etməsələr də öz qüvvələri ilə Rusiya və Qacarlara müqavimət göstərə bilməyəcəklərini anlayan Azərbaycan xanları Rusiyanın onların istiqlaliyyətini qoruyacağı haqqında yalan vədlərə uyaraq müəyyən dərəcədə Rusiyaya meyl edirdilər. Bu isə Azərbaycan xanlarının Rusiya təcavüzünə qarşı vahid cəbhəsini təşkil etməyə imkan vermirdi.

1802-ci ilin sentyabr ayında Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilmiş qədim gürcü zadəgan nəslindən çıxmış, ancaq tərbiyəcə rus olan general P.D. Sisianov (Pavel Dmitriyeviç Siskişvili) Cənubi Qafqazda rus müstəmləkə siyasətinin icraçısı oldu. Sisyanov Azərbaycan xalqına həqarətli və amansız münasibəti ilə fərqlənirdi.

1802-ci ildə Həsənəli xan öldükdə Şeyxəli xan Dərbəndi yenidən Quba xanlığına birləşdirib, eyni zamanda Bakı xanlığına öz iddiasını bildirdikdə (Дубровин (1866), 77) Sisiyanov bundan bərk hiddətlənərək Dərbəndi ələ keçirmək istəmişdi. O, 1803-cü ilin yanvar ayında qraf Voronsova yazırdı ki, əlverişli vaxtda Dərbəndi tutmaq lazımdır, çünki bu ona verilmiş göstərişin ümumi planına uyğundur (AKAK, c. 1, sən. 757).

Çar bütün dağlı hakimlərin etimadını itirməkdən qorxaraq hələlik Quba xanlığına hücuma icazə vermədi (AKAK, c. 1, sən. 782).

Əgər əvvəllər – XVIII əsrdə Rusiyanın Azərbaycana iki hücumu Dərbənddən keçməklə yönəlmişdisə bu dəfə hücum Car – Balakən və Gəncə istiqamətindən başladı. Çünki 1801-ci ildə Şərqi Gürcüstan birləşdirildikdən sonra Rusiya burada əlverişli platsdarm əldə etmişdi. Sisianov ilk zərbəni Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə yeləşən Car – Balakən camaatlarına yönəltdi. 5 minlik gürcü qoşununun da yardım etdiyi gen. Qulyakovun başçılıq

etdiyi rus hərbi hissələri 1803-cü ilin mart – aprel aylarında yerli əhalinin amansız müqavimətini qırıb Balakəni alıb yandırdılar, sonra isə Carı işğal etdilər (Azərb. tar., IV c., s. 18).

Rus qoşunlarının Azərbaycan daxilinə sonrakı irəliləyişinin açarı Gəncə qalası idi. Buna görə də gen. Sisianov Gəncə xanlığının ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. Gəncəyə iddia edən bir sıra gürcü feodallarının baxışlarına şərik olan Sisianov Gəncə xanlığı ərazisininçariça Tamara dövründə Gürcüstanın tərkibində olduğunu iddia edərək, şəhəri təslim etməyi tələb etdi və bildirdi ki, tələbi qəbul olunmasa «Gəncəyə atəş və qılıncla gələcək» (AKAK, c. II, səh. 1172, s. 588-589). Cavad xan işğalçının tələblərini rədd etdi və müqavimətə hazırlaşdı. Bir ay davam edən mühasirədən sonra 1804-cü il yanvarın 2-dən 3-nə (14-dən 15-nə) keçən gecə rus qoşunları həmlə ilə Gəncəni aldılar. Cavad xan və onun oğlu Hüseynqulu ağa qəhrəmancasına döyüşərək həlak oldular (Azərb. tar., IV c., s. 19). Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi. Şəhərin adı dəyişdirilərək I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol qoyuldu.

Rus qoşunlarının Cənubi Qafqazda irəliləməsi İranın kəskin narazılığına səbəb oldu və Fətəli şah 1804-cü ilin may ayında rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdi və 1804-cü il iyulun 10-(22)-da Rusiya – İran müharibəsi başladı. Cənubi Qafqazdakı rus qoşunlarının sayı az olsa da komandanlıq hücum taktikasını seçdi. 1804-cü ilin iyul ayında İrəvan xanlığı ərazisində baş verən döyüşdə rus qoşunu sayca üstün olan İran qüvvələri üzərində qələbə çaldı. Lakin yeni, daha çox saylı İran qüvvələrinin Cənubi Qafqaza gəlib Gəncəyə tərəf irəliləməsi rus qoşunlarını İrəvandan geri çəkilməyə vadar etdi (Azərb. tar., IV c., s. 21).

Bir sıra Azərbaycan xanlıqları asılı şəkildə olsa da öz mövcudluqlarını qorumaq üçün Rusiyanın təbəəliyini qorumaq haqqında müqavilələr imzaladılar. 1805-ci il mayın 14-(26)-də Sisianovun Kürəkçay düşərgəsində onunla qarabağlı İbrahimxəlil xan arasında bağlanmış müqaviləyə görə xan rus impera-

torundan vassal asılılığı qəbul etdi. Xan xarici siyasət səlahiyyətlərini bütünlüklə Rusiyaya güzəştə getdi və ildə 8 min əşrəfi bac verməyi öhdəsinə götürdü. Rus çarı öz növbəsində xan sülaləsinin bütün hüquqlarını qorumağı öhtəsinə götürdü. Bir həftə sonra şəkili Səlim xanla da eyni məzmunda müqavilə bağlandı (Azərb. tar. (1996); AKAK, c. 1, s. 705). Bundan sonra Sisianov öz hərbi qüvvələri ilə Şamaxı xanlığının ərazisinə daxil oldu və şamaxılı Mustafa xanı 1805-ci il dekabrın 27-də (yeni üsulla 1806-cı il yanvarın 8-də) Rusiya təbəəliyinə keçmək haqqında müqaviləni imzalamağa vadar etdi (Azərb. tar., IV c., s. 24).

Hələ 1805-ci ilin avqust ayında rus hərbi donanması Bakı limanına yaxınlaşmışdı. Hüseynqulu xan təslim olmaq tələbini rədd etdiyindən rus donanmasının komandanı gen. Zavalişin şəhəri atəşə tutmağa və mühasirəyə almağa başladı. Hüseynqulu xan şahdan yardım istədi. Şahın vəliəhdi Abbas Mirzə urmiyalı Əsgər xana öz qüvvələri ilə Bakının yardımına getməyi əmr etdi. Qubalı Şeyxəli xan da Bakıya yardım etməyə hazırlaşırdı. Gen. Zavalişin Bakıya İran və Quba tərəfindən yardım ediləcəyindən xəbər tutaraq Bakı ətrafından çəkildi və Lənkəranın yaxınlığındakı Sara adasında düşərgə saldı (Бакиханов, 186, Azərb. tar., IV c., s. 25).

Bu hadisə rus komandanlığının Şeyxəli xana düşmən münasibətini daha da artırdı. Şeyxəli xanı Rusiyanın düşməni hesab edən gen. Sisyanov Şamaxılı Mir Mustafa xandan Quba xanı ilə heç bir şəkildə əlaqəyə girməməyi tələb etdi (Мамедов, 31-32).

Şamaxını tabe edən gen. Sisianov 1806-cı ilin fevral ayında özü böyük qoşun dəstəsi ilə Bakı ətrafına gəldi və burada gen. Zavalişinin desant dəstəsi ilə birləşdi. Sisianov Hüseynqulu xandan Rusiya təbəəliyini qəbul etməyi tələb etdi. Bakı xanlığı nəinki Rusiya hakimiyyətini qəbul etmiş digər Azərbaycan xanları kimi xarici siyasət hüququndan məhrum olunurdu, həm də xanlığın bütün gəlirləri rus xəzinəsinə göndərilməli, xan isə ildə cəmi 10 min rubl məvacib almalı idi.

Bakı qalasında rus qarnizonu yerləşdirilməli və xan hərbi məsələlərdə Qafqazdakı rus qoşunlarının baş komandanının sərəncamlarına tabe olmalı idi (АКАК, c. 2, səh. 1511, s. 738; Искендерова, 150).

Hüseynqulu xan bu şərtlərlə razılaşdığını bildirdi və fevralın 8-də Sisianov polkovnik Eristavinin müşaiyəti ilə onu qala darvazalarının önündə gözləyən Hüseynqulu xanın görüşünə getdi. Məlum olduğu kimi görüş zamanı Sisianov Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürülmüşdür. Gen. Zavalişin rus qoşunlarını Bakıdan Sara adasına, oradan da Qızlara aparmağa məcbur oldu (İskenderova, 154-154). Bəzi ehtimallara görə Sisianov Şeyxəli xanın məsləhəti və hətta iştirakı ilə qətlə yetirilmişdi (Искендерова, 154).

1805-ci ildə rus hərbi-dəniz eskadrası Bakını ələ keçirdi. Bu dövrdə Quba xanının İran sarayı ilə əlaqəsi xeyli artmışdı. Fətəli şah tez-tez Qafqaz hakimlərinə, o cümlədən Şeyxəli xana onları Rusiya əleyhinə çıxışa təhrik edən fərman və məktublar yollayırdı. Şeyxəli xan da öz növbəsində Tehrana bir elçi yollayaraq şaha «Rusiyaya qarşı hərəkətə hazır olduğunu» xəbər verirdi. Quba xanı rus kafirlərinə qarşı çıxmaq üçün öz müttəfiqlərini də təşviq edirdi. 1805-ci ilin iyul ayının 1-də Şeyxəli xan və bir sıra Dağıstan hakimləri şah sarayına elçi yollamış, Rusiya ilə mübahisə baş verəcəyi təqdirdə İrana tərəfdar olacaqlarını bildirmişdilər. General Qlazenapın 1805-ci ilin avqustunda çara göndərdiyi bir raportda deyilirdi ik, «Şeyxəli xan İran şahı Baba xanla (Fətəli şahla – T.M.) ittifaqa girib, başqa xanları da bu işə təhrik edir» (Мамедов, 30).

1806-cı ildə Abbas Mirzə Qarabağdan keçərək Şirvana gəldi və Ağsuya hücum etdi. Şeyxəli xan Abbas Mirzənin qoşunundan sərdar Pirqulu xan Qacarın başçılığı ilə bir dəstəni Qubaya dəvət etdi, özü isə Bakılı Hüseynqulu xanla birlikdə Abbas Mirzənin yanına getdi.

**Quba xanlığının rus qoşunları tərəfindən işğalı**

1806-cı il iyun ayının 2-də general Qudoviç Qafqazdakı rus qoşunlarının baş komandanı təyin olundu. Rus qoşunları yenidən Azərbaycanda fəallaşdılar. İyunun 3-də general Qlazenapinin dəstəsi Dağıstana daxil oldu və Tarkı Şamxalı Mehdi xan öz qüvvələri ilə onunla birləşdi (Козубский, 131).

Qeyd edək ki, Mehdi xan çoxdan rusların xidmətində idi və ona hətta general-leytenant rütbəsi verilmişdi. Mehdi xan Fətəli xanın qızı Pəricahan xanımla evli olduğundan Dərbəndə iddia edirdi. Mehdi xanın casusları Dərbəndə gələrək Şeyxəli xana qarşı təbliğat apardılıar. Şeyxəli xandan müəyyən qədər narazı olan dərbəndlilər bu təbliğata uydular və Şeyxəli xana qarşı ayaqlandılar. Yəqin ki, Şeyxəli xanın bəzi özbaşınalıqları əhalidə ona qarşı narazılıq yaratmışdı. Eyni zamanda N.Dubrovinin belə bir iddiası ilə razılaşmaq çətindir ki, guya Şeyxəli xan «xoşuna gələn qızları qaçırır, qadınları ərlərindən alır, sonra isə onları yenidən öz evlərinə qaytarırdı» (Дубровин, IV с., 63). Əgər xan şəriət normalarını lap belə kobudluluqla pozmuş olsaydı dərbəndlilər onu qovmaq yox, öldürərdilər. Əslində isə guman ki, Dərbənd sakinləri Şeyxəli xanı qovmaqla həm də 1796-cı ildə göstərdikləri müqavimətə görə rusların qisasından yaxa qurtarmaq istəyirdilər. Şəhər hakimi seçilən Əlipənah bəy Boyat rus qoşunlarını şəhərə dəvət etdi (Броневский, 335; Алкадари, 121).

1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən tutuldu. Ulus mahalı şamxal Mehdi xanın idarəsinə, Dərbənd şəhəri isə mayor rütbəsi almış Əli Pənah bəyin idarəsinə verildi (Бакиханов, 189).

1806-cı il oktyabrın 3-də Bakını döyüşsüz tutan ruslar növbəti hədəf kimi Qubanı seçdilər. Bakıda bir batalyon və Bakı limanında hərbi donanma saxlayan general Bulqakov noyabr ayının 11-də Qubaya doğru hərəkət etdi. Rus qoşunlarının yaxınlaşmasından qorxan Quba şəhərinin əhalisi Şeyxəli xanın başçılığı ilə dağlara çəkildi. Rus qoşunları boşalmış şə-

hərə daxil oldular (РГВИА, ф. ВУА, iş 6164, v. 141-144; Материалы по ист. Даг., c. 3, his. 1, s. 43). Bulqakov general Qudoviçdən «Quba xanlığını dərhal ləğv etmək…», ən etibarlı bəyləri öz tərəfinə çəkib daxili idarəetməni və gəlirlərin toplanmasını həmin bəylərə tapşırmaq və ştab-ofiserin başçlığı ilə orada iki kazak polku saxlamaq haqqında göstəriş aldı (Мамедов, 32).

Şeyxəli xanın ruslara qarşı öz taktikasını dəyişməkdən və əfv xahişi etməkdən başqa çarəsi qalmamışdı, o zahiri itaət göstərib girovlar verdi. (Гаджиев, 186-187; Bakixanov, 189-190). Lakin, 1806-cı ilin sonlarında ruslara qulluq göstərmək istəməyən Şeyxəli xan ümumiyyətlə hakimiyyətdən kənar elan edildi. Gen. Bulqakov nüfuzlu bəylərin ailələrindən 10 nəfəri girov götürərək xanlığın idarəsini başda rus zabiti olmaqla bəylər şurasına tapşırdı. Hacı bəy isə (guman ki, Şeyxəli xanın vəziri olmuş buduqlu Hacı bəy) xanlığın naibi təyin olundu. Qudoviç Şeyxəli xanı xanlığın kəndlərinə buraxmamağı, imkan düşən kimi onu tutmağı tapşırıb xanı tutana 500 əşrəfi mükafat da vəd etdi (AKAK, III c., sən. 58).

Lakin Şeyxəli xan əvvəlki kimi xanlığı idarə etməkdə davam edir, vergi toplayırdı. Hacı bəyin xalq arasında heç bir nüfuzu yox idi və əhali Şeyxəli xana itaət edirdi (AKAK, III c., sən. 746). Şeyxəli xan Surxay xanla birləşib rus qoşunlarına zərbələr endirməkdə davam edirdi (Дубровин, V c., 82).

**Rus işğalına qarşı xalq üsyanı.**

Quba ruslar tərəfindən işğal olunduqdan sonra Şeyxəli xan onlarla münasibətləri yaxşılaşdırmaq üçün bəzi manevrlərə əl atsa da, rus komandanlığı qətiyyən ona inanmırdı. 1806-cı ilin sonlarından isə xan açıq-açığına ruslara qarşı çıxış etməyə başlayır. O, geniş hərbi əməliyyatlara, partizan müharibəsinə hazırlıq məqsədilə xanlıq əhalisini dağlara köçürməyə çalışırdı. Lakin Şeyxəli xanın göndərdiyi dəstə yola çıxmış qubalılarla birlikdə rus generalları Qlazenap və Lukaşovun qoşunları tərəfindən mühasirəyə alındılar. Xanın dəstəsi mühasirədən

çıxa bilsə də, əhali geri dönməli oldu (AKAK, III c., sən. 746).

Şeyxəli xanın ağır vəziyyətdən istifadə edən şamaxılı Mustafa xan ondan intiqam almaq üçün 1806-cı ilin sonlarında Şamaxıdakı rus qoşunlarının yardımı ilə Quba xanlğının ərazisini işğal etməyə başladı. Şeyxəli xan Tabasarana yeznəsi Abdulla bəyin yanına çəkildi. Sonra Dargin mahalından 5 min döyüşçüsü toplayıb yenidən Quba xanlığının ərazisini ələ keçirdi. Yalnız Quba şəhəri rusların əlində qalmışdı (Алкадари, 121-122).

Şeyxəli xan Qacarların yardımına böyük ümidlər bəsləyirdi. O, şahın məmuru Mirzə Şəfiyə yazırdı: «Mən indiyədək ruslara müqavimət göstərməkdə davam edirəm. Məndən üz döndərən qubalılar üzr istəyərək yenidən sədaqətli olacaqlarını bildirirlər. Rusların döyüş ruhu getdikcə zəifləyir. Kür sahilindən Dağıstanədək olan bütün əhali ruslardan o qədər cana doyub ki, sizin ordunuz Şamaxıya gələn kimi bütün yerlər ruslardan təmizlənəcək» (AKAK, III c., sən. 543).

Qudoviç Quba xanlığına ümumi rəhbərliyi Bakı komendantı Quryevə tapşırdı. O, Şeyxəli xana qarşı mübarizəyə yerli hakimləri də cəlb etmək qərarına gəldi. Həlledici əməliyyat planını hazırladı. Planın qerçəklişdirilməsinə Şamxal, şamaxılı Mustafa xan və şəkili Cəfərqulu xan cəlb edilirdi (AKAK, III c., sən. 543, 656).

Lakin Bulqakovun başçılıq etdiyi rus qoşunları Quba ərazisini tərk edən kimi yerli əhalidə ruslara qarşı münasibətin kəskin surətdə dəyişilməsi, hazırlanan planı həyata keçirilməsinin təxirə salınmasına səbəb oldu.

Rus hakimiyyət orqanlarının hədə-qorxularına baxmayaraq 1807-ci ildə də Şeyxəli xan xanlıq ərazisindən vergilər yığmaqda, əhalidən hərtərəfli maddi yardım almaqda davam edirdi. 1807-ci ilin fevralına aid sənədlərdən birində deyilirdi ki, yerli bəylərdən biri xanın adı ilə 14000 rubl məbləğində vergi toplayıb (AKAK, III c., sən. 748-749).

Rus hərbi hakimiyyət orqanları Şeyxəli xanın qüvvəsini birdəfəlik yox etmək üçün Quba xanları ilə Şamaxı xanları arasında olan ədavətdən istifadə etmək qərarına gəldilər. Rus zabitlərinin təhriki ilə Şamaxılı Mustafa xan 1807-ci ildə Quba şəhərinin 17 verstliyində yerləşən mahallara qarətçi basqınlar edərək, sakinlərin bir çoxunu öz xanlığının ərazisinə köçürmüşdü (AKAK, III c., sən. 315). Buna cavab olaraq Şeyxəli xan 1808-ci ildə Şamaxıya hücum edib, oranın bəzi yerlərini qarət etdi.

1808-ci ilin oktyabrın 20-də Şeyxəli xanın iki dəstəsi ayrı-ayrı yerlərdə şamaxı və rus qoşunlarına həmlə etmişdi. Ruslardan xeyli əsir götürməyə nail olmuş xan noyabrın 24-də Qudyalçaydan 4 verst aralıda Sevastopol alayının hissələri ilə döyüşə girmişdi. Lakin Şeyxəli xan bu döyüşdə məğlubiyyətə uğramış və tərəfdarları ilə birlikdə dağlara çəkilməyə məcbur olmuşdu (AKAK, III c., sən. 756). Mustafa xan Şeyxəli xanın bu hərəkətindən qəzəblənərək, Şamaxıdakı rus qoşununun komandiri Tixonovski ilə birləşdi və Qubaya tərəf hərəkət etdi. Bir neçə döyüşdən sonra Məlik Hacı bəyin oğlu Məlik bəy bir çox bəylərlə birlikdə Şeyxəli xana xəyanət edib, ruslar tərəfinə keçdi. Quba xanı ona sadiq olan adamlarının böyük bir hissəsi ilə Tabasarana getdi. Orada özünün ətrafına Dağıstanın müxtəlif tayfalarından döyüşçü cəlb edib, 1809-cu ilin əvvələrində yenidən qayıtdı və Şabrana yaxınlaşdı (Бакиханов, 191). Şeyxəli xanla Bakıdan Qubaya köməyə gedən kiçik bir rus dəstəsi arasında atışma baş verdi. Şeyxəli xanın Qubaya yaxınlaşması xəbərini eşidən general-mayor Quryev təcili ona qarşı çıxmaq üçün yola düşdü. Quryevin qoşunu ilə toqquşmada məğlub olan Şeyxəli xan Sərxi kəndinin yaxınlığında uğursuzluğa düçar olub, yenidən Tabasarana getdi. Bu hadisədən sonra, 1809-cu ilin yanvarında ruslar rəsmən Quba xanlığını ləğv etdilər və əyalətə çevirdilər, oranın idarəsi Bakının və Qubanın alınmasında ruslara xüsusi xidməti olmuş bakılı II Mirzə Məhəmməd xanın başçılıq etdiyi dörd nüfuzlu bəydən ibarət

idarə heyətinə tapşırıldı. Mayor Ryabin bu heyəti fəaliyyətinə nəzarət edirdi (Бакиханов, III c., sən 756)

Qudoviç 11 yanvar 1809-cu il tarixli bir məlumatında çar sarayına yazırdı: «Mən Quba mülkiyyətinin ... xəzinəmizin adına yazılması və gəlirlərinin xəzinəyə yığılması barədə sərəncam verdim» (Мамедов, 34).

Şeyxəli xan isə o vaxt Tabasaranın Yerti kəndində, kürəkəni Abdulla bəyin evində (Tabasaran qazisi Rüstəmin oğlu idi – T.M.) dincəlirdi. Qardaşları və əmisi Qazı Mirzə ilə birlikdə Abdulla bəy tez-tez rusların olduqları Dərbəndə və Qubaya həmlələr təşkil edirdi. Ruslar vəziyyəti belə görüb, hiyləyə əl atdılar. Onlar Tabasaranın bir sıra bəyləri və Dərbənd qoşunu ilə birləşərək Qazı Mirzəni cəzalandırmaq üçün Mehrağa kəndinə hücum etdilər. Şeyxəli xanın Qazı Rüstəmin oğlanları ilə birlikdə Qazı Mirzənin köməyinə gəlməsinə baxmayaraq ruslar qalib gəldilər, kəndi qarət edib Dərbəndə qayıtdılar (Бакиханов, 191).

Şeyxəli xan ruslara qarşı mübarizəni dayandırmaq fikrində deyildi. General Repin qraf Qudoviçə göndərdiyi 14 aprel 1809-cu il tarixli 406 saylı raportunda yazırdı ki, aldığı məlumata görə Şeyxəli xan Qazıqumuqlu Surxay xanla ittifaq bağlayıb birgə qüvvə ilə Quba ərazisinə hücum etməyə hazırlaşır. Quba bəylərinin Rusiyada sədaqətinə şübhə edən Repin Quba qalasında hərbi iştirakı gücləndirməyi və heç olmazsa əlavə min əsgər göndərməyi təklif edirdi (AKAK, III c., sən. 763).

1809-cu ilin aprelində gen. Qudoviç gen. Tormasovla əvəz olundu. yeni baş komandan əsas diqqətini Şeyxəli xanı zərərsizləşdirməyə yönəltdi. O yazırdı ki, Şeyxəli xanı zərərsizləşdirmədən Quba və Dərbənd xanlığında sakitlik yaratmaq mümkün deyil (Umudov, 103).

Qubalıların müqavimətini qırmaqdan ötrü rus müstəmləkəçiləri Şeyxəli xanın aradan götürülməsi üçün hər vasitəyə əl atırdılar. Gen. Repin gen. Tormasova 25 iyun 1809-cu il tarixli 4 saylı raportunda yazırdı ki, Şeyxəli xanın öldürülməsi

və ya tutulması üçün əlindən gələni edir, çünki, Quba və Dərbənddə böyük nüfuzu olan bu adam Rusiya üçün böyük təhlükədir və o, nə qədər sağsa diyarda sakitlik yaratmaq mümkün olmayacaqdır (AKAK, IV c., sən. 992).

Repin Tormasova daha sonra Şeyxəli xanı öldürmək üçün iki nəfər adam seçdiyini yazırdı. Bunlar Dərənd şəhərinin naibi Alfan (ola bilsin ki, Aslan – T.M.) bəy və qubalı Xambutay bəy idi. Onların hər biri Şeyxəli xandan öldürülmüş iki qardaşlarının intiqamını almaq istəyirdilər. Repin Şeyxəli xanı öldürənə dərhal 1500 əşrəfi verəcəyini qət etmişdi (AKAK, IV c., sən. 992).

Eyni zamanda gen. Repin hesab edirdi ki, Şeyxəli xanı öldürtmək mümkün olmadığı halda, Rusiyanın eyni vaxtda həm İranla, həm də Türkiyə ilə müharibə apardığını nəzərə alaraq manevr etmək olar, yəni Şeyxəlini yenidən Quba xanı kimi tanımaq olar. Repin bu məsələ ilə bağlı yazırdı: «Onu öldürə bilmədiyimiz halda axırıncı vasitə kimi Şeyxəli xana Qubanı ətraf kəndləri ilə birlikdə vermək və onu traktat ilə Rusiyanın təbəəliyinə qəbul etmək lazım gələcəkdir.. ancaq ümid etmirəm ki, Şeyxəli xan bu qədər bədbəxt hadisələrdən sonra Tiflisə və ya Bakıya gəlsin» (AKAK, IV c., sən. 992).

Quba və onun ətrafında vəziyyət getdikcə gərginləşməkdə idi. Repin 1809-cu ilin iyul ayında Qubadan çıxarılıb Dərbəndə göndərilmiş hərbi hissənin dərhal geriyə qaytarılmasını tələb edirdi. Bununla Qubada rus qoşunlarının miqdarını 3 bölüyə çatdırmaq olardı. General belə hesab edirdi ki, bu sayda qoşun Qubanı nəzarət altında saxlamaq üçün kifayət etsə də silahlı xalqla mübarizə üçün kifayət deyildir. Repin belə hesab edirdi ki, Şeyxəli xan Qubaya zərbə endirərsə, əhalinin böyük əksəriyyəti onun tərəfinə keçər. 1810-cu ildə Fətəli şahın nümayəndələri Şeyxəli xanın da yanında olmuş, ruslara qarşı döyüşdüyünə görə ona qiymətli hədiyyələr və pul göndərmişdilər. Osmanlı sultanı da Azərbaycan və Dağıstan hakimlərini öz tərəfinə çəkmək üçün «şirnikləndirmə» üsulundan istifadə edirdi. Şeyxəli xan il yarım Tabasaranda qaldıqdan

sonra Xanbutay bəylə və başqa Quba əyanları ilə birlikdə hərəkət edib, 1810-cu ildə rusları keçmiş Quba xanlığı ərazisindən qovub çıxarmağa müvəffəq oldu və 4 ay müddətində Quba vilayətini idarə etdi. Rusların hamısı onun qorxusundan Quba şəhərinə sığındılar (AKAK, IV c., sən. 1013).

Şamaxılı Mustafa xanın nümayəndəsinin Qubada xanlığın danışıqlar nəticəsində yenidən Şeyxəli xana qaytarılmasını rəsmən elan etməsi usyanın başlanmasına təkan verdi (Umudov, 103). Əhali ayağa qalxıb Şeyxəli xanı Qubaya çağırdı. Şeyxəli xan əlverişli fürsətdən istifadə edərək Quba istisna olmaqla xanlığın qalan ərazisində öz hakimiyyətini bərpa etdi (AKAK, III c., sən. 1040; Дубровин, История, V c., 371). Quba şəhərində yerləşən 2 rus alayı üsyançılara qarşı çıxmağa cürət etmədi. O, eyni zamanda ruslardan Quba şəhərini tərk etməyi tələb etdi. Rədd cavabı alıb şəhəri mühasirəyə aldı (Umudov, 104).

Bakıdan mühasirədəki qoşunların yardımına göndərilən rus hərbi dəstəsi Gilgilçay ətrafında mühasirəyə alındı.

Polkovnik Adriano gen. Bulqakova 15 avqust 1810-cu il tarixli 543 saylı raportunda yazırdı ki, Quba vilayəti qiyam etmişdir; Şeyxəli xanı Tabasarandan dəvət etmişlər və o, buraya tabasaranlılarla gəlmişdir (AKAK, IV c., sən. 1013).

Gen. Repin general Tormasova 1810-cu il avqustun 16-sı tarixli 1040 saylı raportunda yazırdı ki, mayor Levitski ayın 12-si səhər tezdən dəstəsi ilə Xıdırzində postundan hərəkət edərkən Şeyxəli xanın dəstəsinin basqınına məruz qalmışdır. Levitskinin sözlərinə görə sayı 5 min nəfərə çatan üsyançılar onun Qubaya yolunu kəsmişdilər. Buna görə də Levitski geriyə - Bakıya qayıtmaq məcburiyyətindədir (AKAK, IV c., sən. 1013).

Repin yazırdı ki, o, Bakı qarnizonunun 3 bölüyündən daha birini Levitskinin yardımına göndərmək istəyirdi, lakin bakılıların ruslara mənfi münasibətini hiss etdiyindən qalanı yalnız 2 bölük ilə qoymaq istəmir. General yazırdı: «Yırtıcılar Quba ilə hər cür əlaqəni kəsmişlər, Buduq mahalı da daxil ol-

maqla bütün Quba əyaləti qiyam etmiş və Şeyxəlinin tərəfinə keçmişdir, qubalıları sakitləşdirmək üçün Siz cənabınızdan tezliklə bir yeger taboru, bir muşketyor taboru və kazak alayının heç olmazsa yarısını təcili göndərməyi xahiş etməkdən başqa ayrı çarə görmürəm. İki batalyon qoşununun yerləşdiyi Quba şəhəri təhlükəyə məruz qalmamışdırsa da, onu mühasirə edən yırtıcılar hər cür əlaqəni kəsmişlər və orada yerləşən qoşun yalnız avqust ayı üçün ərzağa malikdir…» (AKAK, IV c., sən. 1013).

General Repin gen. Tormasova göndərdiyi 16 avqust 1810-cu il tarixili raportunda bununla əlaqədar yazırdı: «Bütün Quba əyalətinin əhalisi üsyan qaldırmışdır. Hamı «sağ olsun xan, yaşasın xan!» - deyə qışqırır. Quba ilə bütün əlaqələr kəsilmişdir. Buduq mahalını çıxmaqla, bütün Quba əyaləti üsyan qaldırmışdır və Şeyxəli xanın tərəfinə keçmişdir» (AKAK, IV c., sən. 1013, səh. 657-669).

Şeyxəli xan Qrız kəndini özünə müvəqqəti iqamətgah seçərək buradan xanlığı idarə etməyə başladı. A.A. Bakıxanova görə, Şeyxəli xan Qrız kəndinin yaxınlığında yeni şəhər salmağa və kəndi genişləndirməyə başladı. Görünür ki, yeni yaradılacaq şəhər istehkam xarakteri daşımalı idi. (Бакиханов, 193)

Beləliklə, keçmiş Quba xanlığı ərazisində rus müstəmləkəçilərinə qarşı xalq üsyanı başlamışdı. Şeyxəli xanın başçılıq etdiyi bu üsyanda bəylər, maaflar, ruhanilər, kəndlilər iştirak edirdilər. Bunu rus hərbiçiləri də etiraf edirdilər. Gen. Tormasov Şəki hakimi Cəfərqulu xana 18 avqust 1810-cu il tarixli məktubunda yazırdı ki, «Şeyxəli xanın Quba sərhədlərində görünməsi bütün xalqı ayağa qaldırıb. Gen. Tormasovun polkovnik-leytenant Tixonovskiyə göndərdiyi 170 saylı əmrində deyilirdi: «Bakı komendantı Repindən xoşagəlməz xəbər almışam. Quba şəhərindən başqa bütün Quba əyaləti Şeyxəli xana qoşulub. Sevastopol alayının iki taboru ilə müdafiə olunan Quba şəhərinin Dərbənd və Bakı ilə bütün əlaqələri kəsilmişdir» (AKAK, IV c., səh. 661).

Yaxın vaxtlara kimi Şeyxəli xanla kəskin düşmənçilik münasibətləirndə olan Şamaxılı Mustafa xanın Quba üsyanı zamanı tutduğu mövqe diqqəti çəkir. Rus komandanlığının Mustafa xandan öz süvarilərini Quba üsyanına qarşı mübarizə üçün göndərməsi tələbini Şamaxı xanı müxtəlif bəhanələr gətirərək yerinə yetirməmişdi. Hətta rus komandanlığı Mustafa xanın Şeyxəli xanı üsyana təhrik etməsindən şübhələnirdi. Polkovnik-leytenant Tixonovski gen. Tormasova 9 avqust 1810-cu il tarixli 72 saylı raportunda yazırdı ki, o Mustafa xanın yanında olarkən sonuncu Şeyxəli xandan məktub alıbmış və məktubu Tixonovskiyə göstərməkdən imtina edibmiş. Tixonoski ayrılarından öyrənibmiş ki, gizli surətdə Quba əyalətinin Bərmək mahalına gəlib Qubalı Məhəmməd bəyin evində yaşayan Baloğlan bəy Mustafa xan tərəfindən göndərilibmiş (AKAK, IV c., sən. 785).

Mustafa xanın tələsik öz mövqelərini möhkəmləndirməyə başlaması da təsadüfi deyildi. Tixonovski 1810-cu il avqustun 18-də baş komandan gen. Tormasova 82 saylı raportunda yazırdı: «Şirvanlı Mustafa xan bu günlərdə Fit dağını möhkəmləndirməyə başlayıb. O, Fitdağın ətrafında eni 3 arşın, hündürlüyü 6 arşın olan daş sədd çəkir. Səddi qüllə və qəsrlərlə möhkəmləndirmək fikri var. Tikintidə 3000-dən çox adam işləyir» (AKAK, IV c., sən. 791).

Rus komandanlığı Mustafa xanın Şeyxəli xanla gizli əlaqələrindən xəbərdar olsa da Şamaxıda da yeni üsyana yol verməsin deyə Mustafa xanla münasibətləri kəskinləşdirməkdən çəkinirdi. Mustafa xan da uzun tərəddüddən sonra yenidən ruslara yardım göstərməyə başladı.

General Tormasov özü şəxsən Quba üsyanını yatırtmaq əməliyyatlarına rəhbərlik edirdi. O, Mustafa xana 12 sentyabr 1810-cu il tarixli məktubunda yazırdı: «İrana və Türkiyəyə qarşı hərbi əməliyyatları başa çatdırıb rus ordusunun böyük bir qismini Qubaya yönəltmişəm. Şeyxəli xanın qiyamını darmadağın edəcəyəm. Qubalıları lazımınca cəzalandıracağam» (AKAK, IV c., sən. 1019). Tormasov gen Nobelsinə Şəkiyə

bir bölük əsgər göndərmək barədə göstəriş vermişdi. Bu bölük Şəkidə Cəfərqulu xanın topladığı min nəfər Şəki süvarisi ilə birləşib Xınalıq dağlarında Şeyxəli xanın cəbhə arxasına zərbələr endirməli idi. Qarabağdan yeger (atıcı) alayının 2 bölüyü toplarla birgə Şamaxıya göndərilmişdi. Həmin bölüklər Mustafa xanın başçılığı ilə Quba üzərinə hücuma keçməli idi. Mustafa xan yolda Bakıdan gələn rotanı da qəbul edib, mayor Ryabinin batalyonu ilə birləşərək Quba üzərinə qəti hücum təşkil etməli idi (AKAK, IV c., sən. 1019).

Qeyd edək ki, Cahangir xan Şaqqaqi də Cəfərqulu xanın yanında olmalı idi. Şeyxəli xanı qətlə yetirmək şəxsən ona tapşırılmışdı. Rus komandanlığı Cahangir xanı Quba xanı təyin etmək niyyətində idi.

Tormasov Şeyxəli xana və Quba üsyançılarına qarşı amansız olmağı tələb edirdi: «Çalışın Şeyxəli xanı diri tutun, əgər mümkün olmasa onun quldur dəstəsini Quba əyalətindən qovub çıxarın. Şeyxəli xanla qurtarıb qiyamçıları müharibə dövrünün qanunları ilə cəzalandırın. Aman diləyənlərə silah qaldırmayın, müqavimət göstərənləri qırın. Qubalıları nə vaxtsa Şeyxəlinin onların xanı olacağı haqqındakı xülyalardan, təsəvvürlərdən məhrum edin» (AKAK, IV c., sən. 1017).

General Tormasov əvvəlcə Quba üsyançılarına qarşı göndərilən qüvvələrə ümumi rəhbərliyi gen. mayor Repinə tapşırdı. Sentyabrın ortalarında rus qoşunlarının bölüyü 2 topla, həmçinin Şəki və Şamaxı süvariləri iki istiqamətdən Quba üzərinə hücuma keçdilər. Lakin qubalılar daha da birləşdilər. Quba bəyləri demək olar ki, bütünlüklə Şeyxəli xanın tərəfinə keçdilər (AKAK, IV c., sən. 1018). Beşbarmaq dağı yaxınlığında rus dəstələri üsyançıların ciddi həmlələrinə rast gəldilər (AKAK, IV c., sən. 1019, c., 660-661).

Rus hərbi dəstələri ilə Quba üsyançıları arasında ilk toqquşma haqqında polkovnik-leytenant Tixonovski gen. Tormasova 20 sentyabr 1810-cu il tarixli məktubunda yazırdı: «Quba əyalətində Doğumlu adlanan karvansaradakı düşərgədən Bərmək mahalından yazıb Sizə bildirirəm ki, sentyabrın

15-də 17-ci yeger alayının 2 bölüyü Şirvana gəlib, o tarixdə də Quba əyalətinə daxil olmuşdur. Onlar sentyabrın 18-də Sevastopol muşketyor alayının bölükləri ilə birləşmişlər (AKAK, IV c., sən, 1023, səh. 665).

Rusların xidmətində olan Cəfərqulu xanın Şəki süvarilərinin və əlavə qüvvələrin Xınalıq mahalından keçməklə arxadan Şeyxəli xana zərbə endirmək cəhdi baş tutmadı. Cahangir xan Şaqqaqi Xınalıq dağlarına güclü qar düşdüyündən oradan Qubaya tərəf hərəkətini davam etdirə bilməmişdi (AKAK, IV c., sən, 1023, səh. 665). Rus qoşunları ilə Şeyxəli xanın qüvvələri arasında ilk toqquşma sentyabrın 20-də Beşbarmaq dağından 200 üsyançının rus əsgərlərinə atəş açması ilə başladı. Yarım saat davam edən atışmada hər iki tərəfdən itkilər olmuşdu. Sentyabr ayının 23-də isə Şeyxəli xanın min nəfərə qədərlik qüvvəsi rus hərbi dəstələrinə iki dəfə ağır zərbə endirmiş və yalnız topçuların müdaxiləsindən sonra üsyançılar geri çəkilməli olmuşdular.

Quba üsyanı çar komandanlığını güzəştli yol tutmağa məcbur etdi. Komandanlıq üsyanın daha da genişləndirilməsindən qorxur, buna görə «Şeyxəli xanı Qubanın xanı kimi tanıyaraq, Qubanı ətraf kəndlərlə birlikdə xanın hakimiyyətinə verməyi və traktat ilə Qarabağ, Şəki və Şirvanda olduğu kimi, onu Rusiya təbəəliyinə keçirməyi» təklif edirdi. Ancaq çar hökuməti bu təklifə razılıq vermədi. Çar komandanlığı üsyanı yatırmaq üçün Gəncədən bir bölük, Qarabağdan iki bölük, Bakıdan bir bölük rus piyadası, Şəkidən 1000 və Şamaxıdan 100 atlıdan ibarət qoşun göndərdi. Baş komandan Quba üzərinə yürüşü polkovnik Lisaneviçə tapşırdı. O, belə işlər üzrə artıq sınanmış bir «mütəxəssis» kimi ad çıxarmışdı.

Lisaneviç 21 oktyabr 1810-cu il tarixli raportunda yazırdı ki, Qrız və Yuxarıbaş mahalları üsyançılardan təmizlənib, əyalətdə sakitlik bərpa olunub, Şeyxəli xan isə öz tərəfdarları ilə Tabasarana qaçmış, hal-hazırda Yerfi kəndindədir (AKAK, IV c., sən. 1075).

Qeyd edək ki, üsyançılar sayca çox olmalarına baxmayaraq silahlanma cəhətdən rus qoşunlarından geridə qalırdılar. Açıq sahədə rus topları qarşısında aciz qalaraq onlar meşə və dağlarda döyüşməyə üstünlük verirdilər.

Oktyabr ayının 25-də Lisaneviçin başçılığı ilə rus hərbi hissələri Yerfi kəndinə soxuldular. Burada qanlı döyüş baş verdi. Rus mənbələri üsyançıların 100 nəfər itki verdiyini yazır, lakin rus hərbiçilərinin itkiləri barədə susurlar (AKAK, IV c., sən, 1028, səh. 669). Lisaneviç 6 gün Yerfi kəndində qalmış, kənd rus əsgərləri tərəfindən qarət olunmuşdu. Bundan sonra Lisaneviç Qubaya qayıtmışdı. Üsyanda iştirak edən bütün bəylər həbs edilmişdi. Gen. Tormasov başqalarına da görk olsun deyə günahkar sayılanların üzərində məhkəmə qurub hamısını Sibirə sürgün etməyi, mülklərini isə ruslara xidmət göstərənlərə verməyi əmr etmişdi (AKAK, IV c., sən. 670). Qubada Tixonovskinin başçılığı ilə 3 bəydən ibarət divan təşkil olundu (Бакиханов, 158).

1810-cu il Quba üsyanı məğlubiyyətə uğrasa da Şeyxəli xan rus işğalçılarına qarşı mübarizəni dayandırmadı. Gen. Repin 1811-ci il oktyabrın 16-da markiz Pauliçiyə Şeyxəli xanın öz ətrafına 6.000 nəfər topladığını və yenidən Qubaya hücum etmək istədiyini yazmışdı (Бакиханов, 158; AKAK, c. IV, sən. 163).

1810-cu il Quba üsyanı əyaləti idarə edən Şura üzvlərinin və Mirzə Məhəmməd xanın fəaliyyətini zəiflətdi. Lakin, Quba üsyanı yatırıldıqdan sonra Dördlər Şurası yenidən öz fəaliyyətini bərpa etdi. Bu dəfə Şuranın sədri komendant Ryabinin özü oldu (Сумбатзаде, 9).

Üsyanın məğlubiyyətindən sonra mərhum Tabasaran qazisi Rüstəmin (Şeyxəli xanın qudası – T.M) qardaşı, rus ordusunun polkovniki Qazi Məhəmməd də Şeyxəli xana qarşı çıxdı. Şeyxəli xan Quba və Dərbənd döyüşçülərindən əlavə 3000 nəfər xeyli dağıstanlı Akuşa döyüşçünu də cəlb edərək Xoçni kəndində istehkam qurub onu gözləyən Qazi Məhəmmədin üzərinə hücuma keçdi və istehkamı ələ keçirdi (Баки-

ханов, 193). Qazi Məhəmməd dağlara çəkildi və Tabasaran qaziliyi Şeyxəlinin kürəkəni olan Qazi Məhəmmədin qardaşı oğlu Abdulla bəyə verildi. Ancaq bundan iki ay sonra Qazi Məhəmməd yenidən həmlə edib Abdulla bəyi Tabasarandan çıxardı (Бакиханов, 195).

**1811-ci ildə partizan müharibəsi.**

Şeyxəli xan Akuşa qazisi Əbubəkrin köməyi, həmçinin İrandan ona göndərilən pulların hesabına Akuşa, Mehdili, Tabasaran və Qazıqumuqdan topladığı 8 minlik qoşunla Quba üzərinə hücuma keçdi. Bu yürüşdə Qazıqumuqlu II Surxay xanın oğlu – Quba xanının keçmiş müttəfiqi Nuh bəy də iştirak edirdi. Samur çayı kənarında yerləşən Məhərrəmkəndin sakinləri öz atlılarını Tabasarana yollayaraq onların üzərinə gəlməkdə olan rus qoşununa qarşı döyüşmək üçün Cibir kəndində qərar tutdular.

Döyüş ərəfəsində rusların yanında olan bəzi Quba bəyləri rus qoşunlarını Şeyxəli xanın qoşunlarının «tələsinə» salmaq üçün plan hazırlamışdılar. Lakin, rus qoşununun komandiri gen. Quryev bu niyyəti anladı və ruslar kəndə qubalıların məsləhət bildiyi və yaxşı yolu olan qərb səmtindən deyil, müdafiə üçün daha əlverişli şərq səmtindən Şeyxəli xanın qoşununa yaxınlaşdılar. Ancaq rus qoşunu kəndi ala bilmədi və Quryev Zeyxur kəndinə doğru geri çəkildi.

Quba şəhəri və Zeyxur kəndi istisna olmaqla Quba əyaləti yenidən Şeyxəli xanın nəzarəti altına keçdi. Yerli əhali yenidən ruslara qarşı mübarizəyə qalxdı. Bu dəfə Şeyxəli xan Rustov kəndini özünə müvəqqəti iqamətgah seçdi (Бакиханов, 193).1811-ci il noyabr ayının 6-da gen. Quryevin 1348 əsgər, bir neçə kazak və yerli atlılardan ibarət qoşunları Zeyxur kəndi yaxınlığında mühasirəyə düşdü və Şeyxəli xanın qüvvələri tərəfindən darmadağın edildi. Rus hərbçilərinin etirafına görə onların itkiləri 317 nəfərə çatmışdı (Bakixanov, 195; AKAK, c. V, sən. 237).

Rus general və zabitləri bərk qorxuya düşüb Şeyxəli xanla mübarizə üçün böyük qüvvələr səfərbər etdilər. Gen. Xatunsev yeni qüvvələrlə Rustov kəndinə hücuma keçdi. 1811-ci il noyabr ayının 22-də Rustov kəndi yaxınlığında baş verən döyüşdə Şeyxəli xan məğlubiyyətə uğradı. Mənbələrin məlumatına görə üsyançılar döyüş meydanında 100-dən çox meyid qoyub getmişdilər. Ümumiyyətlə isə üsyançılardan 600 nəfərə qədər ölən, iki dəfə ondan çox yaralanan olduğu qeyd edilir. Rus hərbçilərinin yazdığına görə, ruslar 92 nəfər ölən və 24 nəfər yaralı itirmişdilər (AKAK, V c., sən. 234). Həmin döyüşdə dağıstanlılar da böyük itki verdilər və Akuşa qazisi Əbubəkr həlak oldu (AKAK, V c., sən. 234, s. 165).

Bu mühüm qələbədən sonra general Xatunsev Dağıstanın Kürə dairəsini də işğal etdi. Şeyxəli xan öz ailəsini Cumcuqat kəndində qoyaraq, əvvəlcə Qazıqumuq xanlığının Sumbat kəndinə, sonra isə mərhum Əbubəkrin oğlu Bahanın köməyi ilə Akuşaya getdi (Бакиханов, 193).

Bu dövrdə Rusiya-İran və Rusiya-Osmanlı müharibələri davam edir, ruslar ona qarşı olan tərəflərə üstün gəlməyə başlayırdılar. 1810-1812-ci illərdə Rusiya-Osmanlı dövləti ilə müharibədə qələbə çaldı. 1812-ci ilin may ayının 16-da Buxarest sülh müqaviləsi imzalandı və Osmanlı dövlətinin sərhədləri əsasən dəyişməz qaldı. Bunula yanaşı, Osmanlı Cənubi Qafqaz torpaqlarının çoxunun Rusiyaya qatılmasını tanımalı oldu. 1813-cü il oktyabr ayının 11-də Rusiya ilə İran arasında bağlanmış sülh müqaviləsinə görə Azərbaycanın bütün şimal xanlıqları (İrəvan və Naxçıvan istisna olmaqla), o cümlədən Quba xanlığı Rusiya tərəfindən ilhaq edildi.

Ancaq Rusiya Şimali Azərbaycanın işğalını rəsmiləşdirsə də, Şeyxəli xan ruhdan düşmür, mübarizəni davam etdirirdi. Dağıstanda böyük nüfuza malik olan Şeyxəli xan çoxlu tərəfdarları ilə rusların Quba və Dərbənddə möhkəmlənməsinə, Dağıstana doğru irəliləməsinə imkan vermirdi. Qafqazdakı rus qoşunlarının komandanı gen. Yermolov belə 1819-cu ilin fevralında yazdığı raportda bildirirdi ki, Şeyxəli xanın fəaliy-

yəti nəticəsində Qafqaz xəttinin Dərbəndlə əlaqəsi kəsilmiş və bu bölgədə ticarət karvanlarının fəaliyyəti dayanmışdır (Козубский, 156).

1819-cu ilin yayında gen. Pestelin başçılıq etdiyi rus qoşunları və onlara kömək edən bəzi yerli qüvvələr Şeyxəli xanın yaşadığı Akuşaya doğru hərəkət etdilər. Rus qoşunları Başlı kəndinə soxularaq buradakı 2000 evin demək olar ki, hamısını yandırdılar. Şeyxəli xan 20 minlik qüvvə ilə rusların qarşısına çıxdı və qələbə qazandı. Ruslar 418 əsgər və zabit itirərək və Dərbəndə çəkildilər (Umudov, 128).

Lakin Başlı yanındakı qələbə Şeyxəli xanın sonuncu qələbəsi oldu. 1819-cu ilin avqsut ayında rus qoşunları yeni yürüşə başladılar. Bu yürüşə generallar Mədətov və Pestel başçılıq edirdilər. Müxtəlif istiqamətlərdən hücum edən düşmənin qarşısını ala bilməyən Şeyxəli xan və müttəfiqləri dağlara çəkilməli oldular. Akuşa, Tabasaran və Dağıstanın başqa yerlərini işğal edildi (Козубский, 158). Şeyxəli xanla əlaqə saxlamaqla şübhəli bilinən 8 nəfər Dərbənd bəyi, o cümlədən Kazım bəyin atası Molla Hacı Kazım bəy Həştarxana sürğün edildi (Козубский, 159-160).

Məğlubiyyətdən sonra Şeyxəli xan dağlara. Şeyxəli xanın bundan sonrakı taleyi haqqında mənbələrdə məlumat demək olar ki, yoxdur. Mənbədə onun 1821-ci ildə vəfat etdiyi güman olunur və Balakəndə dəfn edildiyi qeyd edilir. (AKAK, VI c., 5907).Digər məlumata görə 1822-ci il mayın 25 (iyunun 6) vəfat etmişdir. (Umudov, 129-130).

A. Bakıxanov Şeyxəli xana yüksək qiymət verərək yazırdı ki, Şeyxəli xan özünün laqeydliyinə və başqa zəif cəhətlərinə baxmayaraq bir sıra parlaq keyfiyyətlərə malik idi, onun cəsurluğu, səxavətliliyi və alicənablığı xalq arasında məşhur idi (Бакиханов, 194, 203). Şeyxəli xan xanlığın müstəqilliyini qorumaq uğrunda qüdrətli Rusiya imperiyası ilə uzun müddət qeyri-bərabər, qəhrəmancasına mübarizə aparmışdır.

**Xanlıq dövründə mədəniyyət.**

Xanlıq dövründə bütövlükdə Azərbaycanda olduğu kimi Quba xanlığında da feodal-ara müharibələri və yadelli hücumların təsiri nəticəsində maarif, elm və mədəniyyət ümumən tənəzzül vəziyyətində idi. Bununla belə bu dövrdə həmin sahələrdə müəyyən uğurlar da əldə edilmişdi. Çox təəssüf ki, Quba xanlığında mədəniyyətin vəziyyəti haqqında məlumatlar günümüzə çox az gəlib çatmışdır. Bu məlumatlardan görünür ki, o dövrün tanınmış alimlərindən biri də Əlicli Hacı Məhəmməd Çələbi olmuşdur. O, müxtəlif elmləri, xüsusən də şəriət qanunçuluğunu gözəl bilirdi. A. Bakıxanovun yazdığına görə Hacı Məhəmməd Çələbidən «Tadvin əl - Əlici» adlı əsər qalmışdı ki, bu əsər ilahiyyatçılar üçün bir vəsaitə çevrilmişdi. Yeddi dəfə Məkkəni ziyarət etmişdi. Mütəfəkkirin xalq arasında hörməti o qədər böyük imiş ki, 1808-ci ildə Şeyxəli xanla şamaxılı Mustafa xan arasında döyüş getdiyi anda Hacı Məhəmməd Çələbinin cənazəsi şəhər qəbiristanlığına gətirildikdə hər iki tərəf silahlarını yerə qoyub alimin xatirəsini yad etmişdilər (Бакиханов, 203).

Xanlıq dövrü mədəniyyətinin gözəl nümunələrindən biri Hüseynəli xan tərəfindən inşa edilmiş və və sələfləri tərəfindən bərpa edilib dekorativ bəzək verilmiş Qubadakı xan sarayı idi. Bişmiş kərpicdən inşa olunmuş bu saray çox gözəl idi, tavanı gül şəkilləri ilə bəzədilmişdi. Divarlarının zəngin kirəc dekorasiyasə və təsvirləri ilə fərqlənirdi (Абдуллаев (1965), 189).

Quba xanlığının mövcudiyyəti dövründə yaradılmış mədəniyyət abidələrindən danışarkən Fətəli xanın arvadı Tuti Bikə üçün Dərbənddə inşa olunmuş türbəsini də qeyd etmək lazımdır. Ümumi hündürlüyü 4,5 m olan 8 guşəli mərkəzi zal və ona bitişik 4 kiçik otaqdan ibarət türbənin interyeri tağlı tavanla örtülüb. Türbə 1787 – 1788-ci illərdə inşa olunmuşdur (История Дагестана, с. 1, 403-404; Mustafayev, 198).

# NƏTİCƏ

Beləliklə də, müxtəlif səpkili çoxsaylı tarixi qaynaqların araşdırılması aşağıdakı qısa nəcicələrə gəlməyə imkan verir:

Quba xanlığı bir inzibati vahid kimi hələ XVII əsrin son rübündə meydana çıxmışdır. Xanlığın mövcudluğunun ilk dövründə onun hakimləri Səfəvi şahları tərəfindən təsdiq edilsələr də xanların hakimiyyəti irsi səciyyə daşıyırdı və onlar daxili idarəçilikdə xeyli dərəcədə müstəqil idilər. Xanlığın ərazisindən xəzinənin xeyrinə heç bir vergi toplanmır və xanların mərkəzi hakimiyyət qarşısında yeganə borcu zərurət tələb etdikdə öz hərbi dəstəsi ilə Şirvan bəylərbəyinin sərəncamına daxil olmaqdan ibarət idi.

Yarandığı vaxtdan xanlığın igamətgahı Quba şəhəri olsa da, XVIII əsrin 20-ci illərində bu şəhər Quba xanlarının düşməni – Şirvan üsyançılarının başçısı Hacı Davudun hakimiyyəti altına keçdiyindən Quba xanları öz igamətgahlarını Xudat şəhərinə köçürmüşlər. Lakin Xudatın mövqeyi müdafiə üçün əlverişsiz idi və buna görə də 1735-ci ildən sonra xanlığın mərkəzi yenidən Qubaya köçürülür.

XVIII əsrin 30-40-cı illərində Nadir şah Əfşarın Azərbaycanın şimalına viranedici yürüşləri zamanı o vaxt Quba hakimi olan Hüseynəli xanın ağıllı siyasəti nəticəsində xanlıq ərazisi az zərər çəkmişdi. Üstəlik o, Salyanın yenidən Quba xanlarının idarəçiliyinə verilməsinə nail olmuşdu.

1747-ci ildə Nadir şah saray əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən sonra Azərbaycan xalqının azadlıq mübarizəsi uğurla nəticələndi və ölkə yenidən müstəqilləşdi. Ancaq ayrı-ayrı bölgələr arasında iqtisadi əlaqələrin zəifliyi və iri irsi torpaq sahiblərinin mərkəzdənqaçma meylləri vahid Azərbaycan dövlətinin yaradılmasına imkan vermədi; 20 irilixırdalı dövlət qurumu-xanlıq meydana çıxdı.

Qubalı Hüseynəli xan da məqamdan istifadə edib tamamilə müstəqilləşdi. Quba xanlığı şimalda Dərbənd, cənubda

Bakı, cənub-qərbdə Şamaxı xanlığı ilə həmsərhəd idi. Xanlığın ərazisi o qədər də böyük olmasa yaşayış və təsərrüfat fəaliyyəti üçün əlverişli idi. Dağların və keçilməz meşələrin, müdafiə tikililərinin çoxluğu əhalinin həyatı üçün yaxşı şərait yaradırdı. Buna görə də Quba xanlığı günü-gündən güclənirdi və Azərbaycanın siyasi həyatında mühüm rol oynamağa başladı.

Hüseynəli xandan sonra hakimiyyətə gələn oğlu Fətəli xan zəmanəsinin görkəmli dövlət xadimi, bacarıqlı sərkərdəsi və mahir diplomatı olmuşdur. O, Quba xanlığının iqtisadi və hərbi qüdrətini artırmış və dağınıq Azərbaycan torpaqlarını birləşdirmək uğrunda gərgin və çətin mübarizə aparmışdır.

Ən əvvəl xanlıqlar yaranarkən müvəqqəti müstəqilləşmiş Salyan, daha sonra Dərbənd Quba xanlığına birləşdirildi. Nikah diplomatiyası yolu ilə Bakı xanlığı da tabe edildi. Cavad xanlığı Quba xanlığına könüllü tabe oldu. Şamaxı xanlığı uğrunda mübarizə uzun və qanlı keçdi. Lakin Fətəli xan Şamaxı xanlığının ərazisini Quba xanlığına qatmağa nail oldu.

Fətəli xanın birləşdirmə siyasətinin uğurları digər xanların və qonşu dövlətlərin bərk narahatlığına səbəb oldu. Onun əleyhinə güclü ittifaq yarandı. 1774-cü ildə Xudat yaxınlığında Fətəli xanla Qaraqaytaq usmisi Əmir Həmzənin başçılıq etdiyi düşmənləri arasında həlledici döyüş baş verdi. Fətəli xan məğlubiyyətə uğradı. Onun böhranlı anında Rusiya Dərbəndi xilas etməyə kömək göstərdi. Lakin Rusiya heç də Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirməsini istəmirdi və buna mane olurdu. Çünki, Rusiya özü Azərbaycanı zəbt etmək niyyətində idi.

Gavduşan məğlubiyyətindən bir müddət sonra Fətəli xan qüvvələrini bərpa etdi və yenidən birləşdirmə siyasətini davam etdirdi. Lənkəran xanlığı və müəyyən müddətə Şəki xanlığı Quba təsirinə tabe oldu. Fətəli xan Cənubi Azərbaycana uğurlu yürüş etdi, lakin Rusiyanın hədələri onu geri qayıtmağa məcbur etdi.

Otuz ilə kimi Quba xanlığını idarə edən Fətəli xan yorulmadan Azərbaycan torpaqlarını siyasi cəhətdən birləşdirməyə çalışmışdır. Lakin hələ birləşdirmə siyasətinin müvəffəqiyyətini təmin edə biləcək qüvvələr yox idi. XVIII əsrdə Azərbaycanın ticarəti tənəzzül etmişdi. Daimi mübarizə və müharibələr ticarətin inkişafına imkan vermirdi.

Kəndlilər üçün Fətəli xan öz sələflərindən artıq heç nə edə bilmədi. Demək olar fasiləsiz müharibələr gedirdi, ölkənin gah bu, gah da digər hissəsi var yoxdan çıxırdı. Fətəli xanın saxlamalı olduğu muzdlu qoşunların xərcinin ağırlığı xeyli dərəcədə kəndlilərin üzərinə düşürdü. Vergilər kəndlilərin, habelə sənətkarların və tacirlərin vəziyyətini ağırlaşdırır, onlarda narazılıq doğururdu.

Fətəli xanın nailiyyətləri iqtisadi zəminə malik deyildi, onun şəxsi istedadının, uğurlarının, gərgin fəaliyyətinin nəticəsi idi. Aydın idi ki, böhranlı xarici siyasi vəziyyət yarandığı, yaxud Fətəli xana bərabər xələfi olmadığı təqdirdə onun qurduğu dövlət dağılmalı idi və belə də oldu. Fətəli xanın cəmi 2 il hakmiyyətdə olmuş gənc oğlu Əhməd (1789-1791) nəinki yeni torpaqlar ələ keçirə bilmədi, hətta atasının fəth etdiyi və ya diplomatik yolla asılı hala saldığı bir çox əraziləri də itirdi. Şəki, Şamaxı, Lənkəran Cavad və Bakı xanlıqları Quba xanlarının asılılığından çıxdılar.

Quba taxtında Əhməd xanı əvəz etmiş daha gənc Şeyxəli xan mərd və cəsur bir şəxs idi, ancaq atasının diplomatik qabiliyyəti onda yox idi. Buna görə də çox vaxt qonşuları ilə münaqişədə idi. Şeyxəli xanın ən böyük tarixi xidməti rus işğalçılarına ciddi müqavimət göstərməsi olmuşdur. O, hətta xanlıq ləğv edildikdən (1809) sonra da uzun müddət yadelli işğalçılara qarşı partizan müharibəsi aparmışdır. Bu cür uzunmüddətli mübarizə yalnız xanlıq əhalisi rus işğalı ilə barışmaq istəmədiyinə görə mümkün olmuşdur. Təsadufi deyildir ki, bir müddət sonra XIX əsrin 30-cu illərində Azərbaycanda çarizmə qarşı ən böyük və mütəşəkkil üsyan məhz Quba əyalətində baş vermişdi.

Quba xanlığı Azərbaycan xanlıqları içərisində çox mühüm yer tutmuş və bütövlükdə dövlətçiliyimizin yaşadaraq davam etdirilməsində özünəməxsus yeri olmuş, tariximizdə dərin iz buraxmışdır.

## İstifadə olunmuş mənbələr və ədəbiyyat

***Azərbaycan dilində***

1. Azərbaycan Dövlət Tarix Arxivi (ARDTA).
2. Azərbaycan etnoqrafiyası (3 cilddə). I cild. Ə.S.Sumbatzadə, İ.H.Əliyev və başqalarının redaktəsi ilə Bakı –1988.
3. Azərbaycan tarixi (3 cilddə). 1 c. (Ən qədim zamanlardan XVIII əsrin sonlarınadək) (İ.A.Hüseynov, Ə.S.Sumbatzadə və başqalarının redaktəsi ilə) B.,1961.
4. Azərbaycan tarixi. (Ən qədim zamanlardan XX əsrədək) Z.Bunyadovun və Y.Yusifovun redaktəsi ilə Bakı, 1994.
5. Azərbaycan tarixi. (Uzaq keçmişdən 1870-ci illərə qədər.) Suleyman Əliyarlının redaksiyası ilə Bakı, 1996
6. Azərbaycan tarixi. (Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər.) İ.Əliyevin redaksiyası ilə. Bakı, 1993.
7. Buduqlu – Piriyev V.Z.Buduqlular, B.1994.
8. Cavadov Q.C. XIX əsr və XX əsrin əvəllərində Azərbaycanın əkinçilik alətləri. Bakı – 1979.
9. Əlizadə A.İ. XIX əsrin I yarısında Şimali Azərbaycanda sənətkarlıq. Tar.e.n. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı-1995.
10. Əliyev H. XIX-XX əsrin əvvələrində Azərbaycanda bağçılıq (Quba-Xaçmaz zonasının materialları əsasında). T.e.n. dissertasiyası. Bakı, 1993.
11. Əliyev F. XVIII əsrin ikinçi yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, 1960
12. Əhməd bəy Cavanşir. Qarabağ Xanlığının tarixi (1747-ci ildən 1805-ci ilə qədər). Bakı-1961.
13. Fərzəlibəyli Ş.F. Quba tarixi. Bakı-2001.
14. Gül Q. Azərbaycanın fiziki çoğrafiyası.
15. Hacıyev M.İ. Azərbaycan tatlarının dili. Bakı, 1995.
16. Hüseynli R. Azərbaycan ruhaniliyi XVIII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında. Tar.e.n. dissertasiyasının avtoreferatı. B.-1996.
17. Xəlilov M.C. Quba şəhərinin meydana gəlməsi probleminə dair. /Respublika arxeoloq və etnoqraflarının I Elmi konfransının materialları. Bakı-1992, s. 28-30.
18. Xəlilov M.C. Sandıqtəpə qəbir abidəsində tədqiqatlar. /Görkəmli Azərbaycan arxeoloqu Saleh Mustafa oğlu Qazıyevin

anadan olmasının 100 illiyinə həsr edilmiş Elmi Sessiyanın materialları. Bakı, 1994, s. 45-47.
19. İbişov S.Ə. Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı-2004.
20. İsgəndər bəy Hacinski. Qubalı Fətəli xan. (Tərcüməçi F.Babayev). Bakı, 1959.
21. Kərim Ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi. (Şəki xanlığının tarixindən.) Bakı-1958.
22. Mahmud Kaşqari. Divani lüget et-türk. II c., Ankara, 1941.
23. Məşədixanım Nemət, Vəfa Quliyeva. Azərbaycanın islam dövlətləri ilə sosial-ideoloji siyasi əlaqələri. /Azərbaycan beynəlxalq çoxcəhətli qarşılıqlı əlaqələrdə. II Bakı Beynəlxalq Simpoziumunun məruzələri B., Elm, 1997, s. 164.
24. Mirzə Adıgözəlbəy. Qarabağnamə / Qarabağnamələr, Bakı-1989. (çapa hazırlayan A.Fərzəliyev, I c., s. 6-102)
25. Mirzə Camal Qarabaği. Qarabağ tarixi. Bakı, 1959.
26. Mustafayev C. XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının Rusiya ilə diplomatik əlaqələri./ Azərbaycan Beynəlxalq çoxcəhətli qarşılıqlı əlaqələrdə, 2-ci Bakı Beynəlxalq Simpoziumunun məruzələri. Bakı-Elm-1997.
27. Quliyeva N.H. Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti. Tar.e.n. dissertasiyası. Bakı-1996.
28. Orucov A.Ş., Xəlilov M.C. Sandıqtəpə ilk orta əsrlərdə. Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı-1994, s. 55-58.
30. Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829-cu illər). Bakı, 1991.
31. Talıbzadə İ.A. XIX əsrin və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. B., 1980.
32. Umudov V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəiləkiçilik əleyhinə mübarizə (1801-1826). Tar.e.n. dissertasiyası. Bakı-1995.

33. Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения его с Россией. Баку, 1965.
